ABDULLA NƏSRİ

# QURANDA DÜNYAŞÜNASLIĞIN ƏSASLARI

*Azərbaycan dilinə çevirən:*
*NƏSİB GÖYÜŞOV*

BAKI – 2003

**A b d u l l a   N ə s r i,   «Quranda Dunyaşünaslığın əsasları». Bakı, «Qələm» - 2003, 238 səh.**

Tərcümə edən: Nəsib Göyüşov

Redaktor: Mais Ağaverdiyev

*Kitabda «Dünyanın yaranışı, gözəllikləri», «Varlıq aləminin ümumi xüsusiyyətləri», «Allahın varlıq aləmi ilə əlaqəsi», «Varlıq aləminin mərtəbələri», «Varlıq aləmindəki özəl məxluqlar», «Ruh aləmi», «Mələklər», «Cin və şeytan» və s. mövzularda geniş və maraqlı materiallar verilmişdir.*

**DK-282/d**

**© «Qələm», 2003**

# ÖN SÖZ

*Adınla başladım, uca Yaradan!*
*Varlıq öz adını Səndən tapıbdır.*
*Fələk hərəkəti, Yer sükunəti*
*Aləm öz dadını Səndən tapıbdır.*
*Fələyi ulduzla bəzəyən Sənsən,*
*Ağıla hikməti öyrədən Sənsən!*
*Sənsən düşüncəyə cövhər bəxş edən,*
*Qaranlıq gecəni gündüz eyləyən.*
*Ərşin-fərşin yenməz dayağı Sənsən,*
*Bütün varlıqların qaynağı Sənsən.*
*Vücudun hər bir mövcud üçün qahir,*
*Nişanın hər bəsirət üçün zahir.*

Bu əsərin müəllifi Quran mövzuları barədə bir neçə cildlik toplu hazırlamaq niyyətindədir. İslam etiqad və düşüncəsini Quran baxımından açıqlayan bu toplu silsiləsi "Quranın siması" adı ilə təqdim edilir və həmin silsilədən artıq iki kitab nəşr edilmişdir: "Quran baxımından insanşünaslığın əsasları" və "Quranda peyğəmbərlik missiyasının əsasları".

Elm və fəzilət sahiblərinə təqdim edilən yeni kitabda isə kainat düzəni və kosmoloci dünyagörüşün fundamental problemlərinin Quran baxımından açıqlaması verilir. Kitabda Qurani-kərimin varlıq aləmini necə təfsir və şərh etməsi araşdırılır. Burada bir sualın əhatəli açıqlaması qarşıya qoyulur:

Qurani-kərim kainat düzəni barədə bütöv, əhatəli və qanunauyğun baxışlar sisteminə malikdir, yoxsa yox?

Qeyd edək ki, bu araşdırmada varlıq aləmi barədə fəlsəfədə bəhs edilən eksisentalizm məsələsinə toxunmamışıq. Eyni zamanda mahiyyət, substansiya və aksidensiya kimi fəlsəfi kateqoriyalara Quranın necə yanaşması barədə də söhbət açmırıq, çünki Qurani-məcid öz qarşısına bu sayaq sırf fəlsəfi məsələlərin məhdud xırdalıqlarını hər hansı bir cərəyanın dar maraqları çərçivəsində şərh etməyi qoymayıb. Quran kainat düzəni haqqında ən önəmli fundamental problemlərin geniş mənada ümumi qoyuluşunu irəli sürür ki, buraya varlıq dünyasının hədəf və məqsədi, Allahın varlıq dünyası ilə əlaqəsi, dünyanın yaranış xüsusiyyətləri (kosmoqoniya), kainatın nizam və düzəni (kosmologiya), varlıq aləminin ümumi xüsusiyyətləri kimi geniş məzmunlu məsələlər daxildir. Bu sayaq məsələləri araşdırarkən Quran ayələrinin şərhini ayələrin öz köməyi ilə verməyi daha üstün hesab edirik, belə olduqda ilahi ayələrlə bağlı olmayan mətləblərin "yamaq" kimi Qurani-kərimə aid edilməsi ehtimalının qarşısı alınır. Əlbəttə, bu o demək deyildir ki, biz bir sıra islam araşdırıcıları kimi Quran ayələrinin elmi, fəlsəfi və ya irfan baxımından təfsirindən vaz keçirik. İrfan, fəlsəfə və elmi üsullardan faydalanmadan bir sıra ayələrin şərhini vermək mümkünsüzdür. Lakin bu sayaq təhlillərə ehtiyatla yanaşaraq Quran ayələrinin yanlış yozumlarına yol vermək olmaz.

# BİRİNCİ FƏSİL
# DÜNYANIN YARADILIŞI VƏ HƏDƏFİ

## Dünyanın yaradılışı

Qurani-kərim bir çox ayələrdə təbiət aləminin yaradılışından bəhs etmişdir. Bu ayələrdə kainatın necə əmələ gəlməsi və onun sonluğunun nə sayaq bitməsi açıqlanır.

Burada öncə birinci məsələ – yəni kainatın yaranması məsələsi haqqında bəhs edirik. Quran ayələrinə əsasən xilqət aləmi başlanğıcda qazabənzər maddə şəklində olub. Aşağıdakı ayədə də bu anlam duxan – yəni tüstü mənası daşıyan sözlə ifadə olunub.

Fussilət surəsi, 11-ci ayə:

*Sonra Allah tüstü (duman, yerdən qalxan buxar) halında olan Göyə üz tutdu (Göyü yaratmaq qərarına gəldi). O, Göyə və Yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da: "İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!" – deyə cavab verdilər.*

Qurani-kərim təkcə xilqət aləminin başlanğıcını deyil, sonluğunu da qaz şəklində bir maddə halında izah etmişdir.

Duxan surəsi, 10-cu ayədə deyilir:

*(Ya Peyğəmbər!) Sən Göyün aşkar bir dumana bürünəcəyi günü gözlə! (O gün müşriklərə elə bir aclıq üz*

*verəcəkdir ki, gözləri qaranlıq gətirib Yerlə Göyün arasını sanki bir duman bürüdüyünü görəcəklər!)*

İkinci tərəfdən, başlanğıcda Göy və Yer bitişik şəkildə olmuş, sonralar onlar bir-birindən ayrılmışdır. Bu məsələ Quranda birbaşa verilir. Qurani-kərim Göy ilə Yerin bitişik halını "rətq" və onların bir-birindən ayrılma vəziyyətini "fətq" sözü ilə ifadə etmişdir.

Ənbiya surəsi, 30-cu ayədə bu barədə belə deyilir:

*"Məgər kafir olanlar Göylə Yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər! (Göylər ilk yaradılışda Yerlə, həm də bir-birinə bitişik halda bir təbəqə olduğu halda, onlar ayrılmış, Göy yeddi təbəqəyə bölünmüşdür. Bu Allahın qüdrət və əzəmətini sübut edən tutarlı ayə və dəlildir.)"*

Bir çox alimlərin fikrincə indiki dünya öncə yandırıcı buxar kütləsi halında olub və içəridən baş verən partlayış nəticəsində tədricən parçalanmış, çoxlu ulduzlar və parlaq səma cisimləri bundan yaranmışdır; günəş sistemi və Yer kürəsi də həmin cisimlərdən sayılır.

Corc Qamov Həmin elmi nəzəriyyəni açıqlayaraq belə söyləyir:

"Əgər indiki çağda zaman ardıcıllığı baxımından keçmişə qayıtsaq və dünyanın inkişaf prosesini geriyə qayıdış kimi təsəvvür etsək, istər-istəməz bu nəticəyə gələ bilərik ki, çox-çox uzaq dövrlərdə, hələ kəhkəşanlar və hətta ulduzlar bir-birindən ayrılmaz olduğu bir vaxtda ilkin qaz maddəsinin həm qatılığı, həm də istilik dərəcəsi çox yüksək olmuşdur və kainat həmin qazla dolmuşdur. Sonrakı genişlənmə prosesində bu qatılıq və istilik o qədər dəyişərək aşağı düşmüşdür ki, bunun nəticəsi olaraq Göy cisimlərinin bir-birindən ayrılması mümkün olmuşdur" [1].

Üçüncü bir tərəfdən, təbiət aləminin yaradılışı tədrici proses olmuş – yəni ilkin yaranma çağından başlayaraq bir sıra mərhələlər keçmiş və indiki şəklə düşmüşdür. Quran

ayələrinə görə Göylərin və Yerin yaradılışı 6 dövrü əhatə etmişdir. Bu baxımdan iki ayə diqqəti cəlb edir.

Əraf surəsi, 54-cü ayə:

*Həqiqətən, Rəbbiniz Göyləri və Yeri altı gündə xəlq edən, sonra Ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür.*

Qaf surəsi, 38-ci ayə:

*And olsun ki, Biz Göyləri, Yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq da üz vermədi.*

Şübhəsiz ki, yuxarıdakı ayələrdə bəhs edilən altı gün məfhumu kainatın yaranmasının altı gecə-gündüzdə deyil, altı mərhələdə başa çatdığını nəzərdə tutur. Belə ki, ərəb dilində "yövm" – yəni "gün" sözü cəm formasında "əyyam" kimi işlənir və iki mənaya malikdir:

1. Yerin öz oxu ətrafında fırlanma müddəti (yəni bir gecə-gündüz).
2. Dövr və ya mərhələ.

Həzrəti-Əli (ə) belə buyurmuşdur:

Bu gün əməl günüdür, hesab günü deyil və sabah isə hesab günüdür, əməl günü deyil [2].

Yuxarıdakı hədisdə "bu gün" sözü dedikdə dünyəvi işlər, "sabah" dedikdə isə qiyamət nəzərdə tutulur. Həzrəti-Əli (ə) "Nəhcül-bəlağə"də yenə belə buyurur:

"Ruzigar (dəhr) iki gündən ibarətdir: bir gün sənin xeyirindir, o biri isə zərərin" [3].

Həyatın ikicə gün-gecə keçdi,
Əgər həkim isən, gör necə keçdi?
Birində bağladın könül dünyaya
Birində əlvida dedin fənaya.

Bir çox məqamlarda gün dedikdə sadəcə bir gecə-gündüz deyil, bütöv bir dövr və tarixi mərhələ nəzərdə tutulur.

Quranın özündə "gün" məfhumunun daha geniş dövr və mərhələ mənasında işlənməsinə işarələr var. Bu səmavi kitabda elə gündən söhbət gedir ki, onun ölçüsü saatlar üzrə hesablanan adi günlərdən çox-çoxdur. Bu baxımdan aşağıdakı iki ayəyə diqqət yetirək:

Məaric surəsi, 4-cü ayə:

*Mələklər və ruh (Cəbrail) Onun dərgahına (dünya ili ilə müqayisədə) müddəti əlli min il olan bir gündə qalxarlar.*

Həcc surəsi, 47-ci ayə:

*(Ya Məhəmməd!) Onlar səni tələsdirib əzabın tez gəlməsini istəyərlər. Allah öz vədinə əsla xilaf çıxmaz! Rəbbinin dərgahında olan bir gün sizin saydıqlarınızın (hesabladığınız vaxtın) min ili kimidir!*

Başqa bir yandan, Quranda işlənən qiyamət günü (yövmül-qiyamə) ifadəsi də adi gün mənası daşımır, belə ki, qiyamət günü böyük və əzəmətli bir hadisədir və burada çoxlu mərhələlər vardır. Həmin mərhələlər dünyəvi mənada başa düşülən günlərlə müqayisə edilə bilməz.

Bir sözlə, Qurani-kərimdə verilən altı gün anlamı altı mərhələ deməkdir. İndi baxaq görək bu altı mərhələ konkret şəkildə ayırd edilib, yoxsa yox?

Demək olar ki, Qurani-kərimdə həmin altı mərhələ müəyyən edilib.

Bir ayədə deyilir ki, altı mərhələdən ikisi Yerin yaradılmasına aiddir.

Fussilət surəsi, 9-cu ayə:

*(Ya Peyğəmbər!) De ki: "Doğrudanmı siz Yeri iki gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki aləmlərin Rəbbidir!"*

Başqa bir ayədə isə Göyün iki dövrdə (gündə) yaranması vurğulanır və beləliklə, altı dövrdən daha ikisi Göy aləminin xilqəti ilə bağlıdır.

Fussilət surəsi, 11 və 12-ci ayələr:

*Sonra Allah tüstü (duman, yerdən qalxan buxar) halında olan Göyə üz tutdu (Göyü yaratmaq qərarına gəldi). O, Göyə və Yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da: "İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!" – deyə cavab verdilər.*

*Allah onları (səmaları) yeddi (qat) Göy olaraq iki gündə əmələ gətirdi. (Beləliklə, iki gün ərzində Yer, sonra iki gün ərzində Yer üzündə olanlar, daha sonra iki gün ərzində Göylər xəlq edildi. Kainatın yaradılması altı gün ərzində başa çatdı.) O, hər bir Göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı Göyü (dünya səmasını) qəndillərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur).*

Xilqətin altı mərhələsindən ikisi qalır ki, Quranda bu iki mərhələ birbaşa açıqlanmır. Ehtimal olunur ki, son iki mərhələ həmin "tüstü"nün yaranması dövrüdür. Bir növ iki gün – yəni iki dövr kainatın ilkin ünsürlərinin yaranması mərhələsidir. Bu mərhələdə dünya qazabənzər bir halda olub. Bir-birinə bütöv tam halda qovuşuq olan bu qaz kütləsi bir-birindən aralanır və yeddi Göy təbəqəsi yaranır. Həmin dövrdə böyük günəş sisteminin yaranışı və kainatın işıqlanması prosesi də başa çatır. Günəş Göy təbəqəsində yerləşir və gecə-gündüz nizama salınır.

Qurani-kərimin Naziat surəsi, 27 və 29-cu ayələrində belə deyilir:

*(Ey kafirlər!) Sizi yaratmaq çətindir, yoxsa Göyü ki Allah onu yaratdı;*

*Gecəsini qaranlıq, gündüzünü işıqlı etdi?!*

Göyün yaranmasından sonra Yer özü iki mərhələdə yaranır. Qurani-kərimin Naziat surəsində Göyün xilqəti barədə nazil olan ayələrin ardınca Yerin yaranması bəyan edilir.

Naziat surəsi, 30-33-cü ayələr:

*Bundan sonra da Yeri döşəyib düzəltdi (üstündə gəzmək və yaşamaq üçün onu yararlı hala saldı).*

*Ondan suyunu və otlağını çıxartdı.*

*(Orada) dağları yerləşdirdi.*

*(Bütün bunlar) sizin və heyvanlarınızın istifadəsi üçündür.*

Beləliklə, Yerin yaranışı iki mərhələ üzrə başa çatır və burada dağlar, dənizlər, bitkilər və başqa varlıqlar təkamül yolu keçərək tam əmələ gəlirlər.

Başqa bir yandan, Allah Yer üzərindəki məxluqatın yemək və ruzisini dörd gündə yaradır. Bu isə dörd mövsüm və ya ilin dörd fəsli kimi başa düşülür.

Fussilət surəsi, 10-cu ayədə deyilir:

*O, Yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və (Allahdan ruzi) istəyənlər üçün bərabər olaraq orada Yer əhlinin ruzisini dörd gündə (mövsümdə) müəyyən etdi. (Yaxud Yerin və Yer üzündə olanların neçə gün ərzində yaradıldığını soruşanlar bilsinlər ki, Allah onların hamısını dörd gündə xəlq etdi.)*

Təfsir alimləri arasında dörd gün barədə müxtəlif fikirlər vardır. Əllamə Təbatəbai bunu ilin dörd fəsli ilə izah edir. İlahiyyatçıların nəzərincə bu dörd gün ruzilərin təqdir günləri sayılır, onların xilqəti ilə bağlı deyil. Bəzi alimlər isə başqa mülahizə yürüdürlə:

Dörd fəsil bütün Yer üzərində eyni şəkildə baş tutmur və bəzi yerlərdə dörd fəsil yoxdur. Ona görə dörd gün dedikdə dörd böyük dövr nəzərdə tutulur ki, həmin dövrlərdə Yer üzündəki varlıqlar, müxtəlif növ məxluqat, bitki və heyvanat aləmi yaranır. Altıncı gün – yəni öncə işarə edilən altıncı mərhələ Yer üzərində həyatın yaranma mərhələsi kimi tanınır ki, burada dörd kiçik mərhələ üzrə varlıq aləmi formalaşır [4].

Deməli, bütövlükdə dünya Göy və Yer aləmindən ibarət olmaqla altı dövrdə (gündə) xəlq olunub. İki gün (mərhələ) tüstü və ya qaz şəklində yaranma prosesinə aiddir, iki

mərhələ qazın parçalanması, Göy və ulduzların yaranması dövrüdür. Son iki mərhələ isə Yerin yaranması ilə bitir. Altıncı gün (mərhələ) isə özü dörd kiçik dövrə bölünür ki, bu dövrlərdə Yerüstü varlıqlar – dağlar, dənizlər, bitkilər və canlı aləm yaranır.

## Tövrat baxımından dünyanın yaradılışı

Tövratın kosmoqonik baxışlarına görə dünya altı gündə yaradılıb. Maraqlıdır ki, önəmli varlıqlar – yəni Göy, Yer, Günəş, Ay, ulduzlar, su, bitki, heyvanat aləmi və insan bir gündə yaranır. Allah 6 günlük xilqətdən sonra, yeddinci gün istirahət edir. Tövratın "Çıxış səfəri" bölməsində (20-ci qism, 11-ci cümlə) deyilir:

"Allah altı gündə Göyü, Yeri, dənizi və onlarda olan varlıq aləmini yaratdı. Yeddinci gün istirahət etdi. Ona görə Allah yeddinci günü mübarək adlandırdı və onu müqəddəs tutdu."

Yaradılış ardıcıllığına görə ilk olaraq Göy və Yer birinci gün xəlq olunur… "Yaradılış səfəri" bölməsində (1-ci qism, 1-ci cümlə) deyilir:

"Başlanğıcda Allah Göyləri və Yeri yaratdı."

Tövratda başqa varlıqların yaradılışı bir gün fasilə ilə Göyün və Yerin xilqətindən sonra ardıcıl olaraq baş verir.

## Varlıq aləminin məqsədyönlü olması

Varlıq aləmindən bəhs edərkən bir sual diqqəti cəlb edir: Dünyanın yaradılışının məqsəd və hədəfi vardırmı? Dünya müəyyən nizam əsasında qanun-qayda və hesab üzrə hər hansı məqsədə doğru hərəkət edirmi? Yoxsa dünyada cərəyan edən hadisələr pərakəndə və xaosdan başqa bir şey deyil? Xilqət təsadüfdənmi doğur? Dünyanı yetərincə tanımaq, onun yaradılış hikmətini anlamaq üçün bu suallara cavab tapmalıyıq. Burada başqa bir sual da ortaya çıxır:

Kainat bir sıra rabitəsiz, şüursuz və heç bir hədəfi olmayan hadisələrin toplusundan yarana bilərdimi?

Son suala uyğun bir-birindən fərqlənən iki nəzəriyyə ilə qarşılaşırıq.

Birinci nəzəriyyə ilahiyyatçılar tərəfindən irəli sürülür. Onlar belə söyləyirlər ki, dünyanın Allah adlanan bir Xaliqi vardır. Eyni zamanda xilqət aləmi ilahi hikmət əsasında hər hansı bir məqsəd və sonluğa doğru hərəkətdədir.

İkinci əks nəzəriyyə isə materialistlərə xasdır. Onlar iddia edirlər ki, dünya maddədən yaranmış və xilqət prosesində heç bir şüurlu yaradanın müdaxiləsi yoxdur. Təbiət aləmi fiziki və kimyəvi proseslərin təsiri nəticəsində yarandığına görə, heç bir hədəf və məqsəd daşımır. Onlar kainatın yaranışını məqsədsiz sayırlar.

Dünyanın yaradılmasının məqsədyönlü və qanunauyğun olmasını iki yolla sübut etmək olar:

1. Varlıq aləminin yaranışında olan nizamlı və ardıcıl bir düzənin müşahidəsi.

2. Varlıq aləminin xilqətində hikmətamiz bir qüdrətin olması.

Birinci halda dünyanın xilqətini müşahidə edərkən açıq-aydın görürük ki, kainatda olan varlıqlar müəyyən nizam və qanun-qayda ilə yaranmışlar. Başqa bir yandan, varlıq aləminin ayrı-ayrı təbəqələri arasında ahəngdarlıq və əlaqə vardır. Dünyada mövcud olan varlıqlar arasındakı ahəngdarlıq və nizamlı düzən bir daha göstərir ki, kainatda olan hadisə və ünsürlər müəyyən məqsəd üçün yaradılmışlar. Heç bir məqsəd və hədəfi olmayan hadisə və ünsürlər arasında boş-boşuna və mənasız yerə belə bir ahəngdar sistem ola bilməzdi. Varlıq aləmindəki nizamlı düzən sanki proqram üzrə hesablanmışdır.

Dünyadakı müxtəlif varlıqlar üzərində aparılan araşdırmalar – hüceyrə və zərrəciklərdən tutmuş nəhəng kəhkəşanlar və qalaktikalara kimi göstərir ki, onların bütün tərkib hissələri proqram və hesab üzrə yaradılmış,

müəyyən bir istiqamətdə hərəkət edirlər. Bu hərəkət isə hər bir varlığı müəyyən bir dərəcə və hədəfə doğru yetişdirir. Yəni varlıq aləmində qanunauyğun proseslər getməkdədir.

H.Rouver "Həyatın məqsədyönlüyü" adlı kitabında bu mövzuya toxunaraq yazır:

"Hər bir fərd bir növ hər hansı bir damla və zərrədən başlayaraq müəyyən qaynaqdan doğulur və sonra isə təyin edilmiş bir tale xətti üzrə hərəkət edərək təkamül yolu keçir. İnsanın ana bətnindəki təkamül yolu və böyümə mərhələləri nizamlı və ardıcıl bir qayda üzrə gedir" [5].

Xilqətin məqsədyönlü və müəyyən hədəf ilə gerçəkləşdiyini sübut edən ikinci yol bu prosesdə Allah-təalanın hikmət sifətinə malik olduğunu araşdırmaqdan ibarətdir. Yəni biz müxtəlif elmi və fəlsəfi-məntiqi dəlillərlə sübut edə bilirik ki, təbiət aləmi heç də xaotik və təsadüfi halda yaranmayıb, bəlkə də əksinə, maddi dünyanı hikmətli bir iradə, təbiətin özündən yüksək və güclü olan bir qüdrət yarada bilərdi. Bunu sübut etməklə bir həqiqəti aşkar edə bilərik ki, dünya boş-boşuna deyil, hədəf və məqsədlə xəlq olunub. Yoxsa dünyada müşahidə edilən saysız-hesabsız varlıqlar belə bir nizamla boş-boşuna və bihudə yaradıla bilməzdi. Görün Yaradan Allah bunları necə gözəl və nizamlı bir sistemə salıb. Məgər təsəvvür etmək mümkünmüdür ki, bu qədər kəhkəşanlar, ulduzlar, yer üzərindəki canlılar, bitkilər, gül-çiçək bihudə və əbəs yerə yaranıb? Varlıq aləminin yaranışında müşahidə edilən bu nizam və tədbir hədəfsiz və məqsədsiz ola bilərmi? Həmin nizam və qayda-qanun yaradılışın məqsədyönlü olduğuna dəlalət etmirmi? Əgər xilqətin boş-boşuna və bihudə yarandığını iddia etsək, bizim iddiamız ilahi hikmətin və Tanrı xilqətinin məntiqinə zidd olmazmı?

Öncə söylədik ki, ilahiyyatçıların xilqət barəsində düşüncəsi bundan ibarətdir ki, hər bir varlığın son qayəsi və məqsədi vardır, varlıq aləmi məqsədyönlü yaranıb. Bu düşüncə tərzi Avropada "finalizm" adlanır – yəni hər

varlığın son qayəsi vardır, varlıq düzəni müəyyən bir nizam, qayda-qanun üzrə yaradılıb və bu nizam hər hansı bir məqsəd və hədəflə tənzimlənib. Materialistlər isə "mexanizm" ideyasının tərəfdarı olaraq iddia edirlər ki, dünyada baş verən proseslər maşınsayağı və mexanikidir, burada heç bir məqsədyönlü hərəkət yoxdur. Mexanizm ideyasına söykənənlər yaşamaq uğrunda mübarizə tezisini məqsədyönlü hərəkətə qarşı qoyurlar. Onlar həmin tezisi iki dəlil üzrə əsaslandırırlar:

Birincisi, yaşamaq uğrunda mübarizənin özü varlıq aləminin yaranışını istiqamətləndirir, mövcud olan varlıqlar ilə həyat şəraiti arasında uzlaşma yarada bilir. Deməli, dünyanı Yaradan Xaliqə ehtiyac olmadan xilqətin nizam və qayda-qanunları həmin mübarizə əsasında tənzimlənir.

İkincisi, mexanizm tərəfdarları güman edirlər ki, əgər xilqətin yaranışının məqsəd və qayəsi olsaydı, onda varlıq aləmindəki dəyişmələr və növlər haqqındakı Darvin təlimi əhəmiyyətini itirərdi. Həmin təlimə görə, baş verən dəyişmələr bəzi varlıqlar üçün xeyirli, bəziləri üçün isə zərərli ola bilər. Başqa sözlə desək, əgər xilqətin məqsəd və qayəsi olsaydı, mövcud aləmdəki dəyişiklər zərərli və təsirsiz qalmazdı. Onlar düşünürlər ki, varlıq aləmindəki dəyişmələr öncədən müəyyən bir təkamül xətti üzrə olsaydı, bir sıra hallarda bəzi xilqət növləri ilə mühit arasında ziddiyyət yaranmazdı. Mexanizm ideyasına söykənənlər belə nəticə çıxarmışlar ki, Darvin təlimini qəbul etsək, onunla yanaşı həyat uğrunda mübarizə tezisini də qəbul etməliyik. Əgər Allahın Xaliq olduğunu qəbul etsək bu son tezisi əsaslandıra bilmərik. Onlar iddia edirlər ki, həyat uğrunda mübarizə tezisi elmi prinsiplərə əsaslanan şərtdir və ona görə Allaha inam və həyatın qayəsi barədə düşüncədən vaz keçmək qaçılmazdır.

Bəs əsl həqiqət nədən ibarətdir?

Əslində tədrici təkamül nəzəriyyəsini elmi prinsip kimi qəbul etsək, elə bu prinsipin özü varlıq aləminin

yaranışının məqsədyönlü olduğuna dəlalət edir. Varlıq aləminin mühit ilə uyğunluğuna gəlincə, bu məsələ bir daha göstərir ki. kainatda mövcud olan varlıqların batinində onları mühitlə uzlaşmağa vadar edən daxili bir güc vardır. Deməli, dünyada mövcud olan varlıqların müəyyən hədəf və məqsədə doğru yönəlməsi ideyasını qəbul etmədən onların tədrici dəyişmə və təkamülünü də elmi baxımdan əsaslandırmaq mümkün deyil. Darvin bu məsələyə diqqət yetirərək Allahın varlığını qəbul etmişdir.

Başqa bir yandan, mexanizm tərəfdarları varlıq aləminin yaranması ilə bağlı hadisələrdəki nizam və qanunauyğunluğu, eyni zamanda ali varlıq aləminin mühitlə uzlaşmasını təsadüfi saymaqla səhvə yol verirlər. Çünki ehtimal nəzəriyyəsinin hesablamalarına və maddi aləmin sonradan yaradılması ideyasına əsaslanaraq varlıq aləmini təsadüfi saymaq olmaz.

Onu da əlavə edək ki, tədrici təkamül prinsipinə əsasən, naqis varlıqlar mühitlə uzlaşmayaraq məhv olur, lakin mühitlə uzlaşan varlıqlar isə qalırlar. Varlıq aləmində olan kamillik keyfiyyətləri naqis varlıqdan fərqlənir və bu keyfiyyətlərin hər birinin öz qayəsi vardır. Fikrimizi misal ilə aydınlaşdıraq: Əldəki qırış xətlər bir şeyi əldə tutarkən onun sürüşüb düşməsinin qarşısını alır. Gözdəki kirpiklər gözə toz düşməsinə mane olur. Əldəki barmaqlar arasındakı fərqlər onların müxtəlif işləri yerinə yetirməsi ilə bağlıdır. Bu sayaq keyfiyyətlər insanın bir varlıq kimi kamillik xüsusiyyətlərini sübut edir və bunun yaşamaq uğrunda mübarizə tezisi ilə əlaqəsi yoxdur. Deməli, kamal sifətlər tədrici təkamül ilə izah edilmir və varlıq aləminin yaşam və davamında əsaslı rol oynamır. Eyni zamanda, varlıq aləmində kamillik keyfiyyətləri olmasaydı, canlı aləmdə varlıqlar arasında fərq olmazdı – yəni hər bir varlıq nümunəsinin öz kamillik sifətləri vardır. Həmin sifətlər bir varlığı başqasından fərqləndirməklə yanaşı, xilqətin

müəyyən hədəf və qayə ilə yaradılmasını göstərir. Həmin qayə varlıq aləminin inkişaf və təkamülünü təmin edir.

Bu ümumi girişdən sonra dünyanın yaradılışının məqsədyönlü olduğunu Quran ayələri baxımından əsaslandırmağa çalışaq.

Qurani-kərimə görə varlıq dünyası heç də bihudə yerə yaranmayıb, onun bütün tərkib hissələri və burada olan ünsürlər müəyyən hədəf və məqsədlə yaradılıb. Bir neçə Quran ayəsində varlıq aləmi və insanın xilqətinin məqsədyönlü olması vurğulanır.

Ali-İmran surəsi, 190-191-ci ayələrə diqqət yetirək:

*Həqiqətən, Göylərin və Yerin yaradılması, gecə ilə gündüzün bir-birini əvəz etməsi (bir-birinin ardınca gəlib-getməsi), ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən) qəti dəlillərdir.*

*O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, Göylərin və Yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından Özün qoru!*

Yuxarıdakı ayələr insanları Göylərin və Yerin xilqətindəki nizam barədə, həm də gecə ilə gündüzün ardıcıl növbələşməsinin hikməti üzərində düşünməyə dəvət edir. Hər bir fərd öz istedad və bacarığına uyğun olaraq yaradılışın sirlərini anlayır, dəqiq bir baxışla Göylərin və Yerin xilqətindəki qanunauyğun düzəni izləyir. Varlıq aləmindəki bu gözəl və ardıcıl düzən insanı heyrətə salır. Həmin düzən üzərində aparılan müşahidə və araşdırmalar bir daha insanın diqqətini varlıq aləminin xilqətində olan məqsədyönlü prinsipə yönəldir. Sözü gedən ayələr açıq-aydın bir məsələni yada salır ki, varlıq aləminin yaradılışında olan məqsədyönlüyü başa düşmək üçün düşünmək lazımdır, belə ki, dünyanın yaradılışını düşünmədən və təfəkkür süzgəcindən keçirmədən sadəcə müşahidə etməklə onun məqsədyönlü olduğunu anlamaq

olmaz. Bəzən astronomiya alimləri uzun illər boyu varlıq aləmi üzərində müşahidə aparır və mütaliə edirlər, lakin onlar varlığın bir ayə və nişanə olduğunu dərk etmək istəmədiklərindən, aləmin məqsədyönlü olduğunu da başa düşmürlər. Doğrudan da bir nəfər varlıq dünyası üzərində müşahidə aparsa, onun bütün tərkib hissələri və ünsürləri arasında olan nizam-intizamı və ardıcıl qanunauyğunluğu dərk edər. Bu yöndə düşüncə və təfəkkürə daldıqdan sonra insan üçün bir məsələ aydınlaşır: dünyaya hakim olan ümumi nizam və qanun sadəcə dünyanın tərkib hissələrinə xas olan xüsusiyyət deyil, bu bir növ təbiət və maddi aləmin fövqündə olan metafizik bir gücdən – enerjidən doğan bir nizamdır. Həmin qeyri-maddi vücudun fəzilət və hikməti varlıq karvanını öz məqsəd və mənzilinə yönəldir.

Qurani-kərimdə Göy və Yerdə olan bütün varlıq nümunələrinin əbəs yerə yaranmadığı qeyd olunur.

Sad surəsi, 27-ci ayə:

*Biz Göyü, Yeri və onların arasında olanları (bütün məxluqatı) boş-boşuna yaratmadıq. Bu, kafirlərin zənnidir. Vay cəhənnəm odunda yanacaq kafirlərin halına!*

Ənbiya surəsi, 16-cı ayə:

Duxan surəsi, 38-ci ayə:

*Biz Göyü, Yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq. (Kainat əbəs yerə deyil, Allahın qüdrətinin təcəssümü kimi yaradılmışdır. Buna görə də insanlar yalnız onun Xaliqi Allaha ibadət etməlidirlər.)*

Bu ayələrdə oyun-oyuncaq mənası daşıyan söz işlənib. Dünyanı oyuncaq və əyləncə sayanlara qarşı işlənən bu məfhum çox yerində işlənib. Həmin məfhum əqli mahiyyət daşımır. Adətən uşaqlar məqsədsiz və hədəfsiz oyuncaq düzəldib məşğul olar, sonra da onu xarab edərlər.

Yuxarıdakı ayələr müqayisə yolu ilə bir daha diqqətimizi dünyanın əbəs yerə yaranmadığına yönəldir. Allah dünyanı yenidən məhv etmək üçün yaratmayıb. Varlığın ilkin

qaynağı (məbdə) dünyanı bir hədəf və məqsədə doğru hərəkət üçün xəlq etmişdir və dünya həmin hədəfə doğru hərəkətdədir.

Quran ayələri dəfələrlə Göylərdə və Yerdə olan bütün varlıqların haqq olaraq yarandığını təsdiqləyir. Bu baxımdan aşağıdakı ayələr diqqəti cəlb edir.

Nəhl surəsi, 3-cü ayə:

*Allah Göyləri və Yeri haqq olaraq yaratmışdır. Allah Ona şərik qoşulan bütlərdən uzaqdır!*

Ənam surəsi, 73-cü ayə:

*Göyləri və Yeri haqq olaraq yaradan Odur. Onun: "Ol!" – deyəcəyi gün (hər şey) dərhal olar. Onun sözü haqdır. Surun (İsrafilin surunun) çalınacağı gün hökm Onundur. Qeybi və aşkarı bilən Odur. Hikmət və bilik sahibi də Odur!*

İbrahim surəsi, 19-cu ayə:

*(Ya Məhəmməd və ya ey mömin insan!) Məgər Allahın Göyləri və Yeri haqq olaraq yaratdığını görmürsənmi? Əgər Allah istəsə, sizi yox edib yerinizə başqa bir məxluq (insan tayfası) gətirər.*

Rum surəsi, 8-ci ayə:

*Məgər onlar öz-özlüklərində Allahın Göyləri, Yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi? Həqiqətən insanların çoxu Rəbbi ilə qarşılaşacağını (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağını) inkar edir.*

Ənkəbut surəsi, 44-cü ayə:

*Allah Göyləri və Yeri haqq olaraq (zərurət kimi) yaratmışdır. Həqiqətən, bunda (bu yaradılışda) möminlər üçün bir ibrət vardır!*

Təğabun surəsi, 3-cü ayə:

*O, Göyləri və Yeri haqq-ədalətlə (yerli-yerində) xəlq etdi, sizə surət verdi və surətlərinizi gözəl yaratdı. (İnsan bütün canlıların ən gözəli və ən kamilidir.) Axır dönüş də Onun hüzurunadır.*

Göstərilən bütün ayələr dünyanın bihudə yerə yaranmadığı mənasına dəlalət edir, yəni dünya batil və mənasız bir varlıq deyil. Xilqətin müəyyən bir məqsəd və məfhumu vardır. Kainat da həmin məqsədlə yaranmışdır. Deməli, varlıq dünyası kor-koranə bir təsadüf kimi xəlq olunmayıb. Əksinə, dünya və onun tərkib hissələri müəyyən hədəf və qayəyə malikdir.

Qurani-kərim insanın da müəyyən məqsəd və hədəflə yarandığını bəyan edir. Bu baxımdan aşağıdakı iki ayəyə diqqət yetirək:

Muminun surəsi, 115-ci ayə:

*Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?*

Qiyamət surəsi, 36-cı ayə:

*Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!*

Bu ayələr insan həyatının hədəf və məqsədini açıqlamaqla bütün insanlara xatırladır ki, bəşər övladı boş-boşuna və bihudə yaradılmayıb. İnsan batil və başlı-başına buraxılmış bir varlıq deyildir. O, kor-koranə, təsadüfi və boş amillər xatirinə həyata atılan məxluq deyildir. İnsan da başqa varlıq aləmi kimi müəyyən məqsədə yetişmək üçün xəlq olunub. Onun son qayıdışı da yaradılışın ilkin qaynağına doğrudur. Bu isə kamillik sifətlərinə yiyələnməklə əldə olunur.

Qeyd edək ki, musəvilərin müqəddəs kitabı olan Tövratda varlıq aləminin məqsədyönlü olması barədə qısaca bəhs edilib:

"Allah öz hikməti ilə Yeri yaratdı, öz ağlı ilə Göyləri möhkəmləndirdi.

Yəhva – Göyləri yaradan Tanrıdır, Yeri düzənləyib yaratdı və onu möhkəm etdi. Onu boş yerə yaratmadı".

## Yaradılışın hədəfi

Əvvəlki bölmədə varlıq aləminin yaranmasının müəyyən bir hədəfi olduğuna işarə etdik. Burada həmin məsələni bir qədər xırdalamaq istəyirik, başqa sözlə desək, yaradılışın qaynağı olan Allahın varlıq aləmini nə üçün yaratdığını açıqlamaq niyyətindəyik. Qurani-kərimdə bəyan edildiyi kimi, əgər kainatda olan varlıqlar boş yerə yaranmayıbsa, deməli xilqətin yaranmasının dəlili və səbəbi – yəni hədəfi vardır.

Öncə Morris Meterlinqin xilqətin hikməti haqqındakı maraqlı bir fikri ilə tanış olaq. O, "Yaradılışın fəlsəfəsi" adlı əsərində belə yazır:

"Bu nəhəng dünyada, böyük kainat qanunları çərçivəsində və yaradılış düzənində bizim yaşadığımız dünya kimi yüz min-yüz milyon kəhkəşan vardır. Belə olduğu halda məni və sizləri yaratmağa nə ehtiyac varmış? Mən və sizlər olmasaydıq bu dünya necə olardı? Əgər biz insanların yaşadığı bu Yer kürəsi olmasaydı, böyük yaradılışa hansı zərər dəyərdi?" [6].

Belə bir sual ortaya çıxır:

"İnsan nə üçün varlıq aləminin yaranma səbəbi və məqsədi barəsində düşünür?" Belə bir düşüncənin dəlili ondan ibarətdir ki, insanın gördüyü bütün işlərdə müəyyən hədəf və sonluq axtarışı vardır. İnsan məqsədsiz və hədəfsiz bir iş görməz. Başqa sözlə desək, insanın hər bir əməl, hərəkət və davranışı müəyyən məqsəd və hədəflə bağlıdır. Məsələn, insan aclıq çəkdikdə tox olmaq üçün yemək yeyir, susuzluğunu yatırmaq üçün su içir, yorularaq öz cismani və ruhi qüvvəsini yenidən bərpa etmək üçün yatır, öz yaşamını təmin etmək məqsədilə çalışır və s.

İnsanın gündəlik yaşayışı ilə bağlı yuxarıdakı sadə misalların hər birinə baxdıqda onların müəyyən hədəf və məqsədlə edildiyi bəlli olur: aclığı və susuzluğu yatırmaq, yorğunluğu çıxarmaq və insanda yaşamaq gücünü bərpa etmək. Deməli, insanın əməl və hərəkətlərində

məqsədyönlü prinsiplər vardır. Yuxarıdakı hədəf və məqsədlərə daha diqqətlə yanaşsaq onların hər birində iki qarşılıqlı meylin köklərini tapa bilərik: faydalı və mənfəətli şeyləri özünə tərəf cəlb etmək, faydasız və zərərli şeyləri isə özündən uzaqlaşdırmaq. Məsələn, toxluq amili iki cəhətlə bağlıdır: maddi-cismani gücü artırır (fayda və mənfəətin cəlb edilməsi), zəiflik və xəstəliyin qarşısını alır (zərərin uzaqlaşdırılması). Susuzluğun yatırılması da bu sayaqdır. Həyatın təmin edilməsi üçün insanın çalışması, bir yandan bəşər nəslinin davamı üçün faydalıdır (fayda və mənfəətin cəlb edilməsi), o biri yandan isə insanları yoxsulluq və səfalətdən qoruyur (zərərin uzaqlaşdırılması).

Bir sözlə, insanın gördüyü əməl və hərəkətlərin hər biri həm onun ehtiyaclarını ödəməyə – yəni fayda və mənfəəti cəlb etməyə, həm də ona yetişə biləcək zərəri uzaqlaşdırmağa yönəlib. Buraya əlavə edə bilərik ki, insanın mənəvi-əqli fəaliyyəti isə naqisliyi uzaqlaşdırmaq və kamilliyə qovuşmaq, pis əməldən çəkinmək və yaxşı əmələ yönəlmək məqsədi güdür və Allah bəşərə ağıl və şüuru boş yerə bəxş etməyib.

Burada bir məsələyə də aydınlıq gətirmək lazımdır ki, yuxarıdakı ikili prinsip Allaha şamil edilə bilərmi? Bu sualın birbaşa və açıq cavabı mənfidir. Çünki xilqət aləmi və orada xəlq olunan bütün varlıqlar nə Allaha bir xeyir verə bilməz, nə də Ona zərər yetirə bilməz. Allah ehtiyacsız və zəngindir (qənidir) və Onun heç nəyə ehtiyacı yoxdur. Onun kamala da ehtiyacı yoxdur, çünki Allah özü mütləq kamal qaynağıdır və bu məsələ islam filosofları və o sıradan Molla Sədra tərəfindən sübuta yetirilib. Dünyanı yaradan mütləq kamala sahibdir. Deməli, mütləq kamil varlıq hər sayaq kamilliyin qaynağı olaraq öz yaratdığı varlıqlara ehtiyac duya bilməz. Bütün varlıq aləmi, əksinə olaraq

Allaha möhtacdır.

Allahın ehtiyacsız və qəni (zəngin) olması tovhid prinsipindən qaynaqlanır və Quran ayələri də həmin fikri təsdiqləyir:

Nisa surəsi, 131-ci ayə:

*Göylərdə və Yerdə nə varsa, hamısı Allaha məxsusdur. (Ey müsəlmanlar!) Biz sizdən əvvəl kitab verilənlərə də, sizə də Allahdan qorxmanızı tövsiyə etdik. Əgər Allahı inkar etsəniz belə, (yenə də) Göylərdə və Yerdə nə varsa, hamısı Allahındır. Allah ehtiyacsızdır, (Öz-Özlüyündə) şükr olunmağa, tərif olunmağa layiqdir.*

Həcc surəsi, 64-cü ayə:

*Göylərdə və Yerdə nə varsa, hamısı Onundur. (Onun qüdrətindən yaranmış əsərdir.) Həqiqətən, Allah ehtiyacsızdır və hər cür şükrə, tərifə layiqdir! (Hər işi bəyəniləndir.)*

Fatir surəsi, 15-ci ayə:

*Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir və hər cür şükrə, tərifə layiqdir! (Onun bütün işləri bəyəniləndir.)*

Məhəmməd surəsi, 38-ci ayə:

*Budur, siz (mal-dövlətinizin yalnız qırxda birini) Allah yolunda sərf etməyə çağırılan kimsələrsiniz. Bununla belə içərinizdə xəsislik edən də vardır. Hər kəs xəsislik etsə, ancaq özünə qarşı xəsislik etmiş olar (bunun zərəri yalnız özünə toxunar). Allah zəngin, siz isə yoxsulsunuz (Allah sizə möhtac deyildir, siz Ona möhtacsınız). Əgər Ondan üz döndərsəniz, (sizi yox edib) yerinizə sizlər kimi olmayan (Allaha cani-dildən ibadət və itaət edən) başqa bir qövm gətirər.*

İmam Hüseyn (ə) Ərəfə duasında bu barədə belə buyurur:

"İlahi! Sənin substansiyan (Zatın) o qədər zəngindir ki, öz tərəfindən Sənə bir xeyir yetişməz, bəs mənim tərəfdən Sənə hansı xeyir yetişə bilər?"

Həmin "qəni" kökündən Haqqın istiğna sifəti – yəni Onun heç nəyə ehtiyacı olmadığı aşkar olur. Deməli, Allah substansiya baxımından o qədər uca və yüksək səviyyədə ehtiyacsızdır ki, hətta özü-özünə bir mənfəət yetirməz. Onun xəlq etdiyi varlıqlara gəlincə, onlar Allaha möhtacdır və Allah onlara heç vaxt möhtac ola bilməz.

Sadə adamlar və yaxud Meterlinq kimi şəxslər belə bir sual ortaya atırlar ki, axı Allahın (və ya Xaliqin) bizləri xəlq etməyə nə ehtiyacı var? Əslində bu sualın qoyuluşu səhvdir, çünki öncə işarə etdiyimiz kimi, Allah ehtiyacsızdır. Onun barəsində ehtiyac və ya naqislik kimi sifətlər işlənə bilməz. Allahın nə kamal dərəcəsinə yetişməyə, nə də hər hansı bir naqisliyi aradan qaldırmağa ehtiyacı yoxdur. Belə olduqda "Allahın varlıq dünyasını yaratmağa nə ehtiyacı vardır?" sualının qoyuluş məntiqi düzgün deyil. Bu incə mətləbi anlayan islam filosofları belə söyləmişlər: Allahın substansiyasının xilqət aləmində məqsəd və hədəfi yoxdur, söhbət Onun hərəkətinin hədəfindən gedir.

Onu da əlavə edək ki, Allah iradə ilə hərəkət edəndir, məqsədlə hərəkət etmir. Məqsədlə hərəkət edənlər öz hərəkətini hər hansı bir hədəfə yetişmək üçün icra edirlər. Məsələn, insan hər hansı bir məqsədə çatmaq üçün hərəkət edir və onda bu hərəkəti yerinə yetirməyə həvəs və maraq yaranır. Ancaq iradə ilə hərəkət edən Allah öncə bir məqsədə yetməyi nəzərdə tutmur və həmin məqsədə görə hərəkət etmir. Onun hərəkəti müəyyən məqsədi güdmədən iradə ilə gerçəkləşir. Hərəkət iradənin nəticəsi olaraq gerçəkləşir. Təbiət özü Allahın iradəsi ilə xəlq olunur və yaradılış (sün) öz substansiyası baxımından müəyyən bir qayə və hədəfə malikdir, xilqət həmin hədəfə doğru hərəkətdədir. Hacı Molla Hadi Səbzəvari öz Mənzuməsində belə söyləyir:

"Allahın hikmət və qayəsi onu tələb edir ki, bütün varlıq aləmi öz varlıq qanun-qaydası əsasında son qayəsinə yetişsin" [7].

Beləliklə, Allahın substansiya baxımından hədəf və qayəsi yoxdur, Onun xilqətinin qayəsi vardır. Filosoflar bu məsələni sübut etdikdən sonra, insan və dünyanın yaranışını Allahın feyzi ilə izah edirlər. Feyz anlamı latınca emanasiya qarşılığı ilə ifadə olunur və öz məzmun tutumu baxımından tükənməz bir qaynaq mənası daşıyır. Allah mütləq varlıq olmaqla bütün kamil sifətlərə malikdir. O, bütün kamillik və xeyir sifətlərin tükənməz bir qaynağı və mənbəyidir.

Allahın substansiyası tovhid baxımından haqqın əhədiyyət mərtəbəsi olmaqla bütün kamil sifətləri əhatə edir. Onun pak substansiyasına heç bir eyb və nöqsan yol tapa bilməz.

İlahi vücudun bu mərtəbəsi bütöv və geniş bir məna tutumuna malikdir ki, burada heç bir çoxluq və tərkib hissəsindən söhbət gedə bilməz. Çoxluq və mürəkkəblik məfhumu maddi aləmə xasdır, Allahın substansiyası isə bütöv və bölünməz anlamdır.

Allah substansiya baxımından vacibül-vücud sayılır və Onun vücudu öz-özünə vacibdir və heç nədən asılı deyildir. Substansiya tam və kamil olduğuna görə, mütləq feyz qaynağıdır, kamilliyin şərti də feyz anlamı ilə izah olunur. Kamil olan hər bir varlıq eyni zamanda feyz qaynağı ola bilir, lakin naqis olan varlıq feyz qaynağı ola bilməz. Deməli, mütləq kamal sahibi olan vacibül-vücud, həm də öz substansiyası ilə zəngin (qəni) və mütləq feyz qaynağı sayılır. Allahın mütləq feyz qaynağı olması Onun feyzinin bütün varlıq aləmini əhatə etməsini şərtləndirir. Deməli, dünya və varlıq aləmi Allah feyzinin ali məhsuludur.

Qurani-kərimdə Allahın feyzini bəyan edən nemətlərə işarə edilir:

İsra surəsi, 20-ci ayə:

*Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti (istər dünyada, istərsə də axirətdə heç kəsə) qadağan deyildir.*

Loğman surəsi, 27-ci ayə:

*Əgər yerdəki bütün ağaclar qələm, dərya isə mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı, yenə də Rəbbimin sözləri (yazılıb) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət və hikmət sahibidir!*

Pərvərdigarın sözləri Onun kamalının və feyzinin nişanələridir. Haqqın kamalı və feyzi tükənməz olduğu kimi, bunları bəyan edən sözlər də tükənməzdir.

Hədislərin birində isə belə deyilir:

"Allah-təala buyurmuşdur: Ey Adəm övladı! Səni Mənə bir fayda vermək üçün yaratmadım. Səni ona görə yaratmışam ki, bəlkə sənə bir xeyir verəm. Ona görə Məni hər şeydən və hamıdan uca tut (Məni öz əməl və rəftarının qayəsi üçün örnək kimi qəbul et)" [8].

Cəlaləddin Rumi "Məsnəvi"nin 2-ci dəftərində bu hədisdən faydalanmışdır:

Peyğəmbər deyib ki, Haqq buyurubdur:
"Xilqətim məqsədi ehsan olubdur.
Yaratdım xilqəti bəhrə götürsün,
Şəhdimdən özüyçün şirə götürsün.
Mən ki, xilqətimdən fayda ummazam
Ucayam, qəniyəm, ehtiyacsızam."

## Xilqətin son qayəsi insandır

Öncə söylədiyimiz kimi, varlıq aləmində müşahidə edilən hər bir şey öz yarandığı andan başlayaraq müəyyən bir hədəf və qayəyə doğru hərəkət və fəaliyyət göstərir: torpağa düşən kiçik bir dənəcik və toxum həmin mühitdə müəyyən bir hərəkət və təkamül yolu keçir. Bu dənəcik müəyyən mərhələlərdən keçərək həmin prosesin son məqamında meyvəyə çevrilir. Kürt düşən toyuğun altına qoyulmuş yumurta müəyyən mərhələdən sonra cücə çıxarır və cücə də böyüyərək toyuğa çevrilir.

Bundan başqa, hər bir varlığın özü başqa bir varlığın hədəf və qayəsi kimi çıxış edir. Yəni hər bir varlıq başqa bir varlığın ondan faydalanması üçün yaradılır. Məsələn, heyvanlar bitkilərdən faydalanır, onunla qidalanaraq yaşamını davam etdirir. İnsanlar isə həm bitki, həm də heyvanat aləmindən faydalanırlar. İnsan xilqətin son qayəsi olduğuna görə, Göylərdə və Yer üzərində nə varsa bəşərin faydalanması üçün önəmlidir. Günəşin hərarəti, Ayın mənzillər üzrə hərəkəti, gecə və gündüzün növbələşməsi, Yer üzərindəki çeşidli varlıqlar, qida və ruzi qaynaqlarından tutmuş, dağlar, dənizlər və çaylar – insanların istifadəsinə verilir.

Hər şeyin insan üçün yarandığını önə çəkən Qurani-kərimin bəzi ayələri ilə tanış olaq:

Bəqərə surəsi, 29-cu ayə:

*Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat Göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir!*

Bəqərə surəsi, 22-ci ayə:

*O Allah ki, sizin üçün Yer üzünü döşədi, Göyü isə tavan (örtük) yaratdı, Göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allahın oxşarı və bənzəri olmadığını bildiyiniz halda, Ona şəriklər qoşmayın.*

Göyləri, Yeri və bütün nemətləri insan üçün xəlq edən Allah məsələni bununla bitmiş hesab etmir. Bütün sadalanan şeyləri insanın ixtiyarına verməklə onu sınayır, çünki insan da müəyyən məqsədlə yaranıb.

Hud surəsi, 7-ci ayə:

*Əriş su üzərində ikən hansınızın daha gözəl əməl (itaət) sahibi olacağınızı sınayıb bilmək üçün Göyləri və Yeri altı gündə yaradan Odur. (Ya Peyğəmbərim!) Əgər desən ki: "Siz öləndən sonra, həqiqətən, diriləcəksiniz!" – kafir olanlar: "Bu açıq-aşkar sehrdən (yalandan) başqa bir şey deyildir!" – deyə cavab verərlər.*

Yuxarıdakı ayələr belə bir fikri təsdiqləyir ki, Göylərin və Yerin yaranışı insan xatirinə olub – yəni bütün varlıqların kamala yetməsi insanın kamilliyə yetişməsinin müqəddiməsi sayılır. Yaradılış aləmində bütün mövcud olan varlıqların kamilliyə doğru təkamül yolu insanın son kamal dərəcəsinə yetişməsi üçün ilkin mərhələ və şərtdir.

İnsanın son kamillik mərtəbəsi nədir?

Öncə varlıq aləminin yaranışını insan adlı vücudun kamilliyə yetişməsi üçün zəmin hesab etdik. İndi isə Quran ayələri baxımından insan xilqətinin son qayəsinin nədən ibarət olduğunu araşdıraq. Bir neçə Quran ayəsində insan xilqətinin fəlsəfəsinə toxunulmuşdur.

Bəqərə surəsi, 30-cu ayə:

*(Ya Məhəmməd!) Sənin Rəbbin mələklərə: "Mən Yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə, mələklər: "Biz Sənə şükr etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən Yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. Allah (onlara): "Mən bildiyim şeyi siz bilmirsiniz" – buyurdu.*

Bu ayədə insanın xilqətinin məqsədi açıqlanır və həmin məqsəd xəlifəlik məfhumu ilə ifadə olunur. Allah insanı ilahi xəlifəlik məqamına xatir yaratmışdır. Yəni insanı yaratmaqdan məqsəd Allahın xəlifəlik və canişinlik istəyidir. Bu xəlifəlik məqamı isə ondan ibarətdir ki, Allah insan qəlbinə öz sifətlərindən bir işıq nazil etmişdir və əgər insanda olan bu işıqlı istedad fəaliyyət göstərərsə, bəşər mümkün olan ən uca kamal mərhələlərinə yetişə bilər. Başqa ifadə ilə söyləsək, həmin ayənin məzmununa görə, insan xilqətinin məqsədi mümkün olan ən yüksək kamal zirvəsinə ucalmaqdır.

Başqa bir ayədə xilqətin və o sıradan insanın başqa bir keyfiyyətinə işarə edilir ki, bu da Allahı tanımaq və Ona ibadət etməkdən ibarətdir.

Zariyat surəsi, 56-cı ayə:

*Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!*

İnsan yalnız bir Allaha ibadət və bəndəlik etməli, Haqdan savayı kimsənin və heç bir varlığın qarşısında təslim olmamalıdır. Bəşər eyni zamanda öz batinini və nəfsini paklaşdırmalı, öz əqli-mənəvi seçimi ilə kamillik mərhələlərini keçərək mütləq kamala doğru addım atmalıdır.

Əslində bu ayə insan xilqətinin hədəfini kamil insan məqamına yüksəlməkdə görür və həmin uca məqama yetişməyin ilkin şərti Allaha bəndəlik etməkdir. Allah insanları ilahi və mənəvi sınaq qarşısında qoyur və bu sınaqdan üzüağ və uğurla keçmək hər bəndəyə nəsib olmur.

Mülk surəsi, 2-ci ayədə deyilir:

*Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, çox bağışlayandır.*

Kəhf surəsi, 7-ci ayə:

*Biz Yer üzündə olanları onun (sakinləri) üçün bər-bəzəkli yaratdıq ki, onlardan hansının daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək.*

Bu ayələrə görə xilqətin əsas hədəflərindən biri məhz yaxşı əməl-əxlaq sahibi olan insanların tərbiyəsidir. Allah insanları yaratmaqla həm onların öz yaşamını təmin etməsi üçün lazımi maddi imkanlar, həm də öz əxlaq və davranışını sağlam ruhda tərbiyə etməsi üçün ağıl və şüur vermişdir. Həyat sınağında kimin yaxşı və kimin pis olması aşkarlanır, kimin saleh əməl sahibi, kimin isə pis əməl sahibi olması üzə çıxır. Bu ayələrə görə yalnız yaxşı əməl sahibləri özlərini xilqətin məqsəd və hədəfinə yaxınlaşdıra bilirlər. Dərin mənada isə, bu ayələr göstərir ki, insan xilqətinin hədəfi kamil insana xas olan kamal sifətlərə yiyələnməkdir.

Bir sözlə, varlıq dünyasının yaranmasından məqsəd insanı son kamal dərəcəsinə yetirməkdir. Bu sırada əziz Peyğəmbərimiz Həzrəti-Məhəmməd (s) başqaları ilə müqayisədə daha uca kamal sifətlərinə malik olduğuna görə, xilqətin səbəbi onunla əlaqələndirilir. Elə həmin münasibətlə məşhur hədis yaranmışdır:

"Əgər sən olmasaydın fələkləri yaratmazdım." Və ya "Səni özüm üçün yaratdım, varlıq aləmini isə sənə xatir."

Bu və ya başqa hədislərə görə Göylərin və Yerin yaradılışı Məhəmməd peyğəmbərin (s) xatirinə olub. Öncə işarə etdiyimiz kimi, Həzrəti-Məhəmməd (s) ən uca kamillik mərhələlərinə yetən kamil insan məqamına malikdir və həmin uca məqama görə Allah xilqəti Məhəmmədə (s) xatir yaratmışdır.

# İKİNCİ FƏSİL
# VARLIQ ALƏMİNİN YARANMA MƏRHƏLƏLƏRİ VƏ ONLARIN ÖZƏLLİKLƏRİ

## Varlıq aləminin yaranma mərhələləri

Bu bölmədə varlıq aləminin yaranma mərhələləri Qurani-kərim baxımından araşdırılır. Quran ayələrində həmin məsələnin özünəməxsus qoyuluşu və izahı vardır. Ayələrdə bu mərhələlərin necə şərh edilməsinə başlamazdan öncə iki rəvayətə işarə etmək istərdik. Bu rəvayətlərdə həm varlıq aləminin yaranma mərhələləri, həm də onların əsas xüsusiyyətləri islam düşüncə tərzinə uyğun izah edilir.

Birinci rəvayətdə deyilir:

"Göylərdə və Yerdə elə bir varlıq yoxdur ki, onun yeddi xüsusiyyəti olmasın: məşiyyət (əzəli ilahi iradə), iradə, qədər (təqdir), qəza, izn, kitab və əcəl".

İkinci rəvayətdə isə belə deyilir:

"Göylərdə və Yerdə bu yeddi xasiyyətdən kənar heç bir varlıq yoxdur: qəza, qədər, iradə, məşiyyət, kitab, əcəl, izn. Hər kəs bunlardan kənar bir varlığın olduğunu düşünsə, o ya Allaha yalan qoşmuş, ya da əziz və calal sahibi olan bir Allahı inkar etmiş olar" [9].

Bu iki rəvayətdə işarə edilən yeddi xüsusiyyət əslində Quran ayələrindən götürülmüşdür. İndi həmin ayələrə diqqət yetirək:

1. Məşiyyət (ilkin ilahi iradə) anlamı barədə.

İbrahim surəsi, 27-ci ayə:

*Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə (kəlimeyi-şəhadətlə) sabitqədəm edər. Allah zalimləri (haqq yoldan) sapdırar. Allah istədiyini edər!*

Allah iradə etdiyi hər şeyi yerinə yetirər.

2. İradə anlamı barədə.

Yasin surəsi, 82-ci ayə:

*Bir şeyi (yaratmaq) istədiyi zaman Allahın buyuruğu ona ancaq: "Ol!" –deməkdir. O da dərhal olar.*

Bu ayədə Allahın iradəsi "ol" əmrilə gerçəkləşir.

3. Qədər (təqdir) anlamı barədə.

Furqan surəsi, 2-ci ayə:

*O Allah ki Göylərin və Yerin hökmü (səltənəti) Onundur. O (özünə) heç bir övlad götürməmişdir: mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onun qədər işini (onun nə cür olacağını) əvvəlcədən müəyyən etmişdir.*

4. Qəza (hökm) anlamı barədə.

Rəd surəsi, 41-ci ayə:

*Məgər kafirlər Bizim (Öz qüdrətimizlə) Yer üzünü (onun müxtəlif) tərəflərindən get-gedə azaltdığımızı (müsəlmanların onların torpaqlarını fəth etdiklərini) görmürlərmi? Hökm edən Allahdır. Heç kəs Onun hökmünü dəf edə bilməz. Allah tezliklə haqq-hesab çəkəndir!*

5. İzn anlamı barədə.

Əraf surəsi, 58-ci ayə:

*Təmiz (torpağı münbit) bir məmləkətin bitkiləri Rəbbinin iznilə (bol, vaxtında) çıxar. Pis (torpağı qeyri-münbit) bir məmləkətin bitkiləri isə yalnız çox çətinliklə, özü də az yetişər. Biz Öz ayələrimizi (nemətlərimizə) şükr edən bir tayfa üçün belə müfəssəl izah edirik.*

6. Kitab anlamı barədə.

Rəd surəsi, 38-ci ayə:

*(Ya Məhəmməd!) Biz səndən qabaq da peyğəmbərlər göndərdik, onlara zövcələr, övladlar verdik. Allahın izni olmadıqca heç bir peyğəmbər heç bir möcüzə gətirə bilməz. Hər dövrün bir kitabı (lövhi-məhfuzda yazılmış hökmü) var. (İlahi kitablardan hər birinin öz nazil olma vaxtı var. Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir).*

7. Əcəl anlamı barədə.

Rəd surəsi, 2-ci ayə:

*Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən, sonra Ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta (dünyanın axırına, qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı (iradəsinə) tabe edən, bütün işləri yoluna*

*qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra), Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə inanasınız!*

Yuxarıdakı ayələr varlıq aləminin yaradılış və davam mərhələlərinə, onların bəzi özəlliklərinə işarə edir. Yeddi xüsusiyyətdən – məşiyyət (ilkin ilahi iradə), qədər, qəza və izn varlıq aləminin yaradılış mərhələlərini, kitab və əcəl anlamı isə onların əsas xüsusiyyətlərini açıqlayır.

İndi isə həmin xüsusiyyətlərin və eləcə də varlıq aləminin yaradılışı və təkamülü ilə bağlı başqa cəhətlərin Quran ayələri işığında daha geniş izahını verməyə çalışaq.

### ***Məşiyyət (ilkin ilahi iradə) və iradə***

Bu iki anlam bir-birinə yaxın mənada işlənən məfhumlardır. Lakin bunlar arasında fərq vardır. İslam filosoflarının fikrincə, məşiyyət Allahın ümumi istək və iradəsinin mütləq təzahürüdür. Yəni məşiyyət Allahın ilkin külli iradəsidir. İradə isə cüzi iradənin təzahürüdür. Bu müəyyən bir şeyi etmək və ya etməmək barədə Allahın məqsədini ifadə edir. Ona görə əzəli mütləq iradə – yəni məşiyyət iradədən öncə olmaqla, ilahi iradənin üstünlük dərəcəsidir. İradə isə hər hansı bir işi görmək və ya onu tərk etmək barədə istək və niyyətdir.

Beləliklə, məşiyyət və iradə Allahın hər hansı bir varlıq və hadisəni yaratmaq üçün zəruri zəmin hazırlamaq istəyidir.

Əllamə Təbatəbai məşhur "əl-Mizan" adlı təfsirində bu barədə belə yazır:

" – Filan iş Allahın iradəsi ilə olub" dedikdə belə bir fikir nəzərdə tutulur ki, Allah həmin işin və ya şeyin yaranması üçün lazım olan səbəb və şəraiti tam və kamil şəkildə hazırlayıb – yəni həmin iş mütləq baş verəcək və həmin şey mütləq yaranacaqdır. Birbaşa Allahın iradəsi ilə bağlı olan şey səbəbiyyət əlaqəsi ilə şərtləndirilir. Yəni hadisə və

şeylərin yaranma səbəbi mahiyyətcə Allahın iradəsi ilə bağlıdır. Səbəbiyyət əlaqəsini Allahın iradəsi ilə izah etmək olar. Ona görə belə deyirlər ki, Allah şeyləri məşiyyət vasitəsilə yaradıb, lakin məşiyyət – yəni iradə öz-özünə yaranıb. Məşiyyət – ilahi iradə bir növ varlığın yaranma səbəbidir, varlıq Allah iradəsinin nəticəsidir. Allahın iradəsi isə öz-özlüyündə Allaha xasdır [10].

İndi Tanrı iradəsinin xüsusiyyətini Quran ayələri baxımından izləyək. Öncə işarə etdiyimiz bir ayəyə qayıdaq.

Yasin surəsi, 82-ci ayə:

*Bir şeyi (yaratmaq) istədiyi zaman Allahın buyuruğu ona ancaq: "Ol!" – deməkdir. O da dərhal olar.*

Ayədən bəlli olur ki, bir şeyi yaratmaq üçün Allahın iradəsinin heç nəyə ehtiyacı yoxdur. Məxluqun yaradılması üçün Allahın qarşısında heç bir maneə yoxdur. Allah bir şeyi yaratmağa iradə edərsə, o şey yaranar. İradə – Allahın istəyinin təzahürüdür.

Xilqət Allahın əmr və fərmanı ilə gerçəkləşir və həmin əmrə işarə edən Qurani-kərim "kun fəyəkün" anlamını əsas gətirir.

Nəhl surəsi, 40-cı ayə:

*Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: "Ol!" – deməkdir. O da dərhal olar.*

Bu ayədə Allah yaradılış barədə "ol" əmri verir. Həmin sözlə varlıq aləmi yaranır. Burada Allah öz iradəsini sözlə bəyan edir və söz varlığın əsası kimi çıxış edir.

### ***Qədər və ya təqdir anlamı***

Varlıq aləminin yaranmasında daha bir mərhələ təqdir anlamı ilə ifadə olunur. Qədər və ya təqdir hər hansı bir şeyin müəyyən ölçü və mizanı deməkdir. Aləmdə mövcud olan bütün şeylərin öncə müəyyən edilmiş bir ölçü və mizanı, qədəri vardır.

Qəmər surəsi, 49-cu ayə:

*Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq.*

Qurani-kərimdə göstərilir ki, məxluq təbiət aləminə nüzul etməzdən qabaq Qeyb aləmində müəyyən biçimə malik olur. Varlığın bu aləmdə özünəməxsus mərtəbəsi var. Hər şeyin timsalı Qeyb aləmində Allahın xəzinəsində təsbit olunur. Şeylər yaranmazdan öncə onların surəti Qeyb aləmində təsvir edilir.

Hicr surəsi, 21-ci ayə:

*(Yerdə və Göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk. (Onun nə qədər lazım olması isə yalnız Bizə məlumdur).*

"Varlıq mərtəbələri" bölməsində bu ayə ilə bağlı geniş izahat verəcəyik. Burada isə diqqəti bir məqama yönəldirik. Qeyb aləmində məxluqun müəyyən varlıq hüdudu vardır – yəni Allah hər bir varlığın həddini və ölçüsünü Qeyb aləmində təyin edir və sonra onu təbiət aləminə həmin ölçü ilə nazil edir. Filosoflar Qeyb aləmində təyin edilmiş bu ölçüyə "elmi qədər" deyirlər. Qədər və ölçü bütün varlıq aləmində olan məxluqata şamil edilir. Həm təbiət aləmində olan varlıqlar, həm də onların Qeyb aləmindəki timsalları elmi qədərə və ölçüyə-biçimə malikdir. Qədər dedikdə, əslində, var olan şeylərin həddi, onların imkan və ya ehtiyacı nəzərdə tutulur. Allahın substansiyası vacibül-vücuddur, substansiyadan kənar olan nə varsa mümkünül-vücud adlanır. Bu isə mümkün varlıq sayılır. Mümkün varlıqlar təbiət aləmində zahir ola bilən potensial varlıqlara deyilir və onların da müəyyən varlıq hüdudu vardır. Varlıqların xarici-zahiri ölçüsü və həddi "obyektiv qədər" adlanır. Bu barədə sonra bəhs ediləcək.

### *Qəza anlamı*

Hadisə və şeylərin yaradılışı ilə bağlı mərhələlərdən birisi də qəza adlanır. Qurani-kərimdə qəza müxtəlif

mənalarda işlənmişdir. Yaradılış baxımından qəza anlamı varlığın qəti şəkildə gerçəkləşməsini nəzərdə tutur. Qəza ilahi hökmdür və həmin hökmə görə xilqət qəti surətdə baş verir.

Öncə aşağıdakı iki ayəni nəzərdən keçirək.

Rəd surəsi, 41-ci ayə:

*Məgər kafirlər Bizim (Öz qüdrətimizlə) Yer üzünü (onun müxtəlif) tərəflərindən get-gedə azaltdığımızı (müsəlmanların onların torpaqlarını fəth etdiklərini) görmürlərmi? Hökm edən Allahdır. Heç kəs Onun hökmünü dəf edə bilməz. Allah tezliklə haqq-hesab çəkəndir!*

Qəsəs surəsi, 70-ci ayə:

*Allah Odur. Allahdan başqa heç bir Tanrı yoxdur. Dünyada da, axirətdə də həmd-səna Ona məxsusdur. Hökm Onundur. Siz Onun hüzuruna qaytarılacaqsınız!*

Varlıqların təqdir və ölçü mərhələsindən sonra onların qəza mərhələsi başlayır. Bir şeyin qədəri müəyyən edilə bilər, ancaq qəzası (hökmü) təyin edilməmiş qala bilər. Belə olduqda həmin şeyin yaranmasına mane ola biləcək səbəblər ortaya çıxa bilər, deməli, həmin şey zahiri aləmdə aşkar olmaya bilər. Rəvayətdə belə deyilir ki, Allah bir şeyin qəzasını – yəni hökmünü rədd etdikdə, belə bir hökm bir daha geri dönməz, həmin şey isə gerçəkləşə bilməz.

"Allah öz hökmünü imza edər, təqdir etdiyi şey barəsində hökm verər və iradə etdiyi şeyin ölçü və təqdirini təyin edər" [11].

İlahi qəza iki qismdir: birisi dəyişə bilən qəza, o birisi isə dəyişməz qəza. Bir şeyin qəzası müəyyən müddətə qədər verilə bilər, sonra bu hökm dəyişər, onun yerinə başqa qəza (hökm) verilər. Bu barədə "Əcəl" və "Lövh" bölməsində bəhs ediləcək.

### *İzn anlamı*

Varlığın mərhələ və xüsusiyyətlərindən biri "izn" məfhumu ilə ifadə olunur. Həmin anlama görə, heç bir varlıq Allahın izni olmadan ərsəyə gələ bilməz. Əgər insan iman gətirirsə, onun imanı Allahın izni ilə olur. Əgər insan peyğəmbərlərə itaət edirsə, onun itaəti də Allahın izniilədir. Əgər insan üçün acı bir hadisə üz verirsə, bunun da kökü Allahın izni ilə bağlıdır. Əgər subyektdən bir hərəkət üz verirsə, həmin hərəkət Allahın izni ilədir.

Səmavi kitabda Allahın izni ilə bağlı müxtəlif ayələr işlənmişdir və onlardan bəziləri ilə tanış olaq:

Həşr surəsi, 5-ci ayə:

*(Ey möminlər! Sizin kafirlərə məxsus olan) hər hansı bir xurma ağacını kəsməyiniz, yaxud (toxunmayıb) onu kökü üstündə salamat qoymağınız Allahın izniledir. Və bu, Allahın (öz Rəbbinə asi olan) fasiqləri rüsvay etməsi üçündür.*

Əraf surəsi, 58-ci ayə:

*Təmiz (torpağı münbit) bir məmləkətin bitkiləri Rəbbinin iznilə (bol, vaxtında) çıxar. Pis (torpağı qeyri-münbit) bir məmləkətin bitkiləri isə yalnız çox çətinliklə, özü də az yetişər. Biz Öz ayələrimizi (nemətlərimizə) şükr edən bir tayfa üçün belə müfəssəl izah edirik.*

Yunus surəsi, 100-cü ayə:

*Heç kəs Allahın izni olmadan iman gətirə bilməz (Buna görə də əbəs yerə özünü yorma). Allah (Özünün öyüd-nəsihətlərini, hökmlərini) anlamayanları qəzəbə, əzaba düçar edər.*

Rəd surəsi, 38-ci ayə:

*(Ya Məhəmməd!) Biz səndən qabaq da peyğəmbərlər*

*göndərdik, onlara zövcələr, övladlar verdik. Allahın izni olmadıqca heç bir peyğəmbər heç bir möcüzə gətirə bilməz. Hər dövrün bir kitabı (lövhi-məhfuzda yazılmış hökmü) var. (İlahi kitablardan hər birinin öz nazil olma vaxtı*

*var. Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir.)*

Nisa surəsi, 64-cü ayə:

*Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik. Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər.*

Təğabun surəsi, 11-ci ayə:

*Allahın izni olmadıqca (heç kəsə) heç bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, Allah onun qəlbini haqqa doğru yönəldər və o, dünyada baş verən hər şeyin Allahın əzəli hökmü və izni ilə olduğunu bilər. Allah hər şeyi (keçmişi, indini və gələcəyi) biləndir!*

"İlahi izn" ifadəsi hər hansı bir maneənin aradan qaldırılması mənasında anlaşılır. Başqa sözlə desək, müəyyən səbəblərin işə düşməsi və həmin səbəblərə görə hər hansı bir hadisənin baş verməsinə əngəl olan amillərin aradan qaldırılması ilahi izn mənası daşıyır. Aləmdə olan bütün məxluq müəyyən təsir gücünə və hərəkətə (felə) malikdir. Həmin təsir və hərəkət Allah tərəfindən məxluqun mahiyyətində potensial şəkildə qoyulub. Hər hansı bir şeydən və ya subyektdən bir hərəkət və ya təsir baş verərsə, bu o deməkdir ki, Allah həmin hərəkət və ya təsiri əngəlləyəcək səbəbi aradan qaldırmış, həmin subyekt və ya predmeti belə bir təsir və hərəkət üçün qabil etmişdir.

Quran baxımından insan üçün baş verən hadisələr Allahın izni

ilə gerçəkləşir. İlahi izn bütün təsir proseslərini əhatə edir, çünki hər bir təsir Allahın izni ilə gerçəkləşir.

Qurani-kərimdə "izn" sözü eyni zamanda varlıqların itaət və Allaha bağlılığı mənasında işlənib. Göy barəsində deyilir ki, o Pərvərdigarın fərmanına təslim və müti olmuşdur.

İnşiqaq surəsi, 2-ci ayə:

*Və Rəbbinin buyuruğunu haqq olaraq eşidib Ona itaət edəcəyi zaman;*

## Varlıqların ahəngdar düzənə salınması və təqdiri

Yaradılış aləminin başqa bir xüsusiyyəti müxtəlif varlıqların ahəngdar düzənə salınması (təsviyə) və təqdiri məsələsidir – yəni hər bir mövcud olan şey müəyyən ahəngdar düzənə və təqdirə malikdir.

İndi bu iki anlamın izahını verməyə çalışaq və Qurani-kərimdə həmin məsələnin necə qoyulduğunu izləyək.

Əla surəsi, 1-3-cü ayələrdə belə deyilir:

*(Ya Peyğəmbər!) Ən uca olan Rəbbinin adını pak və müqəddəs tutub şəninə təriflər de!*

*O Rəbbin ki (hər şeyi) xəlq etdi və nizama saldı.*

*O Rəbbin ki (hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi.*

Quranda işlənən "təsviyə" sözü ahəngdar etmək və düzənləmək, düzən və nizama salmaq mənasında işlənir, burada varlıq aləmində mövcud olan hər şeyin tərkib hissələrinin, onların enerjisinin ahəngdar bir nizama salınması nəzərdə tutulur. Başqa sözlə desək, Allah hər bir xilqəti bərabər və ahəngdar surətdə yaradıb və xilqətin hər bir element və hissəsini öz yerində bərqərar edib. Bu nizamda heç bir yanlış və xəta ola bilməz.

Əllamə Təbatəbai öz təfsirində "təsviyə" sözünü izah edərək yazır:

"Təsviyə bir şeyin tərkib hissələrinin bərabər səviyyədə nizamla düzənlənməsi deməkdir, belə ki, burada hər bir hissə öz yerində yerləşməlidir. Burada elə bir ahəngdarlıq olmalıdır ki, ondan daha yaxşı düzən təsəvvürə gəlməsin, həmin şey belə bir düzənlə ən xoş təsir bağışlasın" [12].

Bu mənada bir neçə ayəyə diqqət yetirin:

Naziat surəsi, 27-28-ci ayələr:

*(Ey kafirlər!) Sizi yaratmaq çətindir, yoxsa Göyü ki Allah onu yaratdı;*

*Qübbəsini ucaltdı, düzəldib nizama saldı;*

Bəqərə surəsi, 29-cu ayə:

*Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat Göy halında düzəldib nizama salan Odur (Allahdır!). O, hər şeyi biləndir!*

Yuxarıdakı ayələrdə "Göyün təsviyəsindən" bəhs edilir ki, bunun da mənası Göyün düzənə salınması, onun tərkib hissələrinin ahəngdar şəkildə düzənlənməsi deməkdir. Onun hər qatı və hər bir təbəqəsi hikmətlə və tələbə uyğun bir halda yerləşdirilib.

Xatırladaq ki, təsviyə anlamı təkcə kainat və məxluqla məhdudlaşmır. Bütün varlıq aləmi, insan və onun nəfsi də Allah tərəfindən ahəngdar bir düzənə salınır.

Nəfslə bağlı aşağıdakı ayəyə diqqət yetirək.

Şəms surəsi, 7-8-ci ayələr:

*And olsun nəfsi (insanı və ya insan nəfsini) yaradana;*

*Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki,...*

Bu ayədə insan nəfsinin tənzimlənməsindən söhbət gedir, insanda olan nəfsi qüvvə gerçəkliyin tələbi ilə uzlaşır. Başqa bir tərəfdən, insanın özünün yaranma və təkamülü müəyyən nizam və qayda ilə tənzimlənir. Torpaqdan və damladan xəlq olunan insan qanunauyğun və ahəngdar bir təkamül yolu keçir.

Aşağıdakı bəzi ayələr bu baxımdan maraqlıdır.

Qiyamət surəsi, 37-39-cu ayələr:

*Məgər o, (ata belindən ana bətninə) tökülən bir qətrə nütfə deyildimi?!*

*Sonra laxtalanmış qan oldu və Allah onu yaradıb surət verdi (insan şəklinə saldı).*

*Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cift (həmtay) yaratdı.*

İnfitar surəsi, 7-ci ayə:

*O Rəbbin ki səni yoxdan yaratdı, düzəldib qaydaya (insan şəklinə) saldı.*

Kəhf surəsi, 37-ci ayə:

*Onunla söhbət edən (mömin) yoldaşı belə dedi: "Əvvəlcə səni (atan Adəmi) torpaqdan, sonra bir qətrə sudan (mənidən) yaratmış, daha sonra səni adam şəklinə (insan qiyafəsinə) salmış Allahı inkarmı edirsən?*

Bu ayələrdə insanın ahəngdar bir biçimə salınmasına, Allahın xaliq olaraq hər şeyi mükəmməl və yetkin şəkildə yaratmasına, öz xilqətinə nizam və düzən verməsinə işarələr vardır.

Təqdir məsələsinə gəlincə, bu məfhumun kökü "qədər" sözündəndir – yəni hədd və ölçü. "Bütün varlıqlar təqdirə malikdir" dedikdə belə bir məna nəzərdə tutulur ki, hər bir varlığın öz müəyyən ölçü və hüdudu vardır. Hər bir şeyin həndəsi ölçüləri, miqdarı və hüdudları vardır. Bir şey öz şəkil və ölçülərinə görə başqalarından fərqlənir. Hər bir varlığın özünəməxsus ölçüsü, forması və hüdudu vardır. Hətta insanlar ölçü və şəkil baxımından bir-birindən fərqlənir. Bütün varlıq aləmi – bərk cisimlər, bitki və heyvanat aləmində həmin fərqlənmə müşahidə edilir. Deməli, zahiri maddi dünyada müşahidə edilən bütün varlıqlar ölçü, şəkil, güc və təsir baxımından bir-birindən seçilir və fərqlənir. Ona görə Qurani-kərim hər bir şey üçün müəyyən ölçü və qədər nəzərdə tutur – yəni Allahın xilqətində ölçüsüz və qədərsiz heç nə yoxdur.

Hicr surəsi, 21-ci ayə:

*(Yerdə və Göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk. (Onun nə qədər lazım olması isə yalnız Bizə məlumdur.)*

Bu ayəyə görə, Allah tərəfindən dünyada yaradılan hər şey müəyyən ölçü və həddə malikdir. Allahın feyzi hər bir varlıq nümunəsi üçün müəyyən ölçü və hədd təyin edir.

Bu məzmuna işarə edən ayələr çoxdur.

Rəd surəsi, 8-ci ayədən:

*"Hər şey Onun yanında müəyyən ölçü ilədir."*

Talaq surəsi, 3-cü ayə:

*Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz buyuruğunu yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü (hədd, müddət) təyin etmişdir.*

Qəmər surəsi, 49-cu ayə:

*Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq.*

Muminun surəsi, 18-ci ayə:

*Biz Göydən (lazım olduğu) qədər yağmur endirdik və onu Yerdə (dənizdə, çayda, göllərdə və quyularda) saxladıq. Biz sözsüz ki, onu aparmağa da (yox etməyə də) qadirik!*

Sonuncu ayəyə görə, hər şeyin təqdiri vardır. Göydən yağan yağmur müəyyən miqdar ilə nazil olur. Bu miqdar bitkilərin böyüməsi üçün kifayət edir. Həmin yağmur ölü torpağı dirildir və torpaq göyərərək yenidən canlanır. Əgər yağmur ölçüdən çox olarsa, nə bitkilər böyüyər, nə də torpaq dirçələrdi. Deməli, ölçü və miqdar varlıq aləmi üçün önəmli şərtdir.

Təqdir anlamı təkcə fiziki ölçü və miqdarla məhdudlaşmır. Varlıq aləmindəki hər bir prosesin zaman baxımından müəyyən miqdarı olur, Günəş və Ay müəyyən çərçivədə hərəkət və dövr edir.

Zuxruf surəsi, 11-ci ayə:

*O Allah ki Göydən bir qədər (sizin ehtiyacınızı ödəyə biləcək miqdarda) su endirdi. Biz onunla ölü bir məmləkəti dirildirik. Siz də (qiyamət günü dirildilib qəbirlərinizdən) belə çıxardılacaqsınız!*

Mursəlat surəsi, 20-22-ci ayələr:

*Məgər sizi bir qətrə zəif, dəyərsiz sudan (nütfədən) yaratmadıqmı?!*

*Biz onu möhkəm bir yerdə (ana bətnində) saxladıq;*

*Müəyyən bir vaxta qədər.*

Ənam surəsi, 96-cı ayə:

*(Gecənin zülmətindən) səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, Günəşi və Ayı (vaxt üçün) bir ölçü vasitəsi edən də Odur. (Bütün) bunlar yenilməz qüvvət və elm sahibi olan Allahın təqdiridir (əzəli hökmüdür).*

Yasin surəsi, 38-ci ayə:

*Günəş də (qüdrət əlamətlərimizdən biri kimi) özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın əzəli hökmüdür (təqdiridir).*

Fussilət surəsi, 12-ci ayə:

*Allah onları (səmaları) yeddi (qat) Göy olaraq iki gündə əmələ gətirdi. (Beləliklə, iki gün ərzində Yer, sonra iki gün ərzində Yer üzündə olanlar, daha sonra iki gün ərzində Göylər xəlq edildi. Kainatın yaradılması altı gün ərzində başa çatdı.) O, hər bir Göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı Göyü (dünya səmasını) qəndillərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur).*

Son ayələrə görə, Günəş və Ay müəyyən ölçü və mizanla yaradılıb. Onların dövr etməsi və hərəkəti də nizamla müəyyənləşib və insanlar öz həyatlarını həmin ölçü və nizamla tənzimləyirlər. Gözəl ulduzlar Göy üzünü çıraq kimi bəzəyir və bunlar bir növ İlahinin düzənlədiyi həndəsi ölçü və təqdir əsasında sayrışır. Əgər bütün varlıqlar və məxluqat indiki ölçü və hüduda malik olmasaydı, xilqətdə heç bir nizam və harmoniya olmazdı və xilqət hədəfsiz, bihudə bir şey kimi dağınıq, sərgərdan halda qalardı.

Xilqət aləmindəki varlıqların təsviyə və təqdiri məfhumu ilə daha yaxından tanış olmaq üçün təbiətşünaslıq elminin maraqlı bir mülahizəsini diqqətə gətiririk.

Adətən Yer kürəsi böyük fəza müqabilində kiçik və əhəmiyyətsiz sayılır. Əgər Yer öz ölçüsünə görə Ay boyda olsaydı və onun diametri isə indiki ilə müqayisədə dörddə bir qədər az olsaydı, ümumdünya cazibə qüvvəsi Yer üzərindəki çayları və havanı saxlaya bilməzdi. Cazibə qüvvəsi bir növ altıda bir qədər azalardı. Yerin hərarəti dəhşətli surətdə yüksələrdi.

Əksinə, əgər Yerin diametri iki dəfə çox olsaydı, onun sahəsi dörd dəfə və cazibə qüvvəsi iki dəfə artardı. Atmosferin hündürlüyü təhlükəli dərəcədə azalar, havanın təzyiqi 1 kq/sm-dən 2 kq/sm-dək yüksələrdi. Bütün bunlar Yer üzərindəki həyat mühitinə çox ciddi təsir göstərərdi. Yer üzərinin böyük bir hissəsi qış mövsümü keçirər, yaşamaq üçün yararlı yerlər hədsiz surətdə azalardı. İnsanların məskunlaşdığı yaşayış yerləri bir-birindən çox aralı düşər, rabitə vasitələri çox çətin və ya qeyri-mümkün olardı.

Əgər Yer kürəsi Günəş boyda olsaydı, öz xüsusi çəkisini saxlayar və cazibə qüvvəsi 15 dəfə çox olardı. Atmosferin hündürlüyü 10 km-ə qədər aşağı düşər, suyun buxarlanması mümkünsüz olar və havanın təzyiqi 150 kq/sm$^2$-ə çatardı. 1 kq çəkisində olan hər bir canlı 150 kq çəkiyə malik olardı. Adamların cüssəsi sincab boyda kiçilər və belə bir məxluq əqli inkişafdan məhrum olardı.

Əgər Yer ilə Günəş arasındakı fasilə indiki məsafədən iki dəfə çox olsaydı, Günəşdən Yer üzərinə gələn hərarət dörddə bir qədər aşağı düşərdi. Yerin öz oxu ətrafında fırlanma sürəti yarıbayarı azalar, qış fəsli iki dəfə çoxalar və canlı aləm buz bağlayardı.

Əksinə, əgər Yer ilə Günəş arasındakı fasilə iki dəfə az olsaydı, istilik dörd dəfə, Yerin öz oxu ətrafında fırlanma

sürəti iki dəfə çoxalar, fəsillərin vaxtı yarıbayarı olar, Yer nazilər və həyat mümkünsüz olardı.

Bu qısa elmi mülahizə bir daha xilqətin müəyyən ölçü və düzənlə yarandığını təsdiq edir. Allahın xilqətində hər şey ölçülüb-hesablanıb. Bu düzəni və bu təqdiri heç bir insan zəkası düşünüb nizama sala bilməzdi.

## Varlıqların hərəkəti

Təbiət aləmindəki varlıqların əsas xüsusiyyətlərindən biri hərəkət anlamı ilə bağlı izah olunur. Hərəkət məfhumu barədə hələ qədim zamanlardan başlayaraq filosoflar geniş bəhs etmiş, çoxlu araşdırmalar aparmışlar. Filosof və müdriklər hərəkətin müxtəlif tərifini vermişlər və bu təriflər arasında ümumi bir baxışı əks etdirən yığcam fikir ondan ibarətdir ki, hərəkət bir şeyin potensial gücünün hərəkətə və fəaliyyətə keçməsi nəticəsində baş verir.

Keçmiş filosoflar, o sıradan İbn Sina hərəkəti yalnız aksidensiya ilə əlaqələndirmişlər. Hər hansı bir şeyin iki əsas cəhəti vardır: mahiyyət (cövhər) və aksidensiya (şəkil və ya zahiri forma). Qədim filosoflara görə hərəkət dörd baxımdan gerçəkləşir: kəmiyyət, keyfiyyət, məkan və vəziyyət. Misal üçün, alma böyüyərkən həm çəki və ölçü baxımından (kəmiyyət baxımından hərəkət), həm də rəng, iy və dad baxımından (keyfiyyət cəhətdən hərəkət) dəyişir. Bundan başqa, iki hərəkət vardır: məkan baxımından və vəziyyət baxımından hərəkət.

Molla Sədranın zamanınadək böyük islam filosofları həmin hərəkət növlərini qəbul etmişlər. O isə ilk dəfə olaraq mahiyyətlə bağlı cövhərin hərəkəti məsələsini qətiyyətlə qoydu. Həmin baxışa görə hərəkət əslində zahiri formada deyil, şeylərin mahiyyət (substansiya) və cövhərindədir. Varlıq aləmi bütöv bir tam kimi hərəkət və dəyişmə halı keçirir. Hər şey cövhər və mahiyyətcə dəyişir və hər an yeni bir vəziyyət alır. Aksidensiyada baş verən

hərəkət də substansiya və cövhərlə bağlıdır. Molla Sədra öz təlimini əsaslandırmaq üçün təkcə fəlsəfi dəlillərlə kifayətlənmir, öz düşüncəsini Quran ayələri ilə təsdiqləyir. Bu baxımdan bir sıra Quran ayələrini nəzərdən keçirək [13].

Rəhman surəsi, 29-cu ayə:

*Göylərdə və Yerdə kim varsa, hamısı Ondan (ruzi, mərhəmət və mədəd) diləyər. O hər gün (hər an) bir işdədir (birini öldürər, birini dirildər; acizə kömək, zalimə qəhr edər; birinin duasını qəbul edər; birinə mərhəmət əta edib digərinə cəza verər. Bir işlə məşğul olmaq Onu digərindən yayındırmaz).*

Qurani-kərimdə təbiətlə bağlı toxunulan məsələlərdən biri varlıq aləmindəki şeylərin hərəkətidir. Quran ayələrində həmin məsələyə işarələr vardır.

Nəml surəsi, 88-ci ayə:

*(O gün) dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi bacarıqla, yerli-yerində edən Allahın gördüyü işdir. Həqiqətən O, etdiyiniz bütün əməllərdən xəbərdardır!*

Bu ayədə dağların hərəkətindən bəhs edilsə də Yerin hərəkətinə də işarə edilir.

Aşağıdakı ayədə isə Göylərin, Günəş və Ayın hərəkəti təsvir edilir.

Rəd surəsi, 2-ci ayə:

*Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən, sonra Ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta (dünyanın axırına, qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı (iradəsinə) tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra), Rəbbinizlə qarşılaşacağınıza, qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza bəlkə inanasınız!*

Başqa bir ayədə Göyün geniş açılmasına işarə edilir ki, burada bir hərəkət məfhumu vardır, belə ki, hərəkətsiz genişlənmə anlamı ola bilməz.

Zariyat surəsi, 47-ci ayə:

*Biz Göyü qüdrətimizlə (qüdrət əlimizlə) yaratdıq və Biz (istədiyimiz hər şeyi yaratmağa) qadirik. (Və ya Biz Göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik.)*

Bir sıra ayələrdə isə təbiət aləminin sonluğu ilə bağlı dəyişmələrdən bəhs edilir. Həmin dəyişmələr bir növ hərəkət məfhumu ilə bağlıdır. Qiyamətin təsvirini verən Quran kəskin dəyişmələri hərəkət anlamı ilə bəyan edir.

Vaqiə surəsi, 4-6-cı ayələr:

*Yer hərəkətə gəlib şiddətlə titrədiyi zaman*

*Və toz səpələndiyi zaman*

Quranda təbiət hadisələri ilə bağlı dəyişmə və hərəkətlə yanaşı, cəmiyyətdə baş verən hərəkətlərə işarə vardır.

Ali-İmran surəsi, 140-cı ayə:

*Əgər siz (Ühüd müharibəsində) yara aldınızsa, o biri (kafir) dəstə də (Bədr müharibəsində) o cür yara aldı. Biz bu günləri (bu hadisələri) insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri (başqalarından) ayırd etsin və içərinizdən şəhidlər (şahidlər) seçsin. Allah zülmkarları sevməz!*

Quran ayələrində cəmiyyətdə baş verən hərəkət və dəyişmələrlə yanaşı, həmin hərəkəti törədən amillərə də işarə edilir.

Rəd surəsi, 11-ci ayə:

*İnsan üçün onu öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar. Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Allahdan başqa onların heç bir hamisi də olmaz.*

Ənfal surəsi, 53-cü ayə:

*(Kafirlərə verilən) bu əzab ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti (naşükürlük üzündən küfrə) dəyişməyincə, Allah da ona əta etdiyi neməti (pisliyə) çevirən deyildir. Həqiqətən, Allah (hər şeyi) eşidən və biləndir!*

Bu ayələrdə insanların daxili hərəkət və dəyişmələri – yəni rəftar və əxlaq baxımından hərəkətləri bəşər cəmiyyətinin inkişafı üçün önəmli amil sayılır. Daha sonra bəşər cəmiyyətində baş verən dəyişmələrin son qayəsi önə çəkilir: bu isə Yer üzərində saleh əməl sahiblərinin hakimiyyətinin təmin edilməsini nəzərdə tutur.

Qəsəs surəsi, 5-ci ayə:

*Biz də o yerdə zəif düşüb əzilənlərə (İsrail oğullarına) bol nemət vermək, onları (dində və xeyirxah işlərdə) rəhbər etmək, Fironun mülkünə varis etmək qərarına gəldik.*

Ənbiya surəsi, 105-ci ayə:

*Biz Tövratdan (yaxud lövhi-məhfuzdan) sonra Zəburda da cənnət torpağına (Yer üzünə və ya müqəddəs torpağa) yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq.*

Qurani-kərimdə, maddi dünyadakı varlıqların hərəkəti və insan cəmiyyətinin təkamül yolları ilə yanaşı, bütün aləmlərin ümumi hərəkətinin qayəsi müəyyənləşdirilir. Qurana görə hər bir varlıq nümunəsinin hərəkətinin son mənzili Allaha doğru seyrdən ibarətdir. Bu mənada çoxsaylı ayələr vardır ki, burada yalnız ikisinə işarə edirik.

Şura surəsi, 53-cü ayə:

*O Allahın yoluna ki, Göylərdə və Yerdə nə varsa, hamısı Onundur. Bil ki, bütün işlər axırda Allaha qayıdacaqdır!*

Maidə surəsi, 18-ci ayə:

*Yəhudilər və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və sevimliləriyik." Onlara de: "Bəs onda Allah nə üçün günahlarınıza görə sizə əzab verir?" Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. Allah istədiyini bağışlar, istədiyinə*

*əzab verər. Göylərin, Yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir və axır dönüş də Onun hüzurunadır!*

## Varlığın hidayət olunması

Quranda varlığın hərəkəti ilə yanaşı, onun hidayət olunması məsələsi də qoyulur. Quran ayələrinə görə aləmdə mövcud olan varlıqlar Allahın əmri ilə ölçü və miqdar baxımından müəyyən biçimə salınır və düzənlənir. Bundan əlavə, onlar bir növ hidayət yolu keçir.

Əla surəsi, 2-3-cü ayələr:

*O Rəbbin ki (hər şeyi) xəlq etdi və nizama saldı.*

*O Rəbbin ki (hər şeyin keyfiyyətini, xüsusiyyətini, davam müddətini) əzəldən müəyyən etdi və (hamıya) yol göstərdi.*

Musa peyğəmbər (ə) Fironla qarşılaşanda onu aləmlərin Pərvərdigarı olan Allaha doğru dəvət edir. Firon isə Musadan (ə) aləmlərin Pərvərdigarını ona göstərməyi tələb edir. Musa (ə) onun cavabında belə deyir.

Taha surəsi, 50-ci ayə:

*(Musa) belə cavab verdi: "Rəbbimiz hər şeyə Öz surətini və şəklini verən, sonra da ona doğru yolu göstərən Allahdır!"*

Bu şərafətli ayədə iki önəmli prinsipə işarə vardır. Birinci prinsip ondan ibarətdir ki, Allah xilqətdə hər bir şeyə lazım olan xasiyyətləri bağışlayıb. Hər bir bitki növünü araşdırsaq, görərik ki, ətraf təbii mühitlə tam ahəngdar şəkildə yaradılıb və ona ehtiyac olan nə varsa hamısı hazırlanıb.

İkinci prinsip isə varlıqların hidayəti – yəni doğru yola yönəlməsi məsələsidir. Yəni hər bir varlıq nümunəsi öz potensial gücündən həyatını davam etdirmək yolunda bəhrələnir və öz son hədəf və qayəsinə doğru yönəlir.

Hidayət dedikdə bütün varlıq aləminə şamil edilən keyfiyyət nəzərdə tutulur. Bu isə hər bir şeyin öz

mövcudiyyət qayəsinin təyin edilməsi və həmin qayə və hədəfə yetişmək üçün keçdiyi yol deməkdir. Başqa ifadə ilə desək, hidayət hər bir varlıq nümunəsi üçün münasib kamillik parametrinin müəyyən edilməsi – yəni onun son hədəf və qayəsinin təyin edilməsi və həmin qayəyə yetişmək yolu deməkdir. Bu baxımdan, bütün varlıq nümunələri müəyyən hədəf və qayəyə malikdir və onlar üçün ilahi hidayət yolu vardır.

Varlıq aləminin qaynağı olan Allah başlanğıcda hər bir məxluqu yaratdıqdan sonra həm onun keçəcəyi təkamülü, həm də son qayəyə yetişmək üçün düzgün yolu müəyyən etmişdir.

Varlıq aləmində müşahidə edilən çeşidli xilqət növləri ilə bağlı hidayət anlamını şərti olaraq bir neçə qismə ayırmaq olar.

### ***Təbii hidayət***

Bu növ hidayət varlıq aləmindəki iki növ xilqətə şamil edilir: bərk cisimlər (maddi aləmdə mövcud olan qeyri-üzvi təbiət) və bitki aləmi. Bitki və canlı bioloci (heyvanat) aləmindən başqa kainatda olan səmavi cisimlər, Göy, Günəş, Ay, ulduzlar və Yer üzərində olan cismani varlıqlar bərk cisimlər (camadat) sırasına daxildir. Bu növ hidayət bir sıra Quran ayələrində vurğulanır.

Fussilət surəsi, 12-ci ayə:

*Allah onları (səmaları) yeddi (qat) Göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir Göyün işini özünə vəhy edib bildirdi.*

Ulduzlar həm dəryada hərəkət edənlər və həm də səhrada olanlar üçün səmti müəyyən etməyə kömək edir. Gəmidə səfər edənlər ulduzlar ilə istiqaməti tapıb sahilə çıxa bilir və nicat tapırlar. Səhrada hərəkət edənlər onların köməyi ilə yolu tapırlar. Minaya bənzər Göy qübbəsinin ulduzlarla bəzədilməsi hidayət baxımından əhəmiyyətlidir. Başqa ayələrə diqqət yetirək.

Ənam surəsi, 27-ci ayə:

*Suyun və qurunun zülmətində (yolunuzu) düz getmək üçün ulduzları da sizin üçün yaradan Odur. Biz bu ayələri anlayan bir camaat üçün bu cür ətraflı izah etdik.*

Nəml surəsi, 63-cü ayə:

*Yaxud suyun və qurunun (dənizin və səhranın) zülmətlərində sizə doğru yol göstərən, küləyi Öz rəhməti (yağışı) önündə bir müjdəçi olaraq göndərən kəs?! Məgər Allahla yanaşı başqa bir Tanrımı var?! Allah müşriklərin Ona şərik qoşduqları bütlərdən ucadır.*

Buludlar Göydə sıxlaşarkən təbiətdə bir sıra proseslər cərəyan edir və Göy üzərindən rəhmət yağışı nazil olur, bununla ölü torpaqlar dirçəlir, bitkilər göyərib çiçəklənir və bütün bu dəyişmələrdə ilahi hidayətin nişanələri vardır.

Fatir surəsi, 9-cu ayə:

*Buludları hərəkətə gətirən külələri Allahdır göndərən. Biz o buludları quru (ölü) bir məmləkətə tərəf qovub onunla öldükdən sonra torpağı dirildirik. Ölüləri diriltmək də belədir!*

Zumər surəsi, 21-ci ayə:

*(Ya Peyğəmbər!) Məgər Allahın Göydən yağış yağdırdığını, onu Yer üzündəki bulaqlara axıtdığını, sonra onunla növbənöv əkin yetişdirdiyini görmürsənmi?! Sonra o əkin quruyar, sən onu saralmış görərsən. Sonra da Allah onu çör-çöpə döndərər. Həqiqətən, bunda ağıl sahibləri üçün ibrətlər vardır!*

### *İnstinkt baxımından hidayət*

Bu növ hidayət heyvanat aləminə xasdır. Heyvanlar öz gizli şüuruna əsasən öz həyat məqsədini müəyyənləşdirir və həmin məqsədə yetişmək üçün təlaş edirlər. Yemək əldə etmək, dostu və düşməni tanımaq, həyatını qorumaq üçün müdafiə tədbirləri görmək, təbii artım və övladı böyütmək, yuva qurmaq və bir sıra başqa işlər – heyvanlara aid edilən hidayətdir. Yəni Allah heyvanat

aləminə bərk cisimlər və bitkilərdən fərqli olan hidayət yolu təyin edib.

Nəhl surəsi, 68-ci ayədə deyilir:

*Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: "Dağlarda, ağaclarda və insanların qurduğu yerlərdə (evlərin damında, üzümlüklərdə) özünə yuva tik;*

4500 növ bal arısı vardır, bəziləri axtarış işi görür və pətəyi sahmana salır, güllərdən şirə toplayır və pətəyə daşıyırlar. Bal arıları dağlar qoynunda, ağaclar arasında, başqa münasib guşələrdə şan düzəldir, altıbucaqlı yuvacıqlar qurur və çox dəqiq mühəndislik işi görürlər. Arılar toplum halda nizamlı bir ictimai həyat keçirir, öz yaşam və fəaliyyətini qayda-qanun üzrə və planlı surətdə tənzimləyirlər. Onların bu sayaq məntiqli və nizamlı yaşamı ilahi hidayətin nişanələrini təsdiq edir.

### *Fitri hidayət*

Bu hidayət növü insanlara məxsusdur. İnsanda elə bir fitri güc vardır ki, onu öz varlığının son qayəsi olan kamillik məqamına doğru hidayət edir.

İnsan üçün ən uca və önəmli hidayət onun fitrətində olan Allah istəyidir, insan həmin istək ilə həm Allahı tanıyır, həm də Ona ilahi bir qüdrət kimi pərəstiş etməklə öz əxlaqını kamilləşdirir. İnsan Allahın hökmü ilə hidayət olunur, hidayət nuru bəşərin fitrətində vardır.

Rum sürəsi, 30-cu ayədə deyilir:

*(Ya Məhəmməd! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlıq kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dinin islam olduğunu) bilməz. (Allah bütün insanları xilqətcə müsəlman – təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə – bütpərəstliyə uymuşlar.)*

Eyni zamanda, insan öz daxili-fitri hidayət qabiliyyətinə görə xeyir ilə şəri bir-birindən ayırmağa və bununla da təkamül yoluna qədəm basmağa qadirdir.

Şəms surəsi, 7-10-cu ayələr:

*And olsun nəfsi (insanı və ya insan nəfsini) yaradana;*

*Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki,*

*Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!*

*Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.*

Bələd surəsi, 10-cu ayə:

*Biz ona iki yolu (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi?!*

Yuxarıda qısaca bəhs edilən üç növ hidayət yaradılış və xilqət aləmi ilə bağlıdır. İnsandakı hidayət xisləti başqa varlıqlarla ortaqdır – yəni insanda həm cismani vücud, həm canlılara xas olan instinkt və həm də fitri şüurlu hidayət növü özünü göstərir. Bunlardan başqa, insanda xüsusi bir hidayət istedadı vardır ki, bu da ilahi qanunlara uyğun batini-mənəvi hidayətdir. Bu növ təşri – şəriətdən doğan hidayət adlanır. Həmin hidayət prinsipinə görə, Allah insanlara kitab və mizanla yüksəliş və kamillik yolu göstərən peyğəmbərlər göndərir. Bu, Allahın bəşərə olan böyük lütf və rəhməti sayılır.

Hədid surəsi, 25-ci ayə:

*And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) köndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər.*

Aşağıdakı ayələrdə isə insana xas olan xilqət və şəriətlə bağlı hidayət növü diqqəti cəlb edir, Allah bəşərin mükəmməl yaşamını təmin etmək məqsədilə onun üçün

bütün şəraiti yetişdirir. Ən önəmlisi isə, Allahın insana doğru yol göstərməsidir.

Nəhl surəsi, 9-12-ci ayələrin məntiqinə diqqət yetirin:

*Doğru yolu (islamı) göstərmək Allaha aiddir. Haqdan kəc olan yol (və ya haqdan kənara çıxan) da vardır. Əgər Allah istəsəydi, sizin hamınızı doğru yola salardı.*

*Göydən sizin üçün yağmur endirən Odur. O sudan siz də, içində (heyvanlarınızı) otardığınız ağaclar və otlar da içər (ağaclar və otlar da onun vasitəsilə bitər).*

*Allah o su ilə sizin üçün əkin (taxıl, bitki), zeytun, xurma ağacları və bütün meyvələrdən yetişdirir. Düşünüb-daşınanlar üçün bunda (Allahın vəhdaniyyətini sübut edən) dəlillər vardır.*

*O, gecəni və gündüzü, Günəşi və Ayı sizə (sizin mənafeyinizə) tabe etdi. Ulduzlar da Onun əmrinə tabedir. Doğrudan da, bunda ağılla düşünənlər üçün ibrətlər vardır!*

Təkcə təbiət aləmindəki varlıqlar deyil, hətta mələklər də ilahi hidayətin sayəsi altında olur. Onlardan hər birinin öz vəzifə və missiyası vardır, ilahi hidayət olmadan bu missiya gerçəkləşməz.

Fatir surəsi, 1-ci ayə:

*Göyləri və Yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (peyğəmbərlərə) elçi edən Allaha həmd olsun! Allah məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!*

Bir sözlə, hidayətin əhatə çevrəsi o qədər geniş və bütövdür ki, bütün kainatı və dünyada mövcud olan varlıqları özündə birləşdirir. Tovhid baxımından ilahi hidayət çevrəsindən kənar heç bir məxluq yoxdur.

## Varlıq aləminin elmi və idrakı

Varlıq aləmindəki şeylərin elmi və idrakı islam hikmətində qoyulan əsas məsələlərdən biridir. Quran ayələrinə əsasən yaradılış aləmində mövcud olan bütün

varlıqlar elm və qavrayışa malikdir. Təkcə insan və canlılarda deyil, bəlkə cansız bərk cisimlərdə də belə dərk və şüur qabiliyyəti vardır. Ancaq elm və idrakın öz dərəcə və mərtəbələri mövcuddur.

Bir sıra ayələrdə varlıq aləmindəki bütün zərrəciklərin şüur və bilgiyə malik olmasına işarə edilir. Həmin ayələrdən bir qismini nəzərdən keçirək. Bir ayəyə görə bütün əşya nitq və idraka malikdir.

Fussilət surəsi, 21-ci ayə:

*Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" – deyəcəklər. Dəriləri də belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılacaqsınız!"*

Bu ayəyə əsasən, Allah dünyadakı bütün varlıqları dilləndirməyə qadirdir, hətta su və torpaq da nitq açıb danışa bilir. Ancaq bu gizli dili bəşər bilmir.

Başqa ayələrdə canlı aləmin dərketmə və şüur qabiliyyəti yada salınır. Həzrəti Süleyman (ə) qarışqaların dilini bilirdi. Süleyman peyğəmbər öz qoşunu ilə çöldən keçərkən bir qarışqa dəstədə olan başqa qarışqaların ayaq altda qalaraq məhv olacağından qorxur və belə bir nida qoparır.

Nəml surəsi, 18-ci ayə:

*Nəhayət, onlar (Taifdəki, yaxud Şamdakı) qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa (qarışqaların padşahı) dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!"*

Süleyman peyğəmbər (ə) də qarışqaların danışığını başa düşür və bu böyük nemətə görə Allaha şükr edir. Başqa bir yerdə isə Süleyman peyğəmbərin (ə) quşların dilini bilməsi xatırlanır.

Nəml surəsi, 16-cı ayə:

*Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) vərəsə oldu və dedi: "Ey insanlar! Bizə quş dili öyrədildi və (peyğəmbərlərə, padşahlara nəsib olan) hər şeydən verildi. Bu həqiqətən, açıq-aşkar bir lütfdür!"*

Qurani-kərim Nəml surəsində (20-25-ci ayələr) Hüdhüd adlı quşdan söhbət açır və bu quşun fövqəladə şüur və dərketmə qabiliyyəti vardır. Hüdhüd quşu hətta şirk ilə tovhidi bir-birindən seçə bilir. Süleyman peyğəmbər (ə) onu bir tapşırıq ardınca göndərir və quş qayıdarkən gecikir. Süleyman peyğəmbər (ə) qərara gəlir ki, əgər quşun gecikməsi üzürlü səbəbdən deyilsə, onu cəzalandırsın. Bir az keçməmiş quşcuğaz qayıdıb, Süleymana belə söyləyir:

– Mən bildiyim məsələni sən bilmirsən. Mən Səba diyarından sənə zəruri bir xəbər gətirmişəm. Orada bir qadın hökmranlıq edir. Onun böyük bir taxtı vardır. Ancaq bu diyarın camaatı və padşahın özü də Allah əvəzinə bütə ibadət edirlər. Şeytan onların əməllərini öz gözlərində gözəl göstərir. Bu camaat tovhid etiqadından və düzgün yoldan azmışdır. Nə üçün onlar Allaha ibadət etmirlər? Bu həmin Allahdır ki, Yerdə və Göylərdə gizli olanları aşkar edir və hər şeyi bilir.

Qiyamətə aid ayələrdə də varlıq aləminin elm və idrakı barədə bəhs edilir. Qiyamət qoparkən Yer özü insanların gördükləri əməllərə şahidlik edəcək. Şahidlik etmək üçün müəyyən şüur və bilgi lazım gəlir. Belə nəticə alınır ki, Yer bilik və anlağa malikdir. Təbiidir ki, bu idrak ilahi vəhy ilə müyəssər olur.

Zilzal surəsi, 2-5-ci ayələr:

*Yer öz yükünü çıxardıb atacağı zaman;*

*İnsan (təəccüblə): "bu yerə nə olub?"– deyəcəyi zaman* –

*Məhz o gün Yer öz hekayətini söyləyəcəkdir –*

*Allahın ona etdiyi vəhy ilə!*

Bundan başqa, Quran ayələrində bildirilir ki, qiyamət zamanı əllər, ayaqlar, hətta bədənin dərisi insanların

dünyada törətdikləri günahlara görə şahidlik verəcəklər. Bu isə bir daha varlıq aləminin bilgi və idraka malik olduğunu təsdiqləyir.

Nur surəsi, 24-cü ayə:

*Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir.*

Yasin surəsi, 65-ci ayə:

*Bu gün (Allaha and olsun ki, biz müşrik, kafir deyildik – dediklərinə görə) onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər.*

Fussilət surəsi, 21-ci ayə:

*Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" – deyəcəklər. Dəriləri də belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılacaqsınız!"*

Bir sözlə, Quran ayələrinə görə bütün varlıq aləmindəki şeylər elm və idraka malikdir. Əlbəttə, ayrı-ayrı varlıq nümunələrinin elm və idrakı dedikdə başqa bir anlam nəzərdə tutulur. Bu adi bilgi deyildir. Bu sayaq bilgi və idrak adi insanlar üçün anlaşıqlı deyildir. Əgər bizlər bir şeyi anlamağa qabil deyiliksə, bu o demək deyildir ki, həmin məsələni inkar etməliyik. İrfan baxımından hər bir varlığın özünəməxsus dili vardır. Cəlaləddin Rumi kainat düzənindəki paradoksal və təzadlı vəziyyəti bədii dil ilə bəyan edərək, başqa bir sirli aləmin varlığını inkar edənləri ayıltmağa çalışır, diriliyin həmin aləmə xas olduğunu vurğulayır:

Bu aləm ölüdür, o aləm ölməz
Bu tərəf laldırsa, o tərəf susmaz.
O aləmdən bizə mücdələr gələr,
Əcdaha əllərdə əsaya dönər.
Dağlar Davud kimi ləhn ilə gülər,

Dəmirsə əllərdə muma çevrilər.
Külək Süleymana pəyama qaçar,
Dəryalar Musayla söz-söhbət açar.
Ay Əhmədlə işarətlə danışar
İbrahim atəşi gülə qovuşar.
Qarun torpağını ilan tək çəkər,
Tanrı ətəyini yalvarıb öpər.
Daşlar da Əhmədə salam göndərər,
Dağ isə Yəhyaya peyğam göndərər.

Bəli, bərk cisimlər də elm və şüur sahibi kimi təsəvvür edilir; insan öz zahiri hissləri ilə bunu anlaya bilmir. Varlıq aləminin dilini anlamaq üçün əhli-dil olmaq, batini görümə yiyələnmək gərəkdir. Əzəmətli peyğəmbərlər və kəramətli övliyalar onların dilini anlaya bilmişlər.

Su danışar, torpaq inlər, gül gülər,
Əhli-dil onların dilini bilər.

Molla Sədra öz fəlsəfi şərhində varlıq aləmindəki məxluqların bilgi və anlağa malik olmasını sübut etmək üçün bir sıra fəlsəfi dəlillər gətirir və burada həmin dəlillərin xülasəsini verməklə kifayətlənirik. Həmin dəlillərin bir qismi belə izah edilir:

**Əvvələn**, dünyada olan bütün kamilliklər Haqqın vücudundan irəli gəlir. Əgər qüdrəti və gücü kamillik mənasında biliriksə, bu güc Allahdandır. Əgər həyatı kamillik kimi tanıyırıqsa, bu həyat da Allahdandır. Əgər elmi kamillik mənasında başa düşürüksə, həmin elm Allah tərəfindəndir, bu elmin qaynağı Allahdır.

**İkincisi,** varlıq aləminin bütün mərhələlərində vücud anlamı bir həqiqətdən ibarətdir. Bu həqiqətin isə mərtəbələri vardır. Həqiqət mərtəbələri ehtiyacsız (qəni) olan vacibül-vücuddan başlayır və başqa varlığa möhtac olan mümkün varlıqlara kimi davam edir. Bütün varlıq mərtəbələri həqiqətin təzahürləridir və onlar arasındakı fərq keyfiyyət baxımından bir cəhətin güclü, başqa bir cəhətin isə zəif olması zəminində aşkar olur. Vacibül-vücud öz

substansiyası ilə ehtiyacsız (qəni) olan bir anlamdır, mümkün vücud isə öz substansiyası baxımından başqa varlıqlara möhtac olan məfhumdur. Onlar arasında ortaq və fərqli cəhətlər vardır. Bu deyilənlərdən belə bir nəticə alırıq ki, əgər elm və idrak məsələsini vücudun ən ali mərtəbəsi səviyyəsində irəli sürsək, həmin məsələni vücudun ən aşağı mərtəbəsi səviyyəsində də irəli sürə bilərik. Elm vücudun ayrılmaz özəlliklərindən biridir. Yüksək səviyyədən tutmuş aşağı mərtəbəyədək hər bir vücud nümunəsinin elmdən payı vardır. Vücudun çoxşaxəli mərtəbələrini qəbul etsək, hər bir mərtəbənin öz dərəcəsinə uyğun elm və idrak qabiliyyəti vardır. Mahiyyətcə vücudun mərtəbələri arasında kəskin təzad yoxdur və ona görə onun bir mərtəbəsi üçün elm və idrak anlamı irəli sürsək, başqa mərtəbəsi üçün həmin məsələni inkar etsək vücud təlimi haqqındakı əsas tezisi pozmuş olarıq. Deməli, vücudun hər mərtəbə və mərhələsi üçün elm və idrak dərəcəsi nəzərdə tutulur.

Mühyəddin İbn Ərəbinin irəli sürdüyü irfan təlimində bütün varlıqlar üçün həyat və idrak məsələsi qoyulur. İrfanda elm və idrakın müəyyənləşdirilməsi təcəlli nəzəriyyəsi ilə əsaslandırılır. Xilqət (yaradılış) aləmi Haqqın ad və sifətlərinin təcəllisi olduğuna görə, hər bir məxluq öz fərdi vücudunun mərtəbə və zühur mərtəbəsinə uyğun, həyat, elm, qüdrət və bu kimi ilahi sifətlərdən pay alır. İbn Ərəbi "Füsusül-hikəm" əsərində belə söyləyir: "Mövcud aləmin xilqətdə, nitq sifətindən payı var. Can sirrini bilsən, hər bir zərrədə bütün bir dünyanı görərsən".

Xarəzmi "Füsusül-hikəm"ə yazdığı şərhdə bu barədə belə açıqlama verir:

"Bil ki, ilahi mahiyyət bütün varlıqlara sirayət edir və ona görə ilahi sifətlər də bütün kainata sirayət edir; həyat, elm, qüdrət, eşitmək və görmək sifəti, külli və cüzi sifətlər öz nişanəsini varlıq aləmində təzahür etdirir. Bəzi varlıqda bu sifətlər güclü, bəzilərində zəif tərzdə ifadə edilir. Sifətlər

bəzən də hicab və pərdəli şəkildə olur, onlar aşkar şəkildə hiss olunmur. Ona görə bəzi adamlar sifətləri yox hesab edir, bəziləri varlığı bərk cisim (cəmad) və ya canlı (heyvan) aləm adlandıraraq onları bir-birindən ayırd edir.

Bərk cisimlərdə həyat məfhumu gizlidir, zahiri hisslərlə bəlli olmur. Mövlana Rumi bu barədə belə deyir:

Cismə yönəlmişsən, bax öz şanına,
Mərhəm olamazsan cismin canına.
Cismdən dünyaya ver can havasın,
Hər bir zərrəciyin eşit nidasın.

Axirət isə həyat evi (darül-həyəvan) olduğuna görə, bütün mövcud varlıqların həyatında olan kamillik və naqislik orada aşkar olur. Bəndənin bütün əzaları onun hərəkətlərinə şahidlik edirlər. Kamil insanlar üçün dünya həyatını naqis əməllərlə yükləməyə və bu naqislikləri axirət evinə aparmağa ehtiyac yoxdur. Həzrəti Əmirəlmöminin (ə) belə buyurmuşdur:

"Səfər zamanı Həzrəti Rəsul (s) ilə bir yerdə idim. Hər bir daş və hər bir ağac peyğəmbəri salamlayırdı və mən bunu duyurdum" [14].

Bu barədə geniş bəhs etməyə fürsət yoxdur və bunları yığcam şəkildə qeyd etməklə kifayətlənirik.

## Varlıqların səcdəsi

Qurani-kərimdə varlıq aləminə xas səciyyələrdən biri səcdə məsələsidir. Quran baxımından bütün aləmin zərrələri Allah qarşısında baş əyir və səcdə edir. İstər təbiət aləmində, istərsə də metafizik fəzada Allaha səcdə etməyən bircə varlıq nümunəsi tapılmaz. Həm maddi varlıqlar, həm mücərrəd aləm, Göy və Yer üzərindəki məxluq, ixtiyar sahibi olan ali şüurlu varlıqlar, bütün canlı və cansız aləm hər bir vəziyyətdə Allaha səcdə halında təsəvvür edilir.

Rəd surəsi, 15-ci ayə:

*Göylərdə və Yerdə kim varsa, özləri də, kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər! (Yer üzündəki möminlər sidqi-ürəkdən, kafirlər və münafiqlər isə ürəkdən istəməyərək, lakin dünyada müəyyən bir mənfəət əldə etmək xatirinə və ya kiminsə, nəyinsə qorxusundan) Allaha səcdə edərlər!*

Bu ayəyə görə, Yer və Göy üzərində olan bütün varlıqlar gecə-gündüz Allaha səcdə edirlər.

<u>Nəhl surəsi</u>, 49-cu ayə:

*Göylərdə və Yerdə olan bütün canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər!*

Bu ayədə isə səcdənin bütün məxluqa aid olduğu vurğulanır – yəni səcdə təkcə şüur və ixtiyar sahibi olanlara şamil edilmir, bəlkə kainatın bütün varlıqları, mələklərdən tutmuş Göy və Yerdə hərəkət edən hər bir məxluq bir Allaha səcdə edir. Bu baxımdan iki Quran ayəsi maraqlıdır.

<u>Həcc surəsi</u>, 18-ci ayə:

*(Ey insan!) Məgər Göylərdə və Yerdə onların (bütün canlıların), Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun (möminlərin) Allaha səcdə etdiyini görmürsənmi? Bir çoxuna da (kafirlərə də) əzab vacib olmuşdur. Allahın alçaltdığı kimsəni heç kəs yüksəldə (səadətə qovuşdura) bilməz. Həqiqətən, Allah dilədiyini edər!*

Səcdə hər bir varlıq nümunəsinin vacib əlamətlərindən sayılır.

<u>Rəhman surəsi</u>, 6-cı ayə:

*Otlar da, ağaclar da (Allaha) səcdə edər!*

Deməli, təkcə Göy və Yer, Günəş və Ay, ulduzlar, ağaclar və başqa varlıqlar deyil, onların kölgələri də Allaha səcdə edirlər.

<u>Nəhl surəsi</u>, 48-ci ayə:

*Məgər onlar Allahın yaratdığı hər hansı bir şeyə baxıb görmürlərmi ki, onların kölgələri Allaha acizanə surətdə səcdə edərək sağa-sola əyilir?!.*

Bir sözlə, yuxarıdakı ayələrə görə, səcdə bütün varlıq aləminə şamil edilən bir məsələdir. Xilqət aləmində səcdə geniş məzmun dairəsinə malikdir. Burada bir məsələyə aydınlıq gətirmək lazım gəlir: varlıq aləmindəki məxluqun səcdəsi dedikdə nə başa düşülür? İnsana xas olan bu məfhum başqa varlığa aid edildikdə hansı məna kəsb edir?

Bildiyimiz kimi, səcdə məbud və Allah qarşısında baş əymək və təzim etmək kimi anlaşılır. Doğrudur, insanlar öz alnını torpağa qoymaqla Allaha səcdə edərlər. Lakin səcdənin gerçək anlamı təkcə belə bir hərəkətdən ibarət deyildir. Hər bir varlıq Allah qarşısında öz kiçikliyini bəyan etdikdə səcdə mənası ortaya çıxır. Səcdənin ruhu və mahiyyəti təvazökarlıq və özünü kiçik tutmaqdan ibarətdir. Səcdə insan nəfsini təkəbbürdən xilas edir, onu Haqqın qarşısında təzim etməyə yönəldir.

Varlıq aləminin səcdəsi həmin aləmdəki bütün məxluqun Yaradan qarşısında öz kiçikliyini və təvazökarlığını bəyan etməsidir. Bütün varlıqlar Tanrının fərmanı və iradəsi altında mövcuddur və Onun fərmanına tabedir. Ona görə də hər bir varlıq nümunəsi ilahi qanunları qəbul edir, o cümlədən Allahın əzəməti qarşısında səcdə edirlər.

Onu da əlavə edək ki, səcdə özü bir neçə növə ayrılır və bir bölgüyə görə iki əsas səcdə növü vardır:

1. İxtiyarsız (təkvini) səcdə;
2. Şüurlu ixtiyari səcdə (təşrii).

### *İxtiyarsız səcdə*

İxtiyarsız səcdə Allahın izzət və calalı qarşısında öz kiçiklik və təvazökarlığını qeyri-ixtiyari bəyan etməkdir. Bu növ səcdə bütün varlıqlara şamil edilir, bütün varlıqlar Allah qarşısında öz kiçikliyini bildirir. Hər bir varlığın qaynağı Allah olduğuna görə, hər bir varlıq öz mövcudluğuna görə Allaha borcludur və Allahın əzəməti qarşısında səcdə halında təsəvvür edilir.

### *İxtiyari səcdə*

Bu səcdə növü ixtiyar sahibi olanlara aiddir. Belə bir səcdə iradə və ixtiyarla gerçəkləşir. İxtiyari səcdə mömin insanların Allah qarşısında səcdəsidir. Allaha iman gətirənlər öz kiçikliyini və bəndəliyini bəyan etmək üçün səcdəyə qatlaşırlar. Təkcə mömin bəndələr ixtiyari olaraq Allah qarşısında öz kiçikliyini bildirirlər. Ancaq kafirlər belə bir səcdədən boyun qaçırarlar. Yuxarıda misal kimi gətirilən Həcc surəsi, 18-ci ayədə "insanların bir çoxunun səcdə etdiyi" vurğulanarkən möminlər nəzərdə tutulur və bunun ardınca "bir çoxuna isə əzab vacib olmuşdur" dedikdə kafirlər nəzərdə tutulur. Əslində kafirlər ixtiyari səcdədən boyun qaçırar, özlərini isə əzaba düçar edərlər.

Bu iki səcdə növündən başqa, Qurani-kərimdə daha iki növ səcdədən bəhs edilir:

1. Rəğbətlə istənilən səcdə (təbii meyldən gələn səcdə)
2. İkrahlı səcdə.

Həmin səcdələrə Rəd surəsi, 15-ci ayədə işarə edilmişdir.

Birinci növ səcdə rəğbət və istəklə edilən səcdədir. Bu səcdə insan və başqa varlıqların təbiətinə uyğun, istəkləri ilə üst-üstə düşən bir səcdədir. Məsələn, qəlbin döyüntüsü və qan dövranı, bədən üzvlərinin başqa növ fəaliyyəti, bitkilərin böyüməsi və s. təbiətə uyğun səcdə sayılır. İnsan və başqa varlıq növlərinin meyl və təbiətinə uyğun ilahi hökmlərin rəğbətlə qarşılanması bu növ səcdəyə aiddir.

Lakin ikinci növ (ikrahlı) səcdə insan və başqa məxluqun təbiətinə uyğun gəlməyə bilər. Məsələn, ölüm, bir şeyin xarab olması, xəstəlik və bəla bu qəbildəndir. İstək və meylə uyğun gəlməyən ilahi qanunların qəbul edilməsindən çəkinmək ikrahlı səcdə sayılır.

Aşağıdakı ayədə bu iki növ səcdəyə işarə edilir.

Fussilət surəsi, 11-ci ayə:

*Sonra Allah tüstü (duman, yerdən qalxan buxar) halında olan Göyə üz tutdu (Göyü yaratmaq qərarına gəldi). O, Göyə və Yerə belə buyurdu: "İstər-istəməz*

*vücuda gəlin!" Onlar da: "İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!" – deyə cavab verdilər.*

Bir sözlə, yaradılış dünyasında mövcud olan bütün varlıqlar, Allaha yaxın mələklərdən tutmuş, Göy və Yerdən tutmuş, Günəş və Aydan tutmuş sadə cisimlərin kölgəsinədək – hər şey və hər şey, istəsələr də, istəməsələr də Allahın iradə və nüfuzuna tabedir. Bu isə hər bir varlığın Allah qarşısında mütiliyini, kiçikliyini sübut edir ki, bu da varlıq aləminin Tanrıya səcdə məqamı kimi dəyərləndirilir.

## Varlıq aləminin həmd və təsbihi

Qurani-kərimdə varlıq aləmi ilə bağlı daha bir maraqlı xüsusiyyət diqqəti cəlb edir: həmd və təsbih. Quran ayələrinə görə bütün varlıq aləmi Allaha həmd edir, Onun substansiya baxımından hər bir sifətdən ayrı olduğunu bildirir. Təkcə insanlar deyil, hətta cansızlar da Allaha həmd və təsbih edirlər. Bütün varlıq aləmi Allaha səcdə etdiyi kimi, həm də öz Yaradanına həmd və təsbih edir. Həmd və təsbih bir növ səcdə anlamını tamamlayır, onun davamı kimi çıxış edir.

İndi Quran ayələrində varlıq aləminin həmd və təsbihi ilə bağlı işarələrə nəzər salaq.

Hədid surəsi, 1-ci ayə:

*Göylərdə və Yerdə nə varsa, hamısı Allahı təqdis və təsbih edib şəninə təriflər deməkdədir. O, yenilməz qüvvət və hikmət sahibidir!*

Həşr surəsi, 24-cü ayə:

*O, (hər şeyi) yaradan, yoxdan var edən və (hər şeyə) surət verən Allahdır. Ən gözəl adlar (əsmayi-hüsna) ancaq Ona məxsusdur. Göylərdə və Yerdə olanların hamısı Onu təqdis və təsbih edib şəninə təriflər deyər. O, yenilməz qüvvət və hikmət sahibidir!*

Təğabun surəsi, 1-ci ayə:

*Göylərdə və Yerdə olanların hamısı Allahı təqdis və təsbih edib şəninə tériflər deyər. Hökm Onundur, həmd-səna da Ona məxsusdur. O, hər şeyə qadirdir!*

İsra surəsi, 44-cü ayə:

*Yeddi Göy, Yer və onlarda olan bütün məxluqat Allahı təqdis və təsbih edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükr etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təsbihini anlamazsınız. Allah, həqiqətən həlim və bağışlayandır.*

Başqa bir ayədə təsbih anlamı mələklərlə bağlı işlənmişdir.

Şura surəsi, 5-ci ayə:

*Göylər (Allahın əzəmət və heybətindən) az qala bir-birinin üstündən çatlayıb dağılsın. Mələklər də Rəbbini həmd-səna ilə təqdis və təsbih edər və Yerdəkilərin (günahlarının) bağışlanmasını diləyərlər. Bilin ki, Allah, həqiqətən bağışlayan və rəhm edəndir!*

Aşağıdakı ayədə Allahın həmdi və təsbihi ildırımın adı ilə bəyan edilir.

Rəd surəsi, 13-cü ayə:

*Göy gurultusu Onun şəninə tériflər deyir, mələklər də Allahın qorxusundan Onu öyüb mədh edirlər. O, ildırımlar göndərib kafirlər Allah barəsində mübahisə edərkən onların vasitəsilə istədiyini vurar. Allahın cəzası şiddətlidir! (Və ya Allah yenilməz qüvvət sahibidir!)*

Daha bir ayədə dağların gecə-gündüz Allahı təsbih etməsi vurğulanır.

Sad surəsi, 18-ci ayə:

*Biz dağları ona ram etmişdik. Onlar axşam-səhər onunla birlikdə Allahı təqdis və təsbih edib şəninə tériflər deyərdilər.*

Təsbih hər bir eyb və nöqsandan uzaq və ayrı olmaq deməkdir. Əgər bir varlığı eyb və nöqsandan ayrı bilsək, biz onu təsbih etmiş olarıq. Ona görə də Allahın təsbih edilməsi dedikdə Onu hər bir eyb və nöqsandan uzaq və

ayrı bilməyimiz nəzərdə tutulur. Həmd isə kamil varlığın sitayiş və tərifidir. Allahın həmdi dedikdə Onun kamal və camal sifətlərinin tərifi nəzərdə tutulur. Məsələn, Allahın elm, qüdrət və hikmət sifətlərinin kamal dərəcəsini tərifləyərkən, biz Onu həmd etmiş oluruq. Başqa sözlə desək, təsbih məfhumu ilə Allahı hər bir eyb və nöqsandan uzaq və ayrı bilirik, həmd anlamı ilə Tanrının kamal sifətlərini təsbit və təsdiq etmiş oluruq. Təsbih söylədikdə inkar sifətlərin rədd edilməsi, təmhid söylədikdə isə təsdiq sifətlərin vurğulanması nəzərdə tutulur. İnkar (səlbi) sifətlər Allaha uyğun gəlməyən sifətlərin rədd edilməsi deməkdir. Məsələn, Allah mürəkkəb varlıq deyildir, yəni təkdir. O heç bir yerdə və tərəfdə deyildir, Onun üçün məkan anlamı yoxdur. Allah cisimdən ibarət deyildir və s. Allahın təsdiq (sübutedici) sifətləri isə Allahın adları ilə ifadə olunur: Allah qadirdir və Onun qüdrət sifəti var.

İnsanlar Allahın həmd və təsbihini sözlərlə bəyan edirlər və burada bir sual ortaya çıxır:

– Bütün varlıqlar öz həmd və təsbihini bəyan etmək üçün hansı dildən və vasitədən istifadə edirlər? Hər bir varlıq nümunəsinin dili vardırmı? Bəlkə onlar başqa bir yolla Allahı həmd və təsbih edirlər?

Təfsir alimləri varlıq aləminin həmd və təsbihi barədə bir neçə fikir söyləmişlər və burada həmin baxışlardan ikisinə toxunuruq.

Bir sıra təfsirçilərə görə, varlıq aləminin həmd və təsbihi onların batini dili ilə bəyan edilir – yəni varlıq aləmindəki məxluqun düzənində heyrət doğuran bir nizamlı sistem və uzlaşma vardır. Deməli, elə başlanğıcdan Allahın xilqəti bütün eyb və nöqsandan uzaqdır və Tanrı hər bir varlığı kamil sifətlərlə yaradıb.

Bu baxışa görə, hər bir varlığın qəribə bir sirli aləmi və gizli mahiyyəti vardır. Hər bir varlıq öz iç aləminə xas olan bir qayda ilə ixtiyarsız olaraq Allahı təsbih edir. Təsbih varlıq aləmini eyb və nöqsandan ayrı bilməkdir; deməli,

xilqətin hər bir nümunəsində olan nizam və ahəngdarlıq öz batini (hal) dili ilə bəyan edir ki, mənim Xaliqim hər sayaq eyb və nöqsandan uzaq və pakdır.

Həmd isə Allahın kamal sifətlərinin təsdiqidir və hər bir varlıq nümunəsi öz batini (hal) dili ilə söyləyir ki, mənim Xaliqim elm, qüdrət və hikmət kimi kamillik sifətlərinə malikdir.

Sözü gedən baxış aşağıdakı dəlillərə görə qəbul edilmir:

Əvvələn, əgər bütün varlıqların təsbihi dedikdə yuxarıda qeyd etdiyimiz məna başa düşülərsə, həmin mənanı hamı dərk etməlidir. Halbuki, Qurani-kərimin İsra surəsinin 44-cü ayəsində deyilir ki, Siz onların təsbihini dərk etmirsiniz.

Bəzi təfsirçilər bu nəzəriyyəni islah etmək məqsədilə 44-cü ayədəki "dərk etmirsiniz" ifadəsinin əksər nadan adamlara, xüsusilə müşriklərə aid olduğunu söyləmişlər. Onlar iddia etmişlər ki, imanlı alimlər dünya düzənindəki nizamı anlayarkən bu yol ilə varlıq aləminin Allahı təsbih etməsini dərk etmişlər. Ayədən isə belə məna alınmır. Eyni zamanda varlıq aləmindəki bilmədiklərimiz sirlər ilə bildiklərimizi müqayisə etsək, dərya ilə damla arasındakı bir fərq alınar və yaxud bu fərq sanki dağ ilə saman çöpü arasındakı fərqlə ölçülə bilər. Bildiklərimiz damla və saman çöpünə, bilmədiklərimiz isə dərya və nəhəng bir dağa bərabər tutulur [15].

İkincisi, təsbih anlamının belə bir məna tutumuna gəlincə yalnız biz insanlar varlıq aləminin düzən və mahiyyəti üzərində diqqətlə araşdırma apararaq onların həmd və təsbihini anlaya bilirik. Halbuki ağıl və düşüncəsi olmayan məxluqlar öz həmd və təsbihlərinə diqqət yetirməz və yetirə bilməzlər. Ancaq Qurani-kərim vurğulayır ki, hər bir məxluq öz təsbihindən xəbərdardır.

Nur surəsi, 41-ci ayə:

*(Ya Məhəmməd!) Məgər Göylərdə və Yerdə olanların (mələklərin, insanların, cinlərin) qanadlarını açıb (qatar-qatar) uçan quşların Allahı təqdis və təsbih edib şəninə təriflər dediklərini görmürsənmi? Allah onlardan hər birinin duasını, şükr-sənasını (yaxud onların hər biri öz duasını, şükr-sənasını) bilir. Allah onların nə etdiklərini (layiqincə) biləndir!*

Başqa təfsirçilər isə təsbihin batini dil ilə gerçəkləşməsini düşünmür və güman edirlər ki, hər bir varlıq nümunəsi öz dili ilə Allahı təsbih edir.

Bu təfsirə görə, bütün varlıq nümunələri Allahın bəxş etdiyi elm sifətindən hər hansı bir bəhrəyə malikdir. Deməli, hər bir varlıq bilərəkdən Allahı həmd və təsbih edir. Bütün varlıqlar Allahı həmd və təsbih edirkən bu anlam məcazi mənada deyil, həqiqi mənada başa düşülür. Eyni zamanda həqiqi təsbihi bəyan etmək üçün təkcə sözlərlə və adi danışıq yolu ilə məhdudlaşmaq düzgün deyil. İnsanların dil ilə bəyanı Haqq ilə ünsiyyətin üsullarından biridir. Sözlər özü də qəlbdə olan məna və duyumu ifadə etmək üçün işlənən vasitə və əlamətdir. Sözlərin köməyi ilə qəlbdə olan mənalar aşkarlanır və bəyan edilir. Deməli, qəlbin məna xəzinəsini bəyan edən işarələr var və bunlar həm söz ilə, həm də başqa vasitələrlə çatdırıla bilər.

Başqa bir yandan, aləmdə olan varlıqlar başqalarına olan niyaz və ehtiyacını hər hansı bir yolla ifadə edirlər. Varlıq aləmi öz niyaz və ehtiyaclarından xəbərdardır və xəbərdar olduğuna görə həmin ehtiyacı ödəməyə meyllidir. Allahı təsbih etmək hər bir varlığın öz Xaliqinə olan ehtiyacından irəli gəlir, öz naqisliyini və eybini düzəltmək meyli ilə bağlıdır. Hər bir varlığın öz nöqsan və eybini düzəltmək meyli isə onun kamilliyə doğru fitri hərəkətindən doğur. Kamilliyə meyl Allahın həmdini şərtləndirir. Varlıq aləmi həmd etməklə kamala doğru hərəkət edir.

Beləliklə, hər bir varlıq nümunəsi öz dərəcə və mərtəbəsinə uyğun bilgiyə və elmə malikdir. Bu səbəbdən

hər bir varlığın həmd və təsbihi onun elmi və idrakı ilə bağlıdır. Sadəcə biz adi insanlar müxtəlif varlıq nümunələrinin Allahı həmd və təsbih etməsini dərk etmək və müəyyənləşdirmək qabiliyyətinə malik deyilik. Yalnız kamillik mərəhələlərini keçən peyğəmbər və övliyalar batini işıqlanma və arifanə kəşf yolu ilə hər bir məxluqun öz Xaliqini necə həmd və təsbih etməsini dərk edirlər.

Mövlana Rumi bu incəliyi belə bəyan edir:

Aləmdə zərrələr olsa da nihan,
Dünü gün sözlərin eyləyər bəyan.
Biz eşidən-görən qəlbixoşlarıq,
Naməhrəm yanında bil, xamuşlarıq.
Susuruq içlərdə nərəmiz ilə,
Cizginiriz dosta çevrəmiz ilə.
Cismə yönəlmisən, bax öz şanına,
Mərhəm olamazsan cismin canına.
Cismdən dünyaya ver can havasın,
Hər bir zərrəciyin eşit nidasın.
Onda cism təsbihi sənə faş olar,
Təvil vəsvəsəsi könlünü sarar.
Yoxdursa canında ol haqqın nuru,
Təvilin nə olar sənə süruru.

Davud peyğəmbərin (ə) münacat və dualarında Allahın təsbihi diqqəti cəlb edir:

"Ey fələklər fələyi! Allahı təsbih edin və siz də, ey Göylər altında axan saf sular!" [16]

## Varlıq aləminin əcəli

Varlıq aləminə xas özəlliklər arasında "əcəl" məfhumunu xatırlamaq lazım gəlir. Quran ayələrinə görə hər bir varlıq nümunəsinin əcəli vardır.

"Əcəl" sözü Qurani-kərimdə 56 dəfə işlənib: 7 dəfə bu məfhum mütləq mənada işlənmişdir. 21 dəfə isə "əcəl" sözü "müsəmma" sözü ilə yanaşı gəlmişdir. Rağib həmin

sözün mənasını açıqlayaraq belə yazır: "Əcəl hər bir şey üçün müəyyən edilmiş müddətdir. İnsan üçün isə əcəl onun həyat möhləti və yaşam fürsəti üçün verilən vaxtdır. "Bir nəfərin əcəli yetişdi" deyərkən onun ölüm vaxtının yetişməsi nəzərdə tutulur. Onun əsl müddəti – həyat müddətidir" [17].

"Dairətül-fəraid" əsərində "əcəl" sözü belə izah edilir: "Əcəl vaxtın sonu və bitməsi deməkdir. Bir şey üçün nəzərdə tutulan müddət və möhlət "əcəl" məfhumu ilə ifadə olunur. Ömrün sona çatması, həyatın bitməsi, borc və ya başqa bir şey üçün təyin edilmiş müddət əcəl adlanır. İnsan üçün təyin edilən ömür möhləti də əcəl adlanır. "Bir şeyin əcəli yetişib" dedikdə, onun ölümünün yaxınlaşması nəzərdə tutulur. Quran ayəsində də "əcəlin yetişməsi" həmin mənada işlənir" [18].

Bu ümumi izahdan sonra bir sıra Quran ayələrində əcəl anlamının məna çalarını izləyək.

Rəd surəsi, 2-ci ayə:

*Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta (dünyanın axırına, qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı (iradəsinə) tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır.*

Rum surəsi, 8-ci ayə:

*Məgər onlar öz-özlüklərində Allahın Göyləri, Yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi?*

Həcc surəsi, 5-ci ayə:

*İstədiyimizi ana bətnində müəyyən bir müddət (adətən doqquz ay) saxlayar, sonra sizi (oradan) uşaq olaraq (doğurub) çıxardarıq. Sonra yetkinlik çağına (otuz-qırx yaşlarına) yetişəsiniz deyə (sizi böyüdərik). Kiminiz (bu həddə çatmamış) vəfat edər, kiminiz də ömrün elə bir rəzil (ən ixtiyar) çağına çatdırılar ki, vaxtilə bildiyini (tamamilə unudub körpə uşaq kimi) bilməz olar.*

Ənam surəsi, 2-ci ayə:

*Sizi palçıqdan yaradan, sonra da (sizin üçün) bir əcəl (ölüm vaxtı) müəyyən edən Odur. Allahın yanında məlum bir əcəl də (bütün ölülərin diriləcəyi qiyamət günü) vardır. (Bütün bunlardan) sonra siz yenə də şübhə edirsiniz!*

Ali-İmran surəsi, 145-ci ayə:

*Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O, (lövhi-məhfuzda) vaxtı müəyyən edilmiş bir yazıdır.*

Yuxarıdakı ayələr göstərir ki, hər bir varlığın öz əcəl vaxtı vardır – yəni onun mövcudluğu üçün müəyyən zaman və möhlət təyin edilmişdir. Təkcə Göy və Yer aləmi və səma cisimləri, Günəş və Ay deyil, insan və ümmət üçün də müəyyən əcəl təyin edilmişdir.

Əraf surəsi, 34-cü ayə:

Yunus surəsi, 49-cu ayə:

*Hər ümmətin (əzəldən müəyyən olunmuş) bir əcəl vaxtı (ömrünün sona çatma, məhv olma, tənəzzülə uğrama, əzaba, müsibətə düçar olma çağı) vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə nə yubanar, nə də tələsərlər.*

Hicr surəsi, 5-ci ayə:

Muminun surəsi, 43-cü ayə:

*Heç bir ümmət əcəlini nə qabağa çəkə bilər, nə də yubandıra bilər.*

Öncə söylədiyimiz kimi, Qurani-kərimdə iki növ əcəldən söhbət gedir: "müsəmma" əcəl və qeyri-müsəmma əcəl (mütləq əcəl və ehtimali əcəl).

Müsəmma əcəl dedikdə mütləq və dəyişməz tale nəzərdə tutulur – yəni bu tale mütləq yerinə yetirilir.

Təfsirçilər mütləq əcəli belə izah etmişlər:

Mütləq əcəldə onun bütün dəlil və səbəbləri tam halda gerçəkləşir. Bu əcəl tam zərurət və vacib bir məsələ kimi gerçəkləşmə həddinə çatır və onu dəyişdirmək qeyri-mümkün olur.

Ancaq qeyri-mütləq əcəl odur ki, onu şərtləndirən bütün amil və dəlillər tam şəkildə yetişmir, başqa güclü səbəb və dəlillər isə onu dəyişdirə bilir. Məsələn, əgər bizim dövrümüzdə və zamanımızda bir nəfər xərçəng xəstəliyinə düşərsə, əgər bu xəstəlik onun bədənində kök atıb tam şəkildə şaxələnərsə, onun ölümü qaçılmazdır. Bu həmin insanın dəyişməz taleyi və qaçılmaz əcəli olacaqdır. Qurani-kərim bu sayaq əcəli "müsəmma" adı ilə bəyan etmişdir. Əgər bir nəfərdə xoş xassəli xəstəlik olarsa və başlanğıcdan bu xəstəlik yaxşılaşmağa doğru gedərsə, düzgün müalicə ilə ölümün qarşısını almaq olar. Deməli, həmin şəxsin mütləq əcəli üçün bütün şərt və dəlillər tam yetişmədiyindən onun ölümü qətiləşmir və təxirə salınır. Bu isə qeyri-mütləq əcəl üçün sadə misal ola bilər.

Yuxarıdakı ayələrdə deyilir ki, müəyyən əcəl vaxtı Allahın yanındadır. Əgər bir ümmətin əcəl vaxtı yetişsə, nə bir saat qabağa düşər, nə də gecikər. Yəni bu müsəmma (mütləq) əcəldir və dəyişə bilməz.

Ancaq başqa bir ayədə qeyri-müsəmma (qeyri-mütləq) əcələ işarə vardır.

Nuh surəsi, 4-cü ayə:

*(Əgər belə etsəniz) O sizin günahlarınızdan keçər, sizə müəyyən vaxtadək (əcəliniz çatana qədər) möhlət verər (cəzanızı dünyada verməyib axirətə saxlayar). Allahın (əzəldən lövhi-məhfuzda) müəyyən etdiyi əcəl (ölüm) gəlib çatdıqda isə, o əsla təxirə salınmaz. Kaş biləydiniz!*

Burada kafirlərə möhlət verilir: əgər iman və təqva sahibi olsalar, Allah onların günahını bağışlar. Yəni onların əcəl vədəsini təxirə salar. Tövbə edib Allaha iman gətirənlər üçün belə bir möhlət verilir. Yoxsa, hər bir varlıq üçün əcəl hökmü qaçılmazdır.

Onu da əlavə edək ki, müsəmma və ya mütləq əcəl Allahın dəyişməz hökmü və təqdiri olaraq ümmül-kitabda və ya lövhi-məhfuzda yazılır. Lakin dəyişən əcəl məhv və

isbat lövhəsində yazılır. Bu məfhumlar barədə sonrakı bölmələrdə ayrıca bəhs ediləcək.

## Varlıq aləminin həşri

Varlıq aləminin həşri dedikdə bütün varlıqların bir yerə toplaşması və Haqqın hüzurunda cəmlənməsi nəzərdə tutulur. Bütün mövcud varlıqlar təbiət aləmində fəna olduqdan sonra axirət dünyasına qovuşur və onlar həmin dünyada bir yerə toplaşırlar. Quran ayələrində bütün varlıqların həşrinə işarə edilir. İnsan, cin, şeytan və heyvanlar həşr mərhələsi keçməli olurlar.

Ənam surəsi, 38-ci ayə:

*Yerdə gəzən elə bir heyvan, qanadları (iki qanadı) ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. (Onlar da sizin kimi bir zümrədir, Allah onlara da ruzi vermiş, əcəllərini əvvəlcədən müəyyənləşdirmişdir, onlar da öz qabiliyyətinə görə Allahın vəhdaniyyətini mədh edib, şəninə tərif deyirlər.) Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik). Sonra onlar (bütün canlılar, bütün məxluqat) Rəbbinin hüzuruna cəm ediləcəklər.*

Şura surəsi, 29-cu ayə:

*Göyləri, Yeri və oralara yayıb səpələdiyi canlıları yaratmağı Onun qüdrət nişanələrindəndir. Allah istədiyi vaxt (qiyamət günü) onları bir yerə yığmağa qadirdir!*

Yuxarıdakı ayələrdə Göy və Yerdə olan bütün canlı aləmin bir yerə toplaşması vurğulanır. Burada (ərəbcə variantında) işlənən "dabbə" sözü canlı varlıq mənası ifadə edir. Canlı aləmdə istər təkhüceyrəli varlıq, istərsə də nəhəng heyvanlar ola bilir. Bundan başqa, Qurani-kərim qiyamət zamanı bütün Yerin və dağların hərəkətə gələrək dağılması və həşrini nəzərdə tutur. Yəni həşr anlamı geniş məzmunu əhatə edir və qiyamətlə bağlı işlənir.

Yerin hərəkətə gəlməsi və hər bir varlığın həşri barədə belə buyrulur.

Kəhf surəsi, 47-48-ci ayələr:

*O gün (qiyamət günü) dağları (yerindən qoparıb) hərəkətə gətirəcəyik. (O vaxt) yeri dümdüz görəcəksən, (möminləri və kafirləri) bir yerə toplayacaq, onların heç birini (kənarda) qoymayacağıq.*

*Onlar Rəbbinin hüzuruna cərgə-cərgə (səf-səf) gətiriləcəklər. Onlara belə deyiləcək: "Siz Bizim yanımıza sizi ilk dəfə yaratdığımız kimi (lüt-üryan, mal-dövlətsiz) gəldiniz. Lakin siz elə güman edirsiniz ki, Biz sizə verdiyimiz vədi (öləndən sonra diriləcəyinizi) yerinə yetirməyəcəyik!"*

Başqa bir ayədə təqva sahibi olan və ya pis əməl görənlərin Allah hüzurunda toplanmasına işarə edilir.

Məryəm surəsi, 85-86-cı ayələr:

*O gün (qiyamət günü) Biz təqva sahiblərini Rəhman Allahın hüzuruna möhtərəm elçilər (şahanə qafilələrlə gələn qonaqlar) kimi cəm edərik.*

*Günahkarları isə Cəhənnəmə susuz vəziyyətdə sürükləyib gətirərik.*

Aşağıdakı ayələrdə cin tayfasının həşri diqqətə çatdırılır.

Ənam surəsi, 128-ci ayə:

*Allah (insanları və cinləri) toplayacağı gün (qiyamət günü) belə buyuracaq: "Ey cin tayfası, artıq insanların bir çoxunu yoldan çıxartdınız". Cinlərin insanlardan olan dostları deyəcəklər: "Ey Rəbbimiz! Biz bir-birimizdən bəhrələndik (şeytanlar bir sıra batil şeyləri insanlara gözəl göstərdikləri üçün insanlar onlardan faydalandıqlarını zənn edərlər. Cinlər, şeytanlar isə insanları özlərinə tabe edə bildikləri üçün onlardan öz qərəzli məqsədləri naminə istifadə edərlər) və bizim üçün müəyyən etdiyin əcəlimiz gəlib çatdı!" Allah buyuracaq: "Sizin düşəcəyiniz yer atəşdir. Allahın istədiyi (vaxt və ya sonradan islamı qəbul*

*edib nicat tapan şəxslər) istisna olmaqla, siz orada həmişəlik qalacaqsınız!" Şübhəsiz ki, Rəbbin hikmət və elm sahibidir!*

Saffat surəsi, 158-ci ayə:

*(Müşriklər həm də özlərindən) Allahla cinlər (pərilər, yaxud mələklər) arasında bir qohumluq əlaqəsi icad etdilər. Həqiqətən, cinlər onların (bu sözü deyənlərin qiyamət günü Cəhənnəmə) gətiriləcəyini bilirlər.*

Qurani-kərim şeytanların da həşrini nəzərdə tutur.

Məryəm surəsi, 68-ci ayə:

*(Ya Məhəmməd!) Rəbbinə and olsun ki, Biz onları (özlərinə dost tutduqları) şeytanlarla birlikdə yığıb məhşərə gətirəcək, sonra onları (qorxudan ayaq üstə dura bilməyib) diz üstə çökmüş halda Cəhənnəmin ətrafına düzəcəyik.*

Başqa bir ayədə isə vəhşi heyvanların həşri nəzərə çatdırılır.

Təkvir surəsi, 5-ci ayə:

*Vəhşi heyvanlar (bir-birindən qisas almaq üçün) bir yerə toplanacağı zaman;*

# ÜÇÜNCÜ FƏSİL
# VARLIQ ALƏMİNİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

## Varlıq aləminin nizamlı düzəni

Varlıq aləmində diqqəti cəlb edən ümumi xüsusiyyətlər sırasında burada müşahidə edilən nizamlı düzəndir. Bu düzən isə Quranın kosmoloci təliminin əsas prinsiplərindən biridir. Kainatda tək-tək hüceyrələrdən tutmuş nəhəng

kəhkəşanlara kimi bütün varlıq aləmi ardıcıl və nizamlı bir düzənə malikdir. Kainatı təşkil edən varlıq təbəqələri arasında elə bir nizamlı bağlılıq vardır ki, dəqiq elmi axtarışlar aparmadan belə buradakı nizamı sadə bir baxışla müəyyən etmək mümkündür.

Bu mövzu ilə bağlı ayələrin təhlilinə girişməzdən öncə, nizamlı düzənin ümumi tərifini verək.

Nizamlı düzən hər hansı bir kompleks sistemin tərkib hissələrinin kəmiyyət və keyfiyyət baxımından mütənasib olaraq bir yerə toplanması deməkdir. Belə bir vəziyyətdə həmin nizamlı sistem hər hansı məqsəd və hədəf üçün düzənə salınır. Əgər bir prosesin tərkib hissələri mütənasib və ahəngdar şəkildə nizamlı sistem halına gətirilirsə, bu proses nizamlı hadisə kimi dəyərləndirilir. İnsan bədənini təşkil edən hüceyrələr kəmiyyət və keyfiyyət baxımından mütənasib bir tərzdə bir-biri ilə bağlı olur və bu hüceyrələr qidalanaraq insanı kamil bir vəziyyətə çatdırır. Bir hüceyrənin çəkisi qramdır və bu hüceyrə belə bir az çəki ilə insan orqanizminin bütün üzvlərinin xüsusiyyətini özündə birləşdirir. Hüceyrələrdə eyni zamanda fərdin irsi xüsusiyyətləri də əks olunur.

Quran ayələrində təbiət aləminin nizamlı düzəninə işarələr çoxdur. Qurani-kərim həm Göy və Yer aləmindəki nizamlı düzəni yada salır, həm də Yer üzərində mövcud olan bitki, heyvanat aləmi, insan orqanizmindəki nizamlı düzənə işarələr edir.

Öncə Göylər, Günəş və Ayın nizamlı düzəni barədə ayələrə diqqət yetirək.

Nuh surəsi, 15-16-cı ayələr:

*Məgər görmürsünüz ki, Allah yeddi Göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı?!*

*Orada Ayı bir nur, Günəşi də bir çıraq etdi.*

Rəhman surəsi, 5-ci və 7-ci ayələr:

*Günəş və Ay müəyyən bir ölçü ilə (hərəkət edər). O, ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!*

<u>Rəd surəsi</u>, 2-ci ayə:

*Göyləri gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta (dünyanın axırına, qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı (iradəsinə) tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra), Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib, haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə inanasınız!*

Başqa ayələrdə isə Yerin, dağların, çayların, gecə-gündüzün nizamlı düzənlə yaradılışı, müxtəlif bitkilərin xilqətindəki ahəngdarlıq xatırlanır və bunlar Allahın qüdrət və hikmət nişanələri (ayələri) hesab edilir.

<u>Rəd surəsi</u>, 3-4-cü ayələr:

*Yeri (insanların və başqa canlıların yaşaya bilməsi üçün) döşəyən (uzadıb-genəldən), orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən (erkək-dişi, yaxud şirin-acı, turş-meyxoş və s. olmaqla) cüt-cüt yetişdirən, gecəni-gündüzlə (gündüzü də gecə ilə) örtüb bürüyən Odur. Şübhəsiz ki, bunda (bütün bu deyilənlərdə) düşünən insanlar üçün (Allahın qüdrətini və vəhdaniyyətini sübut edən) neçə-neçə dəlillər vardır!*

*Yer üzündə bir-birinə yaxın (qonşu) qitələr (münbit) qeyri-münbit, şirin-şoran, dağlıq-aran yerlər, müxtəlif iqlimli torpaq sahələri, eyni su ilə sulanan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Halbuki biz yemək baxımından onların birini digərindən üstün tuturuq. Şübhəsiz ki, bunda da anlayıb-dərk edən insanlar üçün (Allahın qüdrətinə və vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır.*

Başqa bir ayədə Göylərin və Yerin xilqətində, Göydən yerə yağmurun nazil olmasında, gəmilərin dəryada hərəkətində, torpaqların dirçəlməsində, bulud və küləyin hərəkətində müşahidə edilən nizam barəsində bəhs edilir.

<u>Bəqərə surəsi</u>, 164-cü ayə:

*Həqiqətən, Göylərin və Yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan Yer üzünü Allahın Göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, küləyin bir səmtdən başqa səmtə əsməsində, Göylə Yer arasında (Allahın əmrinə) tabe buludların hərəkətində, ağıl və düşüncə sahibi olan insanlar üçün (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır.*

Ay ilə Günəşin nizamlı bir qayda üzrə düzlənməsi gecə-gündüzün, aylar və illərin dəqiq hesablanması üçün önəmlidir və Qurani-kərim xilqətin bu nizamını da diqqətdən qaçırmır.

Yunus surəsi, 5-ci ayə:

*Günəşi işıqlı (parlaq), Ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, Ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb-bilən bir tayfa üçün belə müfəssəl izah edər!*

Allah bütün xilqəti ahəngdar və nizamlı yaratmışdır və bitkilər də həmin nizama tabedir.

Hicr surəsi, 19-cu ayə:

*Biz Yer üzünü döşədik (orada hər şeyi yerbəyer etdik), orada möhkəm dayanan dağlar yerləşdirdik, hər şeydən (bütün meyvələrdən) müəyyən ölçüdə (lazım olan qədər) yetişdirdik. Dünyanın üfüqi və şaquli düzəni*

Dünyanın nizam və düzəni haqqında bəhs edərkən bir məsələni qeyd etmək gərəkdir. Dünya yaradılışında iki düzən vardır: şaquli və üfüqi düzən. Şaquli düzən dedikdə varlıq aləmi ilə Allah arasında vücud – substansiya baxımından olan bağlılıq və münasibət nəzərdə tutulur. Yəni hər bir mövcud olan varlığın yaradılış baxımından qaynaq və mənşəyi ilkin başlanğıcdır (məbdə). Yaradılış aləmi də pillə-pillə varlığın ilkin başlanğıcından təzahür

edir. Bir sıra varlıqlar isə başqa şeylərin yaranmasına səbəb olur. Şaquli dünya düzənində Tanrı varlığın başlanğıc zirvəsində dayanır və aləmdəki şeyləri xüsusi nizam və qayda ilə yaradır. Varlıq aləminin yaradılış və idarə olunmasında mələklər ilahi əmrləri yerinə yetirən icraçı kimi çıxış edirlər. Onlar Allahın fərmanına itaət edərək öz işlərini görürlər.

Naziat surəsi, 5-ci ayə:

*And olsun işə əncam çəkənlərə (Allahın əmri ilə dünyanın işlərini idarə edən mələklərə) ki, qiyamət haqdır və siz qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracaqsınız!*

Səcdə surəsi, 5-ci ayə:

*O, Göydən Yerə qədər olan bütün işləri idarə edir, sonra həmin işlər sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə (qiyamət günündə) Ona (Allah dərgahına) yüksələr.*

Bunlarla yanaşı, Qurani-kərimdə yaradılış məsələsi ilə bağlı Ərş, Kürsü, Lövh və Qələm kimi məfhumlar işlənir. Bu isə onu göstərir ki, metafizik fəzada və maddi dünyanın arxasında xilqətin gerçəkləşməsi bir silsilə qurum və düzənlər əsasında baş verir. Filosoflar həmin düzəni şaquli düzən adlandırmışlar. Bu düzən xilqətin yaradılışını substansiya (vücud) baxımından ilahi fəaliyyət yönümündə əsaslandırır.

İkinci bir düzən isə maddi aləmin və təbiətin yaradılışı ilə bağlıdır. Bu mərhələdə ilahi feyzin sayəsində maddi varlığın yaranma şəraiti əsaslandırılır. Təbii hadisələr isə adətən həm ölçü və kəmiyyət göstəriciləri çərçivəsində, həm də zaman və məkan dairəsində baş verir. Bu proseslər səbəbiyyət əlaqəsi üzrə gerçəkləşir. Məsələn, ata və ananın varlığı müəyyən məkan və zaman çərçivəsində övladın yaranmasına səbəb olur. Bu sayaq səbəb əlaqəsini riyazi səbəb adlandırmışlar. Ata və ana Allahın iradəsi ilə övladın yaranması üçün bir vasitə kimi çıxış edirlər.

Təbiətdə baş verən bütün hadisə və proseslər üfüqi dünya düzəninə dəlalət edir.

## Varlıq aləminin qanuna uyğunluğu

Varlıq aləminə xas olan səciyyələrdən biri onun qanunauyğun olmasıdır. Varlıq aləmi nizamlı düzənə malik olduğu üçün həm də qanunauyğundur.

Dünya ümumi bir qanunauyğunluğa malik olsa da, bu qanun mahiyyətcə xarici aləmdə gerçəkləşir və biz zahirdə həmin qanunu görə bilmirik; yalnız əqli mühakimə yolu ilə onun varlıq aləminə hakim olduğunu anlayırıq. Deməli, dünyadakı qanunauyğunluğun obyektiv şəkli yoxdur. Biz hadisələr arasındakı dəqiq və ahəngdar münasibət əsasında varlıq aləminin qanunauyğun proses olduğunu bilirik. İndi Qurani-kərimdə varlıq aləminin qanunauyğunluğuna işarə edilən bəzi ayələri nəzərdən keçirək.

Yasin surəsi, 37-40-cı ayələr:

*Gecə də onlar üçün (qüdrətimizə) bir dəlildir. Biz gündüzü ondan sıyırıb çıxardan kimi onlar zülmət içində olarlar.*

*Günəş də (qüdrət əlamətlərimizdən biri kimi) özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın əzəli hökmüdür (təqdiridir).*

*Biz Ay üçün də mənzillər müəyyən etdik. Nəhayət, o (həmin mənzilləri başa vurduqdan sonra) dönüb xurma ağacının quru və əyri budağı kimi (hilal şəklində) olar.*

*Nə Günəş Aya çatar (yetişər), nə də gecə gündüzü ötə bilər. (Günəş, Ay və ulduzların) hər biri Göydə (öz hədəqəsində, öz dairəsində) üzər.*

Bu ayələrdə gecə və gündüz qanun üzrə növbələşir, Günəş və Ay qanunla təyin olunmuş bir tərzdə hərəkət və dövr edər, həmin qanunlar onların üst-üstə düşməsinə

imkan vermir. Deməli, Allahın xilqəti qanun-qayda üzrə tənzimlənir və belə olmasaydı kainat xaos içində dağılardı.

Rəhman surəsi, 5-ci ayə:

*Günəş və Ay müəyyən bir ölçü ilə (hərəkət edər).*

Qurani-kərimdə hər hansı bir şeyin və hadisənin qanunauyğunluğunu ifadə etmək üçün bəzi məqamlarda "qədər" məfhumu işlənib. Qanunauyğun proseslərin əsasında ölçü və miqdar dayanır.

Furqan surəsi, 2-ci ayə:

*O Allah ki Göylərin və Yerin hökmü (səltənəti) Onundur. O (Özünə) heç bir övlad götürməmişdir; mülkündə heç bir şəriki yoxdur. O hər şeyi müəyyən ölçü və qədərlə yaratmış və onun müqəddəratını əvvəlcədən müəyyən etmişdir.*

Talaq surəsi, 3-cü ayə:

*Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah öz buyruğunu yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü və qədər (hədd, müddət) təyin etmişdir.*

"Qədər" sözü ilə yanaşı "mizan" sözü də varlıq aləmindəki proseslərin qanunauyğunluğunu bəyan etmək üçün münasibdir.

Rəhman surəsi, 7-ci ayə:

*Göyü O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!*

Qurani-kərimdə Allahın qoyduğu qayda-qanun "sünnət" məfhumu ilə ifadə olunur. Varlıq aləminə hakim olan qanun-qayda bu sözün köməyi ilə çatdırılır. Lakin qeyd etmək yerinə düşər ki, "sünnət" sözü daha çox insanın fərdi həyat və əxlaq-davranış qaydaları və toplumdakı ictimai münasibətlər ilə bağlı işlənir. Allah təkcə təbiət və kainatda olan maddi varlıqlar üçün deyil, insan və toplum üçün də adət və qaydalar təyin edir. Allahın verdiyi qanun-qayda isə dəyişməzdir.

İndi "sünnət" məfhumunun işləndiyi bir neçə ayəni nəzərdən keçirək.

Əhzab surəsi, 62-ci ayə:

*Allahın (onlardan) əvvəl gəlib-getmiş münafiqlər haqqında qayda-qanunu belədir. Sən Allahın qoyduğu qayda-qanunda dəyişiklik görməzsən!*

İsra surəsi, 77-ci ayə:

*Səndən əvvəl göndərdiyimiz peyğəmbərlərin adəti kimi. (Onların dövründə də belə etmişdik.) Sən Bizim adətimizdə, yolumuzda bir dəyişiklik tapa bilməzsən!*

Fatir surəsi, 43-44-cü ayələr:

*Bu isə onların Yer üzündə təkəbbür göstərmədən (iman gətirməyi özlərinə sığışdırmamaları) və pis əməlləri ucbatından idi. Pis əməl (qərəzli hiylə) ancaq onun öz sahibinin başında çatlayar. Məgər onlar Allahın adəti, qayda-qanunu üzrə (özlərindən) əvvəlkilərin düçar olduqları müsibətlərimi (həmin müsibətlərin onların öz başlarına da gəlməsinimi) gözləyirlər? (Ya Peyğəmbər!) Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan!*

*Məgər onlar Yer üzündə dolaşıb özlərindən əvvəlkilərin axırının necə olduğunu görmürlərmi? Halbuki onlar bunlardan daha qüvvətli idilər. Göylərdə və Yerdə Allahı aciz edə biləcək heç bir şey yoxdur.*

Bu ayələrdə təkcə varlıq aləminə hakim olan qanunlar deyil, həm də Allahın sünnətində heç bir dəyişiklik olmadığı vurğulanır.

Varlıq aləmində müşahidə edilən qanunlar sırasında səbəbiyyət kateqoriyası və səbəb-nəticə münasibəti mühüm yer tutur. Bu qanuna görə hər bir nəticənin də səbəbi vardır. Səbəb iki mənada işlənir: birinci halda bu məfhumun həqiqi mənası nəzərdə tutulur – yəni səbəb varlığın təyinedicisi rolunda çıxış edir. Varlığın təyinedicisi müqabilində varlığın təyin edilməsi məfhumu dayanır. Birinci tərəf təyinedən, ikinci tərəf isə təyin olunandır.

Səbəbiyyətin ikinci mənası qeyri-həqiqi məfhum bildirir. Bu isə hər hansı bir hadisənin yaranma və başvermə

şəraitindən ibarətdir. Bu növ səbəb əlaqəsi ədədi səbəbiyyət adlanır. Təbiətdə müşahidə edilən səbəb-nəticə münasibəti bu son növ səbəbiyyət əlaqəsi ilə bağlıdır.

Qurani-kərimdə həqiqi səbəbiyyət əlaqəsi varlığın və xilqətin məbdəsindən – başlanğıcından doğur. Quran ayələrində həqiqi səbəbiyyət əlaqəsi ilə yanaşı qeyri-həqiqi səbəbiyyət əlaqəsinə də işarələr vardır.

Bu baxımdan maraq doğuran bəzi ayələri nəzərdən keçirək və xilqətin yaranmasında səbəb və başlanğıc kimi götürülən məfhumlara diqqət yetirək.

Ənbiya surəsi, 30-cu ayə:

*Məgər kafir olanlar Göylə Yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?*

Rum surəsi, 20-ci ayə:

*Sizi (atanız Adəmi) torpaqdan yaratması, sonra da sizin (hərənizin) bir insan olub Yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir.*

Muminun surəsi, 12-ci ayə:

*Biz, həqiqətən insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan – nütfədən xəlq etdik.)*

Bu ayələrdə xilqətin başlanğıcı, insanın torpaqdan yaradılması vurğulanır. Xilqətin məbdəsi həqiqi səbəbiyyət əlaqəsi əsasında izah edilir. Başqa ayələrdə isə Allahın yaratdığı hər bir xilqətin, hər bir hadisənin ikinci səbəbi göstərilir.

Rum surəsi, 24-cü ayə:

*Sizə həm qorxu, həm də ümid verən (sizi vurmasından qorxduğunuz, dalınca isə yağış yağmağına ümid bəslədiyiniz) ildırımı göstərməsi, Göydən yağmur endirib öləndən sonra (onunla) torpağı diriltməsi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda ağıllı düşünən bir qövm üçün ibrətlər vardır.*

Nəhl surəsi, 65-ci ayə:

*Allah Göydən bir yağış endirər, onunla Yer üzünü öldükdən (quruduqdan) sonra dirildər. (Öyüd-nəsihətə) qulaq asanlar üçün bunda bir ibrət vardır. (Allah quru torpağa həyat verə bildiyi kimi, insanları da öləndən sonra diriltməyə qadirdir!)*

Yuxarıdakı ayələrə görə yağışın varlığı Yerin dirilməsi və bitkilərin cücərib böyüməsi üçün amil kimi dəyərləndirilir. Başqa bir ayədə isə küləklər buludları səpələyib yağmur göndərmək üçün amil olur.

Hicr surəsi, 22-ci ayə:

*Biz (buludla) yüklənmiş (bitkilərə, ağaclara həyat verən, onları tozlandıran) külək göndərdik, Göydən yağmur endirib sizə su verdik (içirtdik). Yoxsa onu yığıb saxlayan (bir yerə toplayan) siz deyilsiniz! (Allah yağış suyunu saxlayıb istədiyi vaxt, istədiyi yerə yağdırar.)*

### *Əşəri nəzəriyyəsinin tənqidi*

Quran ayələrində varlıq aləmindəki hadisələrin qanunauyğunluğu barədə çoxsaylı dəlillərə baxmayaraq, əşərilər bu məsələyə etiraz etmişlər. Onlar kainatdakı qanunauyğun halları, təbiətdə baş verən proseslər arasındakı səbəbiyyət əlaqəsini bütövlükdə inkar etmişlər. Dini təəssüb bəhanəsi ilə dünya düzənindəki qanunauyğun hadisələrin inkarı isə məntiqlə uzlaşmır. Əşərilər belə söyləyirlər ki, hadisələrin yaranma səbəbi Allahın iradəsidir və hər bir hadisənin kökündə başqa dəlil axtarmaq mümkünsüzdür.

Onların nəzərincə əgər Günəş işıq saçırsa, oddan istilik hasil olursa, buz əriyərək suya dönürsə, su rütubətə səbəb olursa, bu hadisələrin heç biri Günəşdən, oddan və ya sudan deyil – yəni işıq Günəşin mahiyyətindən doğmur, istilik oddan və rütubət isə sudan törəmir. Bunların hamısı Allahın iradəsindəndir. Allahın iradə və adəti belə qurulub ki, Günəşdən işıq, oddan istilik və sudan isə rütubət hasil olsun. Onlar təbiət hadisələrindəki təbii səbəb-nəticə əlaqəsini rədd edərək öz fikirlərini əsaslandırmaq üçün

Quran ayələrindən misal gətirirlər. Bu sırada əsasən aşağıdakı ayələrdən dəlil kimi faydalanırlar.

Rəd surəsi, 16-cı ayə:

*(Ya Məhəmməd!) De ki: "Göylərin və Yerin rəbbi kimdir?" (Kafirlər bu sualın qarşısında aciz qaldıqda) de ki: "Allahdır!" De ki: "Belə olduqda, özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən (bütləri, tanrıları) özünüzə dostmu, hamimi edirsiniz?" De ki: "Heç korla görən (kafirlə mömin) və ya zülmətlə nur (küfrlə iman) eyni ola bilərmi?!"*

Rəd surəsi, 31-ci ayə:

*Əgər Quranla dağlar hərəkətə gətirilsə, yaxud Yer parçalansa və ya ölülər danışsaydılar, onlar yenə də iman gətirməzdilər. Bütün işlər yalnız Allahın ixtiyarındadır. Məgər iman gətirənlərə bəlli olmadımı ki, əgər Allah diləsəydi, bütün insanları hidayətə (doğru yola) yönəldərdi? Kafirlərə gəldikdə Allahın vədi (Məkkənin fəthi) yerinə yetənədək etdikləri əməllərə görə onlara bəla üz verməkdə davam edəcək, yaxud yurdlarının yanında dayanıb duracaqdır. Həqiqətən, Allah Öz vədinə xilaf çıxmaz!*

Vaqiə surəsi, 63-65-ci ayələr:

*Bəs əkdiyiniz toxuma nə deyirsiniz?*

*Onu bitirən sizsiniz, yoxsa Biz?!*

*Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də mat-məəttəl qalardınız.*

Vaqiə surəsi, 68-70-ci ayələr:

*Bəs içdiyiniz suya nə deyirsiniz?*

*Onu buluddan endirən sizsiniz, yoxsa Biz?!*

*Əgər istəsəydik, onu acı bir su edərdik. Elə isə niyə (Allahın nemətlərinə) şükr etmirsiniz?*

Əşərilər bu ayələrə əsasən belə bir müddəa irəli sürürlər ki, bütün xilqət və hadisələr mahiyyətcə Allah tərəfindən yaradılırsa, bunlarda başqa səbəb axtarmaq olmaz. Həm yaradılış və həm də bütün işlərin tədbiri Allahın ixtiyarındadır.

Onlar öz fikirlərini əsaslandırmaq üçün ikinci dəlil kimi möcüzə və xariqüladə hadisələri misal gətirirlər. Dünyada baş verən bu sayaq hadisələr sabit qanunların olmadığını göstərir və əşərilər bu növ misallardan səbəb-nəticə münasibətini inkar etmək məqsədilə dəlil kimi istifadə edirlər.

Üçüncü dəlil olaraq belə bir məsələni vurğulayırlar ki, varlıq və xilqət qəti və zəruri bir qanun və nizama malik olsaydı, Allahın qüdrəti məhdudlaşardı. Bu isə nəticə etibarilə şirk sayılır.

Əşərilərin gətirdiyi dəlillərə cavab olaraq demək lazımdır ki, əvvələn, bir sıra Quran ayələri varlıq aləminə xas olan təbii hadisələrdə səbəb-nəticə münasibətini birbaşa açıqlayır. Biz öncə həmin münasibətə işarə edən bir neçə ayəni nəzərdən keçirdik. Burada daha iki ayə misal gətirərək fikrimizi tamamlamağa çalışaq.

Bəqərə surəsi, 22-ci ayə:

*O Allah ki, sizin üçün Yer üzünü döşədi, Göyü isə örtük yaratdı, Göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allahın oxşarı və bənzəri olmadığını bildiyiniz halda Ona şəriklər qoşmayın!*

Rum surəsi, 48-ci ayə:

*Buludları hərəkətə gətirən küləkləri göndərib onları Göy üzündə istədiyi kimi yayan və topa-topa edən Allahdır. Artıq buludların arasından yağış çıxdığını görürsən. O, yağışı bəndələrindən istədiyinə verən kimi onlar sevinərlər.*

Göründüyü kimi, yuxarıdakı ayələr yağışın yağmasını bir sıra təbii dəlil və səbəblərlə əlaqələndirir; yəni külək buludları hərəkətə gətirir, buludların sıxlığı yağışın toplanmasına dəlalət edir və bulud hərəkətə gələrkən yağmur yağır. Əlbəttə, təbii hadisələr arasında səbəb əlaqəsini nizamlayan da Allahdır.

İkinci bir yandan, möcüzə və xariqüladə hadisələr heç də səbəbiyyət münasibətini, səbəb-nəticə əlaqəsini inkar

etmir. Peyğəmbərlərə xas möcüzələrin öz xüsusi qanunları və məntiqi əsasları vardır ki, sadəcə biz bunları bilmirik. Bizim həmin gizli və sirli qanunları bilməməyimiz, heç də bizə onları inkar etmək ixtiyarı vermir. Möcüzəli hadisələrdə bir sıra qeyri-adi və metafizik səbəb və dəlillər vardır. Həmin səbəblər metafizik aləmdən təbii aləmə təsir göstərən amil kimi dəyərləndirilə bilər. Bu səbəblər bir növ maddi dünyada müəyyən hadisələrin baş verməsini şərtləndirir.

Metafizik qanunların təbii hadisələrə və qanunlara təsiri də məntiqi məsələdir. Təbiətin özündə də bir silsilə qanunlar başqa təbii qanunlar üzərində üstünlük təşkil edir və metafiziki qanunların bir sıra qeyri-adi təbii hadisələrin baş verməsində üstün təsir göstərməsi məntiqi bir məsələdir. Təbiət hadisələrinə aid bir misal: bəzi fiziki qanunlardan istifadə edərək təyyarəni ümumi cazibə qanununa uyğun olaraq Yerə doğru hərəkət etdirmək əvəzinə, yuxarıya doğru yönəltmək olur [19].

İkincisi, varlıq aləminin müəyyən bir nizam və qanunauyğunluğa malik olması heç də Allahın qüdrətini məhdudlaşdırmaq mənası daşımır. Varlıq aləmindəki hadisələrin qanunauyğun şəkildə cərəyan etməsi ümumi bir tezisdir və bu da Tanrı qüdrətinin əzəmət və sonsuzluğuna dəlalət edir. Varlığın banisi kainatdakı şeylərin və hadisələrin çoxunu elə yaratmışdır ki, onlar bir silsilə təbii amil və səbəblər əsasında tənzimlənir. Həmin amil və səbəblərin Allah ilə əlaqəsi və bağlılığı öncə işarə etdiyimiz şaquli əlaqədir. Biz maddi və təbii səbəbləri Allahın fəaliyyəti üçün əsas kimi qəbul etsək və burada üfüqi münasibətin olduğunu iddia etsək, Allahın qüdrətini inkar etmiş olarıq. Lakin biz burada şaquli münasibətdən çıxış edərək Allahın fəaliyyətini varlıq (vücud) üçün bir feyz qaynağı və başlanğıc (məbdə) hesab edirik. Varlıq aləmində olan bütün qabiliyyət və keyfiyyətlər Allahın feyzindəndir. Ona görə Quran ayələrində bəzi işlər həm

Allaha, həm də məxluqa aid edilir. Məxluq isə Allahın əmrini icra edən vasitədir. Bir ayədə ruhun alınması həm Allaha, həm də ölüm mələyinə aid edilir.

Zumər surəsi, 42-ci ayə:

*Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin ruhunu isə yuxuda alır.*

Səcdə surəsi, 11-ci ayə:

*(Ya Məhəmməd!) De ki: "Sizə müvəkkil olan ölüm mələyi (Əzrail) canınızı alacaqdır. Sonra da (qiyamət günü) Rəbbinizin hüzuruna qaytarılacaqsınız!"*

Aşağıdakı ayədə kafirlərin öldürülməsi həm Allaha, həm də insanlara aid edilir.

Tövbə surəsi, 14-cü ayə:

*Onlarla vuruşun ki, Allah sizin əlinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırıb möminlərin ürəklərini fərəhləndirsin.*

Başqa bir ayəyə görə bitkilərin cücərib böyüməsi üçün həm Allahın izni, həm də münbit torpaq lazımdır.

Əraf surəsi, 58-ci ayə:

*Təmiz (torpağı münbit) bir məmləkətin bitkiləri Rəbbinin izni ilə (bol, vaxtında) çıxar. Pis (torpağı qeyri-münbit) bir məmləkətin bitkiləri isə yalnız çox çətinliklə, özü də az yetişər. Biz Öz ayələrimizi (nemətlərimizə) şükr edən bir tayfa üçün belə müfəssəl izah edirik.*

Torpağın bir qisminin münbit, başqa bir qisminin qeyri-münbit olması Allahın xilqətindəki hikmətdir, lakin bitkinin münbit torpaqda böyüməsi və pis torpaqda isə inkişafdan qalmasının səbəbi təbii prosesdir.

Quran baxımından cəbr ilə ixtiyar, Allahın iradəsi ilə varlığın öz təbii qanun-qaydası arasında dialektik bir münasibət vardır. Təbii qanun-qaydanın olması heç də kosmoloci düzəndə Allahın iradəsini inkar etməyə əsas verə bilməz.

### *Dünya düzəninin məntiqi*

Dünyada hökm sürən qanunauyğunluq və nizamlı düzənə əsaslanan bəzi fizika alimləri dünyanın məntiqli bir quruma malik olduğunu söyləyirlər. Əgər dünya qanun-qayda üzrə bərqərar olmasaydı, heç bir alim kainatdakı hadisələri və təbiət proseslərini elmi şəkildə araşdıra bilməzdi. Bütün elmi və fəlsəfi axtarışlar dünyanın məntiq üzərində düzənləndiyini təsdiqləyir. Albert Eynşteyn bu barədə belə deyir:

"Dünyanın sirlərini öyrənmək məqsədilə ağıl və məntiqin azacıq da olsa işıq saçması üçün dünya qurumunun özünün məntiqi düzənə malik olmasına inanmaq gərəkdir. Ehtiyacları dərk etmək üçün güclü meyl və hərarətli bir istək lazımdır. Belə bir istək və meyl şübhəsiz ki, Kepler və Nyuton kimi zəka sahiblərində olmuşdur" [20]. Müasir fiziklərdən biri olan Çarlz dünyanın məntiq qurumu barədə belə söyləyir:

"Alimlər bir işə başlamazdan öncə ürəklərində güclü iman olmalıdır. Ən çətin vəzifələri yerinə yetirməkdə insan üçün dərin iman hissi olduqca zəruridir. Sual oluna bilər: – Nə üçün? Cavab çox sədədir: – İnsan şəxsən arxayın olmalıdır ki, dünyada bir nizam və qayda-qanun vardır. İnsanın huşu və zehni həmin nizam və qanun üzrə fəaliyyət göstərir və gerçəklikdə baş verən hadisələrin qanunauyğunluğunu bu sayaq psixoloci bir durumla təhlil etməyə girişir. Belə bir iman və etiqad olmadan insan ürəkdən çalışa bilməz. Başqa bir tərəfdən məntiqi köklərə söykənən insan zəkası nizamsız və qanun-qaydasız bir dünyanı necə dərk edə bilər? Nizamsız dünya anlaşılmaz bir dünya olaraq qalar, burada xaos və hərc-mərclik olar.

Həqiqət ondan ibarətdir ki, imanın özü insan üçün nizamlı və anlaşıqlı bir dünyadır. Nizamlı və qanun-qaydalı dünyaya olan iman insanları xurafat dövründən müasir elmi tərəqqi dövrünə gətirib çıxarmışdır. İnsan pillə-pillə çeşidli

dəyişmələrlə üzləşərək iman sayəsində çağdaş elmi inkişafa yiyələnmişdir [21].

## Varlıq aləminin vəhdəti

Quranın irəli sürdüyü kainat düzənində ən önəmli məsələ dünyanın – yəni bütövlükdə varlıq aləminin vəhdəti mövzusudur. Kainatın bütün təbəqə və tərkib hissələri bir-biri ilə bağlı və ahəngdar bir münasibətdədir. Dünyanın tərkib hissələri bir-birindən ayrı, təcrid olunmuş və rabitəsiz deyildir, bəlkə aləmin hər bir hissəsi onun başqa hissələri ilə əlaqədə olub bütövlükdə dünyanın ümumi vəhdətini təşkil edirlər.

Dünyanın vəhdəti məsələsini filosofların çoxu qəbul edir. Lakin bu vəhdətin necə anlaşılması məsələsində müxtəlif baxışlar vardır.

Ümumi şəkildə isə adətən dünyanın vəhdəti barədə iki baxış sistemi vardır:

***1. Mexaniki vəhdət***

Bu baxış mexaniki düşüncə tərzindən qaynaqlanır. Belə ki, həmin təsəvvürə görə dünyanın tərkib hissələri sanki bir maşının müxtəlif hissələrindən ibarətdir. Burada hər bir hissə özünə aid bir işi yerinə yetirir. Əgər maşının bir hissəsində dəyişiklik baş versə, bütün maşın dəyişər, onun hərəkəti pozular. Təbiət aləmində də belə bir vəziyyət müşahidə edilir: dünyanın bir qismində dəyişiklik baş verərsə, bütün sistemdə dəyişmələr yaranar.

***2. Orqanik vəhdət***

Bu baxışa görə, dünyadakı əlaqə və bağlılıq, bir bədənin üzvləri arasındakı bağlılıq kimidir: yəni bütün varlıq aləmi üçün vahid bir həyat prinsipi vardır. İnsanın bədənində ruh adlı bir önəmli amil vardır və həmin ruh bütün orqanizmi idarə edir. Təbiət aləmində də buna bənzər külli nəfs vardır və həmin külli nəfs təbiətin və

dünyanın bütün tərkib hissələrini idarə edir, onlara hakim olan bir qüdrət kimi çıxış edir.

Adətən materialist filosoflar mexaniki vəhdət nəzəriyyəsinə inanır və həmin təlimi əsas düşüncə tərzi kimi qəbul edirlər. İlahiyyatçılar isə kainatın orqanik vəhdətini daha məntiqli bir model kimi tanıyırlar.

İndi baxaq görək dünyanın vəhdəti Quran ayələri işığında necə açıqlanır.

Mülk surəsi, 1-ci ayədə göstərilir ki, hər şeyin hökmü və ixtiyarı Allah ilədir:

*Hökm (hər şeyin ixtiyarı) əlində olan Allah nə qədər uca, nə qədər uludur. O, hər şeyə qadirdir!*

Həmin surənin 3-4-cü ayələri isə kainatın ardıcıl vəhdətini bəyan edir:

Mülk surəsi, 3-4-cü ayələr:

*Yeddi Göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur! (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq, çatdaq (nöqsan) görə bilərsənmi?!*

*Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!*

Bu ayələrə görə, varlıq aləmi elə yaradılmışdır ki, burada heç bir nizamsızlıq və pərakəndəlik nişanələri yoxdur. Əgər insan diqqətlə nəzər salsa, heç bir şəkk-şübhə olmadan varlıq aləminin tərkib hissələrinin bir-biri ilə bağlılığını anlayar və dünya düzənindəki vəhdəti dərk edər. Kainat və ya varlıq aləmi vahid bir düzəndən ibarətdir. Dünyanın vəhdəti Allahın birliyindən irəli gəlir, yəni kainat düzənindəki nizam və vəhdət tovhid düşüncəsi ilə uzlaşır. Başqa bir ayədə təkallahlıq prinsipinə görə dünyanın vəhdəti vurğulanır. Allah bir olduğu səbəbdən kainat da bir qanun və nizamla düzənlənib. İkiallahlıq dünyanın nizam və vəhdətinin pozulması deməkdir.

Ənbiya surəsi, 22-ci ayə:

*Əgər Yerdə və Göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) pozulardı. Ərşin sahibi olan Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır.*

Eyni zamanda Qurani-kərim dünyadakı nizamı əsaslandırılmış və yetərli bir tərzdə bəyan edir. Hər şey yerli-yerində, bütöv və yetərli bir qaydada nizama salınır. Bu isə dünyadakı vəhdətə dəlalət edir. Əgər dünyanın hissələri bir-biri ilə yetərincə əlaqədə olmasaydı, bu düzəndə vəhdət olmasaydı, varlıq aləmi kamil və möhkəm olmazdı.

Nəml surəsi, 88-ci ayə:

*(O gün) dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi bacarıqla, yerli-yerində edən Allahın gördüyü işdir. O, etdiyiniz bütün əməllərdən xəbərdardır!*

## Varlıq aləmi ayə kimi

Qurani-kərimə görə varlıq aləmi Haqqın ayəsi – yəni dəlil və nişanəsidir. Varlıq aləmi bütün çeşidli və müxtəlif təzahürləri ilə vahid, qadir Allahın, aləmin məbdəsi sayılan Haqqın nişanələridir.

"Ayə" sözü əlamət və nişanə mənasında işlənir. Qurani-kərimdə ayə sözü 382 dəfə işlənib. Varlıq aləminin ümumi həqiqətləri "ayə" məfhumu ilə ifadə olunur. Allahın kamil və yenilməz qüdrəti, yetkin hikməti ayələr vasitəsilə varlıq aləmində zahir olur. Bu yöndə, Göylərin və Yerin xilqəti, gecə-gündüzün növbələşən hərəkəti Allahın hikmət və qüdrət nişanələri və dəlilləri kimi bəyan edilir.

Ali-İmran surəsi, 190-cı ayə:

*Həqiqətən, Göylərin və Yerin yaradılması, gecə ilə gündüzün bir-birini əvəz etməsi (bir-birinin ardınca gəlib-*

*getməsi) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən) qəti dəlillərdir.*

Ənkəbut surəsi, 44-cü ayə:

*Allah Göyləri və Yeri haqq olaraq (lazımınca) yaratmışdır. Həqiqətən, bunda (bu yaradılışda) möminlər üçün bir ibrət vardır.*

Bu ayədə (ərəbcə variantında) "ayə" sözü ibrət və dəlil mənasında işlənib.

Varlıq aləmindəki hadisələr, təbiətin nizam və düzənində qarşılaşdığımız ardıcıl və qanunauyğun hallar Allahın qüdrət və hikmət dəlilləri kimi anlaşılır. Göydən Yer üzünə yağışın enməsi, burada çeşidli bitki və meyvələrin bitməsi Aləmlərin Rəbbi olan Allahın qüdrət nişanələridir. Quşların havada uçuşu, fəzada dayana bilməsi də Haqqın hikmət və qüdrət nişanələridir. Gecələr insanlar üçün rahatlıq və dincəlmək üçün, gündüzlər isə çalışma və iş üçündür. Gecə-gündüzün bu nizamla yaranması da Allahın hikmət nişanələridir.

Nəml surəsi, 86-cı ayə:

*Məgər gecəni onların istirahəti üçün (qaranlıq) yaratdığımızı, gündüzü isə (işlərini görmək, ruzi qazanmaq üçün) işıqlı etdiyimizi görmürlərmi? İman gətirən bir tayfa üçün bunda (Allahın vəhdaniyyətinə və qüdrətinə dəlalət edən) əlamətlər vardır.*

Varlıq aləmi sanki insanların ixtiyarına verilir: Günəş insan üçün işıq və hərəkət mənbəyidir. Günəş şüaları həyat qaynağı olmaqla mikrobları məhv edir, bitkilər Günəş işığında böyüyür. Çaylar da insanın xidmətindədir; onların suyu ilə tarlaları suvarır və məhsul yetişdirirlər. İnsanlar dənizdən də faydalanır, dəniz sularında gəmilər hərəkət edir. Dənizdə olan müxtəlif təbii sərvətlər – balıq, mirvari və s. insanların istifadəsi üçündür. Bütün bu sadalanan nümunələr Allahın hikmət və qüdrət nişanələri sayılır.

Nəhl surəsi, 7-ci və 10-14-cü ayələr deyilənləri yetərincə təsdiq edir.

Nəhl surəsi, 7-ci ayə:

*Onlar sizin yüklərinizi özünüzü yormadan çata bilməyəcəyiniz bir ölkəyə (bir yerdən başqa yerə) daşıyırlar. Həqiqətən, Rəbbin şəfqətli və mərhəmətlidir.*

Nəhl surəsi, 10-14-cü ayələr:

*Göydən sizin üçün yağmur endirən Odur. O sudan siz də, içində (heyvanlarınızı) otardığınız ağaclar və otlar da içər (ağaclar və otlar da Onun vasitəsilə bitər).*

*Allah o su ilə sizin üçün əkin (taxıl, bitki), zeytun, xurma ağacları və bütün meyvələrdən yetişdirir. Düşünüb-daşınanlar üçün bunda (Allahın vəhdaniyyətini sübut edən) dəlillər vardır!*

*O, gecəni və gündüzü, Günəşi və Ayı sizə (sizin mənafeyinizə) tabe etdi. Ulduzlar da Onun əmrinə tabedir. Doğrudan da, bunda ağılla düşünənlər üçün ibrətlər vardır!*

*Allah Yer üzündə yaratdığı cürbəcür şeyləri (heyvanları, bitkiləri, meyvələri və s.) də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da (Allahın qüdrətini və əzəmətini bildirən) əlamətlər vardır!*

*Təzə ət (balıq əti) yeməyiniz, taxdığınız bəzək şeylərini (inci, sədəf, mərcan) çıxartmağınız üçün dənizi də sizə ram edən Odur. (Ey insan!) Allahın nemətindən sizin ruzi axtarmağınız üçün sən gəmilərin onu yara-yara üzüb getdiyini görürsən. Bəlkə, (bundan sonra Allahın nemətlərinə) şükr edəsiniz!*

Bir sözlə, hər şeyi insanlara ram edən, onların ixtiyarında qoyan Allahdır və düşünən kəslər bunları dəlil və ibrət kimi dərk edir.

Casiyə surəsi, 12-13-cü ayələr:

*Gəmilərin Onun əmri ilə dənizdə üzməsi və sizin də Onun kərəmindən (orada) ruzi axtarmanız üçün dənizi sizə ram edən Allahdır!*

*Göylərdə və Yerdə nə varsa, hamısını Öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!*

Hətta qadın və kişilərin cüt yaranması da Allahın hikmət nişanəsidir.

Rum surəsi, 21-ci ayə:

*Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!*

Ariflərin etiqadına görə, yaradılış və xilqət ona görə "aləm" adlanır ki, burada mövcud olan bütün varlıq nümunələri Allahın hikmət və qüdrət əlamətləri və Onun sifətlərinin təzahürüdür. Əzizəddin Nəsəfi məşhur "əl-İnsanül-kamil" əsərində belə yazır: "Bil ki, Allah-təala varlıqları yaradarkən onların ümumi adını aləm qoydu. Çünki varlıq aləmindəki nümunələr Allahın vücuduna, Onun qüdrət, elm və idrakına dəlalət edən əlamətdir" [22].

Varlıq aləminin Allahın əlamət və nişanəsi olduğunu bəyan etməklə başqa bir sual ortaya qoyuruq. Bu nişanə hansı növdən və necədir? Yəni varlıq aləminin Allahın varlığına dəlalət etməsi hansı qism dəlillər sırasına aiddir?

Dəlillər üç qismdir:

– **Birinci növ** dəlillər şərti işarə və analoq xarakteri daşıyır. Bir şeyi başqa bir şey üçün şərti işarə və əlamət kimi nəzərdə tutduqda belə bir dəlil münasibəti yaranır. Məsələn, söz və məna arasında olan münasibət şərti işarə xarakteri daşıyır, yəni söz hər hansı bir mənaya işarə edən şərti kod kimi təsəvvür edilir. Hər bir dildə müəyyən mənalar üçün həmin dilə xas sözlər işlənir.

**İkinci növ** dəlillər təbii dəlillər sırasına daxildir; məsələn, öskürək sinədə və ya boğazda olan narahatlığa dəlalət edir, üzün rənginin qızarması əsəbiliyə dəlalət edir.

**Üçüncü növ** isə əqli dəlillər adlanır. Səbəb-nəticə münasibəti və ya mühərriklə hərəkət arasındakı əlaqə bu növə aid edilir.

Varlıq aləminin Allahın varlığına dəlalət etməsi əqli dəlillər sırasındadır. Varlıq aləminin davamlı və sistematik bir nizama malik olması, burada ardıcıl nizam-intizam və qanun-qaydanın bərqərar olması bir Allahın varlığına dəlalət edir və belə olmasa, dünyanın nizamı başqa dəlil ilə izah və şərh edilə bilməz. Qaliley demişdir ki, "Təbiət aləmi riyazi hərflərlə yazılmışdır" [23]. Bu tezis varlıq aləminin ayə və dəlil olduğunu göstərir. Təbiət aləmində müşahidə edilən nizamlı varlıq nümunələri, onların vahid bir sistem kimi qurulması Allahın varlığına dəlalət edən əqli nişanədir.

Hər bir şey Allahın varlığı üçün ayədir.

Hər bir ayə göstərir ki, Allah birdir.

"Varlıq aləmi Haqqın ayəsi və nişanəsidir" dedikdə bunu hər kəs başa düşə və dərk edə bilməz. Quran ayələri bu məsələni xüsusi vurğulayır və bəyan edir ki, təkcə ağıl və düşüncə sahibləri (qövmi-yəqilun), zəka sahibləri (ululəlbab), anlaq və dərrakə yiyələri (qövmi-yəfqəhun), elm və bilgi sahibləri (qövmi-yələmun), mütəfəkkirlər (qövmi-yətəfəkkurun), ən önəmlisi isə iman və təqva sahibləri (qövmi-yəttəqun) varlıq aləmini Allahın ayə, dəlil və nişanəsi kimi anlayırlar.

Rum surəsi, 24-cü ayə:

*Sizə həm qorxu, həm də ümid verən (sizi vurmasından qorxduğunuz, dalınca isə yağış yağmağına ümid bəslədiyiniz) ildırımı göstərməsi, Göydən yağmur endirib öləndən sonra (onunla) torpağı diriltməsi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda ağıllı düşünən bir qövm üçün ibrətlər vardır.*

Bəqərə surəsi, 118-ci ayə:

*(Müşriklərdən olan) cahillər dedilər: "Nə olaydı ki, Allah bizimlə də danışaydı, bizə də bir ayə gələydi!" Onlardan əvvəl gələn cahillər (yəhudi və xaçpərəstlər) də buna bənzər sözlər demişdilər. Onların qəlbləri bir-birinə bənzəyir. Biz tam yəqinliklə iman gətirənlərə dəlillərimizi açıqcasına göstərdik.*

## Varlıq aləminin gözəlliyi

Qurani-kərim baxımından varlıq aləmi ahəngdar və gözəldir. Varlıq aləmindəki bütün məxluqat Allah tərəfindən gözəl yaradılmışdır. Təbiətdəki bütün varlıqlar elə bir gözəl biçimdə xəlq edilib ki, bəşərin gözəllik təşnəsi olan duyğuları xilqətin zərifliyindən zövq alır; insan həmin gözəlliklərin təsiri altında batini rahatlıq tapır və ləzzət hissi duyur.

Qurani-kərim varlıq aləminin çeşidli gözəlliklərini xatırladır: Göy aləmi və ulduzlar. Yer üzərindəki təbiət mənzərələri, canlı aləmdəki gözəlliklər və nəhayət insan gözəlliyi.

İndi Quran ayələrində həmin gözəlliyin təsviri ilə tanış olaq.

Göy səltənətinin gözəllikləri diqqət mərkəzində dayanır.

Saffat surəsi, 6-cı ayə:

*Biz (sizə) ən yaxın olan Göy üzünü (dünya səmasını) ulduzlarla bəzədik. (Günəş, Ay və ulduzlar başqa-başqa göylərdə olduqları halda, siz onların hamısını özünüzlə müqayisədə ən yaxın bir yerdə – sanki başınızın üstündə görürsünüz.)*

Fussilət surəsi, 12-ci ayə:

*Biz aşağı Göyü (dünya səmasını) qəndillərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur).*

Mülk surəsi, 5-ci ayə:

*And olsun ki, Biz dünya səmasını (Yerə ən yaxın olan Göyü) qəndillərlə (ulduzlarla) bəzədik, onları şeytanlara atılan mərmilər etdik və şeytanlar üçün yandırıb-yaxan alovlu atəş əzabı hazırladıq.*

Hicr surəsi, 160-cı ayə:

*Biz səmada bürclər yaratdıq, onları baxanlar üçün (ulduzlarla) bəzədik.*

Qaf surəsi, 6-cı ayə:

*Məgər onlar başlarının üstündəki Göyə baxıb onu necə yaratdığımızı, necə bəzədiyimizi və orada heç bir yarıq olmadığını görmürlərmi?!*

Təkcə parlaq ulduzlarla bəzədilən Göy səltənəti deyil, həm də Yer üzəri də öz uca və alçaq yerləri ilə, dağları və dərələri ilə, dərya və çayları ilə gözəldir.

Yunus surəsi, 24-cü ayə:

*Həqiqətən, (nemətləri, cah-cəlalı ilə fəxr etdiyimiz) dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib (əlvan çiçəklər və müxtəlif meyvələrlə) bir-birinə qatışar. Nəhayət, Yer üzü bəzəklənib süsləndiyi və sakinləri də (onun məhsulunu, meyvəsini) yığmağa qadir olduqlarını zənn etdikləri vaxt gecə, yaxud gündüz əmrimiz gəlib, dünən üzərində bol məhsul almamış kimi, onu (tərtəmiz) biçər. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!*

Ölü kimi quru torpaq yağmur ilə yenidən dirçələrək güllər və bitkilərlə bəzənir. Gözəl ağaclar, ürəkaçan çəmənlər, gözəl bağça-bağlar və başqa təbiət gözəllikləri Allahın bəxş etdiyi lütf və ehsandır.

Allahın xilqəti bütövlükdə öz gözəllikləri ilə seçilir, təbiətdəki hər bir hərəkət və oyanış necə də cilvələnir.

Həcc surəsi, 5-ci ayə:

*Sən Yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə (cana) gəlib qabarar (yaxud xəmir kimi acıyar) və hər növ gözəl (meyvədən, bitkidən) bar gətirər.*

Nəml surəsi, 60-cı ayə:

*(Bütlər yaxşıdır) yoxsa Göyləri və Yeri yaradan, sizin üçün göydən yağmur endirən kəs?! Sonra Biz o yağmurla sizin üçün gözəl bağçalar yetişdirdik. (Əgər Allahın yaratdığı və Yerə endirdiyi su olmasaydı) siz o bağçaların ağaclarını göyərdə bilməzdiniz.*

Təkcə Göylər və Yer aləmi deyil, canlı varlıqlar da gözəl və ahəngdar yaradılıb. Allah öz lütfünü heç nədən əsirgəməyib.

Nəhl surəsi, 5-6-cı ayələr:

*Davarı da (dəvə, inək, kəl, qoyun, keçi və s.) O yaratdı. Bunlarda (onların yununda) sizin üçün istilik, cürbəcür mənfəət (südünü içmək, özlərini minmək, yer sürmək) vardır, həm də onlardan (onların ətindən) yeyirsiniz.*

*Onları səhər naxıra, axşam axura gətirdikdə (səhər otlamaq üçün çölə göndərib, axşam tövləyə qaytardıqda) baxıb zövq alır, fərəhlənirsiniz.*

İnsanların istifadəsi üçün yararlı olan heyvanlar da gözəl xəlq olunub.

Nəhl surəsi, 8-ci ayə:

*Sizin minməyiniz və sizin üçün bəzək olsun (xoş olsun) deyə, atı, qatırı və uzunqulağı O yaratdı. Allah hələ sizin bilmədiyiniz neçə-neçə şeylər (nəqliyyat, minik vasitələri və s.) də yaradacaqdır.*

Varlıq aləmində ən uca məqam insana xasdır. İnsan eyni zamanda öz

gözəllik və camalı ilə seçilir. İnsanın vücudu gözəl biçimdə xəlq olunub. Hər bir bədən üzvü elə ardıcıl və ahəngdar bir şəkildə düzənlənib ki, insanın zahiri qəlibi və biçimi olduqca gözəl alınıb. İnsanlar arasında irq, dəri rəngi, zahiri qiyafə baxımından fərqlər vardır, lakin ayrı-ayrı etnik qurumlar, irqlər və xalqlar bəşərin ümumi görkəmini gözəl biçimlə tanıyır.

Quranda insan xilqətinin gözəl biçiminə işarələr var və bu çox önəmlidir.

Tin surəsi, 4-cü ayə:

*Biz insanı ən gözəl biçimdə yaratdıq!*

Təğabun surəsi, 3-cü ayə:

*O, Göyləri və Yeri haqq-ədalətlə (yerli-yerində) xəlq etdi, sizə surət verdi və surətlərinizi gözəl yaratdı. (İnsan*

*bütün canlıların ən gözəli və ən kamilidir.) Axır dönüş də Onun hüzurunadır!*

Mumin surəsi, 64-cü ayə:

*Sizin üçün Yeri məskən, Göyü tavan edən, sizə surət verən, surətlərinizi gözəlləşdirən, sizə təmiz (pak) nemətlərdən ruzi verən Allahdır! Bu sizin Rəbbiniz olan Allahdır. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər uludur! (Ucalardan ucadır, xeyir-bərəkəti bol və daimidir!)*

İnsan həm gözəl yaradılıb, həm də gözəllik təşnəsidir. Allah kainatda çoxsaylı gözəlliklər xəlq edib, insan psixologiyasında isə gözəlliyə meyl yaradıb. İnsan dünyanın və həyatın gözəlliklərindən, Allahın yaratdığı ehsan və nemətlərdən faydalanmağa qabildir – yəni Tanrı ona gözəlliyi duymaq istedadı bəxş etmişdir.

Əraf surəsi, 32-ci ayə:

*(Ya Peyğəmbərim!) De ki: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur?" De ki: "Bunlar dünyada iman gətirənlər üçündür (lakin kafirlər də onlardan istifadə edə bilərlər), qiyamət günündə (axirətdə) isə yalnız möminlərə məxsusdur". Biz ayələrimizi anlayıb-bilən bir tayfaya belə ətraflı izah edirik.*

Quran ayələri üzərindəki araşdırmalar göstərir ki, varlıq aləminin gözəlliyi xilqətin öz mahiyyətindən doğur. Bu gözəlliyi yaradan Allahdır. İnsanın zehni varlıq aləmindəki gözəllikləri sadəcə olaraq subyektiv bir təsvir kimi canlandırmır – yəni varlıq aləmi gözəl biçimdə xəlq edildiyi üçün insan zehni də onu gözəl qavrayır. Gözəllik insanların zahiri qavrayış və təsəvvüründə deyil, varlığın öz mahiyyətindədir.

Bu bölümün sonunda Keplerin dünyanın gözəlliyi barədəki "Dualar"ından bir parçanı təqdim edirik:

"Ey Tanrım mənim! Ey dünyanı yaradan Allahım! Mənə xilqətin gözəlliklərini görüb duymaq istedadı verdiyinə görə

Cənə təşəkkür edirəm və minnətdaram. Sənin yaratdığın gözəl əsərlərdən zövq və ləzzət aldığıma xatir Sənə şükr edirəm. Mən öz vəzifəmi yerinə yetirdim, mənə bəxş etdiyin istedadımla Sənin xilqətindəki gözəllikləri arayıb tapdım, onları dəyərləndirdim. Bu kitabımda Sənin yaratdığın gözəlliklərin nişanə və şahidlərini insanlar üçün şərh etdim. Qoy onlar xilqətin gözəlliyinin mənşə və qaynağını yaxşı tanısınlar" [24].

İnsan Allahın yaratdığı məxluqlar arasında üstün məqama malikdir.

İsra surəsi, 70-ci ayə:

*Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik. (İnsan şüur, nitq qabiliyyəti, gözəl surət, boy-buxun, əllə yemək və s. bu kimi məziyyətlərinə görə həmişə Allaha şükr edib yalnız Ona tapınmalı, Rəbbinə heç bir şərik qoşmamalıdır!)*

## Varlıq aləminin ikili cəhəti

Qurani-kərimin kosmoloci təlimində varlıq aləminin iki cəhəti və qütbü vardır. Bunlardan biri əmr və o birisi xəlq tərəfidir. Varlıq aləmi iki cəhətlə fərqlənir: Rübubiyyət cəhəti və xəlq cəhəti – yəni əmr və yaratmaq sifəti.

Əraf surəsi, 54-cü ayə:

*Həqiqətən, Rəbbiniz Göyləri və Yeri altı gündə xəlq edən, sonra ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, Günəşi, Ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür!*

Bəs bu iki cəhət və qütb nə deməkdir?

İlahi əmr varlıq aləmi üçün Qurani-kərimdə işarə edilən "kuni" (ol) əmri deməkdir. Allah bir şeyi yaratmaq istərkən əmr edir və həmin əmr "ol" sözü ilə bəyan edilir. İlahi əmrə işarə edilən iki ayəyə nəzər salaq.

Nəhl surəsi, 40-cı ayə:

*Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: "Ol!" – əmri deməkdir. O da dərhal olar.*

Yasin surəsi, 82-ci ayə:

*Bir şeyi (yaratmaq) istədiyi zaman Allahın buyuruğu ona ancaq: "Ol!" – əmri deməkdir. O da dərhal olar.*

Yuxarıdakı ayələrə əsasən, Allah bir şeyi yaratmağa iradə etsə, "ol" əmrini söylər. Deməli, hər bir varlıq nümunəsinin yaranışı üçün ilkin qaynaq ilahi əmrdir. İlahi fərman yetişdikdə bir şey yaranar. Allah bütün aləmlərin Rəbbidir və bu mənada varlıq aləmi ilə Allah arasında bir əlaqə və rabitə vardır. Başqa sözlə desək, varlıq aləmi heç vaxt öz Yaradanı olan Allahdan ayrı deyil. Harada məxluq vardırsa, orada Xaliq də vardır. Ona görə insan hansı səmtə üz tutarsa Allahı orada hazır görər – daha doğrusu Allahın ayət və nişanəsini hər yerdə görər.

Bəqərə surəsi, 115-ci ayə:

*Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah ordadır. Şübhəsiz ki, Allahın mərhəməti genişdir və O, hər şeyi biləndir!*

Varlıq aləminin ilahi əmrlə bağlı cəhəti dəyişməz və sabit olmaqla zaman və məkan hüdudundan kənar bir anlamdır. İlahi əmr aləmi fənaya uğramaz.

Qəsəs surəsi, 88-ci ayə:

*Və Allahla yanaşı başqa heç bir tanrıya ibadət etmə. Allahdan başqa heç bir tanrı yoxdur. Allahdan başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz (qiyamət günü) məhz Onun hüzuruna qaytarılacaqsınız!*

Varlıq aləminin əmr cəhəti maddi dünyadan təcrid edilmiş, hərəkət və dəyişmədən uzaq bir anlamdır. Bu bir növ ilahi iradənin təcəllisi deməkdir. Allah öz iradəsi ilə

varlıq aləmini yaradır və ilahi iradə yaradıcı bir amil kimi çıxış edir və təbiidir ki, yaradılan hər bir şey onu Yaradana aiddir və ilahi əmr bir və anidir.

Qəmər surəsi, 50-ci ayə:

*Bizim əmrimiz bir göz qırpımında yerinə yetər! (Hər hansı bir şeyi yaratmaq istədikdə ona bircə dəfə: "Ol!" – deyərik, o da dərhal olar!)*

Nəhl surəsi, 77-ci ayə:

*Göylərin və Yerin qeybini (gözə görünməyən, heç kəsə bəlli olmayan məchul sirlərini) bilmək ancaq Allaha məxsusdur. Qiyamətin qopması (əmri) bir göz qırpımında, yaxud daha tez olar. Allah, həqiqətən, hər şeyə qadirdir!*

Loğman surəsi, 28-ci ayə:

*(Ey insanlar!) Sizi (yoxdan) yaratmaq və (qiyamət günü) diriltmək (Allah üçün) ancaq bir nəfəri yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah (hər şeyi) eşidən və görəndir!*

Bu ayələrə görə, Allahın əmri bir dəfəlikdir və burada təkrara yer yoxdur. Allah bir şeyi yaratmağa iradə edərsə, həmin şey dərhal yaranar, bunun üçün daha ilkin şərtlər və zəmin hazırlamaq lazım gəlmir. Bir şeyi yaratmaq üçün hər hansı bir maddəyə, hərəkət və gücə malik bir qaynağa da ehtiyac yoxdur. Əmr aləmində maddi məfhum anlamı yoxdur.

Lakin xəlq aləmi fərqlidir və burada varlığın zaman və məkan çərçivəsində tədrici yaranma və təkamül mərhələsi gerçəkləşir. Xəlq aləmi üçün səbəb və dəlilə ehtiyac duyulur, əmr aləmindən fərqli olaraq burada eyni zamanda təbiətdəki varlıqların yaranması üçün maddi qaynaq, müəyyən gücə və qabiliyyətə malik olan maddəyə də ehtiyac vardır. həmin maddi qaynaq zaman ötdükcə tədrici hərəkət, dəyişmə yolu ilə təkamül mərhələsinə yetişir.

Quran ayələri Göylərin və Yerin tədrici yaranma prosesini və insanın maddi varlığının tədrici təkamülünü yada salaraq xəlq aləminin xüsusiyyətlərini açıqlayır.

Səcdə surəsi, 4-cü ayə:

*Göyləri, Yeri və onların arasındakıları altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Allahdır. Sizin ondan başqa heç bir haminiz və şəfaət (əzabı dəf) edəniniz yoxdur. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?*

Fatir surəsi, 11-ci ayə:

*Allah sizi (atanız Adəmi) torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra da sizi (kişi və qadın olmaqla) cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə ola bilməz və bari həmlini yerə qoymaz. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun (yaxud başqa birinin) ömrünün qısaldılması da ancaq Kitabda (lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.*

Saffat surəsi, 11-ci ayə:

*İndi (Ya Peyğəmbər, bu müşriklərdən) soruş: onları yaratmaq çətindir, yoxsa Bizim (başqa) yaratdıqlarımızı? (Və ya xilqətcə onlar güclüdürlər, yoxsa Bizim (başqa) yaratdıqlarımız?) Axı Biz onları (insanların atası Adəmi) yapışqan (kimi) bir palçıqdan yaratdıq.*

İnsan surəsi, 2-ci ayə:

*həqiqətən, Biz insanı (sonrakı mərhələdə ata-anasının toxumundan ibarət) qarışıq bir nütfədən yaratdıq. Biz onu (dünyada özünü necə aparacağı, hər şeyin xaliqi olan Allaha itaət edib-etməyəcəyi ilə) imtahana çəkəcəyik. Biz onu eşidən və görən yaratdıq.*

Bir sözlə, varlıq aləminin xəlq cəhəti dəyişmə və hərəkət, yaranma və məhv olma proseslərinin getdiyi bir məqamdır. Burada xilqətin yaranması üçün müəyyən şərait, səbəb və əsaslar mövcuddur. Fiziki və maddi ölçü ilə fərqlənən xəlq aləmi fənaya uğraya bilir.

Lakin ilahi əmr aləmində olduğu kimi, xəlq aləmi ilə Allah arasında rabitə olur. Ancaq bu rabitə vasitə və səbəblə bərqərar olur – yəni söhbət birbaşa mexaniki əlaqədən gedə bilməz. Qeyd edək ki, ilahi əmr Qurani-

kərimdə mələkut anlamı ilə bəyan edilir. Varlıq aləmində mələkutun yeri barədə bir sıra ayələrdə bəhs edilir.

Yasin surəsi, 82-83-cü ayələr:

*Bir şeyi (yaratmaq) istədiyi zaman Allahın buyuruğu ona ancaq: "Ol!" – əmri deməkdir. O da dərhal olar.*

*Hər şeyin hökmü, ixtiyarı (mələkut) əlində olan Allah pak və müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız!*

Başqa ayələrdə göstərilir ki, hər şey Allahın ixtiyarında olduğu kimi, mələkut aləmi də Onun əlindədir.

Muminun surəsi, 88-ci ayə:

*De ki: "Əgər bilirsinizsə, (bir deyin görək) hər şeyin hökmü (mələkut) əlində olan, (istədiyini) himayə edən, amma Özünün himayəyə ehtiyacı olmayan kimdir?"*

"Mələkut" sözü səltənət və hökmranlıq mənasında işlənir. "Bir işin mələkutu Allahın əlindədir" dedikdə hansı məna nəzərdə tutulur? Allahın varlıq aləminə hökmranlıq və padşahlıq etməsi həmin ifadə ilə verilir. Bu bir kinayədir. Allah xilqətin yeganə sahibi-ixtiyarıdır və Onun hökmranlıq dairəsindən kənar heç bir şey yoxdur. Varlıq aləminin mələkutu o deməkdir ki, bu aləm Haqqa məxsusdur. İbrahim peyğəmbər (ə) barəsində işlənən bu ifadə varlıq aləminin Allaha aid olmasına dəlalət edir. İbrahim peyğəmbər (ə) öz batini müşahidəsi və bilgisi ilə varlıq aləminin Allaha ehtiyacını dərk etmişdir. Hər şey Allaha möhtacdır və təkcə Allah heç nəyə möhtac deyil.

Ənam surəsi, 75-ci ayə:

*Beləcə, İbrahimə Göylərin və Yerin mülkünü, səltənətini (oradakı qəribəlikləri və gözəllikləri, onların Allahın qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun.*

Allahın hər şeyə sahib və hökmran olduğunu inananlara yəqin etmək üçün bu ayə İbrahim peyğəmbərlə (ə) bağlı nazil olmuşdur.

Başqa bir ayədə yenə Göyün və Yerin mələkutuna işarə edilir.

Əraf surəsi, 185-ci ayə:

*Məgər onlar Göylərin və Yerin mülkünə (Allahın Göylərdəki və Yerdəki səltənətinə, qüdrətinə), Allahın yaratmış olduğu hər şeyə, əcəllərinin yaxınlaşması ehtimalına diqqət yetirib düşünmürlərmi? Artıq buna (bu Qurana) inanmadıqdan sonra hansı kəlama inanacaqlar?*

İslam mütəfəkkirləri arasında Ustad Məhəmməd Təqi Cəfəri mələkutu şərh edərkən bu barədə maraqlı bir fikir söyləyir. Həmin fikirlə qısaca tanış olaq: "Mələkut məfhumunun açıqlaması barədə çox bəhs edilib. Bunlar arasında ümumi və bütöv bir məna tapmaq olar: əşya və maddi aləmin təbii varlığı arxasında olan bir metafizik dünya.

Varlıq aləmi insanda müşahidə edilən "mənlik" kimi iki cəhətə və ya tərəfə malikdir. Onun bir tərəfi obyektiv xilqət və ya xəlq aləmidir ki, bu da təbii varlığın üz tərəfidir – yəni zahiri "mən"dir.

İkinci tərəf isə obyektiv varlığın arxasında olan qeyri-obyektiv aləm və batini "mən"dir. İbn Sina bu aləmi "üzü o tərəfə" olan aləm kimi təqdim etmişdir. Varlığın əmr aləmi onun bünövrə və ruhudur. Mələkut əmr aləminə xas olmaqla mütləq ilahi ruhun xəlq aləmindəki təbii varlıqlara olan malikiyyət və hökmranlıq əlaqəsini ifadə edir" [25].

## Varlıq aləminin əzəməti və sonu

Varlıq aləminin əzəməti və sonu Qurani-kərim baxımından maraqlı bir tərzdə bəyan edilir. Kainatın əzəmət və sonsuzluğu bəşərin diqqətini həmişə cəlb edən məsələlərdəndir.

Quran ayələri kainatın əzəmət və sonsuzluğunu ifadə etmək üçün mübaliğə və təmsil üsulundan faydalanır. Bu əzəmət o dərəcədə geniş və əhatəlidir ki, əgər bütün

ağaclar qələmə, dəryalar isə mürəkkəbə çevrilərsə yenə də bu əzəməti təsvir və bəyan etməyə qadir olmaz. Varlıq aləminin əzəməti Haqqın əzəmətindən qaynaqlanır. Allahın substansiya, ad və sifətləri bəyana sığmadığı kimi, Onun xəlq etdiyi varlıq aləmi də bu sayaq bəyana sığmaz.

Kainatın və varlıq aləminin əzəmətini təsdiqləyən iki ayə diqqəti daha çox cəlb edir.

Kəhf surəsi, 109-cu ayə:

*(Ya Məhəmməd! Quranda buyurulduğu kimi, sizə çox az elm verilmişdir, söyləyən yəhudilərə) de ki: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dəryalar mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənməzdən əvvəl onlar tükənərdi!"*

Loğman surəsi, 27-ci ayə:

*Əgər Yerdəki bütün ağaclar qələm, dərya isə mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı, yenə də Rəbbimin sözləri (yazılıb) tükənməzdi. həqiqətən, Allah yenilməz qüdrət və hikmət sahibidir!*

Yuxarıdakı ayələrdə varlıq aləminin əzəmətini ifadə etmək üçün kainatdakı varlıqlar "kəlmə" (söz) məfhumu ilə verilmişdir. İndi isə görək "kəlmə" dedikdə nə nəzərdə tutulur və nə üçün mövcud varlıqlar bu söz ilə ifadə edilir. "Kəlmə" sözü lüğəti məzmununa görə hər hansı mənanı daşıyan sözdür. Hər hansı məfhumu bildirən söz kəlmə adlanır. Mənasız heç bir söz yoxdur. Sözün arxasında məna və məfhum vardır. Məna və məfhum isə müxtəlif varlıq nümunələrinin adlarını ifadə edir. Sözlər danışanın batini məzmun daşıyan məqsədini çatdırır. Varlıq aləmində mövcud olan şeylər də bir növ sözlər vasitəsilə ifadə edilir. Sözlər varlığın qeybi obrazları və rəmzi kimi çıxış edir. Varlıq aləmindəki bütün şeyləri götürsək, istər onların mahiyyət və əhatə dairəsi, istər kamillik göstəriciləri və istərsə də ilkin başlanğıc (məbdə) ilə münasibəti sözlər vasitəsilə ifadə olunur. Ona görə Qurani-kərimdə söz

dedikdə bütün varlıq nümunələrinin ümumi məfhumu nəzərdə tutulur.

Molla Sədra sözləri vücudun feyzindən maddi aləmin cismani varlıqlarına saçan işıqlı zərrəciklər adlandırır. Söz cismani mücərrəd vasitələr olaraq qeyri-maddi anlamlardır, yəni sözün məna tutumu vardır. Mücərrəd anlamlar elm və idrakın obyektiv surəti olduğuna görə, onlar ülvi aləmin mələkləri və müqəddəs ağıllar kimi çıxış edirlər. Molla Sədra "Əsrari-ayat" əsərində Kəhf surəsindəki ayələri şərh edərkən öz fikrini belə yekunlaşdırır: "Sözlər ağıl və mələklərə – yəni işıqlı rəmzlərə işarədir və vücudun rəhmət və feyzi cismani varlıqlara keçir. Sözlər varlıq aləminin məna daşıyıcılarıdır və mənadan doğur" [26].

Burada "Qurani-kərim insanların diqqətini bir həqiqətə yönəldir ki, varlıq aləmi heç də gördükləri və bildikləri şeylərlə məhdudlaşmır, onların təsəvvür etdikləri ilə bitib tükənmir. Varlıq aləmində bir çox şeylər vardır ki, insanlar onlardan xəbərsizdir. Xilqət aləmi o qədər geniş və əzəmətlidir ki, bəşər öz məhdud elmi ilə indiyədək bir çox həqiqətləri dərk etməmiş və gələcəkdə də dərk etməyəcəkdir.

İnsanlar müəyyən bir çərçivə və səviyyədə varlıq aləmi haqqında məlumata malik ola bilərlər.

Təbiət aləmi bütün əzəməti ilə yanaşı əbədi ömürə malik deyil. Kainat və onda mövcud olan bütün varlıqlar bir gün məhv olacaqdır. Göylər və Yer aləmi, Günəş və Ay, ulduzlar, dağlar və dəryalar – hamısı üçün müəyyən bir möhlət və əcəl vardır. Onlar qiyamət ərəfəsində dağılıb parçalanacaq.

Quran ayələrinə görə, dünyanın dağılması ani bir hal kimi, gözlənilməz zərbə ilə parçalanma prosesi olaraq təsəvvür edilir. Qurani-kərimdə aləmin dağılma prosesini bəyan etmək üçün iki sözdən istifadə edilir: "səyhə" və "nəfx".

Yasin surəsi, 49-cu ayə:

*Onlar (küçədə, bazarda) bir-biri ilə çənə-boğaz olarkən özlərini saracaq yalnız bir dəhşətli, tükürpədici səsə (İsrafilin surunun birinci dəfə çalınmasına) bənddirlər.*

Zumər surəsi, 68-ci ayə:

*Sur (birinci dəfə) çalınacaq, Allahın istədiyi kimsələrdən (Cəbrail, Mikail, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərindən) başqa, dərhal hamı öləcək.*

Qurani-kərim dünyanın dağılmasını bəyan etmək üçün Göyün və Yerin, Günəş və Ayın, ulduzların, dəryaların necə dəyişməsini, hansı hallara düşməsini göz önündə canlandırır. Bu yöndə işlənən ayələri izlədikcə maraqlı bir mənzərə yaranır. Öncə Göylərin parçalanmasından başlayaq. Qiyamət zamanı Göy bütövlükdə titrəyər və çatlayar, sonra bükülər və tikə-tikə parçalanaraq Yerə tökülər.

İndi həmin ayələri izləyək.

Tur surəsi, 9-cu ayə:

*O gün Göy hərəkətə gəlib fırlanacaq (çalxalanacaq),*

İnfitar surəsi, 1-ci ayə:

*Göy parçalanacağı zaman;*

Haqqə surəsi, 16-cı ayə:

*Və Göy süst düşüb parçalanacaqdır!*

İnşiqaq surəsi, 1-2-ci ayələr:

*Göy yarılacağı,*

*Və Rəbbinin buyuruğunu haqq olaraq eşidib Ona itaət edəcəyi zaman;*

Mursəlat surəsi, 9-cu ayə:

*Göy yarılacağı;*

Nəbə surəsi, 19-cu ayə:

*O gün Göy qapı-qapı açılacaqdır (mələklərin Yerə enməsi üçün Göydə yarıqlar açılacaqdır).*

Təkvir surəsi, 11-ci ayə:

*Göy (yerindən) qopardılacağı (və ya bükiləcəyi) zaman;*

Ənbiya surəsi, 104-cü ayə:

*Göyü kitab səhifəsi kimi bükübqatlayacağımız günü (qiyamət gününü) yadınıza salın. (O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi dirildib əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik. (Biz, qiyamət günü sizi dirildib lüt-üryan, anadangəlmə vəziyyətdə məhşərə gətirməyi vəd etmişdik. Biz onu mütləq edəcəyik).*

Rəhman surəsi, 37-ci ayə:

*(Qiyamət günü) Göy yarılıb (dağ basılmış) dəri (yaxud dağ edilmiş yağ) kimi qıpqırmızı olduğu zaman (halınız necə olacaq?!)*

Tur surəsi, 44-cü ayə:

*Qiyamət günü Yer də titrəyərək, əriş-arğacı parçalanacaq, içəridə nə varsa dışraya çıxacaq. Quran ayələri Yerin dağılmasını belə təsvir edir.*

Vaqiə surəsi, 4-cü ayə:

*Yer hərəkətə gəlib şiddətlə titrədiyi;*

Muzəmmil surəsi, 14-cü ayə:

*O gün (qiyamət qopanda) Yer və dağlar lərzəyə gəlib titrəyəcək, dağlar (dağılıb) yumşaq qum təpəsinə dönəcəkdir.*

Qaf surəsi, 44-cü ayə:

*O gün Yer ayrılacaq, onlar (torpağın altından, qəbirlərindən) sürətlə çıxacaqlar. O gün (bütün yaranmışların bir yerə toplanacağı) məhşər günüdür. Bu Bizim üçün asandır!*

Fəcr surəsi, 21-ci ayə:

*Xeyr! Yer dağılıb parça-parça olacağı;*

Zilzal surəsi, 1-2-ci ayələr:

*Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman;*

*Yer öz yükünü çıxardıb atacağı zaman;*

İnşiqaq surəsi, 3-4-cü ayələr:

*Yer uzanıb dümdüz olacağı;*

*Qoynunda olanları bayıra atıb boşalacağı;*

Quran ayələrinə görə, qiyamət zamanı Günəş və Ay da bükülərək qaralacaq.

Təkvir surəsi, 1-ci ayə:

*Günəş (əmmamə kimi) sarınıb-büküləcəyi (sönəcəyi) zaman;*

Qiyamət surəsi, 8-9-cu ayələr:

*Ay tutulacağı;*

*Günəşlə Ay birləşəcəyi (hər ikisinin qərbdən çıxacağı, nurunun gedəcəyi) zaman –*

Qiyamət zamanı ulduzların vəziyyəti dəyişər, onlar sönərək yerə tökülər. Quran ayələri bu mənzərəni belə bəyan edir.

Təkvir surəsi, 2-ci ayə:

*Ulduzlar (Göydən qopub yağış dənələri kimi Yerə) səpələnəcəyi zaman;*

Mursəlat surəsi, 8-ci ayə:

*Ulduzlar sönəcəyi;*

İnfitar surəsi, 2-ci ayə:

*Ulduzlar dağılıb səpələnəcəyi zaman;*

Yer üzərində dağlar da hərəkətə gələrək parçalanar və ovxalanar. Toz-torpaq Göy üzünü bürüyər.

Tur surəsi, 10-cu ayə:

*Dağlar yerindən qopub (havada toz kimi) oynayacaqdır.*

Nəbə surəsi, 20-ci ayə:

*Dağlar yerindən qopardılıb (havada toz kimi uçaraq) ilğıma dönəcəkdir.*

Mursəlat surəsi, 10-cu ayə:

*Dağlar parça-parça olub dağılacağı (toz kimi havada uçacağı);*

Taha surəsi, 105-ci ayə:

*(Ya Məhəmməd!) Səndən dağlar (qiyamət günü dağların nə cür olacağı) haqqında soruşarlar. De ki: "Rəbbim onları ovxalayıb havaya sovuracaq;*

Haqqə surəsi, 14-cü ayə:

*Yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı (əzilib toza dönəcəyi) zaman –*

Muzzəmmil surəsi, 14-cü ayə:

*O gün (qiyamət qopanda) Yer və dağlar lərzəyə gəlib titrəyəcək, dağlar (dağılıb) yumşaq qum təpəsinə dönəcəkdir.*

Vaqiə surəsi, 5-6-cı ayələr:

*Dağlar parça-parça olub ovxalandığı*

*Və toz kimi səpələndiyi zaman*

Məaric surəsi, 8-9-cu ayələr:

*O gün Göy göyərmiş mis kimi olacaq;*

*Dağlar da didilmiş (rəngbərəng) yun kimi olacaqdır*

Dəryalar da qiyamət zamanı dəyişər, bir-birinə birləşər və şöləlvalənər.

İnfitar surəsi, 3-cü ayə:

*Dənizlər qaynayıb bir-birinə qarışacağı zaman;*

Təkvir surəsi, 6-cı ayə:

*Dənizlər od tutub yanacağı (və ya dolub daşacağı) zaman;*

# DÖRDÜNCÜ FƏSİL
# ALLAHIN VARLIQ ALƏMİ İLƏ ƏLAQƏSİ

Qurani-kərimin varlıq aləmi haqqında təlimi çox geniş və əhatəli kosmologiya və kosmoqoniya elmindən ibarətdir. Bu təlimdə Allahın varlıq aləmi ilə əlaqə və bağlılığı isə öyrənilməsi vacib olan əhəmiyyətli mövzulardan biridir.

Hələ qədimlərdən, dünyanın böyük filosof və mütəfəkkirləri bu mövzu ətrafında geniş bəhs etmişlər ki, bunu hazırkı kitabda araşdırmağa imkan yoxdur. Bu ayrıca tədqiqat işi tələb edir. Oxuculara təqdim olunan kitabda isə Qurani-kərimin həmin mövzu ilə bağlı baxışları araşdırılır. Səmavi Kitabda bir çox ayələr Allah ilə varlıq aləmi arasındakı münasibəti açıqlayır. Həmin ayələr göstərir ki, Allah ilə varlıq aləmi arasında bir çox əlaqə və münasibətlər vardır və biz həmin münasibətləri ümumiləşdirməyə çalışırıq.

Əlbəttə, Allah ilə varlıq aləmi arasındakı münasibətləri bölmələr üzrə təhlil etməzdən öncə bir məsələni yada salmaq istərdik ki, həmin münasibətlərin dəqiq təsnifatını böyük ustadımız Əllamə Məhəmməd Təqi Cəfəri vermişdir. Biz böyük ustaddan faydalanmaqla bu mövzunun təhlilini daha mükəmməl verməyə çalışırıq.

## Xaliq və Yaradan baxımından münasibəti

Qurani-kərim baxımından Allah dünyanın xaliqi və yaradanıdır. O, bütün mövcud varlıqları yaradandır. Elə bir varlıq yoxdur ki, Allah onu yaratmamış və ya xəlq etməmiş olsun.

Xaliqiyyət – yəni xəlq etmək, sansiyyət – yəni yaratmaq mənası daşıyır və Qurani-kərim sözü gedən münasibəti bu iki məfhumla bəyan edir.

Ənam surəsi, 102-ci ayə:

*O Allah Rəbbinizdir! Ondan başqa heç bir tanrı yoxdur. Hər şeyi yaradan Odur. Buna görə də yalnız Ona ibadət edin.*

*O, hər şeyə vəkildir!*

Rum surəsi, 11-ci ayə:

*Allah məxluqatı əvvəlcə (yoxdan) yaradır, (öləndən) sonra yenidən dirildir. Sonra da siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız.*

Ənkəbut surəsi, 19 və 20-ci ayələr:

*Məgər onlar (kafirlər) Allahın məxluqatı əvvəlcə (yoxdan) necə yaratdığını, sonra da onu (qiyamət günü) yenidən dirildəcəyini bilmirlərmi? Həqiqətən, bu, Allah üçün asandır!*

*(Ya Məhəmməd) De ki: "Yer üzünü gəzib Allahın məxluqatı yaratmağa ilk əvvəldən nə cür başladığına baxın. Sonra da Allah axirət həyatını yaradacaqdır. (Birinci yaradılışdan sonra ikinci yaradılış gələcəkdir). Allah hər şeyə qadirdir!*

Nəml surəsi, 88-ci ayə:

*(O gün) dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. Bu, hər şeyi bacarıqla, yerli-yerində yaradan və edən Allahın gördüyü işdir, həqiqətən, O, etdiyiniz bütün əməllərdən xəbərdardır!*

## İşıq baxımından münasibəti

Quran ayələrinin birində Allah Göylərin və Yerin nuru hesab edilir. Başqa sözlə desək, varlıq aləmi Allahın nuru ilə yaranmışdır.

Nur surəsi, 35-ci ayə:

*Allah Göylərin və Yerin nurudur. (Kainatı yaradıb ona nur verən, Yer və Göy əhlinə haqq yolu göstərən Xaliqdir). Onun (Peyğəmbərimizin və möminlərin qəlbində olan) nuru, içində çıraq olan bir taxçaya bənzər; taxçadakı o*

*çıraq bir qəndilin içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. (Şərqdə deyildir ki, Günəş batdıqda, qərbdə də deyildir ki, Günəş doğduqda qaranlıqda qalsın). Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da sanki (hardasa) işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini Öz nuruna qovuşdurur. (İstədiyinə Öz nurunu bəxş edib cənnət yolu olan İslam dininə yönəldir). Allah (həqiqəti anlaya bilsinlər deyə) insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!*

Nur anlamının tərifində belə deyilir: işıq öz mahiyyəti ilə zahir olan və başqa varlıq vasitəsilə bəlli olan bir məfhumdur. Nur elə bir həqiqətdir ki, başqa varlıq onu aşkar etmir, bəlkə əksinə, hər şey onun işığında zahir olur. Hər şeyin varlığı və vücudu onun zahir olmasına səbəb olur və nur özü bütöv və tam vücud dəyərincədir.

Varlıq aləmi Allah tərəfindən yaradılıb və bu baxımdan Allah nurun həqiqi təmsilçisidir. Allah da nur kimi Öz substansiyası ilə var olan və məxluq vasitəsi ilə Öz qüdrətini zahir edən bir mütləq vücuddur. Bununla demək olar ki, Allahın varlıq aləmi ilə əlaqə və münasibəti nur kimi təsəvvür edilir və Allah həmin nurun vasitəsi ilə Göyləri və Yeri yaratmışdır. Bütün varlıqların zühura gəlməsi – Allahın Xilqətinin aşkar olması deməkdir. Allah şeylərə varlıq bağışlamasa, onlar heç vaxt zahir olmaz.

Allahın varlıq aləmi ilə nur baxımından əlaqəsini izah etmək üçün başqa bir dəlilə əsaslanmaq mümkündür: nur bütün şəffaf cisimlərə nüfuz edir, lakin heç vaxt həmin cisimlərlə birləşib qovuşmur – yəni cisimlərdən ayrıdır. Nur cisimləri aydınlaşdırır. Buna uyğun olaraq Allahın nuru da bütün varlıq aləmini işıqlandırır, lakin heç vaxt varlıq aləmi ilə birləşmir.

## Qəyyumluq münasibəti

Varlıq aləmi ilə Allah arasında olan münasibətlər sırasında qəyyumluq əlaqəsi diqqəti cəlb edir.

Quran ayələrində bu münasibətə işarələr vardır.

Bəqərə surəsi, 255-ci ayə:

*Allahdan başqa heç bir tanrı yoxdur. O qəyyumdur. (Zatı və kəmal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi və əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylər və Yerdə nə varsa, hamısı Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) Göyləri və Yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca və ən böyük varlıq da Odur!*

Taha surəsi, 111-ci ayə:

*(O gün) üzlər (bütün insanlar) əzəli və əbədi olan (məxluqatın hər işini yoluna qoyan, onları dolandıran) Allaha təslim olub zəlil bir görkəm alar. Zülmə (günaha) yüklənən (Allaha şərik qoşan, küfr edən) ziyana düşüb mətləbinə yetişməz (ümidsizliyə uğrayar).*

Qəyyumluq münasibətini araşdırmaq üçün öncə Quranda işlənən "qəyyum" sözünün məzmun qatlarını izah etmək gərəkdir. Bu sözün bir neçə mənası vardır ki, bunlardan ikisi burada bəhs edilən mövzu baxımından əhəmiyyətlidir.

A. Qəyyum – saxlayan, bərpa edən mənasında işlənir. Qəyyum hər bir varlığı saxlayan və onun davamı və bəqasını təmin edən bir anlamdır. Allah varlıq aləmini saxlayan qəyyumdur.

"Qəyyum" sözü haqqında Rağibin "Müfrədat" əsərində izah verilir: "Qəyyum bütün şeyləri saxlayan və qoruyan,

onun davamını təmin edən məfhumdur. Allah-təala xəlq etdiyi hər bir şeyə davamlılıq bəxş edir və onu hidayət edir".

Gerçəklikdə olan məxluq mühitlə uzlaşaraq öz yaşamını davam etdirir və qoruyur. Bu isə Allahın məxluq ilə qəyyumluq münasibətindən doğur. Yəni Allah xilqət aləmindəki bütün varlıqları elə yaratmışdır ki, onlardan hər biri yaşayış mühiti ilə uzlaşır.

Qurani-kərim bir ayədə Həzrəti-Musanın (ə) dili ilə bu məsələyə işarə edir.

Taha surəsi, 50-ci ayə:

*(Musa) belə cavab verdi: "Rəbbimiz hər şeyə Öz surətini və şəklini verən, sonra da ona doğru yolu göstərən Allahdır!"*

B. Qəyyumluq o deməkdir ki, bütün varlıqlar ona bağlıdır. Allah qəyyumdur – yəni Öz substansiyası ilə vardır və heç bir şeydən asılı deyildir, ancaq bütün məxluqat Allaha möhtacdır və Ondan asılıdır. Allah vacibül-vücud olaraq qəyyumdur. Mümkün varlıqlar isə Allahın qəyyumluğuna möhtacdır. Bu bir növ əqli zərurətdir. Başqa bir yandan, qəyyumluq münasibətində təkcə varlıq aləminin yaranmasının ilkin başlanğıcdan (məbdə) asılılığı məsələsi qoyulmur. Varlıq aləminin Allaha möhtac olması məsələnin bir tərəfidir. Burada eyni zamanda bütün külli aləmin saxlanması və qalması məsələsi də diqqət mərkəzində dayanır. Yəni varlıq aləmi Allahın qəyyumluğu ilə saxlanılır və qala bilir.

Fəlsəfi mübahisələrdə maraqlı bir məsələ də qoyulur: mümkün varlıqların vacibül-vücuda olan ehtiyacının meyar və ölçüsü nədir? Mümkün varlığın mütləq vücuda olan ehtiyacı və yaxud səbəbin nəticə ilə əlaqəsi imkan çevrəsində, yoxsa baş vermə mərhələsində gerçəkləşir?

Bu sualın düzgün cavabı belədir: Əşyanın səbəbə olan ehtiyacının meyarı substantiv imkan çevrəsində müəyyənləşir. Çünki mümkün varlıq və ya nəticə qeyri-

zəruri məna daşıyır. Mümkün varlıq nə vücud, nə də yoxluğu (ədəm) inkar etmir, hər ikisinə eyni – bərabər münasibətdə olur.

Beləliklə, varlıq aləmindəki məxluqat bütün hallarda substantiv imkana malik olduğuna görə, həm yaranma halında, həm də həyatda davam etmə mərhələsində başlanğıca (məbdə) möhtacdır.

Hacı Molla Hadi Səbzəvari bu məsələni bənzətmə yolu ilə izah etmişdir. Mümkün ilə vacib bir növ kölgə ilə onun sahibinə oxşayır. Belə ki, kölgə qeydsiz-şərtsiz onun sahibinə tabedir. Kölgə nəyinsə hesabına yaranır, öz-özünə mövcud deyil. Əgər kölgənin predmeti yoxdursa, kölgə də yoxdur. Kölgəni yaradan predmet hərəkət edirsə kölgə də hərəkət edir. Kölgənin nəyi varsa mənbədən gəlir. Kölgə öz-özlüyündə heç nəyə malik deyil.

Bu minval ilə, varlıq aləmi əslində vücud baxımından Allaha möhtacdır, onun bəqası da Allahdan asılıdır. Bu həmişə belədir. Varlıq aləminin feyzi həmişə üluhiyyət (ilahi məqam) aləmindən metafizik aləmə, oradan da maddi təbiətə yetişir.

Varlığın daimi feyzinin qaynağı Allahdır. Bu qaynağın Pərvərdigarın rübubiyyət aləmindən varlıq aləminə necə sirayət etməsini aşağıdakı bənzətmə ilə təsvir edə bilərik. Fərz edək ki, elektrik mənbəyindən gələn cərəyan kabel və simlər vasitəsilə elektrik cihazlarına daxil olur. Əgər elektrik mənbəyindən gələn cərəyan bircə an kəsilərsə, heç bir elektrik cihazı işləməz, çünki onların işləməsi əsl mənbədən gələn enerjidən asılıdır. Bu enerji elektron sxemə daxil olmaqla cihazı hərəkətə gətirir. Varlıq aləmi ilə Allah arasında münasibət buna bənzər. Əgər Haqqın feyzindən varlıq aləminə gələn enerji kəsilərsə, bu aləm qala bilməz. Haqqın feyzi kəsilərsə bütün aləm dağılar.

Bir neçə Quran ayəsini izləyək.

Rəhman surəsi, 29-cu ayə:

*Göylərdə və Yerdə kim varsa, hamısı Ondan (ruzi, mərhəmət və mədəd) diləyər. O hər gün (hər an) bir işdədir (birini öldürər, birini dirildər; acizə kömək, zalimə zülm edər, birinin duasını qəbul edər; birinə mərhəmət əta edib, digərinə cəza verər. Bir işlə məşğul olmaq Onu digərindən yayındırmaz).*

Bəqərə surəsi, 245-ci ayə:

*Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, Allah da onun mükafatını (əvəzini) qat-qat artırsın?! Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər). Siz (dünyada) gördüyünüz işlərin əvəzini almaq üçün Onun hüzuruna qaytarılacaqsınız.*

Ənam surəsi, 12-ci ayə:

*De ki: "Göylərdə və Yerdə olanlar kimindir?" De ki: "Allahındır!" O, Özü Özünə rəhmli olmağı yazmışdır. (Bəndələrinə qarşı rəhmli olmağı Özü üçün əzəldən O müəyyən etmişdir.) Olacağına heç bir şübhə edilməyən qiyamət gününə sizi O toplayacaqdır. Özlərinə zərər vuranlar, əlbəttə, iman gətirməzlər.*

Bu ayələrə görə, varlıq aləmi hər an ilkin başlanğıcdan öz vücudu üçün feyz alır, çünki varlıq aləmi həmişə öz Tanrısı ilə bağlıdır. Bu peyvənd və münasibət pozularsa, bütün aləm məhv olar. Deməli, Allah ilə varlıq aləmi arasında pozulmaz bir əlaqə və peyvənd vardır və varlıq aləmini saxlayan həmin peyvənd qəyyumluq məfhumu ilə bəyan edilir. Mövlana Rumi bu məsələni bədii dil ilə belə ifadə edir:

"Külli yövm huvə fi-şən" söylə,
Onu bir an felsiz bilmə sən böylə.
Tanrının hər anlıq ən kiçik işi
Sanki üç ordunun bir-bir yürüşü.
Birisi ümməhat tərəfdən gələr,
Varlığın bətnində bitki cücərdər.
Birisi topraqdan çıxıb yetişər,

Cüt-cüt dolaşıb dünyanı bürər.
Birisi yetişər əcəl elindən
Hər kəsin əməlin görər əlindən.
Şəksiz ki, bunlardan çox işlər törər
Haqdan nazil olub canlara yetər.
Candan da yetişər ürək sirrinə
Ürəkdən yol açar güli-nəsrinə.
Saysız-hüdudsuzdur Haqq qoşunları,
Zikri-bəşər söyləyər fərmanları.

Şeyx Mahmud Şəbüstəri həmin məzmunu başqa bir deyimlə bəyan edir:

Külldən hər cüzvə ədəm yoludur
Külldən fənaya varlıq doludur.
Cahan külldür, lakin hər göz qırpımı,
Yaranar yox olar, bitməz davamı.

## Varlıq ilə birgəlik münasibəti

Allah ilə varlıq arasındakı başqa bir münasibət birgə olmaq (məiyyət) əlaqəsindən ibarətdir. Yəni Allah həmişə öz xilqəti ilədir, ondan ayrılmazdır.

Bu münasibət daha çox insanla bağlı işlənir. Aşağıdakı ayələrdə həmin münasibətə işarə vardır.

Hədid surəsi, 4-cü ayə:

*Göyləri və Yeri altı gündə xəlq edən, ərşi yaradıb hökmü altına alan Odur. O, Yerə girəni də, Yerdən çıxanı da, Göydən enəni də, Göyə qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!*

Vaqiə surəsi, 85-ci ayə:

*Biz ona sizdən daha yaxınıq, amma siz (bunu) görmürsünüz!*

Qaf surəsi, 16-cı ayə:

*And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da*

*yaxınıq! (İnsanın adi hərəkətlərindən tutmuş ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur!)*

Bu ayələrə əsasən, Allah hər yerdə vardır. O hər bir varlıq ilədir. Əlbəttə, bu münasibət mexaniki mənada düşünülə bilməz. O, insana şah damarından da yaxındır. Allahın varlıq aləmi ilə birgə olması "Nəhcül-bəlağə"dəki aşağıdakı xütbədə daha bariz və incəliklə ifadə edilmişdir:

"O hər şey ilədir, lakin onlarla birləşməz və qovuşmaz. O bütün şeylərdən ayrıdır, lakin onlardan ayrılmazdır".

Allahın varlıq aləmi ilə birgə olması Onun qəyyumluq münasibətilə uzlaşır və həmin münasibəti daha da tamamlayır. Allahın ərş üzərində hökmranlığı bu münasibətə dəlalət edir. İmam Cəfər Sadiq (ə) ərşlə bağlı ayəni izah edərkən bu münasibətə işarə edib.

<u>Taha surəsi</u>, 5-ci ayə:

*Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir).*

Rəhman Allahın ərşi yaradıb Öz hökmü altına alması göstərir ki, bütün şeylər Onun hökmü altındadır. Deməli, Allah bütün varlıq aləmi ilədir.

Başqa bir ayədə bu münasibət daha geniş səpkidə ifadə edilir.

<u>Əraf surəsi</u>, 54-cü ayə:

*Həqiqətən, Rəbbiniz Göyləri və Yeri altı gündə xəlq edən, sonra ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, Günəşi, Ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür!*

## Malikiyyət və hakimiyyət münasibəti

Quran ayələrinə görə Allah varlıq aləminin maliki – yəni sahibidir. O bütün mövcud aləmlərin – Göyün və Yerin,

burada olan hər şeyin sahibidir. İstər Qeyb aləmində və istərsə də Şəhadət aləmində nə varsa Allahındır.

Aşağıdakı bəzi ayələrə diqqət yetirək.

Bəqərə surəsi, 255-ci ayə:

*Onun kürsüsü və hökmranlığı (elmi, qüdrət və səltənəti) Göyləri və Yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca və ən böyük varlıq da Odur!*

Maidə surəsi, 120-ci ayə:

*Göylərin, Yerin və onlarda olan hər şeyin hökmü (mülkü) Allaha məxsusdur. Allah hər şeyə qadirdir!*

Maidə surəsi, 40-cı ayə:

*(Ey insan!) Məgər bilmirsən ki, Göylərin və Yerin hökmü Allaha məxsusdur?! O istədiyinə əzab verər, istədiyini bağışlar. Allah hər şeyə qadirdir!*

Nur surəsi, 64-cü ayə:

*Bilin və agah olun ki, Göylərdə və Yerdə nə varsa, hamısı Allahındır.*

Biz "Allah varlıq aləminin malikidir" dedikdə heç də məqsəd insanların mülkiyyəti ilə Allahın qüdrət və hökmünü eyniləşdirmək deyildir. Allahın ixtiyar və mülkü anlamını insanın mülkiyyət sahibi olması kimi bayağı və ibtidai bir düşüncə tərzi ilə təsəvvür etmək yaramaz. İnsanların mülkiyyət münasibəti şərti və davamsızdır, müvəqqəti və dəyişəndir. Bu münasibət pozula və rədd edilə bilər. Lakin Allahın varlıq aləmi üzərindəki mülkiyyəti həqiqi malikiyyət münasibəti olmaqla əbədi və pozulmazdır. Kimsə bunu dəyişdirə bilməz. Allah bütün varlıqların əsl sahibi və malikidir. Çünki hər bir varlıq nümunəsi öz vücuduna görə, xilqətdə yarandığına görə Allaha borcludur. Allah bütün varlıqların xaliqi və qəyyumudursa, onları həm xəlq edib və həm də saxlayırsa, deməli, Allah həm də onların sahibidir. Allah həm də din və cəza gününün də sahibidir. Onun hökm və mülkündən kənar heç nə yoxdur.

Quran baxımından Allah ilə varlıq aləmi arasında malikiyyət əlaqəsi ilə yanaşı hakimiyyət münasibəti də vardır. Allah varlıq aləminin dəyişməz mütləq hakimidir. O, bütün olar-olmazların qanuni və təbii başlanğıcıdır – yəni məbdə kimi dəyərləndirilir. Varlıq aləminə hakim olan əbədi qanunları düzləndirən Allahdır. O, Öz mütləq hakimiyyətini təbii və şəriət qanunları vasitəsilə icra edir. Allahın hakimiyyət dairəsindən kənar heç bir varlıq yoxdur. Hər şey Onun hökmü və fərmanı altındadır.

Bu fikirləri bir neçə Quran ayəsi ilə təsdiqləyək.

Ənam surəsi, 57-ci ayə:

*De ki: "Mən Rəbbimdən açıq-aydın bir dəlilə (Qurana) istinad edirəm. Siz isə onu yalan hesab etdiniz. Sizin tələm-tələsik istədiyiniz (ilahi əzab) məndə (mənim əlimdə) deyildir. Hökm ancaq Allahındır. Haqqı yalnız Allah bəyan edər. O (haqla batili) ayırd edənlərin ən yaxşısıdır!*

Ənam surəsi, 62-ci ayə:

*Sonra insanlar Allahın – özlərinin həqiqi ixtiyar sahibinin – hüzuruna qaytarılar. Bilin ki, hökm Allahındır və O, ən tez haqq-hesab çəkəndir!*

Yusif surəsi, 40-cı ayə:

*Allahdan başqa ibadət etdikləriniz sizin və atalarınızın (özünüzdən uydurub) qoyduğunuz (Allaha heç bir ziddiyyəti olmayan) adlardan (bütlərdən) başqa bir şey deyildir. Allah isə (onlara ibadət edilməsinə dair) heç bir dəlil endirməmişdir. Hökm ancaq Allahındır. O sizə yalnız Onun Özünə ibadət etmənizi buyurmuşdur. Doğru, həqiqi din budur, lakin insanların əksəriyyəti (bu həqiqəti) bilməz!*

Qəsəs surəsi, 70-ci ayə:

*Allah Odur. Allahdan başqa heç bir tanrı yoxdur. Dünyada da, axirətdə də həmd-səna Ona məxsusdur. Hökm Onundur. Siz Onun hüzuruna qaytarılacaqsınız!*

## Hifzetmə və əhatəlilik münasibəti

Allah ilə varlıq aləmi arasında hifzetmə və əhatəlilik münasibəti də diqqəti cəlb edən məsələlərdən biridir.

Quran baxımından Allah varlıq aləmini Öz nəzarətində saxlayır, O, bütün məxluqu qoruyub saxlayır və dünyanın ümumi nizamının pozularaq dağılmasını qoymur. Allah hafiz – yəni qoruyandır.

Öncə Allahın qoruyub saxlayıcı sifətlərini təsdiqləyən ayələrə diqqət yetirin.

Hud surəsi, 57-ci ayə:

*Əgər (imandan) üz çevirsəniz, bilin ki, mən (Allahın mənə lütf etdiyi peyğəmbərliyi, buyurduğu hökmləri) sizə təbliğ etdim. Rəbbim yerinizə başqa bir ümmət gətirər və siz Ona heç bir zərər yetirə bilməzsiniz. Həqiqətən, Rəbbim hər şeyi hifz edəndir!*

Zumər surəsi, 62-ci ayə:

*Allah hər şeyin xaliqidir. O, hər şeyə vəkildir!*

Hicr surəsi, 16-17-ci ayələr:

*Biz səmada bürclər yaratdıq, onları baxanlar üçün (ulduzlarla) bəzədik.*

*Onları hər bir məlun (Allahın dərgahından qovulmuş, rəhmətindən kənar edilmiş, daşqalaq olunmuş) şeytandan qoruduq.*

Fatir surəsi, 41-ci ayə:

*Həqiqətən, Allah Göyləri və Yeri zaval tapmasınlar (öz məhvərindən çıxmasınlar) deyə, tutub saxlayır. Əgər onlar öz məhvərindən çıxsalar, Allahdan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, Allah həlim və bağışlayandır! (Bəndələrinə cəza verməkdə tələsməz, tövbə edənləri əfv edər).*

Həcc surəsi, 65-ci ayə:

*(Ya Rəsulum!) Məgər Allahın Yerdə olanları (heyvanları), dənizdə Onun əmrilə üzən gəmiləri sizə ram etdiyini və Onun izni olmadan Yerə düşə bilməməsi üçün Göyü tutub saxladığını görmürsənmi? Həqiqətən, Allah insanlara şəfqətli və mərhəmətlidir!*

Nəhl surəsi, 79-cu ayə:

*Məgər müşriklər Yerlə Göy arasında (uçaraq Allaha) ram olmuş quşları görmürlər?! Onları (havada) yalnız Allah saxlayır (bütün hərəkətlərini ancaq Allah idarə edir). Həqiqətən, bunda möminlər üçün ibrətlər vardır!*

Allah Göy təbəqələrini öz oxu ətrafında hərəkətə gətirərkən mərkəzdənqaçma qüvvəsindən doğan dəfetmə gücü ilə cazibə qüvvəsi arasında tarazlıq yaratmışdır ki, bu hərəkətlər zamanı toqquşma baş verməsin. Dəryalar elə yaradılmışdır ki, gəmilər suların üzərində hərəkət edə bilirlər. Yer üzərindəki varlıqlar elə yaradılmışdır ki, insanlar onlardan bəhrələnə bilirlər. Bütün sadalanan cəhətlər və başqa bu sayaq məsələlər bir daha göstərir ki, Tanrı varlıq aləminin qoruyucusudur. Allah varlıq aləmindəki nizamın pozulmasına yol vermir. Əgər Allahın nəzəri varlıq aləmi üzərindən bircə an kəsilərsə, bu nizam bir-birinə dəyər. Ona görə varlıq aləmindəki nizam ilə məşğul olan fizika alimi Eynşteyn belə söyləyir:

"Mən Allahı qanunların qoruyucusu kimi tanıyır və qəbul edirəm" [27].

Allah ilə varlıq aləmi arasındakı əhatəlik münasibətinə gəlincə, burada Allahın vüsət və əhatə çevrəsinin böyüklüyü və sonsuzluğu nəzərdə tutulur – yəni Tanrı varlıq aləmindəki bütün məxluqatı əhatə edir. Onun qüdrət, elm və hikmətinin əhatəsindən kənar heç bir varlıq yoxdur.

Quran ayələri həmin mövzuya dəfələrlə işarə edir.

Fussilət surəsi, 54-cü ayə:

*(Ya Peyğəmbər!) Bil ki, onlar öz Rəbbi ilə qarşılaşacaqları (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracaqları) barədə şəkk-şübhə içindədirlər. Və yenə bil ki, Allah (Öz elmi və qüdrəti ilə) hər şeyi ehtiva edəndir!*

Nisa surəsi, 126-cı ayə:

*Göylərdə və Yerdə nə varsa, hamısı Allaha məxsusdur. Allah hər şeyi (elmi və qüdrətilə) ehtiva etmişdir.*

Buruc surəsi, 20-ci ayə:

*Allah onların bütün işlərini və hallarını əhatə edir, onların bütün ixtiyarı Allahdadır.*

Varlıq aləmində müşahidə etdiyimiz hər bir şey – istər xırda bir zərrəcik olsun, istərsə də böyük kəhkəşan – bunların hamısı Allahın elm, qüdrət və hikmətinin ehtivasındadır.

Həm təbiətdəki varlıqlar, həm də metafizik aləmdə olanlar Onun əhatə çevrəsindədir.

Allahın varlıq aləminə olan əhatəsi iki cürdür:

a) vücud baxımından əhatə.

b) elm baxımından əhatə.

Bir sıra ayələrdə Allahın vücud baxımından dünyaya olan əhatəsi vurğulanır, başqa ayələrdə isə Onun elm baxımından əhatəsinə işarələr edilir. Əvvəlki misallarda əsasən Allahın varlıq aləminə əhatəsi verilmişdir. İndi isə Onun elmi əhatəsi barədə bir neçə ayə göstərək.

Talaq surəsi, 12-ci ayə:

*Yeddi (qat) Göyü və bir o qədər də Yeri yaradan Allahdır. Allahın hər şeyə qadir oduğunu, Allahın hər şeyi Öz elmi ilə ehtiva etdiyini biləsiniz deyə, Allahın əmri onların arasında (mövcud olan bütün məxluqata) nazil olar.*

Allah Qeybi də, aşkarı da biləndir.

Rəd surəsi, 9-cu ayə:

*O, qeybi də, aşkarı da biləndir, (hər şeydən) böyük və ucadır! (Allah eybsiz və nöqsansızdır. Onun heç bir şəriki yoxdur!)*

Səcdə surəsi, 6-cı ayə:

*O, qeybi də, aşkarı da biləndir, yenilməz qüvvət və mərhəmət sahibidir!*

## Rübubiyyət və məbudiyyət münasibəti

Allah Rəbbdir – Pərvərdigardır. Rəbb adı Allahın gözəl adları sırasında önəmli yer tutur. Quran ayələrində Tanrı ilə

varlıq aləmi arasında rübubiyyət münasibəti vardır. Allah aləmlərin Pərvərdigarı olaraq qəbul edilir.

Bəzi ayələrə diqqət yetirək.

Fatihə surəsi, 1-ci ayə:

*Rəhmli, Mərhəmətli Allahın adı ilə!*

Ənam surəsi, 164-cü ayə:

*De ki: "Allah hər şeyin Rəbbi olduğu halda, heç mən Ondan başqa Rəbbmi istərəm?" Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz. Axır dönüşünüz Rəbbinizədir. O zaman Allah sizə aranızda ixtilaf doğuran məsələlər barəsində xəbər verəcəkdir.*

Rəbb anlamı həm də tədbir görən və işləri qaydaya salan deməkdir. Bu söz min dəfə Quranda işlənmişdir və onun təkidlə vurğulanması rübubiyyət münasibətinin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Həmin münasibətə görə, Allah xilqətin tədbir görənidir. Varlıq aləminin ahəngdarlığı və nizamlı düzəni, bütün varlıqlar arasında tarazlıq, kainatın tərkib hissələrinin məqsədyönlü şəkildə yaranması varlıq aləmi üzərində Allahın rübubiyyət münasibətinin bərqərar olmasına dəlalət edir. Bütün bu nizam və ahəngdarlıq Allahın tədbiri sayəsində mümkün olur. Allahın varlıq aləmi üzərindəki tədbiri davamlı və ardıcıl bir prosesdir.

Səcdə surəsi, 5-ci ayə:

*O, Göydən Yerə qədər olan bütün işləri idarə edir. Sonra həmin işlər sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə (qiyamət günündə) Ona (Allah dərgahına) yüksələr.*

Allahla varlıq aləmi arasında məbudiyyət münasibəti özəl yer tutur. Allah ibadət ediləndir və məbud adlanır, varlıq aləmi isə abiddir – yəni ibadət edəndir. Allah təkcə bəşər üçün deyil, bütün varlıq aləmi üçün məbud sayılır. Yəni Quran hikmətinə görə bütün aləmlər – istər təbiət, istərsə də metafizik aləm bir Allaha ibadət edir. Bu

münasibət batini bir məzmun tutumuna malikdir. Bir sıra Quran ayələri bu barədə belə buyurur.

Məryəm surəsi, 93-cü ayə:

*Çünki Göylərdə və Yerdə olan bütün məxluqatdan bir eləsi yoxdur ki, (qiyamət günü) Rəhmanın hüzuruna ibadət edən bir qul kimi gəlməsin.*

Ali-İmran surəsi, 83-cü ayə:

*Necə ola bilər ki, onlar (kitab əhli) Allahın dinindən başqa bir din axtarsınlar? Halbuki, Göylərdə və Yerdə olanların hamısı istər-istəməz Ona (Allaha) təslim olmuşlar və Onun hüzuruna qayıdacaqlar.*

İsra surəsi, 44-cü ayə:

*Yeddi Göy, Yer və onlarda olan bütün məxluqat Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükr etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təqdisini anlamazsınız. Allah, həqiqətən, həkim və bağışlayandır!*

Bu ayələrdə varlıq aləmindəki bütün məxluqat Allahın bəndəsi olaraq Ona ibadət edir, Ona təslim olurlar. Varlıq aləminin Allaha ibadəti necə izah edilir?

Bu məsələ sonrakı bölmələrdə şərh ediləcək.

## Mələkuti münasibət

Allah ilə varlıq aləmi arasında başqa bir münasibət mələkut anlamı çərçivəsində gerçəkləşir. Yəni varlıq aləminin mələkutu Allahın qüdrət sifətinə aiddir. Xəlq aləmi və maddi varlıq Onun qüdrətinin hökmranlığı altında olduğu kimi, Əmr aləmi də mələkut adı ilə Onun qüdrəti altındadır. Əmr aləmi bir növ təbiətdə mövcud olan məxluqun batini surəti və timsalı kimi başa düşülür və öncə bu məsələ barəsində izah verilmişdir.

Quran ayələri mələkuti münasibəti belə bəyan edir.

Yasin surəsi, 83-cü ayə:

*Hər şeyin hökmü, ixtiyarı (mələkut) əlində olan Allah pak və müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız!*

Muminun surəsi, 88-ci ayə:

*De ki: "Əgər bilirsinizsə, (bir deyin görək) hər şeyin hökmü (mələkut) əlində olan, (istədiyini) himayə edən, amma Özünün himayəyə ehtiyacı olmayan kimdir?"*

Mələkut aləmi barədə söhbətimizi sonrakı bölmələrdə davam etdirəcəyik və burada onları təkrar etməyə lüzum yoxdur. Burada təkcə Ustad Məhəmməd Təqi Cəfərinin Allah ilə varlıq aləmi arasında olan mələkuti münasibət haqqındakı bir mülahizəsini nəql etməklə kifayətlənirik. O belə yazır:

"Mələkuti münasibət bir sıra filosofların varlıq aləmi haqqında yanlış təsəvvürlərini rədd edir. Onlar belə güman edirlər ki, Allah varlığın əsası və köklü prinsipləri üzərində təsir və hökmranlığa malik deyil. Bu fikir yanlış və batildir. Mələkut anlamı Allahın varlıq aləminin bütün səviyyə və təbəqələri üzərində, onun köklü prinsipləri və sütunları üzərində mütləq hakimiyyətinin ifadəçisidir" [28].

Allahın varlıq aləmi ilə qəyyumluq və malikiyyət münasibəti, hakimiyyət və əhatəliyi, hifzetmə və rübubiyyət əlaqəsi – bütün bunlar bir-birini tamamlayan münasibətlərdir və mələkut anlamı da həmin münasibətlərin davamı olaraq çıxış edir.

## Ehtiyacsızlıq münasibəti

Öncə fəqr və qina məsələsinə toxunmuşduq. Allah qəni – zəngin və ehtiyacsızdır, varlıq aləmi və məxluq isə fəqir – yəni möhtacdır. Allahın heç nəyə ehtiyacı yoxdur, Öz-Özünə və Öz substansiyası ilə vardır, lakin məxluq öz

mövcudluğu üçün Tanrıya möhtacdır. Bu baxımdan Allah ilə varlıq aləmi arasında fəqr-qina münasibəti vardır.

Fatir surəsi, 15-ci ayə:

*Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir və hər cür şükrə, tərifə layiqdir! (Onun bütün işləri bəyənilәndir!)*

Bu əlaqə və münasibət ən dəqiq münasibətdir. Həmin əlaqəyə əsasən, varlıq aləminin həqiqəti Allaha bağlılıq və aid olmaqdan ibarətdir. Varlıq aləmi substansiya baxımından Allahla bağlıdır. Varlıq aləmi isə Allaha ehtiyacı olan bir məxluqdur. Varlıq aləmindəki məxluqlar bir-birinə bağlı şeylərdir. Mahiyyət baxımından bütün varlıqlar bir həqiqətdən başqa bir şey deyildir. Məxluqun mahiyyəti Haqq ilə rabitə və münasibətdən ibarətdir və məxluqun mövcudluğu bu rabitədən asılıdır. İnsanın və dünyanın varlığı izafi bir şeydir. Bu isə bir yandan ağıl və işraq məfhumu ilə anlaşılan sadə bir məfhum deyil. Bir sözlə, Allahın "qina" münasibətinə əsasən, varlıq aləmi heç bir sayaq müstəqil bir şey deyil, o, Allahdan asılıdır.

İslam filosofları arasında Molla Sədra bu növ əlaqəni – imkan və fəqr anlamı ilə bəyan etmişdir. Həmin tezis Molla Sədranın fəlsəfi mülahizələrindən biri kimi tanınır və bu mülahizə təmamilə Qurandan qaynaqlanır.

Bu təlimə görə aləmdə mövcud olan varlıqlar mahiyyət və substansiya baxımından Allahın vücudu ilə bağlıdır, Allaha aiddir. Bu əlaqə və münasibət pozulmazdır. Həqiqətlər və mahiyyətlər birdir və hər bir şeyin mahiyyəti Haqdan qaynaqlanır. Deməli, sırf mənada müstəqil və Allahdan asılı olmayan heç bir varlıq nümunəsi yoxdur. Varlıq aləmi Allaha möhtacdırsa, Allah isə mahiyyətcə ehtiyacsızdır [29].

## BEŞİNCİ FƏSİL
## VARLIQ ALƏMİNİN MƏRTƏBƏLƏRİ

## Filosoflar və ariflərin varlıq aləminin mərtəbələri barədə baxışları

Filosoflar varlıq aləminin qurumu haqqında bəhs edərkən onu beş əsas mərtəbəyə ayırmışlar:

1. Üluhiyyət və Haqqın dərəcələri.
2. Ağıl və mücərrəd aləm və ya cəbərut aləmi.
3. Nəfs və ya külli nəfs aləmi.
4. Misal aləmi.
5. Təbiət və ya maddi aləm.

Mücərrəd aləm bir çox ağıl mərtəbələrini əhatə edir. Filosoflara görə Allahın yaratdığı ilkin aləm "ilkin ağıl" – dünya ağılı adlanır.

Hədislərdə bu aləm ağıl və ya qələm adlanır.

– Allah ilk olaraq ağılı yaratdı.

– Allah ilk olaraq qələmi yaratdı.

Molla Sədraya görə, Ağıl aləmi aşağıdakı xüsusiyyətlərə malikdir:

A. Onlar zaman və məkana bağlı deyildir. Bu aləmin vücudu ilahi nurlardan olan bir işıq dəyərincədir. Yaradanın yaradıcı xüsusiyyətlərindən biri həmin işıqdır. Xilqət həmin nurun sayəsində yaranır. Xilqətin qaynağı Allahın yaratdığı nurdur.

B. Onlar əbədi və daimidir, dəyişməz və xarab olmaz.

V. Onların nə fəsiləsi (növü), nə də cinsi vardır. Həqiqət baxımından bəsitdir və heç bir şeylə ortaqlığı yoxdur. Fərqlilik hər bir vücuda xas olan cəhətdir.

Q. Bunlar eyni zamanda səmavi cisimlərin və ünsürlərin səbəb və dəlili hesab olunur.

D. Bütün ağıllar xalis və pak nurdan ibarətdir, onlarda heç bir zülmət nişanəsi tapılmaz [30].

Molla Sədranın fikrincə ağıl aləmi varlıqların başçısı və imamıdır. O, öz fikrini əsaslandırmaq üçün Qurani-kərimə istinad edir.

Yasin surəsi, 12-ci ayə:

*Həqiqətən, ölüləri dirildən, onların (dünyada) nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb Allahın yanında saxlanılan lövhi-məhfuzda (açıq-aşkar Allah imamının qəlbində) təsbit etmişik.*

İmamül-mübin – lövhi-məhfuz kimi anlaşılır və yuxarıdakı ayədə "imamül-mübin" anlamı belə izah edilir.

Haqqın və Allahın yanında olan ümmül-kitab adlanır və bu da kitabların əsli sayılır. Varlığın əsl kitabı Allahın yanındadır.

Rəd surəsi, 39-cu ayə:

*Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib, başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar). Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır.*

İlkin ağıl və ya qələm həm də Məhəmməd həqiqəti adlanır və bu həqiqət bütün həqiqətləri əhatə etməklə bütün mümkün varlıqların qayəsi və kamal dərəcəsi sayılır. Xaliqin nəqşi lövhi-məhfuzda təsvir olunur. Allah hər nə yaradırsa onun timsalı həmişə saxlanılan bu lövhədə yazılır. Bu lövhə dəyişməzdir və hər bir şeyi öz kamil surətində saxladığına görə "məhfuz" adlanır. Allahın elmi fələk və ünsürlərə xas olan ruhların dəftərində nəqş edilib yazıldığına görə, ilkin ağıl həm də qələm adlanır.

### *3. Nəfs aləmi.*

Bu aləm ağıl aləmindən aşağı pillədə yerləşir. Molla Sədranın dili ilə desək, cəbərut aləmindən bu aləmə – yəni dünyaya açılan ilk qapı külli nəfs, ruhül-əmin, məhfuz lövhə, mübin kitab adlanır. Quranda bəhs edilən su məfhumu varlığın qaynağı hesab edilir və həmin qaynaq buradadır. Rəhman ərş də burada bərqərar olub.

Qurani-kərim varlığın qaynağı kimi təqdim edilən su anlamına işarə edərək buyurur.

Ənbiya surəsi, 30-cu ayə:

*Məgər kafir olanlar Göylə Yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər? (Göylər ilk yaradılışda bir-birinə bitişik bir təbəqə olduğu halda, onların arası hava ilə açılıb yeddi təbəqəyə ayrılmış, Yer də bir təbəqə ikən sonra yeddi təbəqəyə bölünmüşdür. Bu, Allahın qüdrət və əzəmətini sübut edən ən tutarlı dəlillərdəndir).*

***4. Misal aləmi.***

Bu aləm yuxarı (ülvi) aləm ilə ünsür (aşağı) aləm arasında bərzəx (pərdə) adlanır. Misal aləmində varlıqlar cismani sifətə malik deyildir, lakin onlar bu aləmdə surətə malikdir. Bu aləm qeyri-maddi varlıq kimi təsəvvür edilir. Bəzi filosoflar bu aləmi qəbul etməmişlər. Lakin Molla Sədra və başqaları onun varlığını sübut etmişlər. İslam filosofları ağıl və misal aləminin varlığını sübut etmək üçün insanın vücudunu dəlil olaraq gətirmişlər. Belə ki, insanın cismani vücudu təbiət aləminə məxsusdur, insanın xəyali sifəti isə misal aləminə aid edilir. İnsanın ağılı isə ağıl aləminə aiddir. Filosofların etiqadına görə, insanın təbii və cismani varlığı onun əqli və timsali vücudu üçün qaynaq ola bilməz. İnsan vücüduna xas olan bu mərtəbələrdən hər biri özünə uyğun bir məqamdan asılıdır. Hər bir varlığın məqamına uyğun olan bu aləm mələkut adlanır.

***5. Təbiət və ya maddi aləm***. Bu aləm nasut adlanır.

Qeyd edək ki, ariflər də təqribən buna bənzər bir təsnifat vermişlər. Onlar varlıq aləminin mərtəbələrini izah edərkən irfan mövqeyindən çıxış etmişlər.

Varlığın mərtəbələri irfan baxımından aşağıdakı şəkildə təsnif və şərh edilir.

1. Lahut aləmi – Haqqın ad və sifətlərini özündə ehtiva edən ilahi mərtəbə.

Ariflərin nəzərincə, gerçək və əsil vücud Haqqın vücududur. Bu geniş və əhatəli bir varlıqdır. İlahi vücud

həqiqi varlıq olaraq təcəlli və zühur istedadına malikdir. Haqqın zühur və təcəlli qabiliyyəti gerçəkləşərkən müxtəlif aləmlər yaranır. Haqqın uca mərtəbəsi "əhədiyyət" və substansiya (zat) məqamıdır və bu mərtəbədə heç bir zahiri aləmə xas olan çoxluq (kəsrət) nişanəsinə yer yoxdur. Bu mərtəbə sırf və pak vəhdət mərtəbəsidir. Ancaq Haqqın zühur və təcəlli mərtəbəsində Haqqın ad və sifətləri çoxsaylı aləmlər halında təcəlli tapır, varlıq aləmi aşkar olur. Beləliklə vəhdətdən kəsrətə keçid təcəlli yolu ilə gerçəkləşir.

Ariflər Haqqın mərtəbələri üçün iki təcəllidən bəhs etmişlər:

**Birincisi** qeybi-elmi və ya substantiv batini təcəlli adlanır və buna "feyzi-əqdəs" (ən müqəddəs ilahi feyz) deyirlər. Bu mərhələdə Haqqın təcəllisi ilahi elm mərtəbəsində sabit timsallar (əyani-sabitə) kimi gerçəkləşir.

**İkincisi**, vücudun müşahidə baxımından təcəllisi məsələsidir. Buna "feyzi-müqəddəs" (müqəddəs ilahi feyz) deyirlər. Təcəllinin bu mərtəbəsində varlıq aləmi zahirdə yaranır və aşkar olur.

Birinci təcəlli məqamında Haqq qabiliyyət və istedadlar kimi təcəlli edir, özünü elm mərtəbəsində sabit timsallar şəklində göstərir. Bu mərhələdə Haqqın təcəllisi sayəsində əhədiyyət (substansiya) məqamından vahidiyyət məqamına keçid baş verir. Buna nüzul deyilir.

Sonra ikinci mərhələdə Allahın elmində bəlli olan timsala uyğun varlıq aləmi zahiri görkəm alır. Zahiri aləmdə aşkar olan varlıq yuxarıda işarə edilən qabiliyyət və istedada uyğun zahir olur.

Bir sözlə, feyzi-əqdəs Haqqın substantiv baxımdan təcəllisidir ki, bu da ilahi elm səviyyəsində varlığın sabit timsallarının zahir olması ilə nəticələnir. Feyzi-müqəddəs isə vücudun elə bir təcəlli məqamıdır ki, mövcud olan

şeylər sabit timsallarda malik olduğu hala uyğun bir şəkildə xarici aləmdə zahir olur.

Haqqın ilkin təcəllisi filosoflar tərəfindən ilkin ağıl, ilk emanasiya adlanır,

ariflər isə buna geniş vücud, əzəmətli ruh və ya Məhəmməd həqiqəti deyirlər.

2. Ariflərin varlıq qurumunda ikinci mərtəbə cəbərut aləmi adlanır ki, bu da külli ağıl və nəfslər aləmidir.

3. Üçüncü mərtəbə – mələkut aləmidir: bu isə qədər aləmi və ya maddədən təcrid edilmiş əmrlər aləmidir. Bu aləmdəki varlıqlar, ağıl aləmindən fərqli olaraq surətə – formaya malikdir.

4. Mülk və ya şəhadət aləmi. Bu həmin təbiət aləmidir.

5. Bütün dərəcələri əks etdirən Həzərat aləmi. Bu isə insan, vücuda xas aləmlərin toplumu və ümumiləşmiş timsalı olaraq çıxış edir.

Təcəlli nəzəriyyəsinə görə, bu beş aləmdən hər biri başqa bir uca və yüksək aləmin məzhəri kimi çıxış edir. Başqa sözlə desək, Mülk aləmi Mələkut aləminin məzhəridir. Mələkut aləmi öz növbəsində Cəbərut aləminin, Cəbərut aləmi isə sabit timsalların (əyani-sabitə) məzhəridir. Bunun ardınca sabit timsallar ilahi adların məzhəridir. İlahi adlar isə Haqqın vahidiyyət mərtəbəsidir. Bu mərtəbə öz növbəsində əhədiyyət mərtəbəsinin məzhəri sayılır. İnsan aləmi isə öz mərtəbəsinə görə bütün varlıq aləminin məzhəri sayılır. Allahın xilqətində ən kamil varlıq insandır.

Xarəzmi böyük islam filosofu Mühyiddin İbn Ərəbinin "Füsusül-hikəm" əsərinə yazdığı şərhdə belə söyləyir:

"Vücud mahiyyət etibarilə vahid həqiqətdir. Həqiqətin ali mərtəbəsində heç bir çoxluq (kəsrət) nişanəsinə yol yoxdur.

Vücudun zahiri aləmdə təcəlli və məzhəri çoxdur və təcəllinin sayı-hesabı yoxdur. Bütün ad və sifətlərin təcəllisi sonsuzdur, çünki vücudun özü sonsuz və tükənməzdir.

Bütün təcəlli nişanələri ilkin təcəllidən başlayır. İlkin təcəlli əqli-əvvəl və ya ümmül-kitab adlanır. Bu isə eyni zamanda ali qələm və ya Məhəmməd nurudur.

Hədisdə belə deyilir:

Allah ilk olaraq ağılı yaratdı.

Allah ilk olaraq nuru yaratdı.

Allah ilk olaraq qələmi yaratdı.

Bu bir həqiqət və ruhani təcəllidən doğan ilkin təcəlli nurudur. Bu nurun müfəssəl təzahürü səmavi əql, ülvi ruhlar, peyğəmbərlərin kamil ruhu və övliyaların ruhu ilə gerçəkləşir. Bu səbəbdən ilkin ağıl külli-təbiət aləmindən uca olaraq bütün varlıq aləmini doğuran çoxsaylı təcəlli timsallarını əhatə edir. İlkin ağıl ilahi feyz qaynağı və bütün varlıq aləmini təcəlli işığına qərq edən ilkin nurdur.

Sonrakı mərhələdə ilkin ağıl təcəlli mərtəbələri üzrə enməyə (nüzul) başlayır. Bu enmədə ilkin mərtəbə külli nəfs və ya lövhi-məhfuz gəlir. İlkin ağıl özündən sonrakı təcəlli mərtəbələrini əhatə etdiyi kimi, külli nəfs də nəfsin sonrakı aşağı mərtəbələrini əhatə edir; külli nəfs mücərrəd natiqə nəfslər vasitəsilə təcəlli etməklə bütün səmavi aləmi, fələk və kəhkəşanları, həm də onların çevrəsində olan varlıqları əhatə edir.

Bunun ardınca təbii nəfslər mərtəbəsi gəlir ki, bu da misal aləminə xas olan varlıqları əhatə edir. Sonra isə enmə (nazil) prosesinin sonu olan təbiət ünsürləri gəlir. Bütün təcəlli mərtəbələri bir olan Haqqın vücudu ilə bağlıdır. Haqq öz substansiyası (zat) baxımından gizli və qeybdir, Onun təcəllisi xilqət aləmində zahir və aşkar olur" [31].

O bir tamdır, bir bütövdür, vahiddir,
Ondan qeyri bir zərrə də tapılmaz.
Təcəlli zamanı kəsrət xəlq oldu,
Bu qədər əğyar zahirdə.

## Quran baxımından varlıq aləminin mərtəbələri

Quranda varlıq aləminin mərtəbələri ümumiləşmiş bir şəkildə açıqlanır və bu düzən tovhid prinsipinə uyğundur. Bir sıra Quran ayələrində varlıq aləmi barədə verilən hökmlərdən çıxış edərək həmin aləmin mərtəbələri haqqında müəyyən bir nəticə çıxarmaq olar. Quran ayələrinin təhlili həm ağıl aləmi, həm də misal aləmini sübut etməyə əsas verir.

Bu yöndə olan ayələri üç qismə ayırmaq olar:

***1. <u>İnsanın ölümdən sonra Allaha doğru qayıdışını bəyan edən ayələr</u>.***

Bu ayələr qeyri-maddi bir aləmin varlığına dəlalət edir. Bərzəx və qiyamət haqqında nazil olan ayələr bu qəbildəndir. Bir sıra Quran ayələri məbdə ilə məadın, başlanğıc ilə sonluğun bir olmasını bəyan edərkən varlıq mərtəbələrinin nüzuldan (enmə) sonra bir ilkin məqama qayıdacağını söyləyir.

<u>Əraf surəsi</u>, 29-cu ayə:

*De ki: "Allah ədalətli əmr etdi. Hər səcdədə (namaz vaxtı) üzünüzü (bütlərə deyil, Ona tərəf və ya qibləyə) tutun. Allaha qarşı səmimi olub Ona dua (ibadət) edin. Sizi (yoxdan) yaratdığı kimi, yenə Onun hüzuruna qayıdacaqsınız!*

***2. <u>Əmr və xəlq aləminə aid ayələr</u>.***

Bu ayələr göstərir ki, cisim (xəlq) aləmi hərəkət və dərəcələrə malikdir və həmin aləmin fövqündə başqa aləm və ya aləmlər də mövcuddur. Həmin aləmlər zaman və tədrici hərəkət anlamından xaricdir. Əmr aləmindəki varlıqlar zaman və məkan çərçivəsində olan varlıqlar üzərində hakimdir.

Ona görə əmr aləmində Allahın tədbiri hakimdir. Allah bu aləm vasitəsilə varlıq aləminin tədbirini görür.

İndi həmin mövzu ilə bağlı bir sıra Quran ayələrini nəzərdən keçirək.

Yunus surəsi, 3-cü ayə:

*Rəbbiniz Göyləri və Yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan, hər işi yoluna qoyan və tədbir görən (idarə edən) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?*

Fussilət surəsi, 12-ci ayə:

*Allah onları (səmaları) yeddi (qat) Göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı Göyü (dünya səmasını) qəndillərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur).*

Talaq surəsi, 12-ci ayə:

*Yeddi (qat) Göyü və bir o qədər də Yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi Öz elmi ilə ehtiva etdiyini biləsiniz deyə, Allahın əmri onların arasında (mövcud olan bütün məxluqata) nazil olar.*

Səcdə surəsi, 5-ci ayə:

*O, Göydən Yerə qədər olan bütün işləri idarə edir. Sonra həmin işlər sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə (qiyamət günündə) Ona (Allah dərgahına) yüksələr.*

Yuxarıdakı ayələrə əsasən, ilahi əmr Ərşdən verilir və Allahın fərmanı sonra Göylərə nazil olur və oradan Yerə endirilir. Ayələrdən bəlli olur ki, hər bir Göy təbəqəsinə əmr nazil olur. Deməli, yeddi Göy qatının hamısı Allahın fərmanı ilə idarə olunur. Allahın əmri həm də varlıq təbəqələri arasında onlara uyğun mərtəbələrə bölünür. Əmr yuxarı Göy aləmindən aşağı qatlara nazil olur və sonra Yer aləminə yetişir. Bu isə varlıq aləminin mərtəbələrə bölündüyünə dəlalət edir.

***3. Varlıq aləmindəki hər şeyin mənbəyinin Allahın yanında olmasını təsdiqləyən ayələr.***

Hər bir varlıq nümunəsi Allahın hökmü və iradəsi olmadan zahir ola bilməz. Hər şeyin xaliqi və yaradanı bir Allahdır. Hər bir məxluqun qaynaq və mənbəyi Allah yanındadır. Deməli, varlıq aləmindəki bütün şeylərin Haqqın elmində qaynağı vardır. Bu mənada aşağıdakı ayə diqqətəlayiqdir.

Hicr surəsi, 21-ci ayə:

*(Yerdə və Göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk. (Onun nə qədər lazım olması isə yalnız Bizə məlumdur.)*

Bu ayəyə görə hər bir şeyin qaynağı və xəzinəsi Allahın yanındadır və zahiri aləmdə yaranan hər bir şey müəyyən ölçü ilə nazil olur.

Həmin ayədə verilən hökmün dərin məzmun qatları vardır. Ayənin zahiri mənasına görə, nüzul, təqdir, miqdar və hüdud məfhumları arasında münasibət və bağlılıq vardır. Bu ayənin batini məzmunu vacib bir məsələni anlayır: bütün varlıq aləmindəki şeylərin xəzinəsi Allahın yanında təsbitləşib və bunlar xəlq aləmindən qabaq əmr aləminə xas qeyri-məhdud və ölçüsü-miqdarı hüdudsuz olan varlıqların toplumsal qaynağıdır. Ayədə "xəzain" sözü "xəzinə" sözünün cəm şəklində işlənib. Bu isə çoxluğa (kəsrət) işarədir. Bu cəm halı adi say mənasında deyil, varlıq aləminin dərəcə və mərtəbələrinin çeşidli olması məfhumuna işarədir. Varlıq aləmindəki mərtəbələr aşağı və yuxarı olur, dərəcə və rütbə baxımından seçilir. Burada fərdi kəmiyyət çoxluğu nəzərdə tutulmur. Hər şey bir qaynaqdan nüzul edir və varlıq mərtəbəsinin bir dərəcəsi başqa bir dərəcəyə nisbətən üstün və imtiyazlıdır. Varlıq aləminin həmin xəzinələrdəki (Allahın yanında olan xəzinələrdəki) mərtəbələri vardır və hər bir şey müəyyən ölçü və miqdar ilə – yəni öz mərtəbəsinə uyğun miqdar və

ölçü ilə nazil olur. Allahın yanında olan dərəcə və ya ölçü zahiri aləmdə müşahidə edilən dərəcə və ölçü ilə eyni deyildir. Ona görə də ayədən göründüyü kimi, nüzuldan öncə heç bir hədd və fiziki ölçüdən söhbət gedə bilməz. Ölçü və miqdar varlığın zahiri dünyada nüzulu ilə bağlı məfhumlardır.

Əllamə Təbatəbai həmin ayənin təfsirində belə yazır:

"Bu ayədə ümumi bir fikir söylənilir və həmin fikirdən bəlli olur ki, bu dünyada mövcud olan bütün varlıqlar Allahın yanında geniş, ölçüsüz və qeyri-məhdud varlıqlardan ibarətdir; çünki ayənin zahiri anlamına görə "ölçü" məfhumu "tənzil" (enmə) məfhumu ilə birgə gəlir. Tənzil məfhumu boş-boşuna işlənməyib. Allah-təala başqa bir ayədə belə buyurur.

Nəhl surəsi, 96-cı ayə:

*Sizdə olan (dünya malı) tükənər, Allah dərgahında olan (axirət nemətləri) isə əbədi və baqidir.*

Bu ayəni daha iki ayəyə əlavə etsək, maraqlı bir nəticə alarıq.

Qəsəs surəsi, 88-ci ayə:

*Allahın vəchindən (substansiyasından) başqa hər şey məhvə və həlak olmağa məhkumdur.*

Rəhman surəsi, 26-27-ci ayələr:

*Yer üzündə olan hər kəs fanidir (ölümə məhkumdur).*

*Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir.*

Göründüyü kimi, Allahın yanında olan Onun vəchidir.

Başqa bir ayədə isə belə deyilir.

Rəd surəsi, 8-ci ayə:

*Hər şey Onun yanında (Allahın əzəli elmində) müəyyən ölçü ilədir.*

Deməli, bu ayələrdən ümumi bir nəticə əldə edilir ki, Allahın hər bir varlıqda vəchi vardır. Başqa sözlə desək, hər bir şeydə iki vəch vardır: birisi Allahın vəchi, ikincisi isə

xilqətin vəchi. Xəlq sifəti və ya xəlqə aid olan vəch ölçüyə malik olmaqla məhduddur.

Lakin "Hər şeyin xəzinəsi Allahın yanındadır" ayəsinə görə, varlığın Allahın yanında olan vəchi sonsuz və qeyri-məhduddur. İlahi sifətlər tükənməz və sonsuz, xəlqə aid sifətlər isə məhduddur [32].

Beləliklə, bəlli olur ki, varlıq dünyasının iki üzü (vəchi vardır): Onun bir üzü – ilahi sifətlərə xas ölçüyə malikdir və hələ varlıq aləminin tam gerçəkləşməsindən öncə olan misal aləminə xasdır; varlıq dünyasının ikinci üzü – ilahi sifətə xas ölçüsüz və sonsuz bir anlamdır. Bu sifət sabit və həmişə qalandır. Mücərrəd ağıl aləmi həmin sifətə malikdir. Varlığın zahiri dünyada olan maddi halı, misal aləmi və ağıl aləmi – üçlük bir dünya düzənidir və bu üç aləm bir-birinə uyğundur, onlar arasındakı dərəcə və mərtəbə baxımından fərq vardır [33].

## Kürsü və Ərş

Qurani-kərimin varlıq aləmi haqqında təlimində bir sıra maraqlı məfhumlar vardır və onların dünya düzənindəki yerini açıqlamaqla Quran kosmoloci dünyagörüşünün bir sıra önəmli məqamlarını izah etmək olar. Bu məfhumlar sırasında iki həqiqət – Kürsü və Ərş diqqəti cəlb edir.

Öncə kürsü məfhumunu açıqlamağa çalışaq. "Kürsü" sözü öz leksik mənasına görə əsas və kök deməkdir. Bəzən isə tərkib hissələri bir-birinə birləşən şeyə kürsü deyərlər. Ona görə qısa dayaqları olan taxt kürsü adlanır. Müəllimlər adətən dərs deyərkən kürsüdə əyləşirlər; bu səbəbdən tədris və elmi mühazirə aparılan yerlər kürsü – yəni kafedra adlanır. Kürsü sözü burada kinayə məzmunlu məfhum kimi işlənir.

Kürsü bir növ taxt və hakimiyyət məqamı bildirir, ona görə qüdrət və hökmranlıq mənasında işlənir. Kürsü kinayə

yolu ilə yaranan belə bir məzmunu ifadə edir. Qurani-kərimdə Kürsü anlamı bir-iki yerdə işlənib.

Bəqərə surəsi, 255-ci ayə:

*Allahdan başqa heç bir tanrı yoxdur. (Zatı və kəmal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi və əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və Yerdə nə varsa, hamısı Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) Göyləri və Yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca və ən böyük varlıq da Odur!*

Ayədə işlənən kürsü anlamı təfsirçilər tərəfindən müxtəlif səpkidə şərh edilmişdir ki, burada həmin şərhlərin ümumi xülasəsini verməklə bu anlama aydınlıq gətirmək istəyirik.

1. Bir sıra təfsir alimləri "kürsü" və hətta "ərş" sözünü təşbih məzmunlu ifadə hesab etmişlər. Onların əqidəsinə görə, Qurani-kərimdə işlənən bu söz Allahın əzəmət və böyüklüyünü bəyan edir. Görkəmli təfsir alimi Carullah Zəməxşəri bu barədə belə deyir: "Bu anlam yalnız Allahın əzəmətini təxəyyül yolu ilə bəyan etməkdən ötrü işlənib. Çünki Göylərdə nə kürsü qurulub, nə də orada oturulan bir yer və nə də oturan şəxs var". Nişaburi də həmin fikri təsdiqləyərək söyləyir ki, bu söz ilahi əzəməti və böyüklüyü bəyan ilə təsvir edir. Yoxsa ki, doğrudan da orada nə taxt var, nə oturulan məqam, nə də oturan. Beyzavi isə bu barədə belə söyləyib: "Kürsü ilahi əzəmətin təsviri olmaqla təmsil yolu ilə verilən ifadə tərzidir" [34].

2. Kürsünün başqa bir mənası elmdir. Bu isə Allahın elminin nüfuz və əhatə dairəsini göstərir. Başqa sözlə desək, Allahın kürsüsü dedikdə Onun Göylər və Yer aləmi haqqında elminin vüsəti nəzərdə tutulur. Ona görə də Qurani-kərimdə belə buyurulub ki, Allahın kürsüsünün vüsəti Göyləri və Yeri əhatə edir. Deməli, Allahın elmi Göylərdə və Yerdə olan bütün varlıq aləmini əhatə edir. Bu iki dairədə olan varlıq nümunələrindən heç biri Onun elmindən və nüfuz dairəsindən kənar deyildir. İmam Cəfər Sadiqdən (ə) söylənilən hədislərin bir qismində kürsü anlamı həmin mənada təfsir olunub.

Bir hədisdə belə deyilir:

"Həfs İbn Qiyas söyləyir ki, İmam Sadiq əleyhissəlamdan soruşdular: Quran ayəsində "Allahın kürsüsü Göyləri və Yeri əhatə edir" ifadəsi nə deməkdir? O belə cavab verdi: burada Allahın elmindən söhbət gedir" [35].

3. Kürsünün bir mənası da Allahın qüdrət və səltənətini ifadə edir. Allah bütün Göylərə və Yerə hökmranlıq edir. Onun qüdrət və nüfuz dairəsi bütün varlıqları əhatə edir. Varlıq dünyasında Onun qüdrət və nüfuz səltənətindən kənar heç nə yoxdur. Təbərsi kürsü məfhumunun ilahi qüdrət və səltənət mənasını açıqlayaraq belə yazır:

"Kürsü dedikdə, Qurani-kərimdə Allahın qüdrət və səltənəti nəzərdə tutulur. Ərəb dilində "bu divarı kürsü kimi et" dedikdə divarı möhkəm saxlayan, onu dayaq halında gücləndirən sütun nəzərdə tutulur. Dayaq və sütun isə divarın və binanın uçmasının, tökülüb yıxılmasının qarşısını alır. Deməli, "kürsü" sözü Qurani-məciddə Allahın qüdrət və səltənətinə dəlalət edir, belə ki, Onun qüdrəti Göyləri və Yeri, orada olan bütün varlıqları əhatə edir" [36].

4. Kürsünün başqa bir mənası vüsət və əhatə dairəsinin genişliyinə işarə edir. Kürsü bütün Göylərdən və Yerdən geniş və vüsətlidir – yəni hətta bütün Göylər və Yer aləmi Kürsüdə yerləşib.

Əsbəğ ibn Bənatə Həzrəti-Əlidən (ə) belə bir rəvayət söyləyir:

"Göylər və Yer aləmi, burada olan bütün məxluqat Kürsüyə sığıb" [37].

İmam Cəfər Sadiq (ə) kürsü məfhumunu təfsir edərkən belə buyurub:

"Göylər və Yer aləmi Kürsü müqabilində üzüyün həlqəsi ortasında yerləşən biyaban kimidir. Kürsü özü də Ərşin müqabilində üzüyün həlqəsi ortasında yerləşən biyaban kimidir" [38].

Bu hədisdən bəlli olur ki, Kürsü Ərşdən aşağıda yerləşir, başqa sözlə desək, Ərş Kürsünü əhatə edir və öz vüsətinə görə ondan genişdir.

Başqa bir yerdə Kürsü barədə belə deyilir:

"Göylər və Yer aləmi, onlarda olan bütün məxluqat Kürsünün içərisindədir və Allahın izni ilə bu Kürsünü dörd mələk daşıyır" [39].

Əllamə Təbatəbainin əqidəsinə görə, Kürsünün mələklər tərəfindən daşınmasına aid rəvayətlərdən bəlli olur ki, varlıq aləminin müfəssəl və ayrıntılı şərhindən söhbət gedir. Burada ayrı-ayrı varlıq nümunələrinin olması diqqəti cəlb edir. Zahiri dünyada mövcud olan varlıqlar ayrı-ayrılıqda bir-birindən fərqlənir. Vücud zahiri aləmdə geniş şəkildə aşkar olur və müxtəlif növ varlıq nümunələri bir vücuddan qaynaqlanır. Dörd mələk isə varlıq aləminin ayrı-ayrı şaxələrə ayrılmasına işarə edir. Kürsü varlığın aşağı – yəni ayrılma mərhələsidir və Ərşin müqabilində gəlir. Ərş isə varlığın gizli məqamıdır. Burada varlığın cəm-toplum halında xülasəsi əks olunur. Ona görə bir çox rəvayətlərdə deyilir ki, Kürsü Allahın zahiri elminə, Ərş isə batini elminə işarədir [40]. Göylər və Yer aləmi Allahın zahiri elminin nişanəsidir və Kürsü də bu iki aləmi əhatə edir, Allahın batini elmi isə gözdən və hisslərdən gizli qalan Qeyb dünyasına şamil edilir.

Kürsü anlamına Tövratda da işarə vardır. Yəhva – Tanrı olaraq ilahi məqamda öz kürsüsünə əyləşir və mələklər də onu dövrəyə alırlar: "Mən Allahı kürsüdə əyləşən gördüm, Göylərin qoşunları Onun sağında və solunda əmrə müntəzir dayanmışdılar" [41]. Bu barədə başqa bir mətləbi qeyd etmək yerinə düşər. "Padşah ölən ili, Allahı kürsüdə əyləşən gördüm. O, uca və ali bir kürsüdə oturmuşdu. Onun ətəyində heykəllər dolu idi. Başı üzərində mələklər dayanmışdı, hər birinin altı qanadı var idi. İki qanadla üzünü örtmüş, iki qanadla ayaqlarını bürümüşdü. İki qanadı ilə pərvaz edirdi. Birisi başqasını çağıraraq belə söyləyirdi: müqəddəs, müqəddəs, müqəddəs Yəhva Səbayut! Bütün Yer üzü Onun calalı ilə dolmuşdu" [42].

Başqa bir yerdə belə deyilir:

"Allah buyurur ki, Göy mənim kürsüm, Yer üzü isə ayaqlarım altına sərilən payəndazdır" [43].

## Ərş

Quranda kürsü ilə yanaşı işlənən kosmoloci anlamlardan ikincisi Ərşdir. Bu sözə Qurani-kərimdə daha çox rast gəlirik. İndi həmin sözün işləndiyi bir neçə ayəni nəzərdən keçirək.

Ənbiya surəsi, 22-ci ayə:

*Əgər Yerdə və Göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) pozulardı. Ərşin sahibi olan Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır!*

Muminun surəsi, 86-cı ayə:

*De ki: "Yeddi (qat) Göyün Rəbbi, o böyük, əzəmətli ərşin sahibi kimdir?*

Nəml surəsi, 26-cı ayə:

*O böyük ərşin sahibi olan Allahdan başqa heç bir tanrı yoxdur!*

Təkvir surəsi, 19-20-ci ayələr:

*Bu Quran (Allahın dərgahında) çox möhtərəm olan bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır.*

*Elə bir elçi ki, çox qüvvətlidir; ərşin sahibi (Allah) yanında çox hörmətli, izzətlidir.*

Ərş həm də örtük mənasında işlənir, hər hansı bir binanın üst örtüyü və ya Göylərin və Yerin örtüyü ərş kimi verilir.

Ərşin örtük mənasına işarə edən ayələr də vardır.

Bəqərə surəsi, 259-cu ayə:

*Yaxud (Ya Məhəmməd!) damlarının örtüyü çökmüş, divarları uçulmuş bir kəndin yanından keçən şəxsin əhvalatını bilmirsən?*

Ağacları əyilib yıxılmaqdan qorumaq üçün işlənən dayaq və ya dirəklərə də ərş deyilir. Başqa bir şərafətli ayədə bu mənaya işarə var.

Ənam surəsi, 141-ci ayə:

*Yer üzünə sərilmiş və sərilməmiş (dayağı olan və olmayan) bağ-bağatı (bostanları və bağları), dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. (Onların hər biri) bar verdiyi zaman barından yeyin, yığım günü haqqını (zəkatını, sədəqəsini) ödəyin, lakin israf etməyin. Allah israf edənləri sevməz!*

Bəzi hallarda isə "ərş" sözü sultanların uca taxtları mənasında işlənir. Süleyman (ə) və Yusifin (ə) qissələrində həmin taxta işarə vardır.

Nəml surəsi, 38-ci ayə:

*(Süleyman) dedi: "Ey əyanlar! Onlar müti vəziyyətdə (müsəlman olaraq) yanıma gəlməmiş hansınız onun (Bilqeysin) taxtını mənə gətirə bilər?!*

Yusif surəsi, 100-cü ayə:

*(Yusif) ata-anasını taxt (öz taxtının) üstünə qaldırdı. Onlar (ata-ana və on bir qardaş) hamısı (hörmət əlaməti olaraq ona) (Yusifə) təzim edib əyildilər (və ya Allah onları bir-birinə qovuşdurduğu üçün) şükr səcdəsinə qapandılar.*

Qədim dövrlərdə, hökmdarlar səltənət taxtına əyləşməklə söykənərdilər. Onlar həmin taxtda padşahlıq edər və ölkəni idarə etmək üçün lazımi fərmanlar verərdilər. Sonra tədricən taxt anlamı taxt-tac, səltənət və hökmranlıq mənası kəsb etdi. Taxt – yəni qüdrət nişanəsi deməkdir. Bu hakimiyyət və səltənət məqamına dəlalət edir.

Bu deyilənlərdən sonra, ərş anlamının Qurani-kərimdə daşıdığı məzmun tutumunu şərh etmək üçün yenə də təfsir alimlərinə müraciət etməli oluruq. Təfsirçilər ərş anlamı barədə müxtəlif izahlar vermişlər və onlardan çıxarılan önəmli məqamları diqqətə çatdırırıq.

1. Bəzi islam tədqiqatçılarına görə Ərş və Kürsü məfhumlarının həqiqi anlamı bizlərə bəlli deyil. Bu sayaq sualların yozumu yanlış ola bilər, bu isə boş bir iş və bidət sayılır.

İmam Malikdən (Allah ona rəhmət eləsin) soruşdular ki, "Rəhman Allah Ərşi düzənlədi" dedikdə bu ayədə hansı məna nəzərdə tutulur? O, belə cavab verdi: – Düzənləmək (təsviyə) məlum deyil, bu məfhumun keyfiyyəti məchuldur. Əlbəttə, buna inanmaq vacibdir, lakin bu barədə sual etmək bidətdir [44].

2. Ərş – ilahi qürrət və hökmranlıq mənasında işlənir. Ərş anlamı ilə işlənən "istəva" (düzənləmək) sözü isə Allahın səltənət və qüdrətinin hökmranlığına işarədir. Qurana görə Allah bütün xilqətə hökmrandır. Həmin məzmunu ifadə edən iki ayəni misal olaraq gətirək.

Əraf surəsi, 54-cü ayə:

*Həqiqətən, Rəbbiniz Göyləri və Yeri altı gündə xəlq edən, sonra Ərşi (və onun əhatə etdiyi hər şeyi) yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, Günəşi, Ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər böyükdür!*

Taha surəsi, 5-ci ayə:

*Rəhman ərşi yaradıb hökmü altına almışdır (ərşə hakimdir).*

Nəzərdə saxlamaq lazımdır ki, səltənət və hökmranlıq mənasında işlənən Kürsü və Ərş sözləri kinayə yolu ilə belə məzmun kəsb edir. Həmin sözləri insanların həyat və fəaliyyəti ilə bağlı mövzuların izahında işlətsək, bu sözlər şərti və məcazi mənada verilər. Ancaq hər iki söz Allahla bağlı həqiqi mənada işlənmişdir. Allahın Ərşə hökmranlıq etməsi, heç də insanların hökmranlığı və səltənəti ilə uyğun gəlməz. Ərş özü Allahın hökmlərinin verildiyi bir məqamdır və bu söz Qurani-kərimdə həqiqi məna daşıyır. Allah Ərşdən verdiyi fərmanlarla varlıq aləmini idarə edir. Buna görə Allahın Ərşə hökmranlığı ardınca, Onun tədbir görməsi məsələsi xatırlanır. Tədbir görmək isə işləri sahmana salmaq və yoluna qoymaq deməkdir. Deməli, Allahın Ərşdəki səltənəti dünya işlərinə tədbir görmək məqsədi daşıyır.

Yunus surəsi, 3-cü ayə:

*Rəbbiniz Göyləri və Yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan, hər işi yoluna qoyan (tədbir görən və idarə edən) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?*

Rəd surəsi, 2-ci ayə:

*Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan, müəyyən vaxta (dünyanın axırına, qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı (iradəsinə) tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra), Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə, inanasınız!*

Ustad Əllamə Təbatəbai Ərşin mənasını izah edərək yazır:

"Varlıq (kövn) aləmində onun ayrı-ayrı mərhələləri arasında fərqlər mövcuddur. Bunlarla yanaşı həmin aləmdə elə bir mərhələ vardır ki, bütün səbəb və hadisələrin toplum halında idarə olunması bu mərhələdə gerçəkləşir. Səbəblər hadisələrin törədicisidir – yəni səbəbsiz hadisə yoxdur. Bütün səbəb və dəlillərin nizamlı bir silsilə halında birləşməsi bu mərhələdə baş verir. Sözü gedən mərhələnin adı Ərşdir. Quranda belə deyilir ki, Allah Ərş üzərində hökmranlıq qazandı. Bu bir kinayə yolu ilə ifadə edilən məfhumdur. Yəni Allah öz mülkünə hökmran oldu və bu məqamda bütün işlərin tədbirinə girişdi. Kiçikliyindən və böyüklüyündən asılı olmayaraq heç bir iş Allahın tədbir yazısından kənarda qalmır. O hər şeyi dəqiq bir nizam və qayda ilə öz varlığının kamillik mərtəbəsinə çatdırır. Hər bir varlıq nümunəsinin ehtiyacını öz tələbinə görə ödəyir. Ona görə, Yunus surəsi, 3-cü ayədə "Allah Ərş üzərində hökmran olduqdan" sonra işlərin tədbirinə – yəni sahmana salınmasına girişir. Ona görə ayənin sonundakı "tədbir görmək" anlamı xilqət aləmindəki məqsəd və hədəfi nəzərdə tutur".

Əllamə Təbatəbai başqa bir yerdə bu məsələni izah edərkən öz fikrini belə davam etdirir:

"Ərş elə bir varlıqdır ki, onun bütün başqa varlıqlara olan münasibəti, xüsusilə cismani aləmə olan münasibəti padşahlıq taxt-tacının ölkəyə olan münasibəti kimidir. Ərşin Allaha olan münasibəti isə sultanlıq taxtının Sultana olan münasibəti kimidir. Deməli, ərş vücudun (varlığın) elə bir mərtəbəsidir ki, hər şeydən uca və pak olan Allahın bütün sifətləri bu mərtəbədə təcəlli edir və bütün məxluqun həmin sifətlərə ehtiyacı vardır. Padşahlıq taxtı və ya məqamı fərman verilən bir mərtəbə olduğu kimi, ərş mərtəbəsi də varlıq aləmi üçün verilən əmr məqamıdır. Ərş geniş, əhatəli bir mərtəbədir və varlığın mücərrəd, misal və maddi dərəcələrini özündə birləşdirir və bütün varlıqları əhatə edir" [45].

Bir sıra ayələrdə ərşi çiyinlərində daşıyan kəslərin adı çəkilir, ərş də bir növ kürsü kimi çiyində daşınan səltənət taxtı dəyərincə təsəvvür edilir.

Mumin surəsi, 7-ci ayə:

*Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: "Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!*

Zumər surəsi, 75-ci ayə:

*(Ya Peyğəmbər!) Mələkləri də ərşi (hər tərəfdən) əhatə edərək Rəbbini Həmd-səna ilə təqdis edən görəcəksən. Onların (bütün məxluqatın) arasında ədalətlə hökm olunacaq, (möminlər Cənnətə, kafirlər Cəhənnəmə gedəcək) və (mələklərlə möminlər tərəfindən bir ağızdan): "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" – deyiləcəkdir!*

Haqqə surəsi, 17-ci ayə:

*Mələklər də Göyün ətrafında (Allahın əmrinə müntəzir) olacaq və həmin gün (ya Peyğəmbər!) sənin Rəbbinin ərşini onların (başı) üstündə səkkiz mələk daşıyacaqdır!*

Ərşin mələklər ilə əhatə olunması və ya onun mələklər vasitəsilə daşınması, varlıq aləmindəki işlərin sahmana salınması (tədbiri) və idarə olunmasına dəlalət edir.

Deməli, bu ayələrə görə ilahi ərşdən varlıq aləmində baş verən işlər üçün tədbir görülməsi barədə əmr verilir və həmin fərmanı isə mələklər icra edirlər. Mələklərin ərşi daşıması ilahi əmrin yerinə yetirilməsi deməkdir.

3. Ərş varlıq aləmindəki işlər üçün tədbir görülməsi mənası ilə yanaşı elm mənasında da işlənir – yəni Allahın elmi bütün varlıq aləminə hökmrandır. Allahın Göylərdə və Yerdə olan varlıqları əhatə edən elmi kürsü məfhumu ilə ifadə edilirsə, Onun ruhlar və mələklər aləmini əhatə edən elmi vüsəti ərş məfhumu ilə bəyan edilir. Allahın təbiət

aləminə olan elmi kürsü, metafizik aləmə olan elmi isə ərş anlamı altında verilir.

Öncə işarə etdiyimiz hədisdə deyildiyi kimi, Ərşin əhatə dairəsi və mərtəbəsi daha ucadır, o, kürsünü əhatə edir. Ərşin belə bir məzmuna malik olması barədə bəhs edən təfsir alimləri aşağıdakı ayəyə əsaslanaraq belə bir məna çıxarmışlar.

Hədid surəsi, 3-4-cü ayələr:

*Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir! (Allah Öz əzəli elmi və qüdrəti ilə hər şeyi görüb bildiyi halda, Özü görünməz, dərkolunmazdır. Allahın varlığı aşkar, mahiyyəti isə tamamilə gizlidir).*

*Göyləri və Yeri altı gündə xəlq edən, ərşi yaradıb hökmü altına alan Odur. O, Yerə girəni də, Yerdən çıxanı da, Göydən enəni də, Göyə qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!*

Elm eyni zamanda tədbir görmək üçün lazım olan vasitələrdən ən önəmlisidir. Allah-təala yuxarıdakı ayədə Ərş üzərində hökmranlq tapmaqla tədbir məqamına malik olur. O, Öz tədbirini Göylərdə və Yer üzündə olan bütün məxluqa şamil edir.

4. Bəzi təfsir alimləri Ərşi varlıq aləminin toplusu – məcmusu adlandırmışlar və bütün varlıq aləmi isə həqiqətdə Allahın hakimiyyət və səltənəti altında yerləşir.

Əllamə Təbatəbai Ərşin başqa bir məzmununa işarə edərək belə yazır:

"Ərşin daha bir mənası haqqında bəhs etmişlər. Bu məna kürsü məfhumunun müqabilində işlənir. Kürsü adətən qısa ayaqlı taxtlara deyilir, bu isə maddi dünyanın məcazi anlamına işarədir. Ərş isə bunun müqabilində qeyri-maddi metafizik aləmin rəmzidir. Ərş mələklər və ruhlar dünyasına dəlalət edir" [46].

Böyük islam mütəfəkkiri və irfan alimi Mühyiddin İbn Ərəbi və onun "Füsusül-hikəm" əsərinin şərhçiləri ərşi iki qismə ayırmışlar:

A. Cismani-maddi ərş

B. Ruhani ərş.

Cismani ərş maddi dünyaya və buraya şamil edilən bütün varlıqlara aiddir. Ruhani ərş isə həmin ilkin ağıldır və bütün ruhani həqiqətləri əhatə edir.

İbn Ərəbi bu barədə belə söyləyir:

"Ərşin hər şeyə vüsəti və əhatəsi vardır. Rəhman Allah ərşi düzənləyərkən həqiqətən Öz rəhmətini bütün aləmlərə sirayət etdirdi. Bu ilkin ruh və əzəmətli fələkdir" [47]. Müəllif "Fütuhatül-məkkiyə" adlı əsərində də bu mövzunu işıqlandırmışdır.

Xarəzmi "Füsus" əsərinə yazdığı şərhdə İbn Ərəbinin fikrini belə izah edir:

"Allah-təala Quranda buyurur ki, Rəhman (Allah) Ərşi düzənlədi və ona hakim oldu. Rəhman ilahi adlardandır və Allah bu adla Ərşə hakim olur və onu Öz qüdrəti əhatəsinə alır. Ərş Allahın hökmranlığının məzhəridir və Pərvərdigar Ərşin vasitəsilə Öz feyzini varlıq aləminə sirayət etdirir. İlahi adlar Allahın substansiyası (zat) müqabilində işlənir və Tanrı feyzinin nuru adlardan qaynaqlanmır, çünki bu nur Haqqın substansiyasından gəlir və öncə ruhlar aləmini əhatə edir və sonra cismani varlıq aləmində təzahür edir.

Ərşin həqiqəti barədə belə söyləmək olar ki, bu sabit timsalların həqiqətindən ibarət olmaqla varlıq aləminə sirayət edir və onun vasitəsilə zahir olur. Haqqın Rəhman adı Allahın elmində və ruhlar aləmində ilkin ağıl olaraq aşkar olur, cismani aləmdə isə fələki-ətləs adı ilə təzahür edir. Bütün təzahür prosesi vahid vücudla bağlıdır və onun feyzindən doğur" [48].

Hud surəsi, 7-ci ayədə isə Ərşin su üzərində olmasına işarə var və həmin ayədə belə deyilir:

*Əriş su üzərində ikən hansınızın daha gözəl əməl (itaət) sahibi olacağını sınayıb bilmək üçün Göyləri və Yeri altı gündə yaradan Odur. (Ya Peyğəmbər!) Əgər desən ki: "Siz öləndən sonra, həqiqətən diriləcəksiniz!" – kafir*

*olanlar: – "Bu açıq-aşkar sehrdən (yalandan) başqa bir şey deyildir!" – deyə cavab verərlər.*

İbn Ərəbi bu şərif ayədə işarə edilən su məfhumunu Rəhman nəfs kimi tanıyır. Bu isə külli həyula və ya əsl cövhər deməkdir. Həyula və cövhər varlıq aləminin ilkin kökü və əsası sayılır. Rəhman nəfs dedikdə ilkin bəsit maddə nəzərdə tutulur və ariflərin nəzərincə Haqqın vücudundan doğan feyz Rəhman nəfsdir və bu feyz ilahi ad və sifətlər vasitəsilə bütün mümkün varlıq aləminə hakim olur.

Ərş – mülk, həyula – sudur [49].

Mövzu ilə bağlı Molla Sədranın fikirləri ilə tanış olmaq yerinə düşər. O, Ərş barəsində hədis alimləri, təfsirçilər və ariflərin baxışlarını təhlil edərək ortaq bir nöqtə tapmağa cəhd etmişdir. Molla Sədra, ariflərin Ərş barəsindəki mülahizələrini belə ümumiləşdirir:

1. Qəlb

Bu anlam nəfsin yeddilik bölümündə orta bir yer tutur: təb (təbiət-fitrət), nəfs, qəlb, ruh, sirr, xəfi, əxfa.

2. Feyzi-əqdəs
3. Feyzi-müqəddəs
4. Külli əql
5. Məhdud cəhətli fələk.

Bu mənaya uyğun kürsü anlamı aşağıdakı məfhumlara aid edilə bilər:

1. Nəfs
2. Feyzi-müqəddəs
3. Vücudun mərtəbələri
4. Külli-nəfs
5. Yeddinci fələk.

Yuxarıdakı bölüm heç də ərş və kürsünün quruluş və düzənini əks etdirmir. Burada hər iki anlamın ariflər tərəfindən hansı adlar altında izah edilməsi göstərilir. Təbiidir ki, bir məfhumun bir neçə ad altında izah edilməsi

müəyyən çətinlik və mürəkkəblik yaradır. Molla Sədra bunları sadaladıqdan sonra mövzuya aydınlıq gətirir.

Molla Sədraya görə ərş məfhumunun həqiqi mənası bəsit (geniş) ağıldır. Bəsit ağıl isə ilahi elm deməkdir. Allahın elmi bütün varlıq aləmini əhatə edir. Allahın geniş elmi ərş məfhumu ilə bəyan edilir. Hər kim ərşin həqiqi mənasını bilirsə, deməli, o, ilahi elmə malikdir [50].

Elm özü də ilahi qüdrətdir – yəni Allahın qüdrəti fiziki güc mənası ilə məhdudlaşa bilməz. Molla Sədra bu mövzuya işarə edərək yazır:

"Ərş elm deməkdir və elm qüdrət ilə ziddiyyət təşkil etmir. Bu anlam öz dərəcə və şəninə uyğun xüsusi məna kəsb edir: ilahi ərş ilk növbədə əqli gövhər olmaqla əqli varlıqların surətini (formasını) saxlayır və ona görə də elm adlanır. Ərş eyni zamanda Haqq ilə insanlar arasında vasitə olmaqla elmi surətləri Allah tərəfindən onların nəfslərinə ötürür və bu məqamda qələm adlanır. Ərş həmçinin nəfsi cövhər olmaqla fələk və Göyləri öz şövqü ilə hərəkətə gətirir və bu məqamda qüdrət adlanır. Ərş çoxsaylı elmləri öz lövhəsində əks etdirməklə lövh adlanır. Elm, qüdrət və həyat ərş vasitəsilə daşınır. İlahi elm sahibləri (rəbbani alimlər) öz elmlərini Haqdan alır və onlar elm daşıyıcıları hesab olunurlar" [51].

Beləliklə, öncə bəhs edilən məsələyə – yəni ərşin dörd mələk tərəfindən daşınmasına qayıdırıq. Molla Sədra bu dörd mələyi belə şərh edir: təb, nəfs, ağıl və ruh. Həqiqət bu dörd amilin batini anlamından ibarətdir və ərşi daşıyan mələklər eyni zamanda həqiqət daşıyıcılarıdır. Bunlar ülvi-əqli mələklər adlanır [52].

Molla Sədra başqa bir təfsirdə ərşi daşıyan səkkiz mələkdən bəhs edir: dörd mələk yuxarıda yerləşir ki, bunlar müqəddəs qəhrli nurlardan və ilahi surətlərdən ibarətdir. Bu isə ünsürlər sırasına daxil olan anlamdır. Dörd mələk isə surətə aid misallardan ibarətdir ki, bunların kölgəsi dörd ünsürün surəti hesab olunur.

Bununla yanaşı, o, mələkləri daha iki dəstəyə ayırır: elmi və əməli dəstə.

Dörd mələk əməli dəstəyə aid edilir və həmin mələklər Allahı öz felinə xas olan qüdrət və bağışlamaq sifətləri ilə sitayiş edir. Daha dörd mələk isə elmi dəstəyə aid edilir və bunlar da Allahı öz substantiv mahiyyətindən doğan elm və qələm sifəti ilə sitayiş edir. Elmi mələklər həmin qəhrli nurlardan ibarətdir, əməli mələklər isə tədbir görən (müdəbbir) nurlar adlanır [53].

Molla Sədra Hud surəsi, 7-ci ayədə işarə edilən "Ərşin su üzərində bərqərar olması" fikrini şərh edərək deyir ki, su dedikdə ilkin ünsür nəzərdə tutulur. Bu isə varlıq aləminin həyat və varlığının əsası və kökü və əqli surətlərin ilkin qaynağı sayılan ilkin başlanğıcdır. Bütün varlıq bu başlanğıcdan qaynaqlanır. Ariflər həmin xeyir qaynağını rəhmani nəfs adlandırırlar [54].

## Lövh və qələm

Quran ayələri və hədislər varlıq aləmi ilə bağlı daha iki həqiqətdən – lövh və qələmdən bəhs etmişdir. Öncə qələm barədəki iki ayəni diqqətdən keçirək.

Qələm surəsi, 1-ci ayə:

*Nun! And olsun qələmə və (mələklərin) yazdıqlarına (yaxud lövhi-məhfuzda yazılanlara) ki,*

Ələq surəsi, 4-5-ci ayələr:

*O Rəbbin ki qələmlə (yazmağı) öyrətdi.*

*O Rəbbin ki insana bilmədiklərini öyrətdi.*

Bir rəvayətdə isə belə deyilir:

"Allahın yaratdığı ilk xilqət qələm idi. Allah sonra ona belə buyurdu: "Yaz!" və qələm də keçmiş və gələcək hadisələrin hamısını qiyamətə qədər yazdı" [55].

Qələm barəsində belə deyilir ki, o, vücud mərtəbələrindən biri olmaqla bütün varlıq aləminin xülasəsini və yığcam şərhini özündə cəmləyib. Lövh isə vücudun elə bir mərtəbəsidir ki, varlıq aləmi burada geniş

və müfəssəl şəkildə şərh olunur. Başqa sözlə desək, varlıq aləminin həqiqətləri qələmdə xülasə və yığcam halda, lövhdə isə geniş şəkildə əks olunur.

Vücudun iki mərtəbəsi arasındakı fərq yığcam və müfəssəl sifətləri ilə ayırd edilir. Lövhdə müfəssəl halda bəyan edilən varlıq aləmi haqqında məlumat qələm tərəfindən artırılır. Bunlar gerçəkliyin mücərrəd həqiqətləri olmaqla həyat və elm sifətlərinə malikdir və öz hüdud və mahiyyətindən asılı olmayaraq müəyyən bir şəkildə ərşlə bağlı olur. Bəzi rəvayətlərdə deyilir ki, qələm və lövh iki mələkdir. İbrahim Kərəki İmam Cəfər Sadiqdən (ə) belə rəvayət edir:

"İmam Sadiqdən (ə) lövh və qələm barəsində sorğu etdilər. O cavab verdi ki, bunlar iki mələkdir" [56].

Molla Sədra öz əsərlərində qələmi fəal ağıl adlandırmışdır. O, bir yerdə bu məsələni belə izah edir:

"Qələm əqli bir varlıq olmaqla Allah ilə Onun xilqəti arasında vasitədir. Bütün şeylərin surəti qələmdə ağıl halında mövcuddur. Bu da bəsit elmdir, öz genişliyi, şərəfi və üstünlüyü baxımından ilkin Haqdan aşağı dərəcədə dayanır. İlkin Haqq hər baxımdan həqiqi və bəsit (geniş) həqiqətdən ibarətdir. Lakin fəal ağılların sayı çoxdur [57].

Allah-təala bu sayaq qələmlərə işarə edərək belə buyurur:

Hicr surəsi, 21-ci ayə:

*(Yerdə və Göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk. (Onun nə qədər lazım olması isə yalnız Bizə məlumdur).*

Münafiqun surəsi, 7-ci ayə:

*Onlar: "Allahın peyğəmbərləri yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər! – deyən kimsələrdir. Halbuki Göylərin və Yerin xəzinələri Allaha məxsusdur, lakin münafiqlər (bunu) anlamazlar.*

Bütün varlıqların surəti və ideal timsalı Allahın xəzinəsində əks olunub və Allah yalnız müəyyən və lazımi miqdarda onları zahiri aləmdə aşkar edir.

Fəal ağılı ona görə qələm adlandırmışlar ki, onun işi həqiqətləri ürək dəftərində və ya lövhlərdə təsvir etmək və yazmaqdan ibarətdir. İnsan nəfsləri həmin ağıl vasitəsi ilə elmi həqiqətlərə və surətlərə yetişir və həmin ağılın köməyi ilə kamillik tapır. Onun substansiyası potensial haldan fəal əməli işə keçir, məcazi qələm vasitəsilə dəftər və lövhlərdə yazılır. Bu qələmin maddəsi (mürəkkəbi) yazı və kitab halında gerçəkləşir. Ancaq lövhə gəlincə, bu bir nəfsi cövhər və ruhi mələkdir ki, elmləri qələmdən, ilahi kəlamdan öyrənir" [58].

Daha sonra, Molla Sədra qələmi ilahi inayət və qəza təbiri ilə verir [59]. O bu barədə belə yazır:

"Qəza bütün varlıqların vücudundan ibarətdir. Külli həqiqət və əqli surət baxımından əqli aləmin ifadəçisidir. Qəza əqli aləmdə icmal və xülasə halında mövcuddur [60].

## Məhfuz lövh, məhv və isbat lövhü

Qurani-kərimdə iki kitab və ya lövhdən söhbət gedir: biri lövhi-məhfuz (hifz olunan lövh), o birisi isə məhv və isbat lövhü.

Məhfuz lövh çeşidli ifadələrlə verilir: ümmül-kitab (kitabların anası), kitabi-mübin (açıq-aydın kitab), İmamül-mübin (aşkar-aydın başçı), kitabi-həfiz (hifz edən kitab), kitabi-məknun (gizli kitab), kitabi-məsturə (yazılan kitab). Bu bir neçə ad bir həqiqətə işarədir. Quran ayələrinə əsasən, aləmdə nə varsa, öncədən kitaba yazılıb. Bu mənada işlənən bir neçə ayəni nəzərdən keçirməklə fikrimizi təsdiqləyək.

Hud surəsi, 6-cı ayə:

*Yer üzündə yaşayan elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin. Allah onların (ata belindəki, ana bətnindəki və ya dünyadakı) sığınacaqlarını da, əmanət qoyulacaq (ölüb dəfn ediləcək) yerlərini də bilir. (Bunların) hamısı açıq-aşkar kitabdadır (lövhi-məhfuzdadır).*

Səba surəsi, 3-cü ayə:

*Ayələrimizi inkar edənlər: "Qiyamət bizə gəlməyəcəkdir!" – dedilər. (Ya Peyğəmbər! Sən onlara) de: "Qeybi bilən Rəbbimə and olsun ki, qiyamət sizə gələcəkdir. Nə Göylərdə, nə də Yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz. Bundan kiçik, yaxud böyük elə bir şey də yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!"*

Nəml surəsi, 75-ci ayə:

*Göylərdə və Yerdə (heç kəsin bilmədiyi) elə bir gizli şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!*

Qaf surəsi, 4-cü ayə:

*Həqiqətən, Biz Yerin onlardan nəyi əskiltdiyini (onları tədriclə necə çürüdüb məhv etdiyini) bilirik. Dərgahımızda (hər şeyi) hifz edən bir kitab (lövhi-məhfuz) vardır!*

Fatir surəsi, 11-ci ayə:

*Allah sizi (atanız Adəmi) torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra da sizi (kişi və qadın olmaqla) cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun (yaxud başqa birinin) ömrünün qısaldılması da ancaq kitabda (lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.*

Başqa bir ayədə ümumi bir tərzdə bəyan edilir ki, aləmdə mövcud olan hər şey açıq-aşkar kitabda (imamda) yazılıb və əks olunub.

Yasin surəsi, 12-ci ayə:

*Həqiqətən, ölüləri dirildən, onların (dünyada) nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi*

*hesaba alıb lövhi-məhfuzda (yaxud zəmanə imamının yanında) təsbit etmişik.*

Hər şey hifz olunan lövhdə yazılıb. Allah-təala əzəl gündən müəyyən edilən bütün işlərin hökmünü bu lövhdə yazmışdır. Hifz edilən kitabın iki önəmli cəhəti vardır: bu kitabda yazılanlar dəyişməz və sabitdir, ikincisi isə, qiyamətdə oxunan insanın əməl dəftəri də burada yazılıb.

Deyilənlərə aid bir neçə Quran ayəsi gətirməklə fikrimizi təsdiqləyək.

İsra surəsi, 13-14-cü ayələr:

*Biz, hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıq kitab kimi qarşısına qoyarıq.*

*(Və ona belə deyərik): "Oxu kitabını (əməl dəftərini). Bu gün sən özün-özünə haqq-hesab çəkməyə (özün öz əməllərinin şahidi olmağa) kifayətsən!"*

Casiyə surəsi, 28-29-cu ayələr:

*(Ya Peyğəmbər! O gün) hər ümməti diz çökmüş (yaxud bir yerə yığılmış) görəcəksən. Hər ümmət öz əməl dəftərinə tərəf çağırılacaqdır. (Onlara belə deyiləcəkdir:) "Bu gün sizə (dünyada) etdiyiniz əməllərin əvəzi (mükafatı və ya cəzası) veriləcəkdir!*

*Bu bizim kitabımızdır (sizin əməl dəftərinizdir). O sizin əleyhinizə haqqı deyər. Biz sizin etdiyiniz əməlləri (orada mələklərə bir-bir) (yazdırmışıq!)"*

Zumər surəsi, 69-cu ayə:

*Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab (ortaya) qoyulacaq (hərənin əməl dəftəri öz əlinə veriləcək), onlar (bəndələr) arasında ədalətlə hökm olunacaq və onlara haqsızlıq edilməyəcəkdir!*

Bundan əlavə, Quranda başqa bir kitabdan da bəhs edilir ki, həmin kitabın adı məhv və isbat lövhüdür. Bəs bu kitab və ya lövhün Allahın yanında olan açıq-aşkar (mübin) kitabdan fərqi nədir?

Məhv və isbat kitabı dəyişməyə qabildir – yəni burada yazılanlar sonra dəyişə bilər; başqa bir yandan, burada yazılanlar müəyyən səbəb və dəlillərə görə məhv oluna bilər və bütün bunlar Allahın hökmü ilə baş verir. Deməli, Allahın yanında olan əsl kitab dəyişməzdir və burada Tanrının əzəli və pozulmaz əmrləri yazılmışdır. O birisi lövhdə isə Allahın istədiyi şeyi məhv edə biləcəyi məsələlər əks olunur.

Rəd surəsi, 38-39-cu ayələr:

*(Ya Məhəmməd!) Biz səndən qabaq da peyğəmbərlər göndərdik, onlara zövcələr, övladlar verdik. Allahın izni olmadıqca heç bir peyğəmbər heç bir möcüzə gətirə bilməz. Hər dövrün bir kitabı (lövhi-məhfuzda yazılmış hökmü) var. (İlahi kitablardan hər birinin öz nazil olma vaxtı var. Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir).*

*Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar). Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır.*

Bu ayələrə əsasən, məhfuz lövh əsl kitabdır və dəyişməyə qabil deyil, bunun müqabilində isə başqa bir kitab da var: məhv və isbat kitabı və Allah iradə etdiyi hər şeyi məhv edə bilər.

Deməli, bu bölmədə iki lövhdən söhbət getdi: məhfuz (saxlanılan və hifz edilən) və məhv-isbat. İndi də hər iki lövhün təfsiri və şərhini izləməklə onlar barəsində məlumatımızı təkmilləşdirək.

Xülasə şəklində demək olar ki, dünyadakı hadisə və varlıqları iki mərhələ üzrə araşdırmaq mümkündür: **birincisi**, qəti və zəruri mərhələ, ikincisi, qeyri-qəti və şərti mərhələ.

Qəti mərhələ nədir? Bu mərhələdə bir şeyin səbəbləri tam və bütöv şəkildə araşdırılır. Bir məsələnin səbəb və mənşəyi tam aydınlaşarsa, həmin şeyin mahiyyəti

yetərincə araşdırıla bilər. Bir şeyin səbəbi tam aydınlaşarsa, onun mahiyyəti zərurət kimi açıqlanar. Əksinə, əgər bir hadisənin səbəbi yarımçıq və naqis şəkildə araşdırılarsa, o zaman həmin hadisənin baş verməsi şərti və qeyri-zəruri olar – yəni bu iş baş tutmaya bilər. Məsələni sadə bir misal ilə izah edək. Əgər bir xəstə həkimə müraciət edərsə, həkim onun xəstəliyinin səbəbini tam araşdırıb müalicə edərsə, o, ölümdən qurtarar. Ölüm bu xəstə üçün qəti və zəruri olmaz. Həkim xəstəliyin müalicəsi üçün lazım olan dərmandan istifadə etməklə ölümün qarşısını ala bilər. Qeyri-zəruri olan hadisə bir növ məhv-isbat lövhü ilə düz gəlir. Öncə söylədik ki, bu lövhdə yazılan işlər dəyişə bilər. Əgər xəstə özünü müalicə etdirməsə, ölə bilər və bu hadisə isə məhfuz lövh ilə düz gəlir.

Deməli, qəti işlərin və səbəbi tam gerçəkləşən hadisələrin yeri məhfuz lövh və ya ümmül-kitabdır. Şərti işlər və səbəbi naqis olan hadisələrin yeri isə məhv-isbat lövhündədir. Başqa bir ifadə ilə desək, dəyişməz və sabit həqiqətlər mübin kitabda yazılıb, lakin dəyişkən və şərti həqiqətlər məhv-isbat lövhündə yazılıb.

Bəzi ariflər ilkin ağılı məhfuz lövh, külli nəfsi mübin kitab, təbii nəfsi isə məhv-isbat kitabı hesab etmişlər [61].

Buna görə bir sıra müasir tədqiqatçılar mübin imam anlamını aləmin nəfsi və canı bilmişlər.

Bu barədə belə deyilir:

"Mübin imam bütün mövcud aləmin ruhu və canıdır; Siz nə iş görsəniz, Yer onu qəbul edir, nə əməl etsəniz, Yer onu yazıb qeyd edər; Yerin ruhu, Yerin nəfsi mübin kitabın və mübin imamın hökmranlığı altındadır" [62].

Başqa bir yerdə belə deyilir:

Külli aləmin belə bir düzəni vardır: onun bədən, cəsədi vardır, onun eyni zamanda nəfsi vardır. İnsanın bədəni və nəfsi həmin külli aləmin bədən və nəfsindən bir nümunədir. Külli aləmdə və varlıq dünyasında baş verən hadisə,

dəyişmə və çevrilmələr həyat vasitəsilə külli nəfsdən insanın bədən və nəfsinə keçir. Külli aləmdə hökmran olan hadisələr insan nəfsinə də təsir göstərir.

Aləmdə hökmranlıq edən külli nəfsin adı mübin imamdır və ya buna imam da deyilir. Xilqət dünyası və ya yaradılış aləmi isə ülvi (yüksək) və süfli (aşağı) varlıq aləmi ilə birgə olaraq mübin kitab adlanır [63].

Molla Sədra məhv-isbat lövhünü "elmi qədər" adı ilə şərh etmişdir. Onun nəzərincə, şeylərin müfəssəl (geniş) varlığı məhv-isbat lövhündə elmi qədər kimi tanınır. Varlığın xarici aləmdəki təzahürü isə obyektiv (eyni) qədər adlanır. O, fikrini belə açıqlayır:

"Əqli aləm hər sayaq dəyişmə və məhvolma hadisəsindən uzaqdır. Təbiətdə olan hər bir varlıq isə ilahi qəza aləmində və məhfuz lövhdə müəyyən bir surətə malikdir. Bu surət məhv olmaqdan uzaqdır. Varlığın başqa bir idrak surəti də vardır ki, bu da məhv-isbat lövhündə qərar tapır. Varlığın üçüncü surəti maddi xarakter daşıyır və buna "həyula" – maddə deyilir. Bu surət isə dağılmağa və məhv olmağa məhkumdur. Varlığın dəyişən surəti xarici qədər adlanır. Xarici (zahiri) qədər – məhv və isbat lövhü, o birisi isə kövn (yaranma) və fəsad (dağılma) mərhələsidir [64].

# ALTINCI FƏSİL
# VARLIQ ALƏMİNDƏKİ ÖZƏL MƏXLUQLAR

Varlıq aləmindəki dünya düzəni və bu aləmin çeşidli mərtəbələri haqqında bəhs etdik: Göy və Yer aləmi, burada olan varlıqlar, ülvi (yüksək) və süfli (aşağı) aləmə xas olan varlıqlar, Günəş, Ay və ulduzlar, maddi ünsürlər, bərk cisimlər (cəmadat), bitki və heyvanat aləmi və nəhayət varlıq düzənində sonuncu olan insan.

Bunlarla yanaşı, Quranda bir sıra özəl varlıqlara işarə edilir ki, onlar haqqında yığcam məlumat vermək lazım gəlir. Söhbət ruh, mələklər, cin və şeytandan gedir.

## Ruh

Quranda bəhs edilən varlıq nümunələrindən biri ruhdur. Bir sıra Quran ayələrində mələklərlə yanaşı ruhdan da bəhs edilir. Həmin ayələrə diqqət yetirək:

Nəhl surəsi, 2-ci ayə:

*(Allah) mələkləri (Cəbraili) ruh (vəhy) ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: "İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Mənim adımdan onlara) bildirin: "Məndən başqa heç bir Allah yoxdur! Məndən qorxun!"*

Nəbə surəsi, 38-ci ayə:

*Ruhun (Cəbrailin) və mələklərin səf-səf duracağı gün Rəhmanın izn verdiyi kimsələrdən başqa heç kəs danışmayacaq, danışan da doğrunu deyəcəkdir!*

Qədr surəsi, 3-4-cü ayələr:

*Qədr gecəsi (savab cəhətdən) min aydan daha xeyirlidir. (O, ramazan ayının on doqquzuna, iyirmi birinə, iyirmi üçünə, iyirmi beşinə, əksər rəvayətə görə isə iyirmi yeddisinə təsadüf edir).*

*O gecə mələklər və ruh (Cəbrail) Rəbbinin izni ilə (həmin gündən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işdən ötrü Yerə enərlər.*

Məaric surəsi, 4-cü ayə:

*Mələklər və ruh (Cəbrail) Onun dərgahına (dünya ili ilə müqayisədə) müddəti əlli min il olan bir gündə qalxarlar.*

Bu ayələrdən göründüyü kimi, ruh mələklərlə yanaşı Allah tərəfindən nazil olur və Allaha doğru yuxarı qalxırlar. Ruh sanki Allah ilə insan arasında ünsiyyət vasitəsi kimi çıxış edir. Başqa bir yandan, ruh Qədr gecəsi nazil olur. Qurani-kərim də həmin gecə nazil olmuşdur. Ruhun belə bir şərafətli gecədə nazil olması onun əhəmiyyətinə dəlalət edir.

Məsumların (ə) söylədiyi hədislərə görə, ruh mələklərdən böyükdür. Bu baxımdan bəzi təfsirlərdən gətirilən misallar diqqəti cəlb edir:

"Ruh əlbəttə, Cəbraildən böyükdür, Cəbrail də başqa mələklərdən böyükdür. Ruhun mələklərdən böyük olması bir məsələ ilə təsdiqlənir, belə ki, Allah-təala buyurur ki, mələklər ruh ilə yanaşı aşağı enirlər" [65]. Ruhun mələklərlə müqayisədə böyük olması bir sıra mənbələrdə təsdiq edilir və həmin misalları təkrar etməyə lüzum yoxdur [66].

Bəzi hədislərdə deyilir ki, ruh eyni zamanda Allaha ən yaxın məxluq sayılır. İmam Cəfər Sadiqdən (ə) belə bir rəvayət söyləyirlər:

"Əziz və calal sahibi olan Allah ruhül-qüdsi xəlq etdi və o, Allaha ən yaxın məxluqdur" [67].

Ruhun başqa bir özəlliyi də vardır: onun əmr aləminə mənsub olması. Əvvəlki fəsildə Allahın Əmr və xəlq aləminə işarə etmişdik. Ruh öz uca məqamına görə Əmr aləminə aiddir. Qurani-kərimin ayələrində bu məsələ xüsusi vurğulanır. İndi həmin ayələrə diqqət yetirək:

İsra surəsi, 85-ci ayə:

*(Ya Məhəmməd!) Səndən ruh (ruhun mahiyyəti və keyfiyyəti) haqqında soruşarlar. De ki, "Ruh Rəbbimin əmrindəndir. (Allahın əmri ilə yaradılmışdır.) Sizə (bu barədə) yalnız cüzi bir bilik verilmişdir!"*

Mumin surəsi, 15-ci ayə:

*Dərəcələri yüksəldən (mələklərin, peyğəmbərlərin, övliyaların və möminlərin mərtəbələrini ucaldan, Özü hamıdan uca) və Ərşin sahibi olan Allah Öz sözünü-ruhunu (vəhyi) bəndələrindən istədiyinə nazil edir ki, (O, insanları) görüş günü (Yer və Göy əhlinin, ibadət edənlə məbudun, zalımla məzlumun bir-biri ilə görüşəcəyi, ruhların qovuşacağı qiyamət günü) ilə qorxutsun.*

Nəhl surəsi, 2-ci ayə:

*(Allah) mələkləri (Cəbraili) ruh (vəhy) ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: "İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Bizim adımızdan onlara) bildirin: "Məndən başqa heç bir Allah yoxdur! Məndən qorxun!"*

Şura surəsi, 52-ci ayə:

*(Ya Rəsulum!) Əvvəlki peyğəmbərlərə vəhylə nazil etdiyimiz kimi, sənə də beləcə əmrimizdən olan bir vəhy (möminlərə mənəvi inam verən Quran) göndərdik. Sən (bundan əvvəl) kitab nədir, imam nədir, bilməzdin. Lakin Biz onu bəndələrimizdən istədiyimizə haqq yolu göstərmək üçün bir nur etdik. Sən (o nurla insanları) düz yola yönəldirsən (islam dininə dəvət edib Haqqa qovuşdurursan).*

Quran ayələrindən bəlli olur ki, ruhun müəyyən xüsusiyyətləri var və onları belə ümumiləşdirmək mümkündür:

1. Öncə işarə edildiyi kimi, bu məxluq mələklərlə yanaşı nazil olur və bir sıra ilahi əmrlər onunla gerçəkləşir.

2. Ruh Allahın vəhyi üçün vasitədir. Bəzi ayələrdə vəhy Cəbrailə aid edilir, bəzi ayələrdə isə ruhül-qüds və ya ruhül-əminə aid edilir.

Ruhun mələklərlə bağlılığı və onlara edilən vəhy üçün vasitə olması aşağıdakı ayələrdə təsdiqlənir:

Bəqərə surəsi, 97-ci ayə:

*(Ya Məhəmməd!) Cəbrailə düşmən olan şəxsə söylə ki, həqiqətən, o, (Cəbrail) özündən əvvəlkiləri (Tövratı və*

*İncili) təsdiq edən, möminləri doğru yola yönəldən, (onlara) müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır (nazil etmişdir).*

Şüəra surəsi, 192-194-cü ayələr:

*Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!*

*Onu Ruhül-əmin (Cəbrail) endirdi.*

*(Günahkarları Allahın əzabı ilə) qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi);*

Nəhl surəsi, 102-ci ayə:

*(Ya Məhəmməd!) De ki: "Ruhül-qüds (Cəbrail) onu (Quranı) sənin Rəbbindən iman gətirənlərə səbat verməк üçün bir haqq, müsəlmanlar üçün isə bir hidayət və müjdə olaraq nazil etmişdir!"*

3. Peyğəmbərlərin dinə dəvəti, insanları mənfi əməllərdən və dinsizlikdən çəkindirmələri, onlara Allah tərəfindən müjdə verməsi – bütün bunlar Allahın əmri ilə və ruh vasitəsilə baş verir. Bu yöndə nazil olan Quran ayələrinə bir daha diqqət yetirək:

Mumin surəsi, 15-ci ayə:

*Dərəcələri yüksəldən (mələklərin, peyğəmbərlərin, övliyaların və möminlərin mərtəbələrini ucaldan, Özü hamıdan uca) və Ərşin sahibi olan Allah öz sözünü-ruhunu (vəhyi) bəndələrindən istədiyinə nazil edir ki, (O, insanları) görüş günü (Yer və Göy əhlinin, ibadət edənlə məbudun, zalımla məzlumun bir-biri ilə görüşəcəyi, ruhların qovuşacağı qiyamət günü) ilə qorxutsun.*

Nəhl surəsi, 2-ci ayə:

*(Allah) mələkləri (Cəbraili) ruh (vəhy) ilə bəndələrindən istədiyinə göndərib belə buyurar: "İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Bizim adımızdan onlara) bildirin: "Məndən başqa heç bir Allah yoxdur! Məndən qorxun!"*

Şura surəsi, 52-ci ayə:

*(Ya Rəsulum!) Əvvəlki peyğəmbərlərə vəhylə nazil etdiyimiz kimi, sənə də beləcə əmrimizdən olan bir vəhy*

*(möminlərə mənəvi inam verən Quran) göndərdik. Sən (bundan əvvəl) kitab nədir, imam nədir, bilməzdin. Lakin Biz onu bəndələrimizdən istədiyimizə haqq yolu göstərmək üçün bir nur etdik. Sən (o nurla insanları) düz yola yönəldirsən (islam dininə dəvət edib Haqqa qovuşdurursan).*

Qeyd edək ki, öncə bu ayələr başqa bir münasibətlə misal olaraq gətirilmişdir və eyni ayələrin müxtəlif münasibətə uyğun misal kimi gətirilməsi təbii haldır və Quran ayələri çevik və əhatəli məzmunları bildirir.

4. İnsanların imana gəlməsi, onların qəlbində iman nurunun şölə saçması da ruh vasitəsilə baş verir. Ruh bəşər ilə Haqq arasında ünsiyyət yoludur.

Mücadələ surəsi, 22-ci ayə:

*(Ya Peyğəmbər!) Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla – öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə – dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara güc vermişdir (iman, hidayət nuru əta etmişdir). Allah onları (ağacların) altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər (Allahın dininə kömək edən kimsələrdir). Bilin ki, Allahın firqəsi – məhz onlar, nicat tapıb əbədi səadətə qovuşanlardır.*

Bu ayəyə görə Allah ruh vasitəsilə insanların qəlbinə iman nuru yazır və möminlər Allahın firqəsi adlanır. Ruh vasitəsilə imana gəlib Allaha bağlı olanlar nicat tapanlar sırasına daxildirlər.

5. Ruh İsa (ə) peyğəmbərin vücudu ilə ünsiyyət tapan bir anlamdır və onun Allahın ruhu və kəlməsi kimi dəyərləndirilməsi heç də müşriklərin anladığı dar mənada başa düşülə bilməz. Allah ruh vasitəsilə İsa (ə) peyğəmbərə risalət vəzifəsi vermiş və onu ucaltmışdır.

Nisa surəsi, 171-ci ayə:

*Ey kitab əhli! Öz dinimizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və onun tərəfindən olan bir ruhdur. Allaha və peyğəmbərlərinə iman gətirin. (Allah barəsində) "üç" deməyin. (Belə sözlərə) son qoyun. Həqiqətən, Allah tək bir Tanrıdır. Övladı olmaqdan (bu bəşəri xüsusiyyətdən) kənardır. Göylərdə və Yerdə nə varsa, hamısı Onundur. Allahın (sizə) vəkil olması bəs edər!*

Allaha şərik qoşmağı və üçlük ideyasını rədd edən Quran növbəti ayədə belə buyurur:

Nisa surəsi, 172-ci ayə:

*İsa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə ar bilənlərin və lovğalıq edənlərin hamısını Öz hüzuruna toplayacaqdır!*

6. Ruh Allah tərəfindən insanların vücuduna üfürülən bir həqiqətdir. Bəşərin xilqət aləmindəki dəyər və üstünlüyü də həmin ruhla bağlı izah edilir.

Səcdə surəsi, 6-9-cu ayələr:

*O, qeybi də, aşkarı da bilәndir, yenilməz qüvvət və mərhəmət sahibidir!*

*O yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı.*

*Sonra onun nəslini nütfədən – bir qətrə zəif dəyərsiz sudan əmələ gətirdi.*

*Sonra onu düzəldib insan şəklinə saldı və ona Öz ruhundan (Özünün yaratdığı ruhdan) üfürdü (həyat verdi). O sizə göz, qulaq və ürək verdi. Siz (bu nemətlərə) az şükür edirsiniz!*

Bu ayələrə görə palçıqdan və bir damladan yaranan insanı biçimə salan Allah ona ruh verməklə bu məxluqu şərəfləndirmişdir.

Hicr surəsi, 28-30-cu ayələr:

*(Ya Məhəmməd!) Xatırla ki, bir zaman Rəbbin mələklərə belə demişdi: "Mən quru və qoxumuş (dəyişib başqa şəklə düşmüş) qara palçıqdan insan yaradacağam!*

*Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin"*

*Bundan sonra mələklər ona (təzim məqsədilə) səcdə etdilər.*

Qara palçıqdan yaranan insana Allah tərəfindən ruh verildiyinə görə o, mələklərin təziminə layiq olur. Həmin fikir bir daha başqa ayələrlə təsdiq edilir.

Sad surəsi, 71-73-cü ayələr:

*(Ya Peyğəmbər!) Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan (Adəmi) yaradacağam:*

*Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan (Özümün yaratdığım ruhdan) üfürən kimi ona (hörmət üçün) səcdə edin".*

*Buna görə də mələklərin hamısı birlikdə (Adəmə) səcdə etdi:*

Bəzi rəvayətlərdə də ruhun mərtəbələrinə işarə edilir və bu baxımdan İmam Cəfər Sadiqdən (ə) gətirilən bir rəvayət maraqlıdır:

"Nəbi və vəsi dərəcəsi olanlarda beş ruh vardır: bədən ruhu, ruhül-qüds, qüvvət (güc) ruhu, şəhvət ruhu və iman ruhu. Möminlərdə dörd ruh vardır və onlarda təkcə ruhül-qüds yoxdur: bədən ruhu, qüvvət ruhu, şəhvət ruhu və iman ruhu. Kafirlərdə isə cəmi üç ruh vardır: bədən ruhu, qüvvət ruhu və şəhvət ruhu".

İmam Sadiq (ə) sonra öz sözünü belə davam etdirmişdir:

"İnsanın bədəni böyük (kəbirə) günaha batmayıbsa, onun yanında iman ruhu vardır, əgər böyük günah işlədərsə, həmin iman ruhu onu tərk edəcəkdir. Əgər bir

kimsədə ruhül-qüds sakin olarsa, o şəxs böyük günah işlətməz" [68].

Ayə və hədislərdən bəlli olur ki, ruh vahid bir həqiqətdən ibarətdir və onun müxtəlif mərtəbə və dərəcələri vardır. Bunlar arasında ruhun güclü və zəif dərəcələri diqqəti cəlb edir. Mələklərdən uca olan mərtəbə ən yüksək mərtəbə sayılır və bundan sonra ruhül-qüds gəlir. Sonra iman ruhu və daha sonra isə başqa aşağı mərtəbələr gəlir. Ruhun ən yüksək mərtəbəsi filosoflar arasında "Əzəm ruh" (əzəmətli ruh), "ilkin ağıl" və ya "geniş ruh" adlanır.

## Mələklər

Quranda bəhs edilən özəl varlıqlardan biri mələklərdir. Qurani-kərim təqribən yüz dəfə bu məxluqun adını çəkir və hər bir müsəlmanı mələklərin varlığına inanmağa dəvət etmişdir.

Bəqərə surəsi, 285-ci ayə:

*Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə (Qurana) inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və bütün peyğəmbərlərinə iman gətirərək dedilər: "Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!"*

Bu ayədə Allaha iman, Onun peyğəmbərlərinə, nazil etdiyi kitablara və mələklərə iman ilə yanaşı qoyulur. Hər bir mömin insan Allaha, Onun peyğəmbərlərinə və nazil etdiyi kitaba inandığı kimi, mələklərə də iman bəsləməlidir. Deməli, mələklərə iman islam etiqadının şərtlərindəndir.

Başqa iki ayəyə müraciət edək.

Bəqərə surəsi, 97-98-ci ayələr:

*(Ya Məhəmməd!) Cəbrailə düşmən olan şəxsə söylə ki, həqiqətən o, (Cəbrail) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq edən, möminləri doğru yola yönəldən, (onlara) mücdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır (nazil etmişdir).*

*Hər kim Allaha, Onun mələklərinə və peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz, Allah da (belə) kafirlərə düşməndir.*

Bu iki ayədə mələklərə iman Allaha və peyğəmbərə (s) imanla yanaşı qoyulmuş və hətta mələkləri inkar etmək küfr nişanəsi sayılmışdır.

Daha bir ayəyə diqqət yetirək:

Bəqərə surəsi, 177-ci ayə:

*Yaxşı əməl heç də (ibadət vaxtı) üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanan, Allaha məhəbbəti yolunda (və ya mal-dövləti çox sevməsinə baxmayaraq) malını (kasıb) qohum-əqrabaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirlərə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbr edənlərdir. (İmanlarında, sözlərində və əməllərində) doğru olanlar onlardır. Mütəqqi olanlar da onlardır!*

Bu ayə iman məsələsini daha geniş müstəvidə bəyan edir. Mələklərə inam isə Allaha, peyğəmbərlərə, səmavi kitablara və qiyamətə inamla yanaşı tutulur və həmin məsələ iman və etiqadın nişanələrindən sayılır. Bunların hamısı mələklərin Allah tərəfindən nazil olan özəl məxluq olduğunu göstərir.

İslam rəvayətlərindən bəlli olur ki, mələklərin sayı olduqca çoxdur. İmam Cəfər Sadiqdən (ə) soruşurlar ki,

adamların sayı çoxdur, yoxsa mələklərin? O, bu sualın cavabında belə buyurur:

"And olsun canımızın ixtiyar sahibinə ki, Göylərdə olan mələklərin sayı Yerdəki torpaq zərrələrindən çoxdur. Göylərin hər yerində Allaha sitayiş edən, Onu hər şeydən pak və uca tutan mələklərin izi vardır. Yerdə nə varsa, hamısının yanına mələk göndərilir və bu mələklər onların əməlləri barədə Allaha məlumat verir. Allah bütün əməllərdən xəbərdardır" [69].

## Mələklərin xüsusiyyətləri

Qurani-kərim mələklərə aid bir sıra xüsusiyyətlər və sifətlər göstərmişdir. Burada həmin xüsusiyətləri ümumi şəkildə təhlil etməklə, mələkləri öz bəşəri təsəvvürümüzlə daha yaxşı tanımağa çalışaq.

1. Allahın əmrinə tabe olmaq.

Mələklərə xas olan səciyyələrdən biri onların Allahın fərmanlarına müti və tabe olmasıdır. Mələklər heç vaxt Allahın əmrindən boyun qaçırmazlar. Bu yöndə nazil olan bir neçə ayəyə diqqət yetirək:

Təhrim surəsi, 6-cı ayə:

*Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurulduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir (zəbanilərdir).*

Ənbiya surəsi, 27-28-ci ayələr:

*Mələklər Allahdan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər.*

*Allah onların nə etdiklərini və nə edəcəklərini bilir. Onlar yalnız Allahın razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar.*

Nəhl surəsi, 49-50-ci ayələr:

*Göylərdə və Yerdə olan bütün canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər!*

*Onlar öz fövqlərində olan Allahdan qorxar və özlərinə buyurulanları edərlər!*

Bu ayələr göstərir ki, mələklər günah və xətadan uzaq və pakdır, onlar ismətli və təmizdir.

2. Mələklər Allahın xalis bəndələridir.

Mələklər bütün məxluq kimi Allahın birliyinə iman gətirir, həmişə Allaha səcdə və təsbih edirlər.

Ali-İmran surəsi, 18-ci ayə:

*Allah Özündən başqa heç bir Tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqq-ədalətə boyun qoyaraq (Haqqa tapınaraq) O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər.*

Nəhl surəsi, 49-cu ayə:

*Göylərdə və Yerdə olan bütün canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər!*

Ənbiya surəsi, 28-ci ayə:

*Allah onların nə etdiklərini və nə edəcəklərini bilir. Onlar yalnız Allahın razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar.*

Mələklər Allahdan qorxar, Onun qarşısında təslim olarlar. Ayələr mələklərin Allaha təslim olan bəndəlik sifətini təsdiq edir.

Mələklər Allaha ibadəti ilahi eşq səviyyəsinə yüksəldərək heç vaxt ibadətdən yorulmazlar. İbadət zamanı onlara heç bir süstlük və zəiflik yol tapmaz.

Ənbiya surəsi, 19-20-ci ayələr:

*Göylərdə və Yerdə olan bütün məxluqat Allahındır (Tanrının qüdrət əsəridir). Onun dərgahında olanlar (rütbə və şərəf etibarilə mənən Allaha yaxın mələklər) Ona ibadət etməyə təkəbbür göstərməz və (bu ibadətdən) yorulmaq bilməzlər.*

*Onlar gecə-gündüz, yorulub-usanmadan (Rəbbini) təqdis edib şəninə tәriflәr deyərlər.*

## Mələklərin mərtəbələri

Mələklər varlıq baxımından müxtəlif dərəcə və mərtəbələrə malikdir. Hər bir mələk isə öz dərəcə və mərtəbəsinə uyğun məqama malik olur.

Öncə bir neçə Quran ayəsini nəzərdən keçirək:

Saffat surəsi, 164-cü ayə:

*(Cəbrail Peyğəmbər əleyhissəlama belə dedi:) "Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri və məqamı olmasın.*

Fatir surəsi, 1-ci ayə:

*Göyləri və Yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (peyğəmbərlərə) elçi edən Allaha həmd olsun! Allah məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!*

Birinci ayədə söhbət mələklərin məqam və mərtəbəsindən gedir, sonrakı ayədə isə mələklərin qanadlarının sayı diqqətə çatdırılır. Mələklərin qanada malik olması onların varlıq mərtəbəsinə dəlalət edir.

İkiqanadlı mələklər, üç və ya dördqanadlı mələklərə nisbətən aşağı mərtəbəyə malik olur.

Quşlar öz işlərini və hərəkətlərini qanadları vasitəsilə görürlər – yəni bir yerdən başqa yerə gedir, havada uçur və başqa hərəkətlər edirlər. Qanad isə qüdrət nişanəsidir. Quran ayəsində mələklərin qanadı – onların qüdrət mərtəbəsidir. Qanadlar onlara daha sürətli və daha güclü hərəkət etməyə kömək edir.

Başqa bir ayədə mələklərin Allaha yaxınlıq mərtəbəsinə işarə edilir:

Nisa surəsi, 172-ci ayə:

*İsa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə*

*ar bilənlərin və lovğalıq edənlərin hamısını Öz hüzuruna toplayacaqdır!*

Bu ayədə mələklərin Allaha yaxınlıq baxımından mərtəbələri yada salınır. Onlardan bəziləri Allaha daha yaxın olurlar. Növbəti bir neçə ayədə isə Allah mələkləri Cəbrailə müti bilir, deməli, mələklər məqam və mərtəbə baxımından fərqlənirlər.

Təkvir surəsi, 19-21-ci ayələr:

*Bu Quran (Allah dərgahında) çox möhtərəm olan bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır.*

*Elə bir elçi ki (mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) etibarlı müvəkkildir.*

Bu ayələrə görə Qurani-kərim Allahın dərgahında çox ehtiramlı olan Cəbrail vasitəsilə vəhy olunub. Bu elçi Ərşin sahibi yanında çox izzətlidir, mələklər ona mütidir və o, Allahın vəhyinə əmin olandır.

İslam mütəfəkkirləri mələklər barədə müxtəlif təsnifat vermişlər. Əllamə Təbatəbai üçpilləli bir təsnifat vermişdir:

1. Kərubiyyin və ya aliyyin dəstəsinə aid mələklər.

Bu dəstəyə aid olan mələklər Haqqın substansiyasına vurğun olar, Onun calal və camal sifətlərinin seyrinə qərq olarlar. Onlar nə özlərinə, nə də başqalarına diqqət yetirməz, yalnız Allahı anarlar.

İmam Cəfər Sadiq (ə) bu mələklər barəsində belə buyurur:

"Kərubiyyin dəstəsinə aid mələklər Allahın yaratdığı ilkin varlıqlardandır. Onlar Ərşin arxasında yerləşərlər. Bu mələklərdən bircəsinin işığı Yer üzərindəki varlıq aləmi arasında paylanarsa, onların hamısına bəs edər".

İmam Sadiq (ə) sonra belə davam edir:

"Musa (ə) öz istədiyini Allahdan xahiş etdikdə, Allah bu mələklərdən birinə əmr etdi ki, təcəlli etsin. Həmin mələk Tur dağına təcəlli etdi və dağ parçalandı".

Bu rəvayət Quran ayəsində Musanın (ə) Tur dağında Allaha müraciətini və təcəlli məqamını izah edir [70].

Əraf surəsi, 143-cü ayə:

*Musaya vəd etdiyimiz vaxt gəlib çatanda Rəbbi onunla (arada heç bir vasitə olmadan) danışdı. Musa: "Ey Rəbbim! Özünü (camalını) mənə göstər Sənə baxım!" – dedi. Allah: "Sən məni əsla görə bilməzsən. Lakin (bu) dağa bax. Əgər o yerində dura bilsə, sən də məni görə bilərsən", – deyə buyurdu. Rəbbi dağa təcəlli etdikdə (Allahın nuru dağa saçıldıqda) onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə: "Sən pak və müqəddəssən! (Bütün eyb və nöqsanlardan uzaqsan!) Sənə (bu işimdən ötrü) tövbə etdim. Mən, (İsrail oğullarından Səni görməyin mümkün olmadığına) iman gətirənlərin birincisiyəm!" – dedi.*

Başqa rəvayətdə həmin mələklər haqqında belə deyilir:

"Aliyyin dəstəsindən olan mələklər Allahdan savayı başqa şeylərə diqqət edərlər. Onlar Adəmə səcdə etməyə göndərilməmişlər. Onlar Allahın

Adəmi və dünyanı yaratdığını bilməzlər" [71].

2. İbadət edən və pərəstişkar mələklər.

"Nəhcül-bəlağə"də həmin mələklər barəsində belə deyilir:

"Sonra üst Göylərin arasını açaraq oranı müxtəlif mələklərlə doldurdu. Onlardan bir dəstəsi səcdə edərlər, onlar rüku halında deyil, başqa bir dəstə isə rüku edərlər və ayaq üstündə dayana bilməzlər. Başqa bir dəstə dayanmış halda olar və sırada nizamla düzlənərlər. Bir dəstə yorulmadan və xoş ruhiyyə ilə Allaha dua və təsbih edərlər. Onlar nə ayıq olar, nə də yuxu yatarlar; bədənləri heç vaxt süstləşməz, ağılları isə heç nəyi unutmaz" [72].

3. İşgüzar mələklər.

Bu mələklər aləmin tədbiri ilə məşğul olarlar. Onlar Allahın əmrlərini icra edərlər. Öncə bəhs etdiyimiz Ərş və Kürsünü daşıyan mələklər bu dəstəyə aiddir. Mələklər Allahın vəhyini çatdırar, xilqət aləmindəki tədbirləri həyata keçirərlər [73].

Mələklərin işləri və fəaliyyət çevrəsi genişdir. Onlar Allahın əmrini icra edən, vəhyini çatdıran elçi (rəsul) kimi tanınır.

Bu yığcam bölgüdə mələklərin bəzi dəstələri ilə ümumi tanışlıq verilir. Onların işlərini araşdırmaqla bu sahədəki məlumatlarımızı artıra bilərik.

## Mələklərin işləri

Qurani-kərim mələklər üçün öz dərəcə və işinə görə müəyyən vəzifələr irəli sürür və onlar xilqət aləmində öz tapşırıqlarını yerinə yetirirlər. Bu məsələnin araşdırılması mələklərin simasını bizə daha yaxından tanıtdıra bilər.

## Mələklər ilahi məmurlar kimi

Qurani-kərim mələkləri ilahi elçilər kimi tanıyır və onlar müxtəlif işləri yerinə yetirir və öz vəzifələrinin icrasında heç vaxt uğursuzluğa düçar olmurlar.

Fatir surəsi, 1-ci ayə:

*Göyləri və Yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri (peyğəmbərlərə) elçi edən Allaha həmd olsun! Allah məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!*

Həcc surəsi, 75-76-cı ayələr:

*Allah mələklərdən də peyğəmbərlər seçər, insanlardan da. Həqiqətən, Allah (hər şeyi) eşidən və görəndir!*

*Allah onların nə etdiklərini də, nə edəcəklərini də bilir. Bütün işlər (nəticə etibarilə axirətdə) Allaha qayıdır! (Qiyamət günü bütün məxluqat öz əməlləri ilə birlikdə Allahın hüzurunda duracaqdır).*

## Mələklər və varlıq aləmindəki işlərin tədbiri

Mələklər aləmdəki işlərə tədbir görəndir – yəni onlar ilahi Ərşdən Allahın verdiyi əmrləri yerinə yetirirlər.

Naziat surəsi, 1-5-ci ayələr:

*And olsun (kafirlərin canını) zorla alanlara*

*And olsun (möminlərin canını) rahatlıqla alanlara;*

*And olsun sürətlə üzənlərə;*

*And olsun (bir-birini) ötdükcə ötənlərə;*

*And olsun işə əncam çəkənlərə (Allahın əmri ilə dünyanın işlərini idarə edən mələklərə) ki, qiyamət haqdır və siz qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracaqsınız!*

Yuxarıdakı ayələr mələklərin varlıq aləmindəki işlərini bəyan edir. Onlar ilahi əmrləri yerinə yetirməzdən öncə bir neçə mərhələ keçmiş olurlar:

1. Allahın əmri yetişən kimi sürət və ciddiyyətlə hərəkətə keçirlər.
2. Dayandıqları yerdən hədəfə doğru çıxırlar.
3. Öz yerindən çıxdıqdan sonra əmri yerinə yetirməyə yollanırlar.
4. hədəfi yerinə yetirmək üçün başqa mələklərdən qabağa düşürlər.
5. Nəhayət, varlıq aləmindəki işlərin tədbirinə girişirlər.

Mələklərin işi ilə bağlı daha iki ayəni nəzərdən keçirək.

Zariyat surəsi, 4-cü ayə:

*Və ruzi bölən (hərəsi bir işə müvəkkil olan) mələklərə and olsun ki,*

Mumin surəsi, 7-ci ayə:

*Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir. Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: "Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!*

Bu ayələrə görə mələklər ilahi Ərşin ətrafında yer tutar və oradan verilən ilahi əmrləri icra etməyə hazır olarlar.

### ***Peyğəmbərlərə vəhyin nazil olması***

Mələklərin vəzifələrindən biri peyğəmbərlərə vəhy çatdırmaqdan ibarətdir – yəni onlar Allahdan gələn vəhyi peyğəmbərlərin qəlbinə nazil edərlər. Bu onların ən önəmli işlərindən biridir.

Saffat surəsi, 1-3-cü ayələr:

*And olsun (Rəbbinə ibadət üçün səmada) cərgə-cərgə duran (mələklərə);*

*(Buludları) qovduqca qovanlara (yaxud şeytanların pis əməllərinə mane olanlara, insanlar üçün günah işlər görməyi qadağan edənlərə);*

*Və Quran oxuyanlara*

Bu ayələrdə üç dəstə mələkdən bəhs edilir: bir dəstə vəhy yolunda cərgə-cərgə düzlənmişdir. Başqa bir dəstə şeytanların vəhyə maneçilik törətməsinin qarşısını alır; üçüncü dəstə isə vəhyi (zikri) peyğəmbərə (s) oxuyur. Bu üç dəstə mələkləri Cəbrailin yardımçıları adlandırmaq olar. Başqa ayələrdə isə vəhy birbaşa Cəbrail vasitəsilə nazil olur:

Nəhl surəsi, 102-ci ayə:

*(Ya Məhəmməd!) De ki, "Ruhül-qüds (Cəbrail) onu*

*(Quranı) sənin Rəbbindən iman gətirənlərə səbat vermək üçün bir haqq, müsəlmanlar üçün isə bir hidayət və müjdə olaraq nazil etmişdir!"*

Şüəra surəsi, 192-194-cü ayələr:

*Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!*

*Onu Ruhül-əmin (Cəbrail) endirdi.*

*(Günahkarları Allahın əzabı ilə) qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi);*

Bəqərə surəsi, 97-98-ci ayələr:

*(Ya Məhəmməd!) Cəbrailə düşmən olan şəxsə söylə ki, həqiqətən o, (Cəbrail) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq edən, möminləri doğru yola yönəldən, (onlara) müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır (nazil etmişdir).*

*Hər kim Allaha, Onun mələklərinə və peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz, Allah da (belə) kafirlərə düşməndir.*

Öncə söylədik ki, Cəbrail ilahi vəhyi peyğəmbərin (s) qəlbinə nazil etmək üçün yardımçılara malikdir. Bu məsələ başqa bir ayədə təsdiq edilir. Həmin ayədə Quranın böyük və kəramətli səfirlər vasitəsilə nazil olmasına işarə edilir.

Əbəsə surəsi, 13-16-cı ayələr:

*Bu Quran (Allah dərgahında) çox möhtərəm, mötəbər səhifələrdə –*

*Qədir-qiyməti yüksək, şanı uca, tərtəmiz səhifələrdir (şeytan onlara toxuna bilməz).*

*O, (Allahla peyğəmbərlər arasında olan) elçi mələklərin əlləri ilə (lövhi-məhfuzdan) köçürülür (yaxud o, elçi mələklərə etibar edilmişdir).*

*O mələklər ki (Allah yanında) çox möhtərəm və (Allaha) çox mütidirlər –*

Dediyimiz kimi, vəhy mələklərinin başında Cəbrail dayanır. Qurani-kərim onu izzət və ikram ilə yad edir, çünki əsas vəhy mələyi olaraq Cəbrailin məqam və dərəcəsi çox ucadır. Təsadüfi deyildir ki, Cəbrailin sifətləri Qurani-kərimdə qeyd edilir və bu baxımdan aşağıdakı ayələr diqqəti cəlb edir:

Təkvir surəsi, 19-21-ci ayələr:

*Bu Quran (Allah dərgahında) çox möhtərəm olan bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır.*

*Elə bir elçi ki çox qüvvətlidir, ərşin sahibi (Allah) yanında çox hörmətli, izzətlidir.*

*Elə bir elçi ki (mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) etibarlı müvəkkildir.*

Bu ayələrdə Cəbrailin 6 xüsusiyyətinə işarə edilir:

Əvvələn, bu mələk rəsul-elçi adlanır və Allahın vəhy fərmanını peyğəmbərə nazil edir.

İkincisi, Quran onu kərim adı ilə yad edir və bu isə göstərir ki, Cəbrail Allahın yanında ehtiram və kərəm sahibi kimi dəyərləndirilir.

Üçüncüsü, o, qüvvət və qüdrət sahibidir.

Dördüncüsü, bu mələk ərşin sahibi olan Allahın yanında məqam və rütbəyə malikdir.

Beşincisi, Cəbrail əmin adlanır – yəni o, vəhyin çatdırılmasında ilahi əmanətə xəyanət etməz, mötəbərlik dərəcəsinə malikdir.

Altıncısı isə, o mələklər arasında itaət edilləndir.

## Peyğəmbərlərin xətalardan qorunması

Mələklərin başqa bir vəzifəsi peyğəmbərləri xətadan qorumaqdır. Onlar peyğəmbərləri həm vəhy alarkən, həm də onlara nazil olan vəhyi təbliğ edərkən xətadan qoruyurlar. Bu da mələklərin özəl vəzifəsidir. Bu barədə nazil olan ayələrə diqqət yetirək:

Cinn surəsi, 26-28-ci ayələr:

*Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz;*

*Bəyənib seçdiyi peyğəmbərdən başqa. (Qeybi nə bir mələk, nə də bir peyğəmbər bilər. Onun açarları ancaq Allahın əlindədir. Lakin Allah istədiyi peyğəmbərə bir möcüzə olaraq vəhy yolu ilə Qeybdən bəzi xəbərlər bildirər). Allah onların önündə və arxasında (mələklərdən ibarət) gözətçilər qoyar ki,*

*Peyğəmbərlərinin öz Rəbbinin göndərdiklərini (nə cür) təbliğ etdiyini bilsin (bəlli etsin). Allah onlarda olanların hamısını (peyğəmbərlərin əhvalını və bütün əməllərini Öz elmi ilə) ehtiva etmişdir. O, hər şeyin sayını bilir!*

## İnsanları qorumaq

Mələklərin başqa bir vəzifə və işi insanları qorumaqdan ibarətdir. Onlar Allahın əmri ilə ilahi hökm yetişənə qədər hadisələrdən törənən xətər və təhlükədən qoruyur.

Rəd surəsi, 11-ci ayə:

*İnsan üçün onu öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar. Hər hansı bir tayfa öz tövrünü dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Allahdan başqa onun heç bir hamisi də olmaz.*

Ənam surəsi, 61-ci ayə:

*Allah Öz bəndələri üzərində hakimi-mütləqdir. O sizə (yaxşı və pis əməllərinizi yazan, sizi Şeytandan qoruyan) gözətçi mələklər göndərir. Nəhayət, birinizin əcəli gəlib çatdıqda onun canını (göndərdiyimiz) mələklər alar. Onlar (öz vəzifələrində) heç bir əyər-əskikliyə yol verməzlər!*

## İnsanların əməllərini yazmaq

Quran baxımından insana müvəkkil olan mələklər vardır və onlar insanın etdikləri əməlləri yazırlar. Mələklər insanların pis və yaxşı əməllərini onların əməl dəftərinə qeyd edərlər. İlahi ədalətin qurulduğu haqq-hesab günü insanlar öz əməl dəftərində yazılanlara uyğun ya cəzalanar, ya da mükafat alarlar. Bu mənada çoxlu ayələr nazil olmuşdur və onlardan bəzilərini yada salmaqla fikrimizi təsdiqləyək.

İnfitar surəsi, 10-14-cü ayələr:

*Sizin üstünüzə gözətçi mələklər –*

*(Əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır.*

*Onlar sizin nə etdiklərinizi bilir.*

*Həqiqətən, yaxşı əməl və itaət sahibləri (möminlər) Cənnətdə qərar tutacaqlar.*

*Pis əməl sahibləri (kafirlər) isə Cəhənnəmdə olacaqlar.*

Yunis surəsi, 21-ci ayə:

*İnsanların başına gələn bir müsibətdən sonra onlara bir asudəlik (mərhəmət) versək, (ayələrimiz barəsində) dərhal hiylə qurmağa girişərlər. De ki: "Allah daha tədbirlidir. Şübhəsiz ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri (əməl dəftərinizə) yazırlar!"*

Qaf surəsi, 17-18-ci ayələr:

*Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) yazan (qəbul edib qeydə alan) iki mələk oturmuşdur!*

*Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!*

Zuxruf surəsi, 80-ci ayə:

*Yoxsa onlar elə güman edirlər ki, Biz onların pıçıltılarını və xəlvəti danışıqlarını eşitmirik?! Xeyr, yanlarında olan elçilərimiz (onların bütün aşkar və gizli söhbətlərini) yazırlar!*

## İnsanların ruhunun (canının) alınması

Mələklər eyni zamanda insanların canını (ruhunu) almaq vəzifəsi daşıyırlar. Elə mələklər vardır ki, onların işi yalnız bundan ibarətdir. Həmin mələklərin başında Əzrail və ya Məlekül-mövt dayanır. Əzrail bu işi öz yardımçılarının vasitəsilə həyata keçirir. Bu mənada nazil olan ayələri nəzərdən keçirək:

Səcdə surəsi, 11-ci ayə:

*(Ya Məhəmməd!) De ki: "Sizə müvəkkil olan ölüm mələyi (Əzrail) canınızı alacaqdır. Sonra da (qiyamət günü) Rəbbinizin hüzuruna qaytarılacaqsınız!"*

Ənam surəsi, 93-cü ayə:

*Allaha iftira yaxan, özünə heç bir vəhy olunmadığı halda: "Mənə də vəhy olunmuşdur, mən də Allahın nazil etdiyi (Quran) kimi bir kitab endirəcəyəm", – deyən şəxsdən daha zalim kim ola bilər? Kaş sən zalimləri ölüm əzabı içində çabalayan, mələklərin də (bu zaman) əllərini*

*uzadıb: "Çıxarın canlarınızı! Siz bu gün Allaha qarşı nahaq sözlər danışdığınıza və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!" – deyəndə görəydin!*

Nəhl surəsi, 28-ci ayə:

*Mələklər (küfr etməklə, Allaha şərik qoşmaqla) özlərinə zülm edənlərin canlarını aldıqda onlar (ölüm qorxusundan Allahın əmrinə) təslim olub: "Biz heç bir pislik etmirdik!" – deyəcək, mələklər də onlara belə cavab verəcəklər: "Xeyr, (elə deyildir,) Allah sizin nələr etdiyinizi çox yaxşı bilir!"*

Nəhl surəsi, 32-ci ayə:

*O kəslər ki mələklər onların canlarını pak olduqları halda alıb: "Sizə salam olsun! Etdiyiniz (gözəl) əməllərə görə Cənnətə daxil olun!" – deyərlər.*

## Övliya və peyğəmbərlərə müjdə yetirmək

Mələklər peyğəmbər və övliyalara müjdə yetirir, onları bəzi işlərdən agah edir. Qurani-kərimdə deyilir ki, mələklər Zəkəriyyə peyğəmbəri (ə) Yəhyanın dünyaya gəlməsi barədə xəbərdar edirlər.

Ali-İmran surəsi, 39-cu ayə:

*Zəkəriyyə mehrabda (ibadətgahda) ayaq üstə durub namaz qılarkən mələklər ona müraciət edib dedilər: "Allah sənə Özü tərəfindən gələn kəlməni (İsanı) təsdiq edən, (tayfasının) ağası, nəfsinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın dünyaya gələcəyi xəbərini mücdə verir".*

Eyni zamanda, mələklər İshaqın dünyaya gəlməsini və daha sonra isə Yəqubun doğulmasını Həzrəti-İbrahimə (ə) mücdə verirlər.

Hud surəsi, 69-cu ayə:

*Həqiqətən, elçilərimiz (mələklər) İbrahimin yanına mücdə (İshaqın anadan olacağı xəbəri) ilə gəlib: "Salam!" – dedilər. İbrahim də: "Salam!" – deyə cavab verdi və dərhal (gedib onlara) qızarmış bir buzov gətirdi.*

Hud surəsi, 71-ci ayə:

*İbrahimin arvadı (Sara pərdə arxasında) durmuşdu (və ya qonaqlara qulluq edirdi). O (bu sözləri eşidib Lut tayfasının başına gələcək müsibətdən qafil olduğuna sevinərək və ya qoca yaşında oğlu olacağına təəccüblənərək) güldü. Bundan sonra Biz onu İshaqla, İshaqın da ardınca Yəqubla (İshaqın, ondan sonra Yəqubun dünyaya gələcəyi ilə) müjdələdik.*

Qurani-kərimdə İsanın (ə) dünyaya gəlməsi də mücdə olaraq mələklər

tərəfindən Məryəmə xəbər verilir.

Ali-İmran surəsi, 45-ci ayə:

*Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə mücdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir ki, dünyada və axirətdə şanı uca (şərəfli) və Allaha yaxın olanlardandır.*

## Möminləri gücləndirmək və etiqadı möhkəmləndirmək

Mələklərin başqa bir önəmli işi möminlərin ürəklərini möhkəmləndirmək, onları öz etiqadında daha səbatlı etmək və onlara ilahi kəramət barədə ümid verməkdir. Allah möminləri düz yolda təmkinli və sabit saxlasa, kimsə onları haqqın yolundan sapındıra bilməz. Allah mələkləri möminlər üçün nazil edir və həmin mələklər onları qorxu və hüzndən qoruyur və behişt mücdəsi ilə qəlblərini sevindirir.

Fussilət surəsi, 30-cu ayə:

*Şübhəsiz ki: "Rəbbimiz Allahdır!" – deyən, sonra da (sözündə) düz olan kəslərə (ölüm ayağında) mələklər nazil olub belə deyəcəklər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətə sevinin!*

Bir sıra ayələrdə isə mələklərin insanlara etdiyi yardımdan bəhs edilir. Bədr savaşında Allah-təala min mələk göndərməklə möminlərin köməyinə can atır.

Mələklər isə möminlərin əhvali-ruhiyyəsini möhkəmləndirir, ürəklərini qızdırır və onlarda qələbə əzmi yaradır və bu savaşda müsəlmanlara böyük uğur nəsib olur. Bu barədə Qurani-kərimdə işarə vardır.

Ənfal surəsi, 9-10-cu ayələr:

*O zaman siz (dua edərək) Rəbbinizdən kömək diləyirdiniz. Allah: "Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!" – deyə duanızı qəbul buyurmuşdu.*

*Allah bu köməyi sizə yalnız sizin üçün bir müjdə və ürəkləriniz sakit olsun deyə etmişdi. Qələbə yalnız*

*Allahdandır. Allah yenilməz qüvvət və hikmət sahibidir!*

Möminlərin ruhunu gücləndirmək üçün mələklər zikr edər və Allahdan bağışlanmaq dilərlər.

Əhzab surəsi, 43-cü ayə:

*Sizi zülmətdən nura çıxarmaq üçün sizə mərhəmət bəxş edən Odur. Mələkləri də (Ondan) sizin bağışlanmanızı dilərlər. Allah möminlərə rəhm edəndir!*

## Kafirlərin lənətlənməsi

Mələklər möminlərə müjdə yetirmək, onlara Allahdan bağışlanmaq diləmək, onların ruhiyyəsini gücləndirməklə yanaşı, kafirlərə qarşı lənət göndərirlər. Bu da Allahın bir əmridir.

Bəqərə surəsi, 161-162-ci ayələr:

*Kafir olanlara və kafir olaraq ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun!*

*Onlar həmişəlik bu lənət içərisində qalarlar. (Qiyamətdə) onların əzabı əskilməz və üzlərinə də baxılmaz (üzrləri qəbul olunmaz).*

Ali-İmran surəsi, 86-88-ci ayələr:

*İman gətirdikdən, peyğəmbərin haqq olduğuna (Allah tərəfindən göndərildiyinə) şəhadət verdikdən və özlərinə*

*aşkar dəlillər gəldikdən sonra kafir olan tayfanı Allah necə doğru yola yönəldər? Allah zalimlər dəstəsini haqq yola istiqamətləndirməz!*

*Onların cəzası, həqiqətən, Allahın, mələklərin və bütün insanların lənətinə düçar olmaqdır!*

*Onlar bu lənət içərisində əbədi olaraq qalacaqlar. Əzabları əskilmədiyi kimi, onlara (mərhəmət nəzəri ilə də) baxılmayacaqdır!*

## Mələklərin qiyamətdə görəcəyi işlər

Mələklər dünyadakı işlərin görülməsində və Allahın buradakı əmrlərinin yerinə yetirilməsində vasitəçilik etdikləri kimi, onlar qiyamət aləmində də müəyyən vəzifəni icra edirlər.

Mələklər insanların canını aldıqdan sonra, onlardan sual-cavab alır, bərzəx aləmində savab və əzab mərhələsindən keçirir, birinci nəfəsdə onları öldürür, ikinci nəfəsdə dirildir, əməl dəftərini açıqlayır və hər kəsin hesabını öz əlinə verir. Bütün bunlar qiyamət aləminə xas olan işlərdir. Qurani-kərimə görə, mələklər, eyni zamanda, qiyamətdə behişt əhlini qoruyur, möminlərə alqış söyləyir, onları qarşılayırlar.

Bir neçə Quran ayəsinə diqqət yetirək:

Ənbiya surəsi, 101-103-cü ayələr:

*(Yaxşı əməllərinin mükafatı olaraq) öncədən özlərinə nemət (Cənnət, əbədi səadət) yazılmış kəslər Cəhənnəmdən uzaqda olacaqlar.*

*Onlar Cəhənnəmin uğultusunu eşitməyəcəklər. Onlar (Cənnətdə) ürəkləri istəyən nemətlər içində əbədi qalacaqlar.*

*Onları ən böyük qorxu (İsrafilin suru axırıncı dəfə çalınıb cəhənnəmliklərin Cəhənnəmə atılması) məhzun etməyəcəkdir. Mələklər onları qarşılayıb: "Sizə vəd olunan gün budur!" – deyəcəklər.*

Zumər surəsi, 73-cü ayə:

*Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və cənnət gözətçiləri (onlara): "Salam əleyküm! (Sizə salam olsun!) Xoş gəldiniz! Əbədi qalacağınız Cənnətə daxil olun!" – deyəcəklər.*

Eyni zamanda, mələklər qiyamət qoparkən Allahın yanında möminlər üçün şəfaət diləyəcəklər.

Ənbiya surəsi, 28-ci ayə:

*Allah onların nə etdiklərini və nə edəcəklərini bilir. Onlar yalnız Allahın razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar.*

Başqa bir tərəfdən, Cəhənnəmdə keşik çəkən mələklər də vardır və onlar çox kəskin və şiddətli əməl edəndir, Cəhənnəm əhli ilə tünd rəftar edərlər.

Muddəssir surəsi, 30-31-ci ayələr:

*Onun üstündə on doqquz nəfər (gözətçi mələk) vardır.*

*Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik. Biz onların sayını ancaq kafirlərin imtahana çəkilməsi, kitab verilənlərin yəqinlik hasil etməsi (çünki onların kitablarında bu mələklərin sayı on doqquzdur), iman gətirənlərin imanının daha da artması, kitab əhlinin və möminlərin (bununla əlaqədar Məhəmməd əleyhissəlam barəsində) şübhəyə düşməməsi və həmçinin ürəklərində mərəz (nifaq və şəkk mərəzi) olanların: "Allah bu məsəllə nə demək istəyir?" – demələri üçün on doqquz etdik. Allah istədiyi kimsəni (haqq yoldan) belə azdırır və istədiyini də doğru yola salır. Rəbbinin ordularını Özündən başqası bilməz. Bu (vəsf olunan Səqər) insanlar üçün ancaq bir öyüd-nəsihətdir!*

Təhrim surəsi, 6-cı ayə:

*Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurulduqlarını yerinə yetirən*

*daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir (zəbanilərdir).*

Mulk surəsi, 8-ci ayə:

*O, (kafirlərə olan) qeyzindən az qala parça-parça olsun. Hər hansı bir tayfa Cəhənnəmə atıldıqca onun gözətçiləri onlardan (məzəmmətlə): "Məgər sizə (sizi Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməmişdimi?" – deyə soruşacaqlar.*

## Mələklərin çeşidli hal və surətdə görünməsi

Quran ayələrinə görə insan ölüm zamanı və ölümdən sonra mələkləri müşahidə edə bilər. Hətta insan onlarla danışır. Maraqlı haldır ki, insan ölüm mələyi onun canını alarkən, bərzəx həyatı zamanı və həmçinin qiyamət aləmində mələkləri görmək qabiliyyətinə malik olur. Maddi həyat zamanı təbiətdə belə bir görüm müyəssər olmur. Əvvəlki bəhslərdə mələklərin görünməsi ilə bağlı olan ayələrə işarə etmişik. Burada yalnız bir ayəyə işarə edirik. Bu ayəyə görə, hətta günahkarlar ölümdən sonra mələkləri müşahidə edə bilirlər, deməli, bu məsələ möminlər üçün daha asandır.

Furqan surəsi, 22-ci ayə:

*Mələkləri görəcəkləri gün – həmin gün günahkarlara (Cənnətlə) heç bir müjdə olmaz. Mələklər onlara: "Sizə şad xəbər (eşitmək) haramdır!" – deyərlər.*

Adi insanlar dünyəvi həyatda mələkləri müşahidə edə bilməzlər, lakin peyğəmbər və övliyalar Quran ayələrinə görə, mələkləri görə bilirlər. Əlbəttə, belə düşünmək olmaz ki, mələklər öz mücərrəd və qeyri-maddi varlığını itirərək maddi və cismani varlığa çevrilə bilərlər. Mələklərin görünməsi ilk baxışda insanda belə bir yanlış təsəvvür oyada bilər, çünki yalnız maddi-fiziki varlıqlar zahiri baxımdan adi gözlə görünə bilir. Mələklərin görünməsi Quran ayələrində təmsil yolu ilə bəyan edilir – yəni mələklər müxtəlif surətlərdə peyda olub insan gözünə

həmin şəkildə görünə bilər. Aşağıdakı ayədə mələklərin Həzrəti İbrahimə (ə) görünməsi təmsil yolu ilə verilir.

Hud surəsi, 69-70-ci ayələr:

*Həqiqətən, elçilərimiz (mələklər) İbrahimin yanına mücdə (İshaqın anadan olacağı xəbəri) ilə gəlib: "Salam!" – dedilər. İbrahim də: "Salam!" – deyə cavab verdi və dərhal (gedib onlara) qızarmış bir buzov gətirdi.*

*İbrahim (qonaqların) əllərinin yeməyə uzanmadığını gördükdə onların bu hərəkəti xoşuna gəlmədi və qorxuya düşdü. Onlar dedilər: "Qorxma, (biz Allahın mələkləriyik), biz Lut tayfasına (onu məhv etmək üçün) göndərilmişik!"*

Yuxarıdakı ayələrə görə, mələklər insan surətində Həzrəti İbrahimin (ə) yanına gəlir və hətta İbrahim (ə) onlara yemək gətirir. Lakin mələklər yemək yemir və İbrahimə (ə) başa salırlar ki, onlar adi bəşər deyil, mələkdir – sadəcə insan timsalında peyda olmuşlar.

Başqa bir yerdə mələklər gözəl üzlü cavanlar şəklində Həzrəti-Lutun (ə) yanında olur. Lut (ə) peyğəmbər də Həzrəti İbrahim (ə) kimi öncə onları tanımır. Öz fəsad əhli olan qövmündən onlar üçün törənən xoşagəlməz hadisələr üçün bərk narahat olur. Ancaq çox çəkmir ki, mələklər özlərini Lut (ə) peyğəmbərə tanıdırlar və onu nigarançılıqdan qurtarırlar.

Hud surəsi, 77-78-ci ayələr:

*Elçilərimiz (mələklər) Lutun yanına gəldikləri zaman (tayfası bu gözəl qonaqlara bir pislik yetirər deyə) əndişəyə düşdü, ürəyi sıxıldı və: "Bu, çox çətin, başabəlalı bir gündür!" – dedi.*

*Qövmü (qonaq gəldiyini bilən kimi) tələsik Lutun yanına gəldi. Onlar (Lutun yanına gəlməzdən və mələkləri görməzdən) əvvəl də pis işlər görürdülər.*

Hud surəsi, 81-ci ayə:

*(Mələklər) dedilər: "Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə toxuna bilməzlər. Gecənin bir vaxtında ailənlə birlikdə çıx get. Heç kəs dönüb geri*

*baxmasın. Təkcə övrətin istisnadır. Onlara toxunacaq əzab övrətinə də toxunacaqdır. Onların (ölüm) vaxtı səhərdir. Səhər yaxın deyilmi?*

Qurani-kərimdə Həzrəti-Məryəm (ə) üçün də mələklərin görünməsi təmsil vasitəsilə bəyan edilir.

Məryəm surəsi, 16-17-ci ayələr:

*(Ya Məhəmməd!) Quranda Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb (evinin, yaxud Beytülmüqəddəsin şərq tərəfində ibadət məqsədilə xəlvət) bir yerə çəkilmişdi.*

*Və ailə üzvlərindən gizlənmək (paltarını dəyişmək, yaxud yuyunub təmizlənmək) üçün pərdə tutmuşdu. Biz Öz ruhumuzu (Cəbraili) Məryəmin yanına göndərdik. O, Məryəmə kamil bir insan qiyafəsində göründü.*

Bu ayələrdə işlənən təmsil sözü belə bir məzmunu çatdırır ki, mələklər bəşər timsalında övliya və ya peyğəmbərlərin qarşısında peyda olmuşlar. Onlar mələkləri bir insan şəklində öz zehinlərində təsəvvür etmişlər. Deməli, mələklər insan deyil və onlar heç də həqiqi mənada bəşər şəklinə düşmür. Mələklər xarici aləmdə – yəni maddi dünyada da elə həmin öz mücərrəd varlığını saxlayırlar və onların mahiyyəti heç vaxt dəyişmir. Mələklərlə üzləşən insanlar öz subyektiv mülahizəsinə və zahiri təsəvvürünə görə onları bəşər kimi və ya insan simasında təsəvvür etmişlər.

Bir məsələni də xatırlamaq yerinə düşər ki, övliya və peyğəmbərlər dünyəvi aləmdə mələkləri müşahidə etməyə qabil olurlar, adi insanlar isə belə bir istedada malik deyillər. Bu da onunla izah edilir ki, övliya və peyğəmbərlər özlərini maddi işlərdən və dünya məhdudluğundan kənara çıxara bilirlər. Onlar öz cismani varlığı ilə dünya həyatında ola-ola özlərini axirət aləminə keçirə, həmin aləmin abü-havası ilə qovuşa bilirlər. Bu bir irfani təcrübədir. Maddi dünyanın bağlı çərçivəsindən çıxaraq ruhani bir aləmlə ünsiyyətdə olmaq yalnız pak övliyalara nəsib olar. Hər kəs

özünü dünyəvi həyatın çirkinliyindən və çamurundan qurtararaq Allaha yaxınlıq məqamına yetişərsə, o, qeyb aləmini müşahidə edə bilər. Peyğəmbər və övliyaların mələkləri görməsi bu mənada izah edilir.

## Mələklərin məqamı

Qurani-kərimdə mələklər dəfələrlə təriflənir və onlar ehtiram və kəramətlə yad edilir. Allah-təala mələklərin məqamını çox uca tutur. Onların dəyər və dərəcəsi o qədər yüksəkdir ki, Allah onları çox tərifləyir və əzizləyir. Mələklər Tanrı nəzərində möhtərəm və kəramətli bəndələr kimi dəyərlidir.

Ənbiya surəsi, 26-cı ayə:

*Kafirlər: "Rəhman (mələklərdən Özünə) övlad götürdü!" – dedilər. O, pak və müqəddəsdir! (Belə şeylərdən təmamilə uzaqdır!) Xeyr, mələklər (Onun övladı deyil, xəlq etdiyi) möhtərəm qullardır.*

Mələklər bəndə kimi Allaha ibadət edərlər. Allah onların bəndəlik məqamı haqqında belə söylər ki, mələklər həmişə Tanrıya ibadət edər və heç vaxt yorulmazlar. Bu məsələ bir neçə ayədə təkrar vurğulanır.

Saffat surəsi, 166-cı ayə:

*Və (Allahı) təqdis edib şəninə tériflər deyirik.*

Fussilət surəsi, 38-ci ayə:

*Əgər (müşriklər Allaha səcdə etməyə) təkəbbür göstərsələr (bilsinlər ki, bunun zərəri Allaha deyil, ancaq özlərinədir). Çünki (ya Məhəmməd!) sənin Rəbbinin dərgahında olanlar (mələklər) gecə-gündüz usanmadan Onu təqdis edib şəninə tériflər deyərlər.*

Ənbiya surəsi, 19-20-ci ayələr:

*Göylərdə və Yerdə olan bütün məxluqat Allahındır (Tanrının qüdrət əsəridir). Onun dərgahında olanlar (rütbə və şərəf etibarilə mənən Allaha yaxın mələklər) Ona ibadət*

*etməyə təkəbbür göstərməz və (bu ibadətdən) yorulmaq bilməzlər.*

*Onlar gecə-gündüz, yorulub-usanmadan (Rəbbini) təqdis edib şəninə təriflər deyərlər.*

Qurani-kərim mələklərin bəndəlik keyfiyyəti və Allahdan qorxub çəkinmələri haqqında belə buyurur:

Ənbiya surəsi, 27-28-ci ayələr:

*Mələklər Allahdan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər.*

*Allah onların nə etdiklərini və nə edəcəklərini bilir. Onlar yalnız Allahın razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar.*

Qurani-kərimdə vurğulanır ki, mələklərin batinində Allahdan qorxu hissi vardır, onlar Allahın qüdrət və əzəmətini dərk edərək həmişə bu mənalı qorxu hissini bəndəlik məqamına uyğun yaşayırlar.

Nəhl surəsi, 49-50-ci ayələr:

*Göylərdə və Yerdə olan bütün canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər!*

*Onlar öz fövqlərində olan Allahdan qorxar və özlərinə buyurulanları edərlər!*

Səba surəsi, 23-cü ayə:

*Nəhayət, ürəklərindən o müdhiş qorxu çıxınca onlar (şəfaət edəcək kəslərə, yaxud mələklərə sevinclə): "Rəbbiniz nə buyurdu?" – deyə soruşar, o birilər də: "Haqqı buyurdu! (Şəfaətə izn verdi). O, (hər şeydən) ucadır, (hər şeydən) böyükdür!" – deyə cavab verərlər.*

Bu ayədə qorxudan doğan hissi ifadə edən söz işlənmişdir. Bir nəfər qorxu hissi keçirərkən onun ürəyində iztirab baş qaldırar. Quran ayəsi həmin daxili iztirab hissini vurğulayır. Yuxarıdakı şərafətli ayəyə görə, mələklər də qorxu hissinə malikdir. Onların qəlbi öz başlanğıc mənşəyindən doğan həqarətə görə pərişan olur və həmişə bu hissdən nigarançılıq çəkir. Onların bu narahatlığının gökündə sadə qorxu yox, vicdan əzabı və məsuliyyət

dayanır – yəni Allah eləməmiş, birdən ilahi əmrləri düzgün yerinə yetirməzlər. Gerçəklikdə, bu ayəyə görə mələklər həmişə Allahı yada salır, Ondan gələn ilahi əmrləri yerinə yetirməyə hazır vəziyyətdə olurlar. Allahın əmrlərini yerinə yetirməklə öz nigarançılıqlarını azaldırlar.

## Mələklər haqqında müxtəlif baxışlar

Molla Sədra "Məfatihül-qeyb" kitabında mələklər haqqında altı mülahizə söyləmişdir ki, bu əsərdə onları yada salmaq yerinə düşər:

1. Bəzi alimlərin əqidəsinə görə mələklər lətif cism və havadan ibarətdir. Onlar Göylərdə yerləşir və müxtəlif şəkillərə düşə bilirlər.

2. Bütpərəstlər isə öz baxışlarına uyğun belə güman edirlər ki, mələklər gerçəklikdə elə Göylərdə olan ulduzların bir qismidir. Bunların iki sifəti vardır: uğur və nəhs sifəti. Rəhmət mələkləri uğur və səadət gətirər. Nəhs və şər gətirən mələklər isə əzab və işgəncə gətirər.

3. Zərdüştlüyə bağlı olan məcusilər (atəşpərəstlər) isə belə fikirləşirlər ki, dünya iki əzəli tərkibdən ibarətdir: nur və zülmət. Hər ikisi şəffaf cövhərdən ibarət olub qüdrət və ixtiyar sahibidir. Onlar eyni zamanda bir-biri ilə təzad və mübarizə halındadır. Nurlu-işıqlı cövhər xeyir və əmin-amanlığa, zülmətli cövhər isə şər və iztiraba səbəb olur.

4. Nəsara xaçpərəstlərin fikrincə, mələklər öz substansiyasına görə nitqə malikdir. Onlar öz qəliblərindən uzaq və ayrı olur. Mələklər canlı varlıqdır, lakin cismani deyil və hər hansı məkana sığmır.

5. Bir sıra filosofların nəzərincə, mələklər öz substansiyası ilə mövcud olan cövhərdən ibarətdir və məkana sığmır. Lakin öz mahiyyətinə görə bəşərə xas olan natiqə nəfslə müxalifət təşkil edir. Onlar güc baxımından insanlardan qüdrətlidir. Onların elmi, əhatə və düzəni daha

genişdir. Mələklər insan nəfsində Günəş şüaları kimi işıq saçır.

6. Bəzi filosoflar isə başqa bir növ mələklərin olduğunu sübut etməyə çalışmışlar. Bu isə Yer mələkləri adlanır. Həmin mələklər bu dünyanın işlərini sahmana salır və dünyəvi işlər üçün tədbir görürlər. Əgər mələklər tədbir görərkən dünya işlərini xeyir və yaxşılıq məcrasına yönəldirsə, onlar gerçək mələklər sayılır, yoxsa əgər, şər və pis işlərə sövq edirsə, şeytan adlanır [74].

## Mələklərin qeyri-maddi olması

Quran ayələri və rəvayətlər üzərində aparılan araşdırmalardan belə bir nəticəyə gəlmək olur ki, mələklər maddi xüsusiyyətlərə malik deyil, onların bir qismi timsal, bir qismi isə tam mücərrəd anlamlardır. Bu məsələni təsdiqləyən dəlilləri bir neçə qismə ayırmaq olar:

1. Quran ayələri Cəbrailin ruh halında peyğəmbərin (s) qəlbinə nazil olmasını bəyan edir ki, bu da mələklərin bir qisminin mücərrəd olmasını göstərir.

Bu məsələni aydınlaşdırmaq üçün öncə işarə etdiyimiz bir-iki ayəni bir daha xatırlamalı oluruq.

Bəqərə surəsi, 97-ci ayə:

*(Ya Məhəmməd!) Cəbrailə düşmən olan şəxsə söylə ki, həqiqətən, o, (Cəbrail) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq edən, möminləri doğru yola yönəldən, (onlara) mücdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır (nazil etmişdir).*

Şüəra surəsi, 192-194-cü ayələr:

*Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!*

*(Günahkarları Allahın əzabı ilə) qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi);*

Yuxarıdakı ayələrə görə, Cəbrail bir mələk olaraq Məhəmməd peyğəmbərin (s) ruhuna nazil olmuşdur. Bu mənada peyğəmbərin (s) ruhu ilə Cəbrail arasında

uzlaşma və tənasüblük olmalıdır ki, birisi o birisinə nazil ola bilsin. Ruh mücərrəd bir anlam olduğuna görə, ona nazil olan Cəbrail də bir mələk kimi mücərrəd və qeyri-maddi varlığa malik olmalıdır.

2. Rəvayətlərdə çoxsaylı mələklərin təbiət aləminə nüzul etməsindən bəhs edilir ki, onlar Göylərə və Yerə enir və varlıq aləmi ilə birgə olurlar. Həmin mələklər qeyri-maddi varlıq kimi təsəvvür edilir. Ayə və rəvayətlərdə deyilir ki, onlar yağış damlaları ilə aşağı enir, hər bir şəxsi və ya onun əməlini müşahidə və müşaiyət edirlər. Bu mələklərin çoxu Qədr gecəsi peyda olurlar. Bu sayaq ayə və rəvayətlərin məzmunundan bəlli olur ki, maddi və cismani varlıqların hərəkəti mələklərin nizamlı halda nüzuluna heç bir əngəl törədə və onların enməsini poza bilməz. Əgər mələklər maddi varlığa malik olsaydılar, onların hərəkəti zamanı maddi varlıqlarla toqquşma yaranardı və ya maddi aləmdəki şeylər mələklərin nüzuluna mane olardı. Axı Göy və Yer mələklərlə dolu olur, onlar bütün varlıqları müşaiyət edirlər. Başqa bir yandan, adi adamlar heç bir hissi duyğu ilə mələkləri müşahidə edə bilməzlər. Deməli, mələklər qeyri-maddi varlıqdır. Cəbraildən nəql edilən rəvayət və hədislər mələklərin qeyri-maddi olduğunu sübut edir və bu baxımdan peyğəmbərdən (s) söylənilən bir hədis maraqlıdır:

"Peyğəmbər Cəbraili gördü; o sanki şəbnəm damlaları kimi bitkinin gövdəsində mirvarid kimi şəfəq saçırdı. Onun 600 qanadı vardı və bu qanadlar Göy və Yer arasındakı fəzanı bürümüşdü" [75].

3. Şeytan və mələklərin insan içində yaratdığı vəsvəsə və ilham barəsində söylənilən rəvayətlərdə mələklərin qeyri-maddi olduğu bildirilir. Mələklərin mömin insanlara göstərdiyi təsirdən bəhs edən rəvayətlər onların qeyri-maddi varlığına dəlalət edir:

"Hər bir möminin qəlbində iki qulaq vardır: bir qulağa gizli vəsvəsə, o biri qulağa isə mələkdən ruh damar. Allah

mömini mələk vasitəsilə gücləndirər. Allahın dediyi və buyurduğu budur. Allah Öz tərəfindən nazil etdiyi ruhla möminləri gücləndirər".

Bu rəvayəti şərh edən Əllamə Təbatəbai belə yazır:

"Bir sözlə, bizim qəlbimizə ilham kimi qonan yaxşılıq və pislik duyğusu nəfsimizin hədisindən başqa bir şey deyildir. Bu isə zehnimizə nazil olan ruhi təsirdən qaynaqlanır. Nəfsin hədisi isə şeytan və ya mələyin sözüdür. Bu bir sözdən ibarətdir və bu sözü deyən də birdir. Əgər bizimlə danışan mələk maddi varlığa malik olsaydı, bir-biri ilə birləşən iki varlıq arasında ünsiyyət nəticəsində biz onun sözünü eşidə bilərdik. Mələyin insan nəfsi ilə ünsiyyəti qeyri-maddi ünsiyyətdir – yəni qulağa deyilən söz kimi deyil. Deməli, insan nəfsi ilə mələk arasındakı əlaqə qeyri-cismani bir əlaqədir. Deməli, bu mələk timsaldır və burada bizimlə onun cismani birliyinə lüzum yoxdur. Bu məsələ fitnətörədən şeytan barəsində də düz gəlir" [76].

## Zərdüşt təlimində mələklər

Zərdüşt təlimində də mələklərdən bəhs edilir. Onlar belə adlanır: "emşaspənd"; cəm halında isə "emşaspəndan" deyilir. Bu sözün mənası "ölməzlər" deməkdir. Ölməz mələklər elə sifətlərə malikdirlər ki, həmin sifətlərin Ahuramazda – yəni Hörmüz adlı Xeyir Tanrısından doğduğu bəyan edilir. Hörmüzün sifətləri bu mələklərdə təcəlli etmişdir. Bunlar 6 mələkdir:

1. Ordibehişt (düzgünlük şöləsi).
2. Bəhmən (pak fitrət).
3. Şəhrivər (iqtidar, güc).
4. Sepənd – sefənd (müqəddəs eşq).
5. Hərutat xordad (sağlamlıq və kamal).
6. Əmrnat – Əmordad (əbədi və ölməz).

"Ahuramazda öncə ölməz mələkləri yaratdı. Öncə Bəhməni uca yaratdı. Hörmüzün yaratdıqlarının geniş yayılması ondan başladı. Sonra Ordibehişti, Şəhrivəri,

sonra İsfəndi, daha sonra isə Xordad və Əmordadı yaratdı" [76].

Mələklərdən üçü – yəni Bəhmən, Ordibehişt və Şəhrivər erkək mələk kimi təmsil olunur və sağ tərəfdə yerləşir. Daha üç mələk – İsfənd, Xordad və Əmordad – dişi mələk olaraq solda yerləşir. Suruş adlı yeddinci mələk isə Hörmüzün qarşısında yerləşir.

Mətndə belə deyilir:

"Bəhmən, Ordibehişt və Şəhrivər Hörmüzün sağ yanında, İsfənd, Xordad və Əmordad sol yanında, Suruş isə qarşısında dayanır" [77].

Bəhmən Hörmüzə ən yaxın mələkdir. Bu mələk başdan-başa yaxşılıq, paklıq və müqəddəslik rəmzidir. Mətndə bu barədə belə deyilir:

"Bütün Tanrılardan Bəhmən Hörmüz üçün ən yaxınıdır"[78]. Bundan başqa, Zərdüşt təliminə görə Ordibehişt Hörmüzə iman gətirən ilk mələkdir. Allah onu tərifləyər, o da Allaha pərəstiş edər:

"İlk dəfə dini qəbul edən mələk Ordibehiştdir" [79].

Ordibehişt eyni zamanda mələklər arasında ən gözəl və ən işıqlısı sayılır:

"Gəlin Ordibehişti tərifləyək. O ən gözəl ölməz mələklərdəndir. Onun işığı və yaxşılığı hər şeyi əhatə edər və bürüyər" [80].

Ordibehişt Hörmüzün yardımçılarındandır və onun köməyi ilə bitkiləri yaradır:

"Ahuramazda Ordibehiştin yardımı ilə bitkiləri yaradaraq böyüdür" [81].

Ordibehiştin Yer üzərində və maddi aləmdəki vəzifələrindən biri atəşi qorumaqdır. Zərdüştlükdə od müqəddəs sayılır və bu təlimə görə hər kim atəşi incidərsə, o, Ordibehişti incitmiş olur. Hər kim atəşi ram edib onu sevindirərsə, o şəxs Ordibehiştə xidmət etmiş olur.

"Ordibehişt dünyada atəşi qoruyub saxlayır. Hər kim odu incitsə və ya ona əmin-amanlıq bağışlayarsa, o,

Ordibehişti incitmiş və ya ona əmin-amanlıq bağışlamış olur" [82].

Başqa bir yandan, Ordibehişt mələk olaraq axirət aləmində mizan-tərəzi qurularkən burada verilən cəza və mükafata nəzarət edər. Bəd əməl sahiblərinə cəza verilər, lakin bu mələk kimsəyə qazandığı günahdan çox və ya az cəza verilməsinə icazə verməz.

"Ordibehiştin qarşısında belə bir iş dayanır: o, axirət divanına nəzarət edər və kimsənin qazandığı günahdan çox cəzalandırılmasına icazə verməz. Hər kəs əməlinə görə cavab verər və bu mələk divanı qoruyar və tənzimləyər" [83].

Şəhrivər üçüncü mələk olaraq güc və qüdrət qaynağı sayılır. Onun əsas vəzifəsi dərvişlərə şəfaət verməkdir:

"Şəhrivərin qarşısında dərvişlərə şəfaət vermək vəzifəsi vardır. O, Hörmüzdən şəfaət diləyər" [84].

Zərdüşt təlimində bütpərəstlik əlamətləri vardır, belə ki, İsfənd adlı mələk Hörmüzün qızı kimi qələmə verilir. Bu mələk paklıq və yaxşılıq təcəllisidir:

"Onun – yəni Hörmüzün qızı İsfənd yaxşılıq edəndir" [85].

Bu mələk Zərdüştlük dinini təbliğ edir. Hörmüz bu mələklə görüşərkən, İsfənd onun yanına gəlir. O, öz dinini İsfənd üçün tam aşkar etdi. Bu mələk eyni zamanda məxluqun böyüməsi və pərvəriş tapması üçün məmur edilmişdir [86].

"İsfəndin işi xilqətin pərvəriş tapmasıdır. Xilqətin kamala yetməsi bu mələyin vasitəsilə baş verir" [87].

Məhşər və oyanış günü İsfənd mehriban ana kimi öz övladlarını rəhmətlə qoruyur. O, Hörmüzdən xahiş edir ki, günahkarları cismani əzabdan və can iztirabından qurtarsın.

Beşinci mələk olan Xordad isə suyun qoruyucusu olaraq dünyanı abadlaşdırır.

"Xordad dünyada suyu saxlayır və qoruyur. Varlıq aləmi maddi dünyanın törəmələri olaraq doğulur və pərvəriş tapır. Bütün aləmdə olan varlıq nümunələri sudan yaranır. Yerin abadlığı da sudandır" [88].

Xordad bütün mövcud varlığın sərvəridir. Zərdüştlüyün kitabında bu barədə belə deyilir:

"Xordad illərin, ayların, günlərin sərvəridir. O, bütün varlığın sərvəridir" [89].

Xordad eyni zamanda insanların xoşbəxtliyini təmin edən səadət mələyidir. İnsanların uğurlu yaşamı bu mələyin sayəsində təmin edilir.

"İl uzunu yaxşı yaşamağın səbəbi və kökü Xordad mələyindən doğur" [90].

Əmordad – sonuncu və altıncı mələk kimi təsvir olunur. Bu mələk Xordadın bacısı sayılır və öz məqam və vəzifəsinə görə əbədiyyət amilidir. Əmordad eyni zamanda bitki və heyvanların qoruyucusu kimi tanınır.

"Əmordad ölməzlik və əbədiyyət mələyidir. Bu mələk çoxsaylı bitkilərin sərvəridir. Dünya onun üçün bir bitki kimidir. Əmordad bitkini böyütdü və qoyun sürülərini çoxaltdı. Bütün heyvanlar həmin bitkilərlə qidalanıb böyüyür və yaşayır" [91].

Zərdüştlük təliminə görə Əmordad qiyamət və oyanış günü əbədiyət dərmanı hazırlayacaq.

## Cin

Qurani-kərimdə haqqında bəhs edilən varlıqlardan biri də Cindir. Bu sözün əsl mənası örtülü deməkdir. Həmin söz Qurani-kərimdə "can" kimi də işlənib. Bəzi təfsir alimləri "can" sözünü izah edərkən belə söyləmişlər ki, bu cinin bir növüdür. Bu fikir məqbul deyil. Çünki Quran ayələrində hər iki söz eyni mənada işlənib. "Can" və "Cin" sözü adətən "insan" məfhumu qarşısında işlənir.

Rəhman surəsi, 14-15-ci ayələr:

*İnsanı (Adəmi) saxsı kimi (toxunduqda səs çıxardan) quru palçıqdan O yaratdı.*

*(Cinlərin əcdadı) cannı da tüstüsüz (təmiz) oddan O xəlq etdi.*

Zariyat surəsi, 56-cı ayə:

*Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!*

Rəhman surəsi, 39-cu ayə:

*O gün nə bir insan, nə də bir cin günahı barəsində sorğu-sual olunmayacaqdır!*

Qurani-kərimdə cin üçün müəyyən xüsusiyyətlər verilir və həmin özəlliklər əsasında bu varlıq barəsində müəyyən təsəvvür yaratmaq mümkündür.

1. Cin həqiqətdə atəşdən yaranan məxluqdur. Quran ayələrinə əsasən, cin oddan xəlq olunub. Əlbəttə, bu adi od deyil.

Hicr surəsi, 27-ci ayə:

*(Cinlərin babası) Can tayfasını (və ya İblisi) daha öncə (insandan əvvəl) tüstüsüz oddan xəlq etmişdik.*

Cin adətən insan qarşısında qoyulur, ona görə bundan öncə insanın əksinə olaraq torpaqdan yarandığı vurğulanır və cindən fərqi göstərilir.

Hicr surəsi, 26-cı ayə:

*Biz insanı quru (toxunduqda saxsı kimi səs çıxaran) və qoxumuş (və ya torpaqdan tədriclə dəyişib başqa şəklə düşmüş) qara palçıqdan yaratdıq!*

Əvvəlcə işarə etdiyimiz iki ayədə də ardıcıl olaraq insanın palçıqdan, cinin isə oddan yarandığı qeyd olunur:

Rəhman surəsi, 14-15-ci ayələr:

*İnsanı (Adəmi) saxsı kimi (toxunduqda səs çıxardan) quru palçıqdan yaratdı.*

*(Cinlərin əcdadı) cannı da tüstüsüz (təmiz) oddan O xəlq etdi.*

Cinin mahiyyəti haqqında bəhs edərkən belə bir sual ortaya çıxır ki, onun oddan yarandığı vurğulanır və bu atəş

məfhumu altında nə nəzərdə tutulur? Görəsən bu həmin adi atəşdənmi ibarətdir? Od ayrı-ayrı cismlərin oksigen ilə reaksiyası nəticəsində baş verən yanğından törənir.

Bu suala cavab verərkən öncə qeyd etmək lazımdır ki, burada söhbət adi atəşdən deyil, xüsusi oddan gedir. Quranda bu anlam "nar" sözü ilə verilir. Bu elə bir maddədən ibarətdir ki, od ilə bağlı işlənir – yəni odun özü deyil, odsayağı bir məfhumdur.

2. Yuxarıda işarə edilən Hicr surəsi, 27-ci ayədən bəlli olur ki, cinin yaranışı insanın xilqətindən öncə olub – yəni Allah insanı yaratmazdan qabaq cini xəlq edib.

3. Cin elə bir məxluqdur ki, onun insan kimi şüuru və Allah qarşısında təklifi (vəzifəsi) vardır. Allah cini də insan kimi bəndəlik üçün yaratmışdır. Bu baxımdan insanla cin arasında ortaq cəhətlər vardır:

Zariyat surəsi, 56-cı ayə:

*Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!*

Saffat surəsi, 158-ci ayə:

*(Müşriklər həm də özlərindən) Allahla cinlər (pərilər, yaxud mələklər) arasında bir qohumluq əlaqəsi icad etdilər. Həqiqətən, cinlər onların (bu sözü deyənlərin qiyamət günü Cəhənnəmə) gətiriləcəyini bilirlər.*

Bu ayəyə görə, cinlər qiyamət zamanı öz əməlləri qarşısında cavab vermək və haqq-hesab üçün hazır olacaqlar. Əməllərə görə hesab çəkilmək isə ilahi təklifdən doğan bir məsələdir.

4. Cin də insan kimi həm başqalarının sözlərini dinləməyə, həm də söz danışmağa qabildir. Bir sıra Quran ayələrində cinlərin bu keyfiyyətləri vurğulanır:

Cin surəsi, 1-ci və 2-ci ayələr:

*(Ya Peyğəmbər!) De: "Mənə vəhy olundu ki, bir dəstə cin (Məkkə və Taif arasında sübh namazı vaxtı Quranı dinləyib öz həmcinslərinin yanına qayıtdıqları zaman)*

*dedilər: "Biz çox qəribə, təsəvvüredilməz dərəcədə gözəl olan bir Quran eşitdik".*

*O, (xalqa) haqq yolu göstərir. Biz Ona iman gətirdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq.*

İkinci ayədə həm də cinin iman gətirməsi diqqətə çatdırılır və onun təklifə malik olduğuna dəlalət edir.

5. Elə cin tayfası vardır ki, Allah onlar üçün insanlar kimi peyğəmbər göndərir. Cinlər üçün peyğəmbər göndərməkdən məqsəd onları hidayət etməkdir. Allah hər bir varlığı öz məqsədinə doğru yönəldir.

Ənam surəsi, 130-cu ayə:

*Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə sizə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi? Onlar deyəcəklər: "Biz öz əleyhimizə şahidik!" (Peyğəmbərlər bizə pis işlərimiz barədə xəbərdarlıq etsələr də, biz onlara qarşı çıxıb günah işlətməkdə davam etdik. Biz indi hər cəzaya layiqik.) Dünya həyatı onları aldatdı və onlar kafir olduqları barədə, öz əleyhlərinə şəhadət verdilər.*

Başqa bir ayədə isə belə deyilir:

İsra surəsi, 15-ci ayə:

*Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz (hərə öz günahına cavabdehdir). Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik!*

Quran ayələrində bəzi cinlərin Cəhənnəm əzabına düçar olacağı bildirilir. Hər bir ümmətə və cin tayfasına peyğəmbərlər göndərilir. Bu isə onları pis yoldan çəkindirmək və doğru yola yönəltmək üçündür. Lakin peyğəmbərlərin xəbərdarlığına etinasızlıq edib pis əməl görənlər Cəhənnəmlə hədələnir.

Burada bir məsələni qeyd etmək lazımdır ki, Allah hər kəsə öz cins və növündən peyğəmbər göndərir. Deməli, peyğəmbərlər və onların ardıcılları arasında cins baxımından bağlılıq vardır. Yəni insanlar üçün bəşər

arasından, mələklər üçün onların öz arasından və cinlər üçün də cinlər arasından yolgöstərən göndərilir. Allah-təala mələkləri Yer üzərində yerləşdirmək istərkən onlar üçün öz növündən peyğəmbər göndərir.

İsra surəsi, 95-ci ayə:

*(Ya Məhəmməd!) De ki: "Əgər Yer üzündə (siz insanlar kimi) arxayın gəzib dolaşanlar mələklər olsaydı (Yer üzünün əhalisi mələklərdən ibarət olsaydı), sözsüz ki, onlara bir mələk peyğəmbər göndərərdik!"*

6. Maraqlı məsələlərdən biri cinlər və insanlar arasında iman baxımından olan oxşarlıqdır. Onlar da insan kimi iki dəstəyə ayrılır: iman gətirənlər və kafirlər. Bəzi cinlər peyğəmbərlər ilə müxalifət edirlər.

Ənam surəsi, 112-ci ayə:

*Beləcə, Biz hər bir peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!*

Eyni zamanda Qurani-kərim bildirir ki, bəzi cin tayfası saleh, bəziləri isə qeyri-saleh əməl sahibidir. Deməli, cinlər əməl baxımından insanlarla müqayisə edilir. Bu baxımdan aşağıdakı ayələr diqqəti cəlb edir:

Cinn surəsi,11-ci ayə:

*Şübhəsiz ki, aramızda əməlisalehlər də vardır, əməlisaleh olmayanlar da. Biz müxtəlif firqələrə, məzhəblərə ayrılmışıq.*

Cinn surəsi, 14-cü ayə:

*Şübhəsiz ki, aramızda (Allaha və Onun Peyğəmbəri Məhəmməd əleyhissəlama iman gətirən) müsəlmanlar da var, (haqq yoldan) çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır.*

Bir sözlə, yuxarıdakı ayələrdən bəlli olur ki, cinlər də Aləmlərin Pərvərdigarına və qiyamət gününə iman gətirirlər

və hətta iman gətirənlər müsəlman olurlar. Əlbəttə, cinlərin müsəlman olmağı insanlar kimi şəriət təklifləri ilə müəyyən edilmir – yəni demək olmaz ki, cinlər də biz insanlar kimi namaz qılır, oruc tutur, Həcc ziyarətinə gedir, cihad edir və s. Bunlar arasında fərqlər vardır.

Cinn surəsi, 4-cü ayə:

*Doğrusu, bizim səfehimiz (İblis) Allah barəsində tamamilə yalan, haqdan uzaq sözlər söyləyirmiş.*

Cinn surəsi, 5-ci ayə:

*Biz elə güman edirdik ki, nə cin, nə də insan tayfası Allah barəsində yalan danışmaz.*

Cin tayfasının Allaha imanı başqa tərzdə də olsa təsdiqlənir. Onlar Allahın sifətlərini tanıyırlar.

Cinn surəsi, 3-cü ayə:

*Həqiqətən, Rəbbimizin cəlalı çox ucadır. O özünə nə bir*

*zövcə götürmüşdür, nə də bir uşaq!*

7. Cin tayfasından olan günahkarlar insanlar kimi cəhənnəm oduna düçar olurlar, çünki onlar ixtiyar sahibi olan məxluqdur – yəni Allah onlara yaxşı və pis əməl arasında seçim imkanı vermişdir. Onların bir dəstəsi Allahın əmrinə və təklifinə təslim olaraq iman yoluna düşür, başqa bir qismi isə yolunu azaraq küfrə meyl edir. Bu məsələ bir çox Quran ayələrində açıq-aydın təsdiq edilir.

Əraf surəsi, 38-ci ayə:

*Allah (qiyamət günü onlara) buyuracaq: "Sizdən əvvəl gəlib getmiş (kafir) cin və insan tayfaları ilə birlikdə Cəhənnəmə girin!" Hər tayfa girdikcə (özündən əvvəlki) dindaşına və ya tayfadaşına (onu doğru yoldan azdırdığı üçün) lənət oxuyacaq. Nəhayət, hamısı birlikdə Cəhənnəmdə toplandığı zaman sonra gələnlər (tabe olanlar) əvvəl gələnlər (tabe olduqları) barəsində deyəcəklər: "Ey Rəbbimiz! Bizi azdıran bunlardır. Bunlara ikiqat cəhənnəm əzabı ver!" Allah buyuracaq: "Hər birinizi ikiqat əzab gözləyir, lakin siz bilmirsiniz!"*

Əraf surəsi, 179-cu ayə:

*Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*

Hud surəsi, 119-cu ayə:

*Artıq Rəbbinin (mələklərə dediyi): "Mən Cəhənnəmi (Allahı inkar edən) bütün cinlər və insanlarla dolduracağam!" –*

*sözü tamamilə yerinə yetdi!*

Səcdə surəsi, 13-cü ayə:

*Əgər Biz istəsəydik, hər kəsi doğru yola salardıq (imana müvəffəq edərdik). Lakin Mən: "Cəhənnəmi mütləq bütün (günahkar) cinlər və insanlarla dolduracağam!" sözünü gerçək olaraq demişəm!*

Quran ayələrindən cinlər haqqında daha iki nəticə çıxara bilərik:

8. Cinlər insan kimi həyat və ölümə malikdir, onlar insan kimi qiyamətlə üzləşəcəklər.

9. Cinlər də insanlar kimi kişi və qadından ibarətdir, onlar doğub törəyir və nəsillərini davam etdirirlər.

Cinn surəsi, 6-cı ayə:

*Həqiqətən, (Cahiliyyət dövründə) bir para insanlar bir para cinlərə pənah aparır, bununla da onların təkəbbürünü, azğınlığını artırırdılar (cinlər özləri haqqında çox böyük fikirlərə düşürdülər).*

10. Cin tayfasından olan möminlər imanlı insanlar kimi Allahın rəsulu Məhəmməd (s) peyğəmbərə iman gətirirlər; onlar bir gün Peyğəmbərin (s) məclisinə gəlir və Quran ayələrinə qulaq asmaq üçün ona iman gətirirlər. Bu barədə bir sıra ayələrdə bəhs edilir.

Əhqaf surəsi, 29-32-ci ayələr:

*(Ya Peyğəmbər!) Onu da xatırla ki, bir zaman bir dəstə (ona qədər) cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə (yaxud sənin yanında) hazır olduqda (bir-birinə): "Qulaq asın!" – dedilər və Quran oxunub qurtardıqdan sonra (həmcinslərini Allahın əzabı ilə) qorxudanlar sifətilə öz qövmlərinin yanına qayıtdılar. (İşə bax ki, cinlər Quranı eşidib ona iman gətirdikləri halda, bu müşriklər hələ də ondan üz döndərirlər).*

*Onlar dedilər: "Ey qövmümüz! Biz Musadan sonra*

*nazil edilmiş, özündən əvvəlkiləri (Tövratı, İncili, Zəburu və səhifələri) təsdiq edən, (Allahın bəndələrini) haqqa və düz yola (islam dininə) yönəldən bir kitab dinlədik!*

*Ey qövmümüz! Allahın carçısını (Məhəmməd əleyhissəlamı) qəbul edin və ona iman gətirin. Allah (qiyamət günü) günahlarınızdan keçər və sizi şiddətli əzabdan xilas edər!*

*Allahın carçısını qəbul etməyən (bilsin ki,) Yer üzündə qaçıb canını Onun əzabından qurtara bilməz və ona Allahdan başqa kömək edən dostlar da tapılmaz. Belələri açıq-aşkar haqq yoldan azmışlar!"*

Cinn surəsi, 2-ci ayə:

*(Cinnilər dedilər ki, Quran) haqq yolu göstərir. biz ona iman gətirdik və bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq.*

Başqa bir ayədə deyilir ki, Peyğəmbər (s) ibadət edərkən, cin tayfasından bir dəstə Quran ayələrinin təsiri altında Peyğəmbərin (s) yanına toplaşırdılar.

Cinn surəsi, 19-cu ayə:

*Allahın bəndəsi (Məhəmməd əleyhissəlam) qalxıb Ona ibadət edəndə (cinlər Quranı dinləmək üçün toplaşmış izdihamın çoxluğundan) az qala bir-birinin üstünə minələr.*

11.Cinlər də insan kimi çalışır və işləyirlər. Onlar insanla müqayisədə daha zərif və dəqiq işləri yerinə yetirə bilirlər. Həzrəti-Süleyman (ə) insanlarla yanaşı, cinlər və

başqa məxluqdan qoşun düzəldir. Bu barədə Quran ayəsində işarə vardır.

Nəml surəsi, 17-ci ayə:

*(Bir gün) Süleymanın insanlardan, cinlərdən və quşlardan ibarət qoşunu toplandı. Onlar cərgə-cərgə düzülüb (nizamla) gedirdilər.*

Cinlər Süleyman (ə) üçün daha bir zərif iş görürlər: onlardan biri Bilqeysin taxtını sürətlə ona gətirir.

Nəml surəsi, 38-39-cu ayələr:

*(Süleyman) dedi: "Ey əyanlar! Onlar müti vəziyyətdə (müsəlman olaraq) yanıma gəlməmiş hansınız onun (Bəlqisin) taxtını mənə gətirə bilər?"*

*Cinlərdən olan (çox qüvvətli və nəhəng) bir ifrit dedi: "Sən yerindən (taxtından) qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətli və etibarlıyam!*

12. Əlbəttə, adi adamlar cinləri görə bilməzlər. Öncə mələklər barəsində də belə bir vəziyyətin olduğunu qeyd etmişdik. Qurani-kərimdə cinlərin bir dəstəsi olan şeytan haqqında deyilir ki, o, insanları görə bilir.

Əraf surəsi, 27-ci ayə:

*Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, Şeytan və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər.*

Rəvayətlərdə belə deyilir ki, peyğəmbərlər şeytanı görürdülər. Adəm (ə), Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə) və Həzrəti-Məhəmməd (s) haqqında verilən rəvayətlərdə göstərilir ki, onlar şeytanı görür və tanıyırlarmış.

13. Cinlər bəzi insanları özünə tabe etdirməyə qabil olurlar. Bu barədə Quran ayələrində işarələr var.

Ənam surəsi, 128-ci ayə:

*Allah (insanları və cinləri) toplayacağı gün (qiyamət günü) belə buyuracaq: "Ey cin tayfası, artıq insanların bir çoxunu yoldan çıxartdınız". Cinlərin insanlardan olan dostları deyəcəklər: "Ey Rəbbimiz! Biz bir-birimizdən bəhrələndik (şeytanlar bir sıra batil şeyləri insanlara gözəl göstərdikləri üçün insanlar onlardan faydalandıqlarını zənn edərlər. Cinlər, şeytanlar isə insanları özlərinə tabe edə bildikləri üçün onlardan öz qərəzli məqsədləri naminə istifadə edərlər) və bizim üçün müəyyən etdiyin əcəlimiz gəlib çatdı!" Allah buyuracaq: "Sizin düşəcəyiniz yer atəşdir. Allahın istədiyi (vaxt və ya sonradan islamı qəbul edib nicat tapan şəxslər) istisna olmaqla siz orada həmişəlik qalacaqsınız!" Şübhəsiz ki, Rəbbin hikmət və elm sahibidir!*

Cinn surəsi, 6-cı ayə:

*Həqiqətən, (Cahiliyyət dövründə) bir para insanlar bir para cinlərə pənah aparır, bununla da onların təkəbbürünü, azğınlığını artırırdılar (cinlər özləri haqqında çox böyük fikirlərə düşürdülər).*

Ayələrdən bəlli olur ki, şeytan dəstəsinə mənsub olan cinlər elə bir gücə malikdirlər ki, bir çox insanları düz yoldan sapındıra bilirlər. Şeytanların özü haqqında ayrıca bəhs ediləcək və həmin bölmədə insanların yoldan necə azması izah ediləcək.

14. Cin tayfası Peyğəmbərimiz Həzrəti-Məhəmmədin (s) zamanınadək Göylərdən insanların söhbətinə gizli şəkildə qulaq asmaq gücünə malik olmuşlar. Lakin Peyğəmbərin (s) gəlişindən sonra, onlara bu iş qadağan olunur. Bu məsələnin öz hikməti vardır. İslam peyğəmbəri (s) öz gəlişi ilə dünya tarixində yeni bir böyük inqilab etmiş olur. Bir növ yeni bir dövrün başlanğıcı qoyulur. Sanki dünya və bəşər yeni bir mərhələyə qədəm qoyur.

Qurani-kərim bu məsələni – yəni cinlər üçün gizlicə danışıqlara qulaq asmanı və islamdan sonra həmin məsələnin qadağan olmasını vurğulayır, insanlarla yanaşı

cinlərin də Allaha, Qurana və islam peyğəmbərinə (s) iman gətirməsini diqqətə çatdırır.

Cinn surəsi, 8-15-ci ayələr:

*Biz cinlər (yuxarı aləm əhlinin söhbətinə oğrun-oğrun qulaq asmaq üçün) Göyə qalxmaq istədik (səmanı yoxladıq), amma onun mələklərdən ibarət güclü gözətçilər*

*və yandırıb-yaxan ulduzlarla dolu olduğunu gördük.*

*Biz (Məhəmməd əleyhissəlamın peyğəmbər göndərilməsindən əvvəl mələklərin söhbətinə qulaq asmaq üçün) Göyün bəzi yerlərində otururduq. Lakin indi kim (onların söhbətinə) qulaq asmış olsa, yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər.*

*Biz bilmirik ki, (Göyün gözətçi mələklərlə, yandırıb-yaxan ulduzlarla doldurulması və mələklərin söhbətinə qulaq asmağın bizə qadağan edilməsi ilə) Yerdə olanlara bir pislik etmək istənilmişdir, yoxsa Rəbbi onlara bir xeyir diləmişdir.*

*Şübhəsiz ki, aramızda əməlisalehlər də vardır, əməlisaleh olmayanlar da. Biz müxtəlif firqələrə, məzhəblərə ayrılmışıq. Biz anladıq ki, Yerdə də olsaq, (Göyə də) qaçsaq, Allahın əzabından canımızı qurtara bilmərik (heç yerdə, heç zaman Allahı aciz edə bilmərik).*

*Doğrusu, biz haqq yolu göstərən Quranı dinlədiyimiz zaman ona iman gətirdik. Kim Rəbbinə iman gətirsə, nə (yaxşı əməllərinin mükafatının) əskilməsindən, nə də haqsızlığa məruz qalmaqdan (başqalarının günahlarının ona yüklənməsindən) qorxar.*

*Şübhəsiz ki, aramızda (Allaha və Onun Peyğəmbəri Məhəmməd əleyhissəlama iman gətirən) müsəlmanlar da var, (haqq yoldan) çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır.*

*Haqq yoldan çıxanlar isə Cəhənnəm üçün odun olacaqlar (orada yandırılacaqlar).*

## Şeytan

Qurani-kərimdə haqqında bəhs edilən varlıqlar arasında şeytan özəlliklə fərqlənir və burada həmin varlıq barəsində bəhs edilir, onun xüsusiyyətləri izah edilir.

Şeytan barəsində sorulan ilk məsələ onun cinsi ilə bağlıdır: yəni görəsən şeytan hansı qism və ya hansı növ varlığa aid edilir? Bəlkə də şeytan başqa növ məxluqdan fərqlənən özünəməxsus bir varlıq olaraq tanınır.

İslam alimləri Quran ayələrində şeytanla bağlı söylənilən fikirləri iki qismə ayırmışlar:

1. Bir sıra islam alimlərinin əqidəsincə, şeytan bir növ cin cinsindən olan məxluqdur. Cinlər iki sifətə malikdir: bir qismi mömin, o biri qismi isə kafir olur.

Bir Quran ayəsində bu dəstə haqqında belə deyilir:

Kəhf surəsi, 50-ci ayə:

*(Ya Məhəmməd!) Xatırla ki, bir zaman mələklərə: "Adəmə (təzim məqsədilə) səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən (cin tayfasından) idi. O öz Rəbbinin əmrindən çıxdı. İndi siz Məni qoyub onu və övladını özünüzə dostmu tutursunuz? Bu, zalimlər üçün necə də pis dəyiş-düyüşdür!*

2. Başqa bir dəstə belə fikirləşir ki, şeytan mələk cinsindəndir. Quran mələklərə səcdə əmri verdikdə, hamısı Adəmə səcdə edir, təkcə iblis boyun qaçırır. Mələklərə səcdə əmri verildiyi üçün, bu arada şeytan onların arasında olduğundan səcdə etmir. Məlum olur ki, o mələk cinsindəndir. Qurani-kərim bu barədə belə buyurub:

Hicr surəsi, 28-30-cu ayələr:

*(Ya Məhəmməd!) Xatırla ki, bir zaman Rəbbin mələklərə belə demişdi: "Mən quru və qoxumuş (dəyişib başqa şəklə düşmüş) qara palçıqdan insan yaradacağam!*

*Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!"*

*Bundan sonra mələklər ona (təzim məqsədilə) səcdə etdilər.*

Şeytan barəsində bu sayaq düşünən alimlər "Nəhcül-bəlağə"yə əsaslanaraq öz fikirlərini təsdiq etməyə çalışırlar. Qasiə xütbəsində İblis mələk sözü ilə xatırlanır. Əgər şeytan mələk cinsindən olmasaydı, Həzrəti-Əli (ə) onu bu adla çağırmazdı. Bu alimlər Kəhf surəsi, 5-ci ayədə şeytanın cin cinsindən olması barədə söylənən fikri belə izah edirlər ki, cin və mələklər bir həqiqətdən ibarətdir. Onlar arasında əsas fərq budur ki, mələklər üstün və yüksək keyfiyyətlərə, cinlər isə aşağı və alçaq xüsusiyyətlərə malikdir [92].

Bu iki dəstənin nəzəriyyəsini araşdırarkən demək lazımdır ki, birinci dəstənin baxışları düzgündür. İkinci dəstənin nəzəriyyəsi isə Quran ayələri baxımından məqbul sayıla bilməz. İndi bunun dəlillərini açıqlamağa çalışaq.

***Əvvələn***, Quran ayələri açıq-aydın bildirir ki, şeytan cin cinsindəndir.

***İkincisi***, Quran ayələrində şeytan küfrə və günaha batmış məxluqdur, halbuki heç bir yerdə mələklər barədə küfr və günah anlamı işlənməyib.

Qurani-kərimdə, bir qayda olaraq, mələklər ehtiram və təriflə yad edilir, onların məqamı uca tutulur, lakin əksinə olaraq şeytan rədd edilir və pislənir.

***Üçüncüsü***, Qurani-kərimdə şeytan və cin üçün nəsil davamı nəzərdə tutulur, lakin mələklərin övlad və nəsli heç vaxt xatırlanmır.

***Dördüncüsü***, Qurani-kərim həmişə şeytanı insanın düşməni bilmiş; halbuki mələklər heç vaxt insan üçün düşmən sayıla bilməz.

***Beşincisi***, Bəqərə və Hucurat surəsindəki ayələrə görə mələklərə və şeytana səcdə əmri verilir. Bu o demək deyildir ki, şeytan da mələklərin cinsindəndir. Mələklər və şeytan Allaha yaxın bir məqamda olmuşlar və ona görə hər iki zümrəyə səcdə əmri verilir. Qasiə xütbəsində şeytanın həmin məqamına görə məcazi mənada o, "mələk" deyə

yad edilmişdir. "Nəhcül-bəlağə"də (192-ci xütbədə) deyilir ki, şeytan 600 min il Allaha ibadət etmişdir.

## Şeytanın iki növü

Qurani-kərimdə iki növ şeytanlar haqqında bəhs edilmişdir – yəni şeytanlar iki qismdir:

1. İns (bəşər) növündən olan şeytanlar;
2. Cin növündən olan şeytanlar.

Quran ayəsində bu barədə belə deyilir:

Ənam surəsi, 112-ci ayə:

*Beləcə, Biz hər bir peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!*

Ənam surəsi, 113-cü ayə:

*(İnsanlardan və cinlərdən olan şeytanlar bu təmtəraqlı sözləri) axirətə inanmayanların ürəkləri onlara meyl etsin, onlar həmin sözlərdən xoşlansınlar və gördükləri çirkin işləri bir daha görsünlər deyə, təlqin edərlər.*

Bu ayələrdə "şeytan" sözü həm də mürtəd və imansız adamlara aid edilir. Başqa sözlə desək, şeytan ümumiləşmiş bir addır və bu ad Allahın qoyduğu hüdudları keçən və azğın insanlara şamil edilir. Küfrə düçar olan cinlər də şeytan adlanır. Ayələrdən göründüyü kimi, şeytan və azğınlar eyni zümrə kimi tanınır. Bu arada, "iblis" sözünün də məna seçimi vardır; bu isə Adəmə səcdə etməkdən boyun qaçıran məxluqa aid edilir. İblis cinlər zümrəsindən olub və Allaha pərəstiş etməyə boyun əyməyib.

## Şeytan – rədd edilmiş bir varlıq kimi

Şeytan Allahın əmrinə boyun əymədiyinə görə rədd edilmiş varlıq sayılır. Quran ayəsinə görə Allah Adəmə səcdə etməyi əmr edir, lakin şeytan bu fərmandan boyun qaçırır.

İsra surəsi, 61-ci ayə:

*Yenə yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" – deyə əmr etmişdik. İblisdən başqa hamısı səcdə etmişdi. (İblis:) "Sənin palçıqdan yaratdığına mən səcdə edərəmmi?!" – demişdi.*

Bəs nə üçün şeytan Allahın əmrinə boyun əymir? Bu məsələnin mahiyyəti Qurani-kərimdə verilib. Allah İblisdən bu barədə sual edir: – Niyə Adəmə səcdə etmədin? Cavab belə olur: Çünki mən oddan yaranmışam, insan isə torpaqdan. Mən insandan üstünəm və məndən aşağı olan varlığa baş əyə bilmərəm.

Bu yöndə bəzi ayələri izləyək:

Əraf surəsi, 12-ci ayə:

*Allah İblisə: "Mən sizə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" – deyə buyurdu. İblis: "Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" – dedi.*

Hicr surəsi, 33-cü ayə:

*(Şeytan) dedi: "Sənin quru və qoxumuş qara palçıqdan yaratdığın insana səcdə etmək mənə yaraşmaz!" (Adəmə səcdə etmək mənim üçün düz olmaz, çünki mən oddan yaranmışam. Od isə torpağı yandırdığına görə ondan üstündür!)*

İsra surəsi, 61-ci ayə:

*Yenə yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" – deyə əmr etmişdik. İblisdən başqa hamısı səcdə etmişdi. (İblis:) "Sənin palçıqdan yaratdığına mən səcdə edərəmmi?!" – demişdi.*

Şeytan doğrudan tarixdə ilk nasionalist kimi qələmə verilə bilər. Çünki o, üstünlük məsələsini cins və irqə bağlayır. Şeytanın Allah tərəfindən rədd edilməsinin

kökünü isə onun təkəbbürlü olmasında axtarmaq gərəkdir. O, təkəbbürlü və özünü üstün tutan lovğa bir məxluq olaraq həm Allahın əmrinə

itaət etməkdən boyun qaçırmış, həm də başqalarını düz yoldan sapındırmışdır.

Quran ayələri bu barədə belə deyir:

Bəqərə surəsi, 34-cü ayə:

*(Ya Peyğəmbər!) Biz mələklərə: "Adəmə səcdə edin!" – dedikdə İblisdən başqa hamısı səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu.*

Sad surəsi, 73-76-cı ayələr:

*Buna görə də mələklərin hamısı birlikdə (Adəmə) səcdə etdi: Yalnız İblisdən başqa! O (səcdə etməyə) təkəbbür göstərdi və kafirlərdən oldu.*

*(Allah) buyurdu: "Ey İblis! Sənə Mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?"*

*(İblis) dedi: "Mən ondan daha yaxşıyam (daha üstün, daha şərəfliyəm). Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!"*

Bəs İblisin rədd edilməsi nə ilə nəticələndi?

Şeytan Allahın əmri ilə rədd edildikdən sonra Allahın qəzəbinə düçar oldu və Haqqın bargahından qovuldu. Quran ayələrinə görə, şeytan Allahın əmri ilə qovulduqdan sonra öncə Haqqın dərgahına yaxın məqamdan aşağıya endirilir.

Əraf surəsi, 13-cü ayə:

*Allah buyurdu: "Ordan (Cənnətdən) aşağı en. Orada sənə (Allahın əmrinə) təkəbbür göstərmək yaramaz. Oradan çıx, çünki sən alçağın birisən!"*

Sad surəsi, 77-ci ayə:

*(Allah) buyurdu: "Çıx oradan (Cənnətdən). Sən, həqiqətən, (Mənim rəhmətimdən, dərgahımdan) qovulmusan!"*

Hicr surəsi, 34-cü ayə:

*(Allah) buyurdu: "Cənnətdən (və ya səmalardan) çıx. Sən məlunsan! (Dərgahımdan qovulmuş və rəhmətimdən kənar edilmişsən!)*

Şeytan uca məqamdan qovulmaqla yanaşı Allahın lənətinə gəlir:

Hicr surəsi, 35-ci ayə:

*"Sən qiyamət gününə qədər lənətlənmişsən!"*

Sad surəsi, 78-ci ayə:

*"Qiyamət gününə qədər Mənim lənətim sənin üstündən əskik olmasın!"*

Şeytan Allah tərəfindən qovulduqdan və lənətləndikdən sonra Cəhənnəmdə həmişəlik əzaba düçar olur:

Əraf surəsi, 18-ci ayə:

*Allah buyurdu: "Oradan (Cənnətdən) rüsvay olmuş və (mərhəmətimdən) kənar edilmiş (qovulmuş) halda çıx. Onlardan (insanlardan) hər kim sənə uysa, (cəzasını alacaq). Əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam!"*

Sad surəsi, 85-ci ayə:

*"Mən mütləq Cəhənnəmi səninlə və sənin ardınca gedənlərlə (sənə uyan Adəm övladı ilə) dolduracağam!"*

İsra surəsi, 63-cü ayə:

*(Allah) buyurdu: "Çıx get! (Sənə qiyamətə qədər möhlət verdim!) Onlardan hər kəs sənə uysa, (bil ki,) cəzanız Cəhənnəmdir. Özü də tamam-kamal bir cəza!"*

İblislə bağlı başqa bir məqam onun Allahdan möhlət istəməsidir. O, qovulduqdan sonra qiyamətə qədər möhlət istəyir. Allah da ona qiyamətə kimi möhlət verir və İblis öz istədiyi əməlləri edir.

Əraf surəsi, 14-15-ci ayələr:

*İblis dedi: "Mənə qiyamətə qədər möhlət ver!"*

*Allah buyurdu: "Sən möhlət verilənlərdənsən!"*

hicr surəsi, 36-38-ci ayələr:

*(İblis) dedi: "Ey Rəbbim! İnsanların (qəbirlərindən qalxıb) diriləcəkləri günə (qiyamətə) qədər mənə möhlət ver!"*

*(Allah) buyurdu: "Sən möhlət verilənlərdənsən".*

*Ancaq məlum vaxta (İsrafil surunu birinci dəfə çalana və bütün məxluqat məhv olana) qədər!*

Şeytanın möhlət istəməkdə məqsədi insanları Allahın düz yolundan azdırmaq olur.

<u>Hicr surəsi</u>, 39-cu ayə:

*(İblis) dedi: "Ey Rəbbim! Məni azdırmağına (rəhmətindən kənar etməyinə) and içirəm ki, mən də insanlara (pis əməllərini, günahlarını) Yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam!*

<u>Sad surəsi</u>, 79-82-ci ayələr:

*(İblis) dedi: "Ey Rəbbim! Qiyamət gününə qədər mənə möhlət ver!"*

*(Allah) buyurdu: "Sənə möhlət verildi,*

*(Dərgahımda) vaxtı məlum olan günə (qiyamətə) qədər!"*

*(İblis) dedi: "Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm övladının) hamısını (haqq yoldan) azdıracağam;*

<u>Əraf surəsi</u>, 16-cı ayə:

*İblis dedi: "Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacağam!*

Bu ayəyə görə şeytan cəbr və zorakılıq məktəbinin banisidir və öz zorakılığını

Allaha aid etməyə cəhd göstərir. Allahdan möhlət istəməklə insanları azdırır. Bu isə bəşər üçün bir ilahi sınaqdır, belə ki, sadiq bəndələr yoldan azmazlar.

<u>Hicr surəsi</u>, 40-cı ayə:

*Yalnız Sənin sadiq bəndələrindən başqa!"*

<u>Sad surəsi</u>, 83-cü ayə:

*Yalnız Sənin sadiq bəndələrindən başqa!"*

İsra surəsi, 65-ci ayə:

*Doğrusu, Mənim (mömin) bəndələrim üzərində sənin heç bir hökmranlığın ola bilməz. Rəbbinin vəkil olması (sənin şərindən və vəsvəsəndən onları qoruması) üçün kifayət edər!*

## Şeytanın başqa xüsusiyyətləri

Qurani-kərimdə şeytanın bir sıra xüsusiyyətləri vurğulanır ki, burada onların yığcam açıqlamasını veririk.

1. Şeytan Allaha qarşı küfr edən bir məxluqdur və Qurani-kərim onu kafirlər sırasına daxil edir.

Bəqərə surəsi, 102-ci ayə:

*Yəhudilər Süleymanın səltənətinə (şahlığına) dair şeytanların oxuduqlarına (sehr kitablarına) uydular. Süleyman (bu kitablara uymadığı üçün) kafir olmadı, lakin şeytanlar (bildikləri) sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular.*

Şeytanın küfrü onun Allah fərmanına etiraz etməsindən irəli gəlir.

Məryəm surəsi, 44-cü ayə:

*Atacan! Şeytana ibadət etmə. Həqiqətən, Şeytan Rəhmana (Allaha) çox asi olmuşdur!*

2. Şeytan təkəbbürlü və Allahın dərgahından qovulmuş bir məxluqdur.

hicr surəsi, 34-cü ayə:

*(Allah) buyurdu: "Cənnətdən (və ya səmalardan) çıx. Sən məlunsan! (Dərgahımdan qovulmuş və rəhmətimdən kənar*

*edilmişsən!)"*

Sad surəsi, 77-ci ayə:

*(Allah) buyurdu: "Çıx oradan (Cənnətdən). Sən, həqiqətən, (Mənim rəhmətimdən, dərgahımdan) qovulmusan!*

3. Şeytan insanın qədim düşmənidir.

Əraf surəsi, 22-ci ayə:

*Beləliklə, Şeytan onları batil sözlərlə aldatdı (onları aldadaraq uca yerlərdən, yüksək mərtəbələrdən aşağı endirdi). Adəm və Həvva ağacın meyvəsindən daddıqda ayıb yerləri (gözlərinə) göründü. Onlar Cənnət (ağaclarının) yarpaqlarından (dərib) ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu ağaca (yaxınlaşmağı) qadağan etməmişdimmi? Şeytan sizin aşkar düşməninizdir, deməmişdimmi?"*

Yusif surəsi, 5-ci ayə:

*(Atası Yəqub) dedi: "Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki Şeytan insanın açıq düşmənidir".*

Qəsəs surəsi, 15-ci ayə:

*Musa onu (əli, yaxud əsası ilə) vurub öldürdü və dedi: "Bu şeytan əməlindəndir. Həqiqətən, o, (insanı haqq yoldan) azdıran açıq-aşkar bir düşməndir!"*

4. Şeytan insanları xar edər və alçaldar.

Furqan surəsi, 29-cu ayə:

*And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər).*

5. Şeytan tərəfdarlarını bərk qorxudar.

Ali-İmran surəsi, 175-ci ayə:

*Sizi yalnız o Şeytan öz dostlarından (guya onların çox qüvvətli olmasıyla) qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun!*

6. Şeytan insanları öz əməlləri ilə əzab-əziyyətə düçar edər.

Sad surəsi, 41-ci ayə:

*(Ya Peyğəmbər!) Bəndəmiz Əyyubu da yad et! Bir zaman o öz Rəbbinə müraciətlə belə demişdi: "Şeytan mənə bəla və əzab toxundurmuşdur!"*

## Şeytanın insanları azdırması

Şeytanın insanları düz yoldan azdırmaqdan savayı başqa bir hədəfi yoxdur. O, müxtəlif yollarla insanları kamillik və irşad yolundan sapındırmağa çalışır. Quran ayələrinə görə, şeytan bütün tərəflərdən insana hücum edərək onu yoldan çıxarır.

Bu ayələrə diqqət yetirək:

Əraf surəsi, 16-17-ci ayələr:

*İblis dedi: "Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacağam!*

*Sonra onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükr edən görməyəcəksən!"*

Burada arxa, ön, sağ və sol cəhətlərdən bəhs edilir, lakin həmin anlam başqa məna daşıyır. İmam Bağır (ə) haqqında bir hədisdə belə deyilir:

"Şeytanın qabaq tərəfdən insanın sorağına gəlməsi o deməkdir ki, axirət və qarşıya gələn dünyanı onun nəzərində yüngül və sadə göstərsin. Arxadan gələrək insanları mal-dövlət toplamağa, başqalarının haqqını ödəməkdən vaz keçərək öz varislərinə və övladlarına miras yığmağa dəvət edir. Sağ tərəf dedikdə mənəvi işləri şəkk-şübhə toxumu səpərək zaye edir. Sol tərəf dedikdə insanları şəhvət və maddi ləzzətlərə şirnikləndirir" [93].

Burada şeytanın insanları azdırmaq üçün hansı yollara əl atması barədə bir neçə kəlmə demək lazım gəlir.

1. Şeytan insanları azdırmaq üçün onların pis əməllərini öz gözlərində yaxşı və gözəl kimi göstərir. İblis Allah rizasına zidd olan şeyləri də insan üçün gözəl göstərir. İnsan aldanaraq bu sayaq pis işlər görür. Şeytan mənfi işləri insan üçün bər-bəzəkli pərdə üzrə göstərir, nəticədə insan Allahın halal buyurduğu işlərdən vaz keçərək haram işlərə qurşanır.

Bu yöndə bir neçə ayəni nəzərdən keçirək.

Ənam surəsi, 43-cü ayə:

*Barı əzabımız onların başlarının üstünü alanda yalvaraydılar. Lakin etdikləri əməlləri Şeytan onlara süslü göstərmişdi.*

Ənfal surəsi, 48-ci ayə:

*O zaman (Bədr günü) Şeytan onlara öz əməllərini gözəl göstərib demişdi: "Bu gün insanlar içərisində sizə qalib gələ biləcək bir kimsə yoxdur. Mən də sizin pənahınız, dadınıza çatanam!" Lakin iki dəstə üz-üzə gəldiyi zaman dönüb qaçaraq: "Mənim sizinlə heç bir əlaqəm yoxdur. Mən sizin görmədiklərinizi (möminlərin köməyinə gələn mələkləri) görürəm. Mən Allahdan qorxuram. Allah (Ona asi olanlara) şiddətli əzab verəndir!" – demişdi.*

Nəml surəsi, 24-cü ayə:

*Mən onun və tayfasının Allahı qoyub Günəşə sitayiş etdiklərini gördüm. Şeytan (çirkin) əməllərini onlara gözəl göstərmiş, onları doğru yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər.*

2. Şeytan öz vəsvəsəsi ilə insanları yoldan azdırır. Adəm (ə) haqqında bəhs edilən qissədə, şeytan insanı öz vəsvəsəsi ilə aldadır.

Taha surəsi, 120-ci ayə:

*(Allahın bütün bu xəbərdarlığından sonra) şeytan Adəmə*

*vəsvəsə edib (pıçıldayıb) belə dedi: "Sənə (meyvəsindən yeyəcəyin təqdirdə heç vaxt ölməyəcəyin və həmişə Cənnətdə yaşayacağın) əbədiyyət ağacını və*

*köhnəlib xarab olmayacaq (fənaya uğramayacaq) bir mülkü göstərimmi?*

Əraf surəsi, 20-ci ayə:

*Şeytan Adəm və Həvvanın örtülü ayıb (övrət) yerlərini özlərinə göstərmək məqsədilə pıçıldayıb dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmadığınız və ya (Cənnətdə) əbədi qalmamağınız üçün qadağan etmişdir". Həm də onlara: "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm" – deyə and içdi.*

Əraf surəsi, 27-ci ayə:

*Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəmi və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxarmasın. Şübhəsiz ki, Şeytan və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin (kafirlərin) dostları etdik.*

3. Şeytan camaat arasında kin-küdurət və düşmənçilik yaradır, onları Allahı zikr etməkdən və namazdan çəkindirir.

Maidə surəsi, 90-91-ci ayələr:

*Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!*

*Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza kin və ədavət salmaq, sizi Allahı zikr etməkdən və namaz qılmaqdan ayırmaq istər. Artıq bu (pis əmələ) son qoyacaqsınızmı?*

İsra surəsi, 53-cü ayə:

*(Ya Məhəmməd!) Bəndələrimə de ki: "(Danışdıqları zaman "La ilahə illallah; yərhəmukəllah; yəğfiru ləkəllah" kimi) gözəl sözlər söyləsinlər. (Və ya müşrikləri imana dəvət edərkən onlarla xoş danışsınlar!)" "Şeytan onların arasına fitnə-fəsad sala bilər. Həqiqətən, Şeytan insanın açıq düşmənidir!"*

Şeytan öz fitnəkar əməlləri ilə insanları Allahdan qafil salır və azdırır.

Yusif surəsi, 42-ci ayə:

*Yusif bu iki nəfərdən nicat tapacağını yəqin etdiyi şərabpaylayana dedi: "Ağanın yanında məni də yada sal!" Lakin Şeytan ona ağasının yanında Yusifi yada salmağı unutdurdu və buna görə də Yusif bir neçə (yeddi və ya on iki) il zindanda qaldı.*

Mucadələ surəsi, 19-cu ayə:

*Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar Şeytanın firqəsidirlər (Şeytana uyanlardır). Xəbəriniz olsun ki, Şeytanın firqəsi – məhz onlar, ziyana uğrayanlardır!*

4. Şeytan Haqqa qarşı mübarizə aparır və bununla da insanları kamal və inkişafdan saxlayır.

Ənam surəsi, 121-ci ayə:

*Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün (çirkin fikirlər və yaramaz əqidələr) təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız.*

5. Şeytan insanları yoldan azdırmaq üçün onlara boş-boş vədlər verir və nəfsə tabe olanlar şeytana aldanırlar.

Nisa surəsi, 120-121-ci ayələr:

*Şeytan müşriklərə vədlər verir, ürəklərində arzular oyadır. Lakin Şeytan onlara yalnız yalan vədlər verir.*

*Onların (Şeytana uyanların) yeri Cəhənnəmdir. Və oradan xilas olmağa çarə tapmazlar.*

6. Şeytan insanları pis işlərə və mənfi əxlaqa təhrik edir, haqq yolunda öz sərvətini xərcləmək istəyənləri bu işdən çəkindirir.

Bəqərə surəsi, 268-ci ayə:

*Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər, Allah isə (əksinə) sizə bağışlanmaq və bərəkət*

*vədəsi verər. Allahın mərhəməti genişdir. Allah hər şeyi biləndir!*

Bəqərə surəsi, 269-cu ayə:

*Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!*

7. Şeytan və onun yolu ilə gedənlər insanları aldatmaq üçün sehrbazlığı təlim edirlər. Sehr ilə insanı düz yoldan azdıran şeytandır.

Bəqərə surəsi, 102-ci ayə:

*Yəhudilər Süleymanın səltənətinə (şahlığına) dair şeytanların oxuduqlarına (sehr kitablarına) uydular. Süleyman (bu kitablara uymadığı üçün) kafir olmadı, lakin şeytanlar (bildikləri) sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki, o iki mələk: "Biz (Allah tərəfindən göndərilmiş) imtahanıq (sınağıq), sən gəl kafir olma!" – deməmiş heç kəsə (sehr) öyrətmirdilər. (Bununla belə) yəhudilər yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar (sehrbazlar) Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar (yəhudilər) ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar (yəhudilər) belə şeyləri satın alanların (Allahın kitabını şeytan əmməlləri ilə mübadilə edənlərin) axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!*

8. Şeytan insanları düz yoldan azdırmaq üçün həmişə mənfi yollardan istifadə etməklə kifayətlənmir, bəzən özünü insanlara xeyirxah göstərməklə onları aldadır.

Əraf surəsi, 21-22-ci ayələr:

*Həm də onlara: "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm", – deyə and içdi.*

*Beləliklə, Şeytan onları batil sözlərlə aldatdı (onları aldadaraq uca yerlərdən, yüksək mərtəbələrdən aşağı endirdi).*

## Allahın şeytana möhlət verməsinin fəlsəfəsi

Burada belə bir sual ortaya çıxır:

– Allah nə üçün şeytana möhlət verir?

– Məgər Allah şeytanın insanları doğru yoldan azdıracağını bilmirdimi?

– Allah şeytanın hansı məqsədlə möhlət istədiyini bilirdisə, onu aradan qaldırmaq əvəzinə, nə üçün şeytana bir çox adamları doğru yoldan azdırmaq məqsədilə möhlət verdi?

Bu suallara cavab verən Qurani-kərim bildirir ki, şeytan yeganə vəsvəsə yaradan məxluqdur. Şeytan insanların iradə və azadlığını, onların yaxşı və pisi bir-birindən ayırd etmək istedadını onların əlindən almağa qadir bir məxluq deyildir. Allah insana iradə verib və bu iradə ilə o, şeytana tabe olmalı deyil.

İbrahim surəsində deyildiyi kimi, şeytan qiyamət günü qeyri-saleh əməl sahibi olan bəndələrə belə söyləyəcək:

İbrahim surəsi, 22-ci ayə:

*İş bitdikdə (Cənnətliklər Cənnətə, Cəhənnəmliklər də cəhənnəmə daxil olduqda) Şeytan (onu məzəmmət edən kafirlərə) belə deyəcək: "Allah (peyğəmbərlər vasitəsilə) sizə (pis əməllərinizə görə Cəhənnəmə düşəcəyiniz barədə) doğru vəd vermişdi. Mən də sizə (kömək edəcəyim haqda) vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hakimiyyətim (sizi özümə tabe edə biləcək heç bir qüdrətim) yox idi. Lakin mən sizi (günah işləməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə (dünyada) sizin məni*

*Allaha şərik qoşmağınızı da inkar etmişdim (qəbul etməmişdim). Həqiqətən, zalimləri şiddətli bir əzab gözləyir!"*

Əraf surəsi, 27-ci ayə:

*Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəmi və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, Şeytan və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin (kafirlərin) dostları etdik.*

Qurani-kərim baxımından, şeytan yalnız imanı kamil olmayanları yoldan çıxara bilər. Şeytan yalnız qeyri-səmimi və riyakarlar üzərində hökmranlıq edər, onları öz nüfuzuna sala bilər. Pak iman və ixlas sahiblərinin qəlbinə heç bir şeytan vəsvəsəsi yol açmaz. Çünki belə iman sahiblərinin ruhu yenilməz və şeytan vəsvəsəsi onların ruhuna nüfuz etməyə qadir deyildir.

Sad surəsi, 82-83-cü ayələr:

*(İblis) dedi: "Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm övladının) hamısını (haqq yoldan) azdıracağam;*

*Yalnız Sənin sadiq bəndələrindən başqa!"*

Hicr surəsi, 40-cı ayə:

*Yalnız Sənin sadiq bəndələrindən başqa!"*

İsra surəsi, 65-ci ayə:

*Doğrusu, Mənim (mömin) bəndələrim üzərində sənin heç bir hökmranlığın ola bilməz. Rəbbinin vəkil olması (sənin şərindən və vəsvəsəndən onları qorumağı) kifayət edər!*

Şeytan insanları vəsvəsə ilə aldadır və yoldan çıxarır, lakin sadiq və xalis iman sahibləri şeytana uymaz.

Hicr surəsi, 42-ci ayə:

*Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində (onları yoldan çıxarıb günaha vadar etməyə) sənin heç bir hökmün olmaz!*

Bu ayə açıq-aydın bir məsələ barədə xəbərdarlıq edir: insanları düz yoldan çıxaran şeytan deyil, azğın və çaşqın insanlar öz iradə və ixtiyarı ilə şeytanın dəvətini qəbul edir, onun yolu ilə getməyi özlərinə rəva bilirlər.

Başqa sözlə desək, şeytan insanları pis işlərə vadar edə bilməz; şeytan bir növ öz vəsvəsəsi ilə pis işləri iradəsiz insanların nəzərində gözəl kimi cilvələndirir. Onlar belə bir təsir altında yoldan çıxırlar. Yoxsa pak və iradəli adamlar vəsvəsəyə uymazlar və şeytan vəsvəsəsi yaxınlaşsa, onu özlərindən uzaqlaşdırarlar.

Nəhl surəsi, 98-100-cü ayələr:

*(Ya Məhəmməd!) Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın! (Əuzu billahi minəş-şeytanir-rəcim sözlərini de!)*

*Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur!*

*Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir! (İnsanların Allaha şərik qoşmalarının əsas səbəbi onların Şeytana itaət etmələri, Şeytanı özlərinə dost, havadar seçmələridir!)*

Bunun ardınca başqa bir sualın cavabını izah etməyə çalışaq – yəni Allah nə üçün insanı vəsvəsəyə salan şeytanı yaratmışdır? Bu sualın cavabı belədir: Əvvələn, Allah şeytanı bu sayaq yaratmayıb – yəni onu dikbaş və rədd edilmiş məxluq olaraq xəlq etməyib. Allah şeytanı başqa varlıqlar kimi xeyir niyyətlə yaradıb və ona da iradə və ixtiyar azadlığı verib. Lakin şeytan bu azadlıqdan sui-istifadə edərək illər uzunu ibadətdən sonra, özünü Haqqın dərgahından qovdurdu, şeytanın xilqəti şərdən deyil, xeyirdən olub və o, bir müddət Allaha yaxın mələklərlə birgə olub. İkincisi, insan o zaman yüksək kamal mərtəbəsinə yetişə bilər ki, onun yolu üzərində çoxsaylı

maneələr olsun. İnsan bu maneələri keçməklə həmin zirvəyə ucala bilər. Deməli, şeytan da öz vəsvəsəsi ilə insan qarşısında belə maneələr yaradır, bunlar bəşər üçün bir sınaqdır. O, haqq yolunda olan şeytan vəsvəsələrini Allaha arxalanmaqla dəf edə bilər. Bəşər Allahın ona bəxş etdiyi iradə və ixtiyar ilə bu vəsvəsəni öz yolundan götürür və ali hədəfə doğru irəliləyir. Əgər insan qarşısında nə şeytan vəsvəsəsi, nə də əmmarə nəfsin fəsadları olmasaydı, onun təkamülə ehtiyacı olmazdı və belə həyatın ali məqsədi və mənası da ola bilməzdi.

# YEDDİNCİ FƏSİL
# VARLIQ ALƏMİNİN DÜZƏNİNDƏKİ GÖZƏLLİK

## Ümumi baxışlar

Varlıq aləmi barədə bəhs edilən mövzulardan biri də bu aləmin quruluş və düzəninin necə olmasıdır. Burada belə bir sual qoyulur: dünya düzəni gözəl və ahəngdar şəkildə qurulub, yoxsa yox? Bu düzən mümkün ola biləcək ən yaxşı, yoxsa əksinə ən pis düzəndir? Dünyada xeyir və şər, yaxşı və pis tərəflər vardır. Əgər dünyada şər məfhumu vardırsa, biz bu düzəndə gözəllik axtara bilərikmi və ümumiyyətlə dünyanı gözəl və ahəngdar adlandırmaq olarmı?

Bəşər mədəniyyətini təhqiq edən mütəfəkkirlər qədim zamanlardan bu barədə bəhs etmiş və təhlil aparmışlar. Bu sırada iki mövqeyə rast gəlmək olur:

A. Bir dəstə nikbinlik (optimizm) fəlsəfi baxışlarına malik olan mütəfəkkirlərdir ki, onlar dünyada baş verənlərə və kainatın özünə nikbin bir mövqedən baxırlar. Onlar dünyadakı pislik və eybəcərliyi inkar edirlər. Sonra isə belə bir fikir irəli sürürlər ki, dünyadakı xeyir meyllər şər cəhətlərə üstün gəlir. Onların nəzərincə son qələbə və uğur xeyir tərəfdə olmalıdır. Dərdlər və əzablar bir növ nisbi və keçici işlərdir, bunlar istər-istəməz ötüb keçəcəklər.

B. Başqa bir dəstə isə bədbinlik (pessimizm) fəlsəfi cərəyanının tərəfdarlarıdır və varlıq aləmini pislik və eybəcərlik mövqeyindən görürlər. Onlar həyatın təkcə pislik və əzablarını qabardır və xeyirin qələbəsinə ümid bəsləmirlər. Hətta belə fikir irəli sürürlər ki, varlıqda olan gerçək nə varsa şərdir. Deməli, dünyadakı xeyir işlər müvəqqəti və ötəridir, şər və fəsad isə varlıq dünyasında həmişəlik qalandır.

Varlıq dünyasının düzəni barədə bəhs edən alim və mütəfəkkirlərin bir qisminin fikir və mülahizələri maraqlıdır. Qədim mədəniyyətlərdən danışarkən Buddanın adını çəkmək olar. Budda təliminə görə insanların həyatı başdan-başa dərd və əzabdır. Bu barədə belə deyilir:

"Doğulmaq əzabdır, qocalıq əzabdır, xəstəlik əzabdır, ölüm əzabdır; əziz və yaxın adamlardan uzaq düşmək ağrılı və çətindir, əzizlərlə qiyamətdə bir yerə toplanmaq əzabdır, arzulara yetişmək əzabdır" [94].

Mani təliminə görə mövcud dünyanı yaradan zülmət tanrısıdır, çünki düzgünlük və yaxşılıq tanrısı dərd və əzab dolu bu dünyanı yarada bilməzdi. Bəzi tədqiqatçıların nəzərincə Mani təlimindəki bədbinliyin kökünü qnostisizmdə axtarmaq lazımdır. Xristianlıqdan sonra yayılan həmin baxışda dünyada şərin hökmranlıq sürməsi məsələsi qoyulurdu. Həmin ideyanın ardıcılları belə bir əqidəyə malik idilər ki, varlıq aləmini Allah yaratmayıb, çünki bu dünya dərd, əzab, şər və fəsadla doludur. Xeyir Allahı belə bir eybəcər dünyanı yaratmazdı.

Qnostiklərin əqidəsincə, varlıq mərtəbələrində Allahdan sonra eonlar yerləşir və dünyanı həmin eonlar xəlq edib. Böyük Tanrı eonlardan birini gözəl və yaxşı dünya yaratmağa təyin edib. Lakin həmin eon özünü Allahın canişini etdi və başdan-başa dərd və əzabla dolu bu dünyanı yaratdı.

Qədim yunan filosofları arasında Platon isə dünya düzənini gözəl və ahəngdar bir proses kimi qiymətləndirib.

Onun fikrincə, aləmi yaradan hamıdan üstün və yaxşıdır. Heç bir kəs də Ondan mükəmməl və gözəl bir dünya yarada bilməzdi. Platon öz "Timaos" adlı traktatında belə yazır:

"Həqiqət bundan ibarət olub və elə bu sayaq da var: dünyanı hamıdan yaxşı və üstün olan Xaliq yarada bilərdi. O elə yaradıb ki, hər kəsdən gözəl yaradıb" [95].

Epikür fəlsəfəsində isə dünya düzəninin gözəlliyi barədə tezis məqbul deyildir, çünki bu təlimdə insan hər bir gözəlliyin meyarı sayılır və dünyadakı gözəl düzən də bu meyara əsaslanır. Epikürə görə eyblər və naqisliklər də insan həyatındadır. Dünya düzənini isə gözəl hesab etmək olmaz. Onun davamçılarından biri Lukersius belə yazırdı: "Belə bir təsəvvür yaranmışdır ki, xilqətdə olan fayda və mənfəəti, Allahın dünyanı idarə etməsini bütün dünya və buradakı varlıq nümunələrində müşahidə etmək mümkündür. Bu təsəvvürlər tamamilə həqiqətdən uzaqdır. Dünya heç vaxt insan xatirinə Allahın iradəsi ilə yaranmayıb, yoxsa dünyada bu qədər eyblər və nöqsanlar olmazdı" [96].

Stoizm fəlsəfəsi təliminin tərəfdarları isə əksinə dünya nizamında olan gözəlliyi təsdiq etmişlər. Markus bu barədə belə söyləyir ki, qarşıya nə gəlirsə xeyirdir. Onların baxışları tənqidə məruz qalmışdır. Stoiklər isə həmin tənqidlərə cavablar vermişlər. Bunların bir hissəsini diqqətə çatdırmaq istərdik:

"Dünyanın qayəsinin səbəbləri barədə stoiklərin söylədikləri fikirlər və bu səbəbin Allahın iradəsi kimi qələmə verilməsi müxaliflər tərəfindən şübhəyə alındı və həmin baxışlar tənqidə məruz qaldı. Onların iradları şər məsələsindən başlayır. Stoiklərin əleyhdarları belə söyləyirlər ki, biz təbiətin çoxlu zərərli bitkilər və ziyanlı heyvanlarla dolu olduğunu görürük. Hər gün dünyada qorxunc və dəhşətli hadisələrin baş verdiyini görürük: ən eybəcər xəstəliklər, tufan və fəlakətlər, qanlı müharibələr,

təlatümlü inqilablar və s. dünyanı bürüyür. Bəs bu qədər şər haradandır?

Əgər ilahi iradə dünyada həmişə xeyir qaynağıdırsa, həmin iradə nə üçün kainatda baş verən şər hadisələrin qarşısında səhlənkarlıq edir?

Lakin stoiklər bu iradlara cavab verir və öz fikirlərini dəlillərlə əsaslandırmağa çalışır. Onların dəlilləri isə Platon və davamçıları tərəfindən məqbul sayılır. Bu dəlillər nədən ibarətdir?

Birinci cavab budur ki, dünya təzadlı proseslərlə əhatə olunub. Heç bir şey onun əks tərəfi, zidd tərəfi olmadan mövcud ola bilməz. Doğru və yalan, savab və xəta, ədalət və zülm bir-birini ayırd etmək üçün qoşa dayanır. Birisi olmasa, o birisi barədə bəhs etmək olmaz.

İkinci dəlil odur ki, insan kamil bilgi və idraka malik deyildir. Ziyanlı heyvanların fəlsəfəsi, zərərli bitkilərin hikməti və bu sayaq təzadlı məsələlərin tam təhlili bəşərin fəhmindən xaricdir. Yalnız Zevs tanrısı onları bilir.

Üçüncüsü, yüksək xeyir mövqeyindən, kamillik baxımından dünyada baş verən hadisələrə baxdıqda şərin özü də müəyyən faydanın və xeyirin

müqabilində gəlir.

Dördüncüsü, bəşər həyatında bir çox zərərli hadisələr baş verir ki, bunun səbəbi insanın ağılsız hərəkətlərindədir. İnsan çox vaxt ilahi qanunlara qarşı çıxır, təbiətdəki qanunauyğunluqları nəzərə almadan rəftar edir və şər daha çox cahillikdən doğur, insanın ağılsızlığı bir çox bəlaların üz verməsinə səbəb olur" [97].

Avropa filosofları arasında alman alimi, riyaziyyatçı filosof Vilhelm Nits (1647-1716) başqalarından daha çox dünya düzəni və buradakı ilahi ədalət məsələsi ətrafında bəhs etmişdir. Onun nəzərincə, Allahın yetkin hikmətinə görə, Tanrı sonsuz xeyir qaynağıdır. Allahın hikməti mümkün olan variantlar içərisində ən mükəmməl və ən

gözəl dünya düzəni yaratmışdır. Bu dünyada hər nə varsa, hər nə yaranıbsa ən yaxşı tərzdə yaranıb.

Belə bir sual ortaya çıxır:

Dünya düzəni gözəl və kamildirsə, bəs aləmdə mövcud olan şər işlər haradandır?

Nits bu suala cavab verərkən belə söyləyir ki, dünyada üç növ şər vardır. Biz bunları təhlil etdikdə belə bir nəticəyə gəlirik ki, mövcud dünya düzəni mümkün olanlar arasında ən yaxşısıdır.

Üç şər nədir?

1. Metafizik şər.
2. Fiziki şər.
3. Əxlaqi şər.

Bunların hər birinin qısa izahını verək:

***1. Metafizik şər***

Məxluqda olan ruhi və cismani naqisliklər. Bunların özü məxluqun mövcudluğu üçün lazımi şərtdir. Yəni əgər məxluq eyb və nöqsandan xaric olsaydı daha məxluq olmazdı, çünki kamillik Allaha xasdır, xilqət Xaliqdən aşağı və naqisdir. Xilqətin şərtlərindən biri onda olan naqislikdir.

***2. Fiziki şər***

Maddi varlıqlara xas olan nöqsan və iztirab belə adlanır. Bu da varlığın

şərtlərindən biridir. Ziyan və şər olmasa, insan xeyir və faydanı tanıya bilməz. İnsan yaxşı işin əzabını və zəhmətini çəkməsə, onun xeyir olduğunu bilməz, ona qədir-qiymət verməz.

***3. Əxlaqi şər***

Bu isə insanların öx ixtiyarında olan davranış və əməllərlə bağlıdır – yəni, insan müxtəlif pis və günah işlər etməklə şər törədir. Allah insanlara ağıl və iradə seçimi vermiş, onları hər sayaq pis və günah işlərdən çəkindirmişdir. Bunlarla yanaşı, dünyada rast gəldiyimiz şərlərin hamısı mütləq mənada şər deyildir və bir sıra işlər

vardır ki, onlarda xeyir nişanələri müşahidə edilir. Xeyir işlər şərdən çoxdur.

Bu nəzəriyyə Qərbdə Volter (1694-1778) tərəfindən kəskin tənqid edildi. Volter Allahın hikmətini ən yetkin ilahi hikmət sayır və belə söyləyir ki, bu məsələ heç də o demək deyildir ki, dünyada şər işlər yoxdur. Allahın hikməti əsasdır, şər və pisliklər isə şərti və nisbidir. Dünyada baş verən şər və pisliklər göstərir ki, bizim yaşadığımız dünya mümkün olan dünya sistemləri arasında ən yaxşısı deyildir. Volter bu arada zəlzələ, taun və qıtlıqdan baş verən tələfatı, müharibədən törənən fəlakət və müsibətləri misal olaraq gətirir və belə bir qənaətə gəlir ki, mövcud dünya ən gözəl dünya deyil. O, öz fikirlərini "Sadəlövh" adlı əsərində açıqlamışdır.

## Fəlsəfə baxımından dünya düzəninin gözəlliyi

1. Dünya düzəni iki şərtə uyğun əsaslandırılır: şaquli və üfüqi dünya düzəni.

Şaquli dünya düzəni dedikdə varlıq aləminin Allahla rabitəsi və əlaqəsi nəzərdə tutulur. Başqa sözlə desək, Allah ilə məxluq arasında səbəb-nəticə əlaqəsi vardır. Burada əsas qaynaq və əsl həqiqət Allahdır. Allahın varlıq aləminə münasibəti onu yaratmaqdan irəli gələn münasibətdir. Allah ilə məxluq və təbiət arasındakı fasilədə mələklər vardır. Bunlar Allahın xilqətinin mərhələ və vasitəsidir. Onların bir vəzifəsi vardır: aləmdəki işlərə tədbir görmək və onları idarə etmək. Bu isə bir çox Quran ayələrində, o cümlədən Naziat surəsi, 5-ci ayədə vurğulanır.

Mələklərlə yanaşı, xilqətin yaranış mərhələlərində Ərş, Kürsü, lövh və qələm məfhumları da vardır. Bunlar bir daha təsdiqləyir ki, Allahın xilqətindəki hikmət nizam və qanun-qayda üzrədir. Allahın yaratmaq iradəsi hesab-kitab

əsasında tənzimlənib. Allahın iradəsi əzəldən belə qurulub ki, dünyada baş verənlər və xilqət müəyyən səbəb və dilillərlə əsaslandırılsın. Hədislərdə də deyilir ki, Allahın iradəsi hər bir işin səbəb üzərində qurulduğunu təsdiq edir.

Dünyada müşahidə edilən ikinci düzən üfüqi adlanır – yəni, dünyada varlıq aləminin yaradılışı ilə bağlı olan şaquli düzənlə yanaşı, təbiət aləminə xas olan üfüqi düzən də vardır. Bu düzən təbii hadisələr arasındakı ardıcıl əlaqələri əks etdirir və buna riyazi düzən də deyilir. Təbiət aləmində yaranan hər bir hadisə bir sıra şərtlərlə bağlıdır və həmin şərtlər bu hadisələrin yaranmasına səbəb olur. Məsələn, ata-ana olmadan övlad dünyaya gəlməz. Hər hansı bir bitkinin cücərib böyüməsi üçün münasib mühit – su, hava və torpaq lazımdır.

Varlıq aləminin mahiyyəti elə şəkildə düzənlənmişdir ki, buradakı şaquli və üfüqi münasibətlər varlığın öz substansiyasından doğur. Xilqətin zatında bu münasibətlər təbii haldır. Dünyanın və kosmoloci qurumun mahiyyətində olan bir çox şübhəli və qaranlıq məqamların izahı üçün kainat düzənindəki münasibətləri dərk etmək lazımdır.

Deməli, xilqət aləmində hər nə baş verirsə, səbəb-dəlil üzrə baş verir və burada səbəb-nəticə əlaqəsi özünü göstərir.

Səbəb-nəticə əlaqəsində isə üç əsas prinsip diqqəti cəlb edir:

1. Hər bir nəticənin (hadisənin) səbəbi vardır.

2. Səbəb və nəticə arasındakı münasibət zəruriyyət əlaqəsi üzrə gerçəkləşir.

3. Səbəb və nəticə arasında eyni mənşəli münasibət vardır.

Birinci prinsipə görə, dünyada heç bir şey və hadisə öz-özünə yaranmır və  baş vermir. hadisələrin törəməsi təsadüfi ola bilməz və təsadüfi halların da

öz səbəbi və kökü var.

İkinci prinsipə görə, əgər bir şeyin yaranma və baş verməsi üçün səbəb tam yetişibsə, deməli nəticə mütləq olacaqdır. Onun baş verməməsi mümkünsüzdür.

Üçüncü mənşə prinsipinə görə, hər bir nəticə hər hansı bir səbəbdən törənə bilməz – yəni, hər bir nəticənin özünə xas səbəbi var. Deməli, hər bir səbəb də özünə uyğun nəticəyə gətirib çıxarır. Məsələn, yağış buludun boşalmasının nəticəsidir. Hərarətin düşməsi suyun buzlaşmasına səbəb olur – yəni, səbəb-nəticə arasında konkret uyğun münasibət vardır.

2. Vücudun – yəni varlığın başlanğıcı və qaynağı (məbdə) xeyir və kamillikdir. Şaquli münasibət üzrə Allah tərəfindən təbiət aləminə nazil olan varlıq ünsürləri üfüqi münasibətlərdəki kanallara daxil olur, əgər bu kanallar sağlam olmasa, nəticədə pis və şər işlər baş verir. Məsələn, ata və ana dünyaya övlad gətirir. Övladın yaranması ata və ana vasitəsilə gerçəkləşir. Burada üfüqi münasibət vardır və övladın sağlamlığı ata toxumunun və ana bətninin sağlamlığından asılıdır. Burada başqa dəlillər də ola bilər. Yəni, sağlam uşaq üçün təbiət aləmindəki üfüqi münasibətlərdə münasib şərtlər təmin olunmalıdır.

Deməli, aləmdə baş verən şər işlərin çeşidli səbəbi vardır və bu səbəblər və hərəkətlər dünya düzənində olan üfüqi münasibətlərdən doğur. Buradakı şərait müəyyən hadisələrin baş verməsinə səbəb olur. İkincisi, dünya düzəni şərti və süni bir düzən deyil, insan burada hər şeyi öz istəyinə uyğun dəyişə bilməz. Ancaq bəzi şeyləri öz səyi və ağlı ilə dəyişdirə bilər. Məsələn, sağlam bir övlad istəyənlər cəmiyyətin iqtisadi rifahını, mədəniyyət və səhiyyəsini yüksək səviyyəyə qaldıra bilərlər. İnsan təbiətdə olan nemətlərdən səmərəli və zərərsiz istifadə etmək istəyirsə, gərək bir sıra təbii amilləri və səbəbləri yaxşı öyrənə, ziyanverici ünsürlərin və xəstəliklərin qarşısını öz elmi təcrübəsi əsasında ala.

Təbiətdə yaradılan nə varsa, Allah tərəfindən yaxşı və gözəl tərzdə yaradılıb – yəni hikmət və qanunauyğun prinsipilə xəlq olunub. Allah – hər bir varlığın Xaliqi və qaynağı kimi gözəl və mükəmməl bir dünya düzəni yaradıb. Dünyada olan afət və mənfi proseslər qanunauyğun haldır və bunlar dünya düzənində olan təbii və üfüqi münasibətlərin nəticəsidir. Cəmiyyət və insan həyatında olan bir çox mənfi və şər hadisələr isə elə insanların özü tərəfindən törənir. Sərvət və hakimiyyət uğrunda gedən müharibələr, istila və işğalçılıq minlərlə-milyonlarla insanı evsiz-eşiksiz, ac-yalavac qoyur, acgöz diktatorlar ölkənin sərvətlərini talayıb öz xalqını səfalətə düçar edir. İnsanların azğınlığı bəşər tarixində çoxsaylı fəlakətlər törədib və törədir.

Volter kimi mütəfəkkirlər Allahın xilqətindəki gözəl dünya düzəninin mahiyyətini dərk etməmişlər və insanların öz ixtiyarı ilə etdikləri şər əməllərin məsuliyyətini də sanki Allahın üzərinə qoymağa çalışmışlar. Onlar ilahiyyatçıların əksinə olaraq, dünya düzənini şər dolu bir hərəkət bilmiş, eyni zamanda zəlzələ, müharibələr, qıtlıq kimi təbii və qeyri-təbii hadisələri eyni bucaqdan izah etmişlər. Deməli, təbiətdə və insanların rəftarında olan mənfi hadisələr üfüqi münasibətlərdən irəli gəlir. Bir sıra hallarda isə bəşər özü həmin hadisələrin törədilməsində birbaşa məsuliyyət daşıyır. İnsanlar eyni zamanda öz elmi və təcrübi bacarıqları ilə bir çox hadisələrin qabağını ala bilər, sel və zəlzələ kimi bədbəxt fəlakətlərin nəticələrini aradan qaldıra və qabaqcadan zərərini azalda bilər. İnsanlar elmi-texnoloci tərəqqi sayəsində bir çox təbiət hadisələrinin müsbət məcraya yönəlməsinə imkan tapa bilir. Eyni zamanda insanlar öz ictimai və fərdi həyat prosesində məntiqlə davranaraq başqalarına vurulacaq zərərin və bədbəxtliyin qarşısını ala bilər.

3. İnsanların şər adlandırdığı bir çox şeylər nisbi xarakter daşıyır və həqiqi mənaya malik deyil.

Əşya və hadisələrə aid edilən sifətlər iki qismə ayrılır:

1. Həqiqi sifətlər.
2. Nisbi sifətlər.

Hər hansı bir predmetə birbaşa aid edilən, başqa predmetlərin xüsusiyyətini nəzərə almadan sırf həmin predmetlə əlaqələndirilən sifət həqiqi sifət adlanır. Lakin başqa predmetləri və cəhətləri nəzərə alaraq hər hansı bir predmetin nisbi xüsusiyyətini ayırd edən sifət isə nisbi sifət adlanır. Bir predmetin xüsusiyyətinin müqayisə yolu ilə ayırd edilməsi nisbi sifət deməkdir. Əgər müqayisə yoxdursa, həmin sifət həqiqidir. Məsələn, həyat hər bir canlı varlıq kimi həqiqi sifətdir, çünki həyat birbaşa canlı varlığa xas sifətdir və başqa predmetlərə aid edilə bilməz. Lakin böyüklük və kiçiklik, qısalıq və uzunluq, irilik və xırdalıq nisbi sifətlərdir. Yəni, bu sifətlər müqayisə yolu ilə müəyyən edilir. Bir şey ikinci bir predmetlə müqayisədə böyükdürsə, üçüncü bir predmetlə müqayisədə kiçik ola bilər. Dəvəquşu qarışqa ilə müqayisədə böyük, lakin fil ilə müqayisədə kiçikdir.

Dünyada və varlıq aləmində müşahidə edilən bir çox pis və şər xüsusiyyətlər vardır ki, onlar həqiqi deyil, nisbi sifətlərə aid edilir. Məsələn, cəhl və yoxsulluq həqiqi sifətlər sayılır, lakin bəşər öz ixtiyarı ilə onları aradan qaldıra bilər. Ancaq zəlzələ, sel və başqa təbii fəlakətlər qarşısı alınmayan nisbi sifətlərdir. Göydən yağan yağış selə səbəb olarsa və həmin sel evləri dağıdar və insanlara fəlakət gətirərsə, şər sifətə malik olar, lakin yağış quru yerləri suvarar, bitkilərin böyüməsinə və bolluğa səbəb olarsa, xeyir sifətə malik olar. Deməli, bir sıra sifətlər nisbi olaraq bir məqamda şər, başqa məqamda xeyir sifətlər kimi tanınır. Başqa sözlə desək, yağışdan sonrakı yaranan sel bir növ təbiətdə olan bir sıra üfüqi münasibətlərə əsasən dəyərləndirilir, bəziləri üçün xeyir, bəziləri üçün şər sifətlə yadda qalır, birisi üçün yaxşı, başqası üçün pis olur. Deməli, bu sayaq pis sifətlər nisbidir, zəhərin özü ilan üçün

pis deyil, yaxşıdır, lakin ilan başqasını sancarsa, onun üçün pisdir. Lakin ilan zəhəri padzəhr kimi zəhərə qarşı işləndikdə yaxşı sayılır. Əgər ilan zəhəri insan ölümünə səbəb olursa, bu halda həmin insan üçün pis sayılır. Lakin ilan zəhərindən dərman kimi istifadə edildikdə bu sifət dəyişir və yaxşı olur. Deməli, burada söhbət nisbilikdən gedir. Buna görə də filosoflar hər bir varlıq nümunəsinə iki yöndən baxırlar: varlığın öz-özünə mövcud olan vəziyyəti və xüsusiyyəti, varlığın həqiqi cövhəri və substansiyası; varlığın başqa şeylərlə müqayisədə ortaya çıxan sifət və özəlliyi, onun aksidensiya və izafi xüsusiyyətləri.

Allahla bağlı olan cəhətlər varlığın əsası və mahiyyəti hesab olunur və dünyada elə bir varlıq yoxdur ki, özü və öz mahiyyəti üçün pis olsun. Yəni hər bir varlıq özlüyündə özü üçün yaxşı hesab olunur. Əgər varlıq pisdirsə, o başqası üçün pisdir və burada nisbilik münasibəti özünü göstərir. Məsələn, canavar və ya ilanın varlığı özləri üçün pis deyil, ancaq başqaları üçün pis sayıla bilər. Deməli, bir varlığın pisliyi başqaları üçün və başqalarına münasibətdə aşkar olur, yoxsa ki, onun özü üçün pis olması mümkün deyil. Pişik siçan üçün pisdir, özü üçün pis deyil.

Allah-təala varlıqların həqiqi cəhətlərini yaratmışdır, onların məcazi və nisbi tərəfləri ikinci dərəcəli məsələdir. Məcazi varlıq ikinci xilqətdir və onun sifətləri başqaları ilə müqayisədə müəyyən edilir. Xilqətin yaranışı ondan asılı deyil və onun mahiyyətində xeyir sifəti vardır. Deməli, şər işlər şeylərin mahiyyətində deyil, nisbi baxışlarda ifadə olunur. Şər sifətlər aksidensiya və məcazi varlığa aiddir.

4. Öncə dünyanın qanun-qaydaya malik olduğunu söyləmişdik. Burada baş verən və gerçəkləşən hər bir şey qanunauyğun şəkildə və səbəbiyyət-nəticə münasibəti əsasında cərəyan edir. Buraya daha bir məqamı əlavə etmək istəyirik: varlıq aləmi bölünməz vahid bir tamdır. Ona görə burada baş verən hadisələr və yaranan varlıqlar arasında bağlılıq və qarşılıqlı əlaqə mövcudur. Dünyanın

bir hissəsini ondan qoparmaq, başqa bir hissəsini saxlamaq mümkün deyil, yəni, dünyanın bütün tərkib hissələri arasında elə bir ahəngdar əlaqə vardır ki, bunlar bir-birindən ayrı və rabitəsiz halda qala bilməz. Bu münasibət və rabitə qırılarsa, dünya düzənindəki nizam və ahəngdarlıq pozular və ya bir hissənin bu düzəndən ayrılması bütün düzənin məhv olmasına səbəb olar. Bir hissənin yerində saxlanması isə bütün dünya düzəninin saxlanmasına səbəb olar [98].

Bu mövqedən yanaşdıqda, varlıq aləmində xeyir ilə şər bir-birindən ayrılmazdır. Bir nəfər öz canını xilas etmək üçün çətin cərrahiyyə əməliyyatının ağrı-acısını qəbul etməlidir. Bu ağrı-acı şər və pis olsa da, son xeyir xatirinə ona dözmək lazım gəlir.

Hafiz demişkən:

Tikansız gül dərmək olmaz çəməndə
Haqqın nuru saçar zülmət içində.

Belə bir sual ortaya çıxa bilər ki, nə üçün şər xeyirdən ayrılmazdır? Qeyd edək ki, şər bir növ maddi aləmin təzahürlərindən sayılır. Maddi dünya isə bütün kamil sifətlərə malik deyil. Bu aləmdə sırf xeyir sifətlərin olması mümkünsüzdür və sırf xeyir təkcə təbiət aləmindən yüksəkdə dayanan metafizik dünyada gerçəkləşməyə qabildir. İbn Sinanın söylədiyi kimi, dünyada olan şər hadisələr, ümumi xeyir işlər müqabilində azdır. Allah çoxsaylı xeyir hadisələri azacıq şər müqabilində yaradıb, əgər xeyir şərdən üstün olmasaydı, bu özü dünyada ən böyük şər olardı [99].

5. Xeyir və şəri bütöv dünya düzəni səviyyəsində dəyərləndirmək olar – yəni, bu iki məfhum tək-tək hadisələr və fərdi maraq çərçivəsində deyil, ümumi mövqedən yanaşmaqla düzgün anlaşıla bilər. Bir şey fərdi qaydada və ayrıca götürülmüş şəkildə bir nəfər və ya dəstə üçün şər kimi qəbul edilsə də, ümumi dünya düzənində başdan-başa xeyir kimi qəbul edilər. Yağış selə dönüb birisinin

evini viran edərsə, həmin fərd üçün şər hesab edilər, lakin ümumi mənafe və maraq baxımından yağış başdan-başa xeyir və bərəkət qaynağıdır. Göydən yağan yağmur təbii haldır və daha burada seçim imkanı yoxdur və heç də kiminsə evini dağıtmaq niyyəti ilə yağmır. Onun yağması bitki aləminin inkişafına, tarla və çəmənliklərin abadlaşmasına səbəb olur. Dünya düzənindəki gözəllik məsələsini təhlil edərkən insanların fərdi istəklərini meyar kimi götürmək düzgün deyildir. Fərdi baxımdan yanaşdıqda bir şey kimin xoşuna gəlsə xeyir, kimin isə xoşuna gəlməsə şər kimi qiymətləndirilə bilər. İnsan özü də dünyanın bir parçası və xilqətin bir nümunəsidir. Ona görə bütöv və külli dünya düzəni haqqında bəhs edərkən xilqətdəki cüzi varlıqların mövqeyindən deyil, külli aləmin zirvəsindən baxmaq lazımdır.

Dünya düzəni haqqında bəhs edənlərin çoxusu məhz bu incəliyi dərk etmədən, külli münasibəti nəzərə almadan fərdi yöndən çıxış edərək, bu düzənin mənfi olduğunu iddia etmişlər. Mənfi münasibətin kökü burada gizlənmişdir. Onlar külli aləmin düzənindəki ümumi prinsipləri nəzərə almır və cüzi aləmdə olan nöqsanları əsas tutaraq yanlış nəticə çıxarırlar. Bu zümrə səbəb-nəticə münasibətini də həmin baxışla yanlış şəkildə açıqlayır və dünya düzənini mənfi mənada təqdim edir. Dünya düzəninin ümumi və külli səviyyədə gözəl olduğunu dərk edən filosoflar arasında Platon özəlliklə seçilir və o, bu incəliyi çox yaxşı anlayaraq belə söyləyir:

"Bu dünyada bütün şeylər bərabər və eyni ola bilməz. Belə olsaydı dünyada heç bir nizam və düzən qurula bilməz, külli aləmin tərkib hissələri arasında əlaqə yaranmazdı. Bütün dünya sanki canlı bir bədəndir. Ona görə bu bədənin bir üzvünün başqa üzvündən daha əhəmiyyətli və ya az əhəmiyyətli olması barədə mülahizə yürütmək yanlışdır. Əsas diqqət bir məsələyə yönəlməlidir

ki, görəsən bu düzəndə hər bir hissə öz yerindədir, yoxsa yox?

Naqis şeylərin də öz yeri vardır. Bir və ya bir neçə cüzi şey xatirinə külli düzəni tənqid etməyə haqqımız yoxdur. Məsələn, bütöv bir insandan bir tükü və ya barmağı götürüb, Tanrı xilqətinin cilvəsi olan insandan ayrı şəkildə baxa bilmərik" [100].

## İrfan baxımından dünya düzəninin gözəlliyi

Ariflər dünya düzəninin gözəlliyinə inanır və həmin dəlilə uyğun öz fikirlərini əsaslandırırlar. Ariflər filosoflardan fərqli olaraq dünya düzənindəki gözəlliyi yuxarıdan aşağıya doğru bir sistem kimi təsəvvür edirlər. Fail – yəni hərəkəti yaradan gözəl olduğu üçün fel – yəni hərəkət də gözəldir.

Ariflərin dünya düzəninin gözəlliyi barəsindəki düşüncə tərzini daha yaxşı dərk etmək üçün öncə onların xilqət və yaradılış barəsindəki baxışlarına nəzər salaq:

Ariflərin etiqadına görə vücud birdir: onun zahiri və batini vardır: vücudun batini nurdur, varlıq aləmində başqa nə varsa həmin nurun şöləsidir. Varlıq aləmindəki məxluqata xas olan qüdrət, elm, iradə, hərəkət və xüsusiyyətlər bu nurdan doğur. Vücudun zahiri isə həmin batini nurun təcəllisidir. Batini nur özünü zahiri aləmdə müşahidə etmək, öz sifətlərini görmək istəmiş və buna görə təcəlli etmişdir. Gerçəklikdə, aləmdə olan məxluq və fərdi varlıqlar həmin nurun sifətlərinin təzahürüdür. Bu nur batində birdir, çoxlu sifətlərə malik olduğuna görə zahiri aləmdə çoxluq tapır və kəsrət – yəni zahiri aləmdəki çoxlu varlıq nümunələri həmin sifətlərin təzahürüdür.

Əzizəddin Nəsəfi "əl-İnsanül-kamil" əsərində bu barədə belə yazır:

"Bil ki, vücud birdir və başqa heç bir vücud yoxdur. Bu vücudun batini və zahiri vardır; onun batini bir nurdan

ibarətdir. Bu nur aləmin canıdır, aləm bu nurla doludur. Bu nurun intəhası yoxdur və heç nə ilə məhdudlaşmaz. Bu nur sonsuz bir həyat dolu dəryadır. Varlıq aləmindəki məxluqun qüdrət, elm və iradəsi bu nurdandır. Onların təbiət, xasiyyət və hərəkəti də bu nurdandır. Hər şey bu nurun əhatəsindədir. Varlıq aləminin zahiri bu nurun təcəllisidir. Zahiri aləm bu nurun aynası, bu işığın sifətlərinin təzahürüdür. Ey dərviş! Bu nur öz camalını görmək, öz ad, sifət və hərəkətlərini müşahidə etmək istədi və təcəlli etdi. Onun fel sifəti – hərəkət sifəti gerçəkləşdi. Batindən zahirə, Qeybdən şəhadətə, vəhdətdən kəsrətə gəldi. Öz camalını gördü, sifət, ad və hərəkətlərini müşahidə etdi" [101].

Cami bu barədə belə söyləmişdir:

Xəlvətdə ol vücud binişan idi,
Aləm yoxluq küncündə nihan idi.
Vücudun ikilik nişanı olmaz,
"Mən"-"Sən" adlı başqa gümanı olmaz.
Mütləq vücud üçün zahir bilinməz
Öz nuru ilə özündə görünməz.
Qeybdə öz-özünə şahidlik bulmuş,
Hər bir eybdən, sözdən münəzzəh olmuş.
Müqəddəs iqlimdən çıxdı kənarə,
Afaqü-ənfüsdə gəldi zahirə.
Hər aynada əks olundu camalı,
Hər yerdə Qeybdən gəldi əqvalı.

Bir sözlə, ariflərin nəzərində varlıq aləmi Haqqın təcəllisi sayılır və bu aləm Haqqın gizli adlarının zahiri aləmdə təzahürüdür. Allah mütləq kamal və camal qaynağıdır, ona görə Onun zahiri dünyada təzahürü də gözəl və kamil olmalıdır. Əgər varlıq aləmi gözəl olmasa, biz onu Haqqın məzhəri kimi tanıya bilmərik. Haqq ən gözəl vücuddur, xilqət aləmi isə həmin vücudun ad və sifətlərinin təcəllisi olduğu üçün gözəl sayılır. Varlıq düzəninin gözəlliyi ariflər tərəfindən bu məntiqlə izah edilir.

Ariflər dünya düzənindəki gözəlliyi "bundan da gözəl kimsə xəlq edə bilməzdi" deyimi ilə vurğulayırlar.

Məşhur filosof İbn Ərəbi də həmin deyimə əsaslanaraq öz baxışlarını şərh edib. Onun nəzərincə, xilqət aləmi Haqqın təcəllisi olduğu üçün Rəhman sifəti ilə yaradılmışdır və bu aləm mümkün olan dünyalar içərisində ən yaxşı və ən gözəlidir.

Ariflərə görə, insan xilqət aləmindən yüksəkdə dayanan bir üfüqdən dünyaya baxarsa, burada heç bir nöqsan tapa bilməz. Çünki dünyada müşahidə edilən hər bir nöqsan və xəta nisbi xarakter daşıyır, insanların dar baxışlarından irəli gəlir. İnsan kamilliyə və təriqət mürşidinin məqamına yetişsə, naqislik və zəiflikdən heç bir əsər-əlamət görməz.

Hafiz belə söyləyib:

Haqqın sün qələmi xəta yetirməz,
Haqqı görən gözlər xətanı görməz.

Xəta örtən arif gözlərə qurban
Min-min rəng içində bir xəta görməz.

İrfanda dünya düzəninin incəlikləri geniş bir mövzudur və burada yalnız yığcam bir ifadə ilə əsas məqama işarə etməklə kifayətləndik.

## Quran baxımından dünya düzənindəki gözəllik

Quran ayələrində dünya düzəninin gözəlliyi təsdiq olunur. Yəni, Allah hər nə yaratmışsa, gözəl yaradıb. Bu məsələyə Tövratda da işarə var: "Allahın yaratdığı hər bir şey gözəldir və ya O, hər bir şeyi öz vaxtında yaxşı yaradıb" [102].

Dünya düzənindəki gözəlliyi təsdiqləyən ayələri bir neçə dəstəyə ayırmaq olar:

1. Bir dəstə ayələrdə dünyada mövcud olan bütün məxluqun gözəlliyi və yaxşılığı vurğulanır:

Səcdə surəsi, 7-ci ayə:

*O yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı.*

Mumin surəsi, 64-cü ayə:

*Sizin üçün Yeri məskən, Göyü örtük edən, sizə surət verən, surətlərinizi gözəlləşdirən, sizə təmiz (pak) nemətlərdən ruzi verən Allahdır! Bu sizin Rəbbiniz olan Allahdır! Aləmlərin Rəbbi olan Allah nə qədər uca, nə qədər uludur!*

Təğabun surəsi, 3-cü ayə:

*O, Göyləri və Yeri haqq-ədalətlə (yerli-yerində) xəlq etdi, sizə surət verdi və surətlərinizi gözəl yaratdı (insan bütün canlıların ən gözəli və kamil biçimlisi olan məxluqdur). Axır dönüş də Onun (Allahın) hüzurunadır.*

2. Bir sıra ayələrdə isə Allah ən gözəl xəlq edən (Əhsənül-Xaliqin) adlanır – yəni Allahdan gözəl xəlq edən yoxdur. Bundan gözəl düzən ola bilməzdi.

Muminun surəsi, 14-cü ayə:

*Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluq olaraq yaratdıq. Ən gözəl biçimdə xəlq edən (Yaradan) Allah nə qədər uca, bərəkətli və uludur.*

Saffat surəsi, 125-ci ayə:

*Məgər siz ən gözəl Yaradan və Xəlq edən Allahı qoyub Bələ (Bəl adlı bütəmi) ibadət edirsiniz?*

Bu ayələrdə Allah ən gözəl Yaradan kimi xatırlanır, deməli, Allahın yaratdığı məxluq da ən gözəl biçimə malikdir. Varlıq aləmində hər bir şey mükəmməl və gözəl yaradılıb; dünya düzəni Allahın kamalı sayəsində gözəl şəkildə xəlq edilir.

3. Bir dəstə ayələr xilqət aləmini Allahın ayət və ya nişanəsi adlandırır. Bütün varlıq Allahın qüdrət, kamal və camal sifətlərinin ayələridir; bu ayələr dünya düzənindəki gözəlliyin qaynağını Allahda görür. Ayə nişanə deməkdir

və Allahın kamalı Onun nişanələrində də öz əksini tapır. Allahın xilqətində heç bir nöqsan tapmaq olmaz. Dünya düzəni gözəl biçimli olmasaydı, Əhsənül-Xaliqin adlanan Allahın ayə və nişanəsi kimi tanınmazdı.

Ali-İmran surəsi, 190-cı ayə:

*Həqiqətən, Göylərin və Yerin yaradılması, gecə və gündüzün bir-birini əvəz etməsi ağıl sahibləri üçün (Allahın qüdrət və kamalını sübut edən) qəti dəlillərdir.*

Öncə, dünya düzənindəki nizam-intizam və qanunauyğunluqdan bəhs etmişdik və həmin nizam xilqətin gözəlliyini təsdiq edir. Dünyanın Allahın ayəsi kimi tanınması barədə də əvvəlki bölmələrdə söhbət açmışdıq və ona görə həmin məsələləri təkrar etmədən sözümüzü bitiririk.

## Quranda şər məsələsi

Qurani-kərimdə bir çox hallarda şər, onun əlamət və nişanələri barədə bəhs edilmişdir. Şər müxtəlif ad və ifadələrlə qeyd olunur: şər, sui-istifadə, fəsad. Bəzi yerlərdə xeyir və şər əvəzinə "səra" və "zəra" istilahları işlənmişdir. Yəni Quran ayələrində şər məsələsi həm birbaşa "şər" məfhumu ilə, həm də şər mənası daşıyan başqa sözlər verilmişdir. Bir çox əməl, iş və

rəftarlar vardır ki, onlar şər cərgəsinə aiddir.

Fələq surəsi, 1-5-ci ayələr:

*(Ya Peyğəmbər!) De ki: "Pənah aparıram sübhün Rəbbinə!*

*Yaratdıqlarının (insan, cin və heyvanların) şərindən;*

*Zülmətə bürünməkdə olan gecənin (və ya batan Ayın, ziyası sönən ulduzların) şərindən;*

*(Ovsun oxuyub) düyünlərə üfürən (yaxud cadu edib iplərə düyün vuran) qadınların şərindən;*

*Bir də paxıllığı tutanda, paxılın şərindən!"*

Bu ayələrdə bir neçə qism şərdən bəhs edilmişdir: birincisi – mütləq şər anlamı; ikincisi – gecə qaranlığından doğan şər bəzi hiyləgərlərin öz məkrli işlərini görməsinə imkan verir; üçüncüsü – sehrbazların şəri; dördüncüsü – paxılların şəri vurğulanır və bütün bu şər rəftarlar başqalarına əngəl törədir.

Xilqətdəki bütün şər cəhətlər dünya aləminə xasdır, Allahdan heç vaxt şər gəlməz. Xilqətdə olan şəri Allaha aid etmək olmaz.

Hər bir xilqət nümunəsində şər xüsusiyyətlər ola bilər, bunlar maddi aləmin özündən doğan cəhətlərdir. Başqa ayədə isə vurğulanır ki, xeyir və şər nisbi anlamdır, bəşəri yaxalayan bir çox şeylər mahiyyətcə xeyir ola bilər. Bəzən də bəşərin xeyir kimi təsəvvür etdiyi şeylər şər kimi dəyərləndirilə bilər. Bəşər bu halları bir-birindən ayıra bilmir. Bir çox xeyir və şər cəhətlər bəşərin fərdi baxışından asılıdır.

Bəqərə surəsi, 216-cı ayə:

*(Allahın düşmənlərinə qarşı) vuruşmaq (cihad) xoşunuza gəlmədiyi halda, sizə vacib edildi. Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz.*

Başqa bir ayəyə görə, xeyir və şər insanı sınamaq üçün iki vasitədir. İnsanlar xeyir və şər kimi təsəvvür etdikləri məsələlər vasitəsilə sınağa çəkilir və yalnız öz nəfsi marağına uyanlar həqiqi xeyiri bilməzlər. Onlar bu sınaqdan keçməsələr öz vücudlarını misdən qızıla çevirə bilməzlər. Bu yöndə aşağıdakı bir ayəyə diqqət yetirək.

Ənbiya surəsi, 35-ci ayə:

*Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır. (Dözüb-dözməyəcəyinizi, şükr edəcəyinizi, yaxud nankor olacağınızı) yoxlamaq məqsədilə Biz sizi xeyir və şərlə (sağlamlıq, var-dövlət, cah-calal və xəstəlik, yoxsulluq və ehtiyacla) sınağa çəkərik. Və siz (qiyamət günü*

*əməllərinizin əvəzini almaq üçün) ancaq Bizim hüzurumuza qayıdacaqsınız!*

Bir sıra ayələrdə insanın bəzi çətinliklər qarşısında zəifliyi yada salınır və insan bunları şər kimi tanıyır. Adi insan bu sayaq şərə taqət gətirmir və ümidsizliyə düçar olur.

İsra surəsi, 83-84-cü ayələr:

*İnsana bir nemət (sağlamlıq, var-dövlət) verdiyimiz zaman (Bizdən üz çevirib) uzaq gəzər. Ona bir pislik üz verdikdə isə məyus gəzər.*

*De ki: "Hər kəs öz qabiliyyətinə (xislətinə) görə iş görər. Rəbbiniz kimin doğru yolda olduğunu daha yaxşı bilir.*

Bəzi ayələr isə xeyir və yaxşı işlərin Allaha mənsub olduğunu bildirir – yəni, yaxşı işlər Allah tərəfindən, pis işlər isə insanın özü tərəfindəndir.

Nisa surəsi, 79-cu ayə:

*(Ey insan!) Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə yetişən hər bir pislik isə özündəndir (öz nəfsindəndir) dir. (Ya Məhəmməd!) Biz səni insanlara peyğəmbər göndərdik. Allahın buna şahid olması (sənə) kifayət edər.*

Şura surəsi, 30-cu ayə:

*Sənə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır.*

Bir sıra ayələrdə isə bütün işlər – xeyir və şər Allah tərəfindən sınaq kimi verilir. Yaxşı və pis nə varsa Allah tərəfindəndir. Hidayət və izzət də, zəlillik və yoldan çıxmaq da Allah tərəfindən insanları sınamaq üçündür. Bu sayaq məsələlərdə çoxlu incəliklər var və onların izahı dərin əxlaqi-dini və fəlsəfi açıqlamalara möhtacdır. Bu mənada işlənən iki ayəni verməklə fikrimizi yekunlaşdıra bilərik:

Nisa surəsi, 78-ci ayə:

*Harada olursunuz-olun, hətta uca və möhkəm qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq. (Ya Məhəmməd!) Onlara (yəhudilər və münafiqlərə) bir xeyir*

*yetişdikdə: "Bu Allahdandır" – deyərlər, bir pislik üz verdikdə isə: "Bu səndəndir" – söylərlər. Onlara de ki: "Hamısı Allah tərəfindəndir" (əməlinizə görə verilir). Bu camaata nə olub ki, az qala söz də anlamır!*

Ali-İmran surəsi, 26-cı ayə:

*(Ya Məhəmməd!) De ki: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsdən alarsan, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi də alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!*

Yaxşılıqlar və pisliklər mahiyyətcə fərqlənir və pisliklər Allaha aid edilməz. Öncə işarə etdiyimiz kimi, pis və şər sifətlər insanların özündəndir. Xeyir işlər isə mahiyyətcə Allahdandır. Şər xeyiri inkar edər, xeyir isə şəri rədd edər. Xeyir və şər zahiri aləmdə və xilqətdə aşkar olur. Allahın substansiyası baxımından Onun bütün mahiyyəti xeyir qaynağıdır.

## BİBLİOQRAFİK QEYDLƏR

1. Peydayeş və mərgi-xurşid. s. 204.
2. Nəhcül-bəlağə. Xütbə 42.
3. Nəhcül-bəlağə. Kəlam 29.
4. Afərineşi-cəhan əz didqahi-Qurani-kərim. s. 25-26.
5. Həyat və hədəfdari. s. 262-263.
6. Fəlsəfeyi-afərineş. s. 6.

7. Şərhi-qürərül-fəraid (Şərhi-mənzumeyi-hikmət). s. 24.
8. Təfsir və nəqd və təhlili-Məsnəvi. c. 5. s. 278.
9. Üsuli-kafi. c. 1. s. 206.
10. Əl-Mizan. c. 20. s. 40.
11. Üsuli-kafi. c. 1. s. 205.
12. Əl-Mizan. c. 40. s. 185.
13. İsbati-vücudi-xoda. s. 21-22.
14. Şərhi-füsusi-Xarəzmi. s. 526.
15. Təfsiri-nümunə. c. 12. s. 138.
16. Məzamir. Davud. 148/4.
17. Müfrədati-Rağib. s. 6-7.
18. Dairətül-fəraid. c. 2. s. 207-208.
19. Məbaniye-risaləti-ənbiya. Quran, "ecaz" bölməsi.
20. Zendeginameyi-Eynşteyn. s. 535.
21. Se məqalə. s. 41-42.
22. Əl-İnsanül-kamil. s. 142.
23. Təfəkküri-məzhəbi. s. 64.
24. Tərcümə və təfsiri-Nəhcül-bəlağə. c. 2. s. 76.
25. Əsrari-ayat. s. 145.
26. Məaniyi-əxbar. s. 29.
27. Təfsir və nəqd və təhlili-Məsnəvi. c. 4. s. 397.
28. Tərcümə və təfsiri-Nəhcül-bəlağə. c. 2. s. 76.
29. Molla Sədra. Əsfar. c. 1. s. 86-87.
30. Tərcümeyi-məfatihül-qeyb. s. 781-784.
31. Şərhi-füsusi-Xarəzmi. s. 76-77.
32. İnsan əz ağaz ta əncam. s. 14.
33. Rəsaili-Tovhidi. s. 148-149.
34. Şərhi-üsuli-kafi. c. 3. s. 502-504.
35. Təfsiri-bürhan. s. 248.
36. Məcməül-bəyan. c. 1 s. 362.
37. Həmin qaynaq. s. 361.
38. Yenə orada.
39. Təfsirül-mizan. c. 1. s. 138.
40. Rəsaili-Tovhidi. s. 168.

41. Kitabi-əvvəl. Padşahan. 122-ci bölmə, 19-cu qism.
42. Kitabi-əşie. 16-cı bölmə, 1-4-cü qism.
43. Afərineş dər ədyan. s. 106, 110.
44. Əl-Canibül-qərbi. s. 153.
45. Təfsirül-mizan. c. 15. s. 207.
46. Təfsiri-nümunə. c. 6. s. 204.
47. Füsusül-hikəm. Fəssi-Məhəmmədi, Fəssi-İdrisi.
48. Şərhi-Füsus. Xarəzmi. s. 799-800.
49. Rəsaili-İbn Ərəbi. s. 123.
50. Şərhi-üsuli-kafi. c. 3. s. 581-583.
51. Həmin qaynaq. c. 3. s. 578.
52. Yenə orada. s. 589.
53. Yenə orada. s. 542-543.
54. Yenə orada. s. 595.
55. Təfsiri-Qumi. c. 2. s. 414-415.
56. Məanil-əxbar. s. 30.
57. Molla Sədra.
58. Əsrari-ayat. s. 45.
59. Yenə orada. s. 99.
60. Yenə orada. s. 96.
61. Şərhi-füsus. Xarəzmi. s. 110.
62. Məadşenasi. c. 7. s. 34, 45.
63. Yenə orada.
64. Əsrari-ayat. s. 130.
65. Əl-Mizan. c. 12. s. 376.
66. Təfsiri-Qumi. c. 2. s. 26; Nurüs-səqəleyn. c. 5. s. 638; Təfsiri-bürhan. c. 4. s. 481.
67. Əl-Mizan. c. 12. s. 376.
68. Bəsairüd-dərəcat. s. 447.
69. Biharül-ənvar. c. 56. s. 176; Risaili-Tovhidi. s. 185.
70. Biharül-ənvar. c. 56. s. 184.
71. Yenə orada.
72. Nəhcül-bəlağə. Xütbə 3.
73. Rəsaili-Tovhidi. s. 191-193.
74. Tərcümeyi-Məfatihül-qeyb. s. 621-622.

75. Tovhid. 8-ci bölmə. s. 116.
76. Rəsaili-Tovhidi. s. 197-199.
77. Yenə orada. s. 137.
78. Avesta. Yəsna. 5. b. 4. s. 145.
79. Yenə orada. Yəsna. b. Həşən. s. 138.
80. Yenə orada. Yəsna. 5. b. 41. s. 147.
81. Yenə orada. Yəsna. 48. b. 6.
82. Yenə orada. B. Həşən. s. 146.
83. Yenə orada. s. 141.
84. Yenə orada. s. 143.
85. Yenə orada. Yəsna. 45. b. 4.
86. Yenə orada. Zadsepərm. s. 35.
87. Yenə orada. B. Həşən. s. 146.
88. Yenə orada. s. 150.
89. Yenə orada.
90. Yenə orada.
91. Yenə orada. s. 151.
92. Qamusi- Quran. c. 1. s. 227.
93. Təfsiri-nümunə. c. 6. s. 110; Məcməul-bəyan. c. 4. s. 403.
94. Timaus. s. 34.
95. Fəlsəfeyi-Epikur. s. 62.
96. Fəlsəfeyi-rəvvaqi. s. 100-101.
97. Rahi-ayin. s. 14.
98. Ədli-ilahi. s. 162.
99. Şəfa. s. 538-544. Ət-Tənbihat vəl-işarat (İlahiyyat bölməsi). s. 160-165.
100. Əflatun. s. 116-117.
101. Əl-İnsanül-kamil. s. 249-250.
102. Səfəri-peydayeş. 1-ci bölmə, 31-ci qism.

## MÜNDƏRİCAT

**ÖN SÖZ.......................................................................3**

**BİRİNCİ FƏSİL**

Dünyanın yaradılışı və hədəfi ............................................5
Varlıq aləminin məqsədyönlü olması ...............................11
Yaradılışın hədəfi.............................................................18
Xilqətin son qayəsi insandır.............................................24


**İKİNCİ FƏSİL**

Varlıq aləminin yaranma mərhələləri və onların özəllikləri.
Varlıq aləminin yaranma mərhələləri ................................28
Varlıqların ahəngdar düzənə salınması və təqdiri ...........35
Varlıqların hərəkəti .........................................................41
Varlığın hidayət olunması ................................................45
Varlıq aləminin elmi və idrakı...........................................50
Varlıq aləminin səcdəsi....................................................55
Varlıq aləminin həmd və təsbihi.......................................59
Varlıq aləminin əcəli ........................................................64
Varlıq aləminin həşri........................................................67


**ÜÇÜNCÜ FƏSİL**:

Varlıq aləminin ümumi xüsusiyyətləri...............................70
Varlıq aləminin nizamlı düzəni.........................................70
Varlıq aləminin qanunauyğunluğu ...................................74
Varlıq aləminin vəhdəti ....................................................83
Varlıq aləmi ayə kimi .......................................................85
Varlıq aləminin gözəlliyi ...................................................89
Varlıq aləminin ikili cəhəti ................................................94
Varlıq aləminin əzəməti və sonu.....................................99


**DÖRDÜNCÜ FƏSİL**

Allahın varlıq aləmi ilə əlaqəsi .......................................105
Xaliq və Yaradan baxımından münasibəti .....................105
İşıq baxımından münasibəti...........................................106
Qəyyumluq münasibəti ..................................................107
Varlıq ilə birgəlik münasibəti..........................................112

Malikiyyət və hakimiyyət münasibəti..............................113
Hifzetmə və əhatəlilik münasibəti ..................................115
Rübubiyyət və məbudiyyət münasibəti ..........................118
Mələkuti münasibət.......................................................119
Ehtiyacsızlıq münasibəti ...............................................121

**BEŞİNCİ FƏSİL**
Varlıq aləminin mərtəbələri
Filosoflar və ariflərin varlıq aləminin mərtəbələri barədə baxışları............................................................122
Quran baxımından varlıq aləminin mərtəbələri..............127
Kürsü və Ərş..................................................................132
Lövh və qələm ..............................................................145

**ALTINCI FƏSİL**
Varlıq aləmindəki özəl məxluqlar...................................152
Ruh.................................................................................152
Mələklər.........................................................................159
Cin .................................................................................187
Şeytan ...........................................................................197

**YEDDİNCİ FƏSİL**
Varlıq aləminin düzənindəki gözəllik.
Ümumi baxışlar.............................................................214
Fəlsəfə baxımından dünya düzəninin gözəlliyi ..............218
İrfan baxımından dünya düzəninin gözəlliyi...................226

| | |
|---|---|
| Bədii redaktor: | Ceyhun Cəfərov |
| Texniki redaktor: | Kamran Nəcəfov |
| Korrektor: | Elman Fərzəliyev |
| Operator, dizayner: | Polad Zərbəliyev |

*Yığılmağa verilib: 05.04.03, Qeydiyyat tarixi: 17.04.03, Qeydiyyat nömrəsi: DK-282/d, Capa imzalanıb: 08.05.03, Kağız formatı 60x84 $^1/_{16}$, Şərti çap vərəqi: 14,8, Tiraj: 300. Qiyməti razılaşma yolu ilə.*
*Ofset çapı, kitab «Qələm» poliqrafiya müəssisəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.*
*Ünvan: Hüsü Hacıyev küçəsi, 1.*
*Telefon: (50) 3525206, 3525255*

**Kitabın çap və s. hüquqları qorunur.**